DÜNYA ƏDƏBİYYATI

RƏŞAD NURİ
GÜNTƏKİN



# DODAQDAN QƏLBƏ

RƏŞAD NURİ GÜNTƏKİN

# DODAQDAN QƏLBƏ

M.F.Axundov adına
Az... ...can Milli
...xanası

"ŞƏRQ-QƏRB"
BAKI-2006

*Bu kitab "Rəşad Nuri Güntəkin. Dodaqdan qəlbə. Damğa"*
*(Bakı, Azərbaycan Ensiklopediyasının Baş redaksiyası, 1989)*
*nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Nəşrə hazırlayanı: **Məryəm Axundova**

**894.353-dc21**
**AZE**
**Rəşad Nuri Güntəkin. Dodaqdan qəlbə.** Bakı, "Şərq-Qərb", 2006, 280 səh.

Görkəmli türk yazıçısı Rəşad Nuri Güntəkinin əsərləri dünyanın müxtəlif dillərinə tərcümə olunaraq böyük oxucu rəğbəti qazanmışdır.

"Dodaqdan qəlbə" romanı lirik-realist üslubda yazılsa da, müəllif bu əsərdə dövrünün ictimai problemlərinə də biganə qalmamışdır. Əsərdə öz məhəbbəti naminə əzablara düçar olan Lamiənin məşəqqətli həyatı və məxsus olduğu cəmiyyətin ziddiyyətləri real bədii təsvirlərlə verilmişdir.

**ISBN10 9952-34-007-9**
**ISBN13 978-9952-34-007-5**

© "ŞƏRQ-QƏRB", 2006

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## ÖN SÖZ

Reşad Nuri Guntəkin cəmiyyətin məngənəsində sıxılan, öz təmizliyi, ləyaqəti ilə yaşayan, mübarizə aparan, zalımların təzyiqləri ilə müxtəlif zülmlərə düçar olan adamların realist, canlı surətlərini ustalıqla yaradan sənətkarlardandır Onun qəhrəmanları çox zaman zərif və sadəlövh, dünyaya öz hiss və duyğularının gözu ilə baxan insanlardır.

Rəşad Nurini məhəbbət fonunda psixoloji süjetlər qurduğuna görə lirik-realist yazıçı hesab edirlər Doğrudan da, yazıçının "Çalıquşu", "Dodaqdan qəlbə", "Damğa", "Acımaq", "Yaşıl gecə", "Xəzan" və başqa romanlarında elə kövrək, lirik düşüncələr təsvir olunmuşdur ki, bu duyğuların təsiri altında oxucu özünü həmin qəhrəmanların yanında hiss edir, onların ürək çırpıntıları oxucu qəlbini riqqətə gətirir Lakin yazıçı yalnız lirik hissləri, duyğuları qələmə almaqla kifayətlənmir, qəhrəmanını daha böyük sınaqlardan, sarsıntılar içərisindən keçirir

Yazıçı əsərlərində, demək olar ki, öz zəmanəsinin və cəmiyyətinin bütün təbəqələrini təsvir etmiş, yaxud ona münasibətini bildirmişdir. O, yeri gəldikcə yüksək dairələrin, aristokrat mühitinin təsvirini verir, bəzən də qəhrəmanları ilə birlikdə "həyatın dibi"nə enib cəmiyyətin "alt qatını" nəzərdən keçirir. Onun əsərlərində hakimlərin də, məhkumların da, zülmkarların da, zülm altında inləyənlərin də aydın portretləri canlandırılır. O, sanki qəhrəmanları ilə birlikdə cəmiyyətin bütün qütblərini dolaşır, gah şəhərə gəlir, gah da ağır güzəran keçirən kəndli mühitinə gedir, həyatın "görünməz" tərəflərinə güzgü tutur.

Rəşad Nuri 1889-cu ildə İstanbulda hərbi həkim ailəsində anadan olmuş, uşaqlıq illərini Anadolu, Çanaqqala və İzmirdə keçirmişdir. İzmirdə fransızca orta təhsil almış, İstanbul Universitetinin ədəbiyyat fakültəsini bitirmişdir. Sonra isə müəllim və məktəb müdiri olmuş, bir neçə il sənət dostları ilə birlikdə satirik jurnal nəşr etmiş, 1927-ci ildə maarif nazirliyində müfəttiş vəzifəsinə təyin edilmişdir. On iki illik müfəttişlik dövründə kənd və şəhərləri dolaşmış, xalq həyatını yaxından öyrənmişdir.

O dövrdə görkəmli yazıçı kimi şöhrət qazanan Rəşad Nuri 1939-cu ildə Türkiyə Böyük Millət Məclisinə deputat seçilmişdir. 1947-ci ildə İstanbulda çıxan "Məmləkət" qəzetinin baş redaktoru işləmiş, daha sonra Parisdə Birləşmiş Millətlər Təşkilatı nəzdində fəaliyyət göstərən mədəni cəmiyyətdə Türkiyənin nümayəndəsi olmuşdur Ömrünün son illərində təzədən maarif nazirliyinə qayıtmış, az sonra təqaüdə çıxmışdır. Rəşad Nuri Güntəkin 1956-cı il dekabrın 7-də Londonda müalicədə olarkən vəfat etmiş və İstanbulda dəfn edilmişdir.



Yaradıcılıqla Birinci dünya müharibəsi illərindən məşğul olmağa başlayan Rəşad Nuri ilk məqalələrini fransızca nəşr olunan jurnalda dərc etdirmişdir. "Türk hekayəsinin indi vəziyyəti" adlı silsilə məqalələr çap etdirsə də, Rəşad Nuri o dövrdə daha çox teatr tənqidçisi kimi tanınırdı. Sonralar yazıçı teatr üçün də əsərlər yazmış və bu əsərlər tamaşaya qoyulmuşdur.

Rəşad Nuri yaradıcılığının ilkin mərhələsində hekayə ustası kimi də tanınmışdır. Yazıçının ilk nəsr əsəri 1917-ci ildə yazdığı "Köhnə dost" hekayəsidir. Sonra yazıçı "Xarabaların çiçəyi" (1918) romanını yazmış, 1923-30-cu illərdə bir-birinin ardınca bir neçə hekayələr kitabı nəşr etdirmişdir.

Rəşad Nurinin hekayələrinin əsas mövzusunu ailə-məişət məsələləri, uşaq tərbiyəsi, qadın hüquqsuzluğu, bir qrup adamların varlanmaq, yüksək vəzifə və rütbə əldə etmək cəhdləri, cahil türk ailələrinin köhnə adət və ənənələrinin tənqidi kimi mühüm məsələlər təşkil edir.

Kövrək lirizmi ilə seçilən Rəşad Nuri, eyni zamanda ciddi satirik idi O, zəmanənin sərt üzünü göstərir, ağır faciələrə səbəb olan qanun-qaydaları, bürokratçılığı kəskin tənqid edirdi.

Çoxlu hekayə, pyes və məqalələr yazsa da, Rəşad Nuri daha çox romançı kimi məşhurdur. 1921-ci ildə "Gizli əl", bir il sonra isə "Çalıquşu" romanını nəşr etdirən yazıçı qısa müddət ərzində dünyada tanınmağa başlayırdı. "Çalıquşu" ona böyük şöhrət qazandırdı. Yazıçı daha həvəslə yazıb-yaratmağa başladı. Bir-birinin ardınca "Damğa" (1924), "Dodaqdan qəlbə" (1925), "Axşam günəşi" (1926), "Bir qadın düşməni" (1927), "Acımaq", "Yaşıl gecə" (1928), "Xəzan" (1930), "Zoğal çubuqları" (1932), "Göy üzü" (1935), "Köhnə xəstəlik" (1938), "Ateş gecəsi" (1942), "Dəyirman" (1944) və s kimi maraqlı romanlar yazdı. Rəşad Nurinin əsərləri dünyanın bir çox dillərinə tərcümə olunmuş, təkrar-təkrar nəşr olunmuşdur. Azərbaycan oxucuları Rəşad Nurinin əsərlərini böyük maraq və həvəslə oxuyurlar. Əsərlərinin az bir qisminin Azərbaycan dilinə tərcümə olunmasına baxmayaraq, oxucular onu yaxşı tanıyır və əsərlərinin nəşrini səbirsizliklə gözləyirlər. Ona görə də yazıçının ən məşhur əsəri sayılan "Çalıquşu" romanı Azərbaycanda bir neçə dəfə, böyük tirajla nəşr olunmuşdur Burada sadə, təmiz qəlbli, xalqının maariflənməsinə çalışan şəhərli qız Fəridənin obrazı ətrafında bürokratik dövlət idarələri, onların süründürməçiliyi, kənd yerlərindəki avamlıq yuksək ustalıqla, böyük sənətkarlıqla təsvir edilmişdir Yazıçı, sanki qəsdən qəhrəmanını yurddan-yurda, kənddən-kəndə aparır, qəlbi Vətən məhəbbəti ilə döyünən, doğma xalqının balalarına dərs demək arzusu ilə dolu olan Fəridə nə qədər ictimai bəlalar görür, nə qədər faciələrin şahidi olur.

Rəşad Nurinin "Damğa" əsərində böyük məhəbbətlə sevdiyi Vamiənin rüsvay olacağından qorxaraq özünu oğru kimi qələmə verən və o dövrün qanunları ilə damğalanan İffət bəyin məhəbbəti "ləkəli", yəni "damğalı"

olduğu üçün rədd olunur. Dünyadan istəyi yalnız bir ev, bir külfət olan və ömrü boyu bu külfət üçün çalışmağı özünə bir səadət sayan İffət bəyin faciəli həyatı başlanır.

Varlı zadəgan oğlu olan İffət bəy də sadədır, təmizürəklidır, adamlara tez mehr salandır. Ona görə də İffətlə onun ətrafındakı cəmiyyət adamları arasında böyük fərq var. Onlar bu sadə adama nə qədər inansalar da, onun insanlığını görsələr də, "damğalı" adamı qəbul etmirlər. O, mübariz olmadığına görə həmişə "döyülür", ac-susuz qalır, lakin pis yol tutmağı özünə sığışdırmır, öz ləyaqət səddini aşıb keçməyi bacarmır, başqaları kimi namərd, pis adam ola bilmir.

İffət bəyi də müəllif yaşadığı cəmiyyətdə gəzdirir, onu müxtəlif yerlərə aparır. Lakin İffət bəy kimi daxilən təmiz olan adamları bu cəmiyyət qəbul eləmir.

Rəşad Nurinin romanlarında belə sadə adamların faciəsi ustalıqla təsvir olunub. "Gizli əl" romanında Şərəf, "Acımaq" romanında Mürşüd, "Xəzan" romanında Əli Rza bəy və başqaları bu cür qəhrəmanlardandırlar.

Rəşad Nuri "Yaşıl gecə" və "Köhnə xəstəlık" romanlarında xalqın milli azadlıq mübarizəsi mövzusuna da toxunmuş və dar ayaqda xalqının taleyinə biganəlik göstərənlərin riyakar, satqın hərəkətlərini ifşa etmişdir.

"Dodaqdan qəlbə" romanında lirik duyğular sanki kövrək şair qələmindən çıxıb. Əsər lirik-psixoloji əsasda işlənib. Romanda istedadlı bəstəkar Kənanın kamanından qopan həzin musiqiyə vurulan, öz həyatını bu gözəl musiqinin doğurduğu təmiz hisslər əsasında qurmaq istəyən Lamiə ülvi məhəbbətinin qurbanı olur. Yaşca özündən çox böyük olan bəstəkara olan məhəbbəti Lamiəni həyatın ağır qütblərinə, çətin sınaqlara salsa da, o, öz saflığı ilə həmişə ucalır, oxucu qəlbində məhəbbət qazanır. Kənandan rədd cavabı alsa da, Lamiə öz ülvi məhəbbətinə axıracan sadiq qalır. Sadə, məsum qız nə qədər təhqirlərə, hücumlara məruz qalır, nə qədər ruhı əzablar çəkir. Lakın görür kı, dünyada təkcə pis adamlar deyil, yaxşı adamlar da, ülviliyi, təmizliyi qiymətləndirənlər də var. Məhz ona görə də Lamiə ona təcavüz etmək istəyən qohumu Rasihı vurub öldürəndə də bəraət alır. Lamiə ilə yanaşı oxucu Kənan və onun kimi iradəsizlərin mənəvi şıkəstliyının də şahidi olur. Həyat Lamiəni öz qovğalarından keçirə-keçirə oyadır, mətinləşdirir, ona elə qüvvə verir kı, axırda ona evlənmək təklif edən Kənanı rədd edir.

"Dodaqdan qəlbə" təkcə şirin məhəbbət romanı deyil, burada lirik məhəbbət fonunda cəmiyyət və onun müxtəlif zümrələri, bu zümrələrə məxsus olan adamlar çox aydın görünürlər.

***İsmayıl Vəliyev***





# DODAQDAN QƏLBƏ

# BİRİNCİ HİSSƏ

## I

Ev sahibi yemək otağının eyvana açılan qapısından qonağını səslədi:

– Paşa, sən bu gözəl ay işığında yuxulamaq fikrindəsən? Bircə dəqiqəliyə bura zəhmət çək...

Yolun yorğunluğu canından hələ çıxmamış, bir az da yeməkdən ağırlaşmış şahzadə Vəfiq paşa geniş bir kresloda yayxanıb qalmışdı. O, tənbəl-tənbəl gözlərini açaraq, yorğun bir halda:

– İnsafın olsun, – dedi, – yəqin ki, məni təzədən bir də yedirtmək fikrində deyilsən!..

Münir bəy yavaş-yavaş ona tərəf yeriyərək:

– Bu səfərki bir başqa cür ziyafətdir, – dedi. – İndiki cavanların dili ilə desək "gözlər üçün bədii bir ziyafətdir".

– Yox, heç ona da taqətim yoxdur.

– Əziz qonaqlarım üçün bağımdakı müxtəlif üzüm növlərindən, xüsusilə öz yetişdirdiyim məhsullardan çərəz süfrəsi açmışam.

– Bircə gilə də yeyə bilmərəm; partlaram.

– Ərz etdim ki, paşam, mənim süfrəm mədə və damaqdan daha çox gözləri oxşamaq üçündür.

Münir bəy köhnə dostundan əl çəkmir, onu durmağa məcbur etmək üçün kreslonu yavaş-yavaş yırğalayırdı.

Vəfiq paşa taqətsiz halda yerindən qalxdı.

Evi dörd tərəfdən əhatə eləyən eyvanın üstü üzüm çardağı ilə örtülmüşdü. Asma budaqların arasından düşən ay işığında yarpaqların və salxımların böyümüş kölgələri daş döşəməyə nağıllardakı saraylara məxsus naxışlar salmışdı.

Vəfiq paşa yemək otağına girəndə birdən dirçəldi (o, həyəcanlananda fransızca, bir işdən və ya siyasətdən söhbət düşəndə ingiliscə danışardı). Heyrətlə əllərini qaldırdı; kiçik, qısa vücudunu ucaltmaq istəyirmiş kimi pəncələrinin ucuna qalxaraq fransızca:

– Əzizim, bura pərilər aləmi, Min bir gecə saraylarının xəzinəsidir ki... – dedi.

Yemək masasının üstünə başdan-başa üzüm dolu büllur nimçələr düzülmüşdü. Qırmızı, bənövşəyi, sarı, yaşıl salxımlar asma lampanın donuq işığında ləl-cavahir kimi parıldayırdı. Vəfiq paşa sözünə türkcə davam etdi:

– Yəqin ki, Cəm sarayının məşhur süfrəsi də buna bənzər bir şeymiş. Haqlısanmış, Münir. Sən bu çərəzlərdən əməlli-başlı bir incəsənət əsəri düzəltmisən.

Münir bəy əsərindən razı bir sənətkar qururu ilə əllərini ovuşdurdu.

– Elədir ki, var, – dedi və getdikcə artan bir hərarətlə sözünə davam etdi. – Hər il bu vaxt belə canlı bir muzey düzəldirəm. Bunu sənə də göstərə bildiyim üçün çox şadam. Muzeyimin qiymətli cəhəti bilirsənmi nədədir? Bu gördüyün üzüm növlərinin çoxunu özüm yetişdirmişəm. Dünya ilə əlaqəmi kəsib bağlarıma çəkildikdən sonra meylimi üzümçülüyə salmışam. Bu bağlara yaxşı baxsam, İzmirin ən dövlətli adamı ola bilərəm. Ancaq bilirsən ki, mən dünyada kefi qazancdan üstün tuturam. Bağlarıma bir tacirdən daha çox sənətkar kimi qulluq edirəm. Oğulsuz-uşaqsız həyatımı bütünlüklə yaxşı üzüm növləri yetişdirməyə vermişəm. Yeni rəngdə, yeni dadı olan bir üzüm növü yetişdirəndə, elə bil dünyanı mənə bağışlayırlar.

Vəfiq paşa ucaboylu dostunun çiyinlərini oxşamaq üçün qollarını geniş açaraq yuxarı qaldırdı·

– Bu da adətən bir növ xəstəlikdır ki, adına gərək ki, istafilomani deyilir... Elə deyilmi? Əslində üzümçülüklə incəsənət arasındakı münasibəti inkar etmək olmaz. Təsəvvür et ki, Şərqdə şeir şərabdan, yeni üzümdən, yunanlarda ədəbiyyat səhnə ayinlərindən, latınlarda...

Vəfiq paşa çoxdan özünü incəsənət nəzəriyyəçisi sayır, fürsət tapdıqca ətrafındakılara zorla mənasız və qatma-qarışıq nəzəriyyələr dinlədirdi Dostunun köhnə peşəsindən hələ də əl çəkmədiyini hiss edən Münir bəy, "təhlükə"nin qarşısını almaq üçün Vəfiq paşanın dodaqlarına bir salxım üzüm uzatdı:

– "Ləbinigar"ımdan mütləq bir neçə salxım yeməlisiniz. Bunda bir gilas dadı var. Bunları nahar vaxtı çox bəyəndiyiniz, "nurkar" növü ilə o qarşıdakı nimçədə parıltı salan "tacizər" üzümünü calaq etməklə almışam. Şəkil və rəng etibarilə analarına və atalarına heç bir oxşarı yoxdur, elə deyilmi? Təbiətin anlaşılmaz qanunları var, əzizim. İnsanlarda olsa, pisliyə yozarıq, "mütləq burada şeytan barmağı, qadın xəyanəti var", – deyərik. Ancaq bu üsul, yeni peyvənd öz əlimlə olduğu



üçün belə bir şübhə meydana çıxmır. Budur, daha bir təzə növ – "çardaq xurması". Yalnız şəkli və üzərinə toz çökmüş kimi görünən parlaq rəngi deyil, dadı ilə də bir az xurmaya oxşayır. Kiçik bir haşiyəyə çıxım... Gizli bir ümidim, böyük bir arzum var ki, onu da ancaq sənə deyə bilərəm. Mən üzümlərlə çiçəklər arasında əlaqə əmələ gətirmək istəyirəm. Təbiətə yeni bir calaq, peyvənd qanunu hədiyyə etmək ümidindəyəm. Bu peyvəndin nəticələrini bir təsəvvürünə gətir· bax, bu ala-bəzək muncuqlara bənzəyən "mahi-səhər"lə bir bənövşə, yaxud güldən alınmış bir məhsuldur... Bənövşə, yaxud gülün ətrini verən bir üzümdür... Görürsən ki, mən də bir şair, ya bir heykəltəraş kimi həyat yaradan bir sənətkaram...

Vəfiq paşa qəhqəhələrlə gülür, bir az əvvəl bir gilə də üzüm yeyə bilməyəcəyini söylədiyi halda, hər nimçənin qabağında ayrıca ayaq saxlayır, oradakı salxımlardan alaraq lampaya tərəf tutur, hərəsindən bir neçə gilə alıb dadına baxırdı.

Vəfiq paşa ilə Münir bəy çoxdan tanış idilər. Qırx il bundan əvvəl ailələri birini İzmirdən, digərini Misirdən Parisə oxumağa göndərmişdi. Bu iki gənc orada bir yerdə yaşamış, az çalışıb çox əylənmişdilər O zamana aid elə xatirələri vardı ki, illər keçdikcə aralarındakı yaxınlıq daha da möhkəmlənmişdi. Daha sonra təsadüf onları İstanbulda görüşdürmüşdü. İkisi də beş ilə qədər Dövlət şurasında üzv olub, yoldaşlıq etmişdilər. Nəhayət, Münir bəy uzun müddət Londonda səfir müşaviri olmuşdu. Hər il bir neçə ay İngiltərədə yaşamağa gedən Vəfiq paşa köhnə dostu ilə tez-tez görüşərdi.

Şahzadə Vəfiq kübar, centlmen, bir az da səfahətə meyil edən bir adamdı. Təbiəti böyük əməllərlə, böyük fikirlərlə uyuşa bilmirdi. Özünü vəzifə əsiri etmək istəməyən genişfikirli, həyat intizamına tabe olmayan sənətkar ruhlu bir adam hesab edirdi.

Arvadının vəfatından sonra heç bir ciddi işlə məşğul olmamış, balaca qızı ilə ölkələri bir-bir gəzməyə başlamışdı. Kübarlara məxsus dəniz kurortlarının, at yarışlarının, sərgi və teatrların mövsümünü əldən qaçırmamağa çalışırdı. Getdiyi yerlərdə daima sənətkarlarla durub-oturur, onlarla yaxınlıq etməyi özü üçün bir növ fəzilət sayırdı. Qohum-əqrəbası onun bu xasiyyətini xoşlamır, onu yüngülbeyin "sənət sərsərisi" adlandırırdılar. Bu dedi-qodular qulağına çatdıqda, Vəfiq paşa istehza ilə gülür, böyük bir əda ilə "sənətkarlıq nəcabəti heç bir nəcabətlə müqayisə edilə bilməz, bu, "sənət sərsərisi" adı mənə bütün

adlarımdan xoş gəlir", – deyirdi. Həsəb-nəsəbdən bəhs ediləndə, ona "şahzadə" deyə müraciət edildiyi vaxt sıxılır kimi görünür, yorğun və etinasız vəziyyət alırdı. Bununla birlikdə "kim olmasının" gizli qalmasını da istəmir, buna dözmürdü.

Bir məclisdə onu yaxşı tanımayan adamlara rast gəldikdə, kim olduğunu tanıtmağa səy edir, bundan ötrü qabıqdan çıxırdı. Nəhayət, əsil bir şahzadə olduğunu başa saldıqdan sonra, yanındakılardan onu, özlərinə bərabər saymağı, kim olduğunu unutmamalarını rica edirdi.

Restoran, meyxana divarları üçün qarpız, üzüm, balıq şəkli çəkən yoxsul "ölü təbiət" rəssamlar, sərxoşluq üzündən orkestrlərdən qovulmuş sərsəri çalğıçılar ondan "ideya" almağa gələrdilər. Vəfiq paşa sənətə aid fikirlər və ideyalarla bərabər, onlara bir qədər pul da verərdi.

Hara gedirdisə, yol aptekçəsi və qiymətli təsbeh kolleksiyası həmişə yanında olan qızı Cavidanı da özü ilə aparırdı. Daima səyahətlərdə keçən "yüksək sərsəri" həyatı ucbatından, şahzadə Cavidan əməllibaşlı təhsil və tərbiyə görməmişdi. O da atası kimi özünə güvənir, sənətə qiymətli bir bəzək kimi baxırdı. Amma bununla birlikdə gözəl çöhrəsi kimi, zəngin gözaldadıcı bir zəkası vardı. Jurnallardan, ədəbiyyat kitablarından, sənət məclislərində eşitdiklərindən toplamış mənasız, ancaq bərli-bəzəkli fikirlərini olduqca gozəl bir şəkildə ifadə edə bilir, atası kimi sözə başlar-başlamaz çulunu sudan çıxarırdı.

Münir bəy bir qədər kefcil, sadə və ağıllı bir adam idi. O, Vəfiq paşa ilə Cavidandakı zahiri parıltıya və sənət aludəçiliyinə, hiss etdirmədən, xəfifcə istehza edirdi. Bəyənməməsinə baxmayaraq, Münir bəy, onların hər ikisini sevirdi. Onların başqalarından daha çox özlərini aldatdıqlarını və bundan razı qaldıqlarını görür, bu məsələdə saf bir səmimiyyət duyurdu.

On il bundan əvvəl İzmirdəki üzüm bağlarına çəkilib, burada yaşamağa başlayan Münir bəy, köhnə dostunu xeyli vaxt idi ki, görməmişdi. Vəfiq paşa hərdənbir məktub yazır, "həm köhnə dostunun yanında bir-iki gün qonaq qalıb cavanlıq xatirələrini yada salmaq, həm də zəngin Ayasloq[1] xərabələrinə baxmaq istəyirəm", – deyirdi.

Nəhayət, bu yay arzusunu yerinə yetirməyə fürsət tapmış, bir miras işi ilə əlaqədar olaraq İstanbuldan Misirə gedərkən, beş-altı günlüyə İzmirdə dayanmışdı

[1] İzmir yaxınlığında, eramızdan xeyli əvvələ məxsus antik abidələri olan yer.



* * *

– Ata, niyə mənimlə getmədin? Elə bir fürsəti əlindən qaçırtdın ki...

Vəfiq paşa ilə Münir bəy üzlərini eyvana açılan qapıya tərəf çevirdilər. Cavidan gözəl qamətinə bir heykəl vüqarı verən çərçivə içərisində durur, çardağın gümüşü nəqşləri boynunda, ağ paltarında oynaşırdı Ev sahibi gənc qıza tərəf addımladı, uca qəddini bir az əyərək, yüngül istehzalı bir rəsmiyyətlə:

– Şahzadə xanım, – dedi, – bir dəqiqə içəri zəhmət çəkin. Möhtərəm atanızın köhnə dostu kimi sizə, böyük, hökmdarlara layiq bir hədiyyə vermək istəyirəm. "Böyük, hökmdarlara layiq" deməyimə gülürsünüz. Kim bilir, indiyə qədər sizə necə qiymətli hədiyyələr veriblər. Ancaq bu hədiyyələri verənlərin hamısı daima bir qədər qızarmışlar, sizə layiq şeyləri olmadığını utana-utana söyləmişlər. Mən isə şahzadə xanım, əksinə, hədiyyəmlə çox fəxr edirəm. Bu həmişə yaşayacaq bir yadigar, yeddi ilə başa gəlmiş canlı bir "şah əsər"dir..., "insan həyatda gör nələr yarada bilir", – deyə göstərə biləcəyim bir əsər...

Ata-qız bir-birinə baxıb güldülər Münir bəy masanın ortasındakı kənarları oymalı büllur bir nimçəni əlinə götürdü, nimçədə açıq-yaşıl rəngli bir üzüm salxımı vardı. Ev sahibi onu lampaya tərəf tutaraq:

– Şahzadə xanım, buna bir tamaşa eləyin, – dedi – Hansı əsatir əfsanəsinin zümrüd salxımları içərisində bundan daha gözəl bir yaşıllıq ola bilər? Gilələrinin içinə diqqət edin. Hərəsində üç, ya dörd şəffaf tum var, lap almaza oxşayır. Elə bil, bu zümrüdləri içəridən işıqlandıran ziyanı onlar yayır. Yeddiillik əməyimin məhsulu olan bu uzüm icazənizlə sizin adınızı daşıyacaq. İnsanlar onu "şahzadə Cavidan", – deyə tanıyacaqlar.

Münir bəy gözlərində gizli bir istehza, sözünə davam etdi.

– Hədiyyəmə niyə "böyük, hökmdarlara layiq" dediyimi, indi yəqin başa düşdünüz? İncinin, zümrüdün, nə qədər uzun olsa da, müəyyən bir ömrü var. Düzdür, bu salxım da təravətini saxlamayacaq. Ancaq gələn il də, o biri il də, bir əsr keçəndən sonra da, xülasə, dünya durduqca yenidən həyata gələcək. "Şahzadə Cavidan" hər il yayın axırlarında, belə ən gözəl bir gecədə yenidən dünyaya gələcək.

Cavidan salxımdan bir kiçik zing qopartdı. Gulə-gülə bir sancaqla yaxasına taxdı.

Onlar sonra eyvana çıxdılar. Vəfiq paşa qızından soruşdu:

– Haraları gəzdin, Cavidan?

– Bağın lap o biri başına qədər getdim. Ay işığında bağda gəzmək nə qədər gözəl olurmuş, ata! Heç fikir verməmişdim. Torpaq başdan-başa çılpaq, ağacsız. Yalnız sıra ilə düzülmüş meynələrin kiçik kölgələri var... Birdən irəlidən bir kaman səsi gəlməyə başladı. Məşhur "Şərq gecələri"ni çalırdılar. Özü də bilsən necə gözəl, necə ustalıqla çalırdılar, ata.

Şahzadə Vəfiq başını ağır-ağır yırğalayaraq:

– Deyəsən, ay işığı səni həyəcanlandırıb, qızım, – dedi.

Sonra Münir bəyə döndü:

– Bu "Şərq gecələri" yaman şöhrət qazanıb ha! Hara gedirəm, onu çalırlar. Təsəvvür et ki, meyxana və qəhvəxana qrammofonları belə bu havanı çalır. Hər halda Ərəb dərəsinin[1] bu a-lya türk[2] gözəlliyi içərisində bu hava çox qəribə səslənir.

Ev sahibi:

– Sizə bundan daha qəribə bir şey deyəcəyəm, – deyə cavab verdi. – Bu a-lya franse[3] "Şərq gecələri" elə bu a-lya türk Ərəb dərəsində yaranmışdır. Onu bəstələyən Hüseyn Kənan izmirlidir. Lap burada, bu Bozyaxa[4] bağlarında böyümüşdür. Şahzadə xanım kamanın çox gözəl çalındığını söyləməkdə səhv etmir. Çünki onu bəstəkarın öz ifasında dinləmişdir. Hüseyn Kənan iki gündür burada, dayısının bağında qonaqdır.

Ata ilə qız heyrət və həyəcanla bir-birlərinə baxırdılar. Münir bəy sözünə davam etdi:

– Hüseyn Kənan mənim bağ qonşum Saib paşanın bacısı oğludur. Onu lap kiçik yaşlarından tanıyıram... Utancaq, qorxaq və nazlı bir uşaq idi. Bəzi səbəblərə görə Saib paşa bacısını da, onun oğlunu da sevmirdi. Saib paşa tez-tez bələdiyyə rəisi təyin edilir; yaman şöhrət sevən adamdır. Əvvəllər nədənsə bacısı oğlunun adam olmayacağını düşünür, onu bir sənətə qoymaq istəyirdi. Kömək elədim, oğlan mühəndis məktəbinə girdi. Birtəhər oranı bitirdi. Bir müddət kiçik vəzifələrdə işlədiyini, sonra İstanbulda musiqi dərsi verərək, çox ağır güzəran keçirdiyini eşidirdim. Heç yadımdan çıxmaz, bir gün Saib paşaya rast gəldim. Bacısının və bacıoğlusunun əlindən zəncir çeynəyirdi. Sən demə, Kənan anasının Kəməraltında[5] olan kiçik dükanını satıb Avropaya səyahətə getmişmiş.

---

[1], [4] İzmir civarında üzüm bağları olan mənzərəli yerlər

[2] [3] Türksayağı, fransızsayağı

[5] İzmirdə bir məhəllə adıdır. Eramızdan xeyli əvvəl tikilmiş və indi də əzəmətli sütunlar üzərində xarabaları qalan köhnə Kəmərin yanındadır.



Üç-dörd il ondan xəbərim olmadı. Keçənlərdə Avropa jurnallarından birini vərəqləyirdim. Gözümə Kənana oxşayan bir şəkil sataşdı. Şəklin altındakı yazını oxudum: "Gənc və görkəmli türk virtuozu Hüseyn Kənan". Jurnalda bir tənqidi məqalə də vardı. Burada onun verdiyi bir konsertdən bəhs edilirdi: Kənan böyük istedad nümayiş etdirmiş, konsertin onun öz əsərlərindən ibarət hissəsi də çox bəyənilmişdi.

İstanbul mətbuatının bu zaman yoxsul və dedi-qodusuz bir vaxtı idi. Qəzetlərdən biri Kənan haqqında yazılanların bir neçəsinin tərcüməsini çap etdi. Sonra o biri qəzetlər də, adətləri üzrə bunu görüb, sütun-sütun yazılar verdilər, – Avropa bir adamın bacarıq və hünərindən danışdımı, daha o adamın işi düzəldi. İllər boyu aramızda yoxsulluq içərisində yaşamış, heç kimin tanımadığı bu sənətkarı birdən-birə göylərə qaldırdılar, misilsiz bir dahi elədilər. Kənan kölgədə yaşayacaq bir şəxsiyyət deyildi. Lakin söylədikləri qədər bir dahi olduğuna da inanmırdım "Şərq gecələri"nin qazandığı böyük rəğbət onun şöhrətini artırdı. Kənanın dilənçi kökündə yaşayacağını, həm də üç ilə mütləq belə olacağını söyləyən Saib paşanın indi onunla necə fəxr etdiyini təsəvvürünüzə gətirə bilməzsiniz. Bu yaxınlarda İzmirdəki ədəbi jurnallardan birində öz şəklini verdirmişdi. Onun altındakı "Şəhərimizin bələdiyyə rəisi və bəstəkar Hüseyn Kənan bəyin dayısı Saib paşa həzrətləri" sözlərini oxuyanda gülməkdən ölmüşəm.

İndi Kənan dayısının təkidi ilə iki-üç aylığa İzmirə gəlmişdir. Bu müddət ərzində yeni bir əsərini tamamlamaq istəyir. Dünən səhər yanıma gəlmişdi. Həmin əsəri haqqında soruşdum. Parisdə tanış olduğu suriyalı bir şairin opera librettosuna musiqi bəstələyir. Mövzusu Harun ər-Rəşid zamanına aid gözəl bir hekayədir Kənan hadisəni yaxşı başa düşmüş və duymuşdur. Bu işi müvəffəqiyyətlə başa vura bilsə, zəmanəmizin ən məşhur sənətkarı olacaq.

Vəfiq paşa və Cavidan Münir bəyin söhbətinə dərin bir maraqla qulaq asırdılar. Vəfiq paşa tükləri sayıla biləcək qədər seyrək saqqalını didişdirərək:

– Əziz dostum, – dedi, – bizə etdiyin hörmətləri unuda bilməyəcəyik. Ancaq bizi daha çox məmnun etmək üçün bilirsənmi nə etməlisən? Bu gecə həmin diqqətəşayan gənci də gərək bura dəvət edəsən.

Cavidan hərarətlə atasının sözünə qüvvət verdi:

– Onu tanımağımız çox yaxşı olardı!

Ev sahibi gülümsədi:

– Gözüm üstə. Bu çətin şey deyil. Sabah axşam onu da dəvət edərəm. Hətta istəsəniz, bu elə indi də mümkündür. Uzaqda olmur, Zeynalı göndərim, xahiş eləyim, gəlsin. .

Bu gözəl fikirdi. Ata və qız razılıqla bir-birilərinə baxdılar.

Vəfiq paşa gözlərini süzdü, baş barmağını qaşları arasına qoydu (ağlına yaxşı fikir gələndə o, həmişə belə edərdi):

– Hamısından yaxşısı bilirsiniz nədir, gəlin özümüz onun yanına gedək. Gəlişimiz, heç bilirsən, Cavidan, o gənc sənətkara necə təsir edəcək! .

Başqasında görmək istədiyi bir həyəcan Vəfiq paşanın özünü titrətdi. O, türkcəni buraxıb sözlərinə fransızca davam etdi:

– Gecə vaxtı bu pəri aləmi içində tanımadığı iki şəxs zühur edir. Bunların biri şahzadə, biri də şahzadə xanım. Bir çoxunun əsəblərini sarsıdacaq bir təsadüf. Bu həyəcanın bəlkə operasına belə təsiri oldu.

Keşikçi Zeynal əlində yekə bir dəyənək onların qabağına düşdü. Bağın içi ilə ağır-ağır irəliləməyə başladılar. Meynələr bir-birinin ardınca qaranlıq dalğalartək ta uzaqlara qədər yayılıb dağılır, ay işığı çılpaq torpaqların üstündə su gölməçələrinə bənzər parıltılarla yanıb sönürdü.

* * *

Bağın axırındakı taxta qapıdan ensiz, tikanlı bir cığıra çıxdılar. Kərtənkələlər qurumuş tikanları xışıldadırdılar. Cırcıramalar səsləri ilə aləmi başlarına götürmüşdülər.

Bağların yorğun, bürkülü havası ağır bir bulud kimi nəfəslərini tıxayır, tünd şərab kimi beyinlərini dumanlandırırdı. Cığır aşağıdakı geniş araba yoluna çıxırdı, burada onlar ayaq saxladılar. Cavidan atasına yolun uzaq bir nöqtəsini göstərib:

– Ata, – dedi, – bir ora bax. O qaraltılar adam deyilmi?

Hamı qızın göstərdiyi səmtə baxdı. Yolun o başında bir dəstə irili-xırdalı qəribə qaraltı görünürdü, lap qabaqda bir eşşək də vardı. Münir bəy qonaqlarına izahat verdi:

– Bu vaxt, buralarda adətdir, gecələri bağdan-bağa belə dəstə-dəstə qonaq gedərlər. Ancaq görəsən, niyə belə səssiz-səmirsiz gedirlər? Onlar çox vaxt nəğmə oxuyar, səs-küy salarlar.



Dəstə bir az da irəlilədikdən sonra bir bağın kənarında, kiçik daş evin qabağında durdu. Birdən hay-küy, gurultu qopdu. Büllur kimi saf uşaq qəhqəhələri qarşıdakı təpələrə əks edir, qarma-qarışıq səslər, ağır-ağır çalınan bir kamanın müşayiəti ilə mahnı oxuyurdu

Vəfiq paşa ilə Cavidan çaşıb qalmışdılar. Münir bəy gülə-gülə izahat verdi:

– Bu ev Şəmi dədə[1] adında qoca bir dərvişindir. Cəzbə getmiş, lakin çox şən, əhli-dil bir adamdır. Bozyaxada hamı onu tanıyır, sevir. İndiyə qədər tək yaşayırdı. İki ay bundan əvvəl gənc bir qadınla evlənmişdir. O vaxtdan hamı Şəmi dədəyə sataşır. Görünur, bu gecə Kənan çolmaçocuğu yığıb dədə ilə əylənməyə gəlib.

Getdikcə artan qəhqəhələr, uşaqların hay-küyü mahnının eşidilməsinə mane olurdu. Yaxındakı evlərin işıqları bir-bir yanır, köpəklər ulaşırdı.

240542

Nəhayət, kiçik evin pəncərə qapaqlarından biri açıldı, oradan əlində şam, xəyala bənzər bir insan göründu. Şəmi dədənin əl-qolunu oynada-oynada bağırdığı hiss edilirdi. Ancaq səs-küydə nə dediyi eşidilmirdi.

Münir bəy qonaqları ilə bərabər cığırdan yola enəndə şənlik, səs-küy həddini aşmışdı. Əynində ağ uzun köynək, ayaqlarında təzə bəylərə məxsus mərcantək qırmızı çust olan Şəmi dədəni eşşəyə mindirmişdilər. Dəstə yenidən yola düzəlmişdi. Təzəbəyi bağırda-bağırda, kim bilir, haralara aparacaq, nə qədər gəzdirəcəkdilər

Münir bəylə qonaqları yolda görünəndə qəhqəhələr yavaşıdı, mahnı səsləri kəsildi. Dəstə uzaqdan zənn edildiyi kimi, təkcə uşaqlardan ibarət deyildi, onların arasında cavan oğlanlar və qızlar da vardı. Münir bəy uzaqdan səsləndi:

– Dədə, bu nə işdir, başına gəlib?

Qoca dərviş cavab verdi:

– Daha nə olacaq, bəy! Qurd qocalanda köpəyə gülünc olar.

Dəstə durmuş, uşaqlarla böyüklər Münir bəylə qonaqları araya almışdılar. Kənanla qısa ağ paltar geymiş gözəl bir qız eşşəyin noxtasını tutmuşdular. Kənan pencəksiz və başı açıq idi. Ağ ipək köynəyinin yaxası açıq, qolları dirsəklərinə qədər çırmanmışdı.

[1] Türkiyədə "baba" deməkdir Lakin bu, eyni zamanda məşhur tənqətçilərə ehtiram əlaməti olaraq verilən adlardandır.

M.F.Axundov adına
Azərbaycan Milli

Münir bəy onu qonaqlarına təqdim edəndə özünü itirən kimi oldu, yarıçılpaq vücudundan utanırmış kimi gülümsəyərək əllərini köksü üzərində qovuşdurdu. Qarayanız üzü qaranlıqda nəzərə çarpacaq qədər qızarmışdı. . Vəfiq paşa balaca, arıq vücuduna uyğun gəlməyən qalın, qırıq bir səslə:

– Sənətkarla bu cür səciyyəvi artistvari vəziyyətdə tanış olmağıma çox şadam, – dedi. Sonra üzünü ətrafına toplanmış gənclərə, uşaqlara, uzunsaqqallı, dazbaş Şəmi dədəyə, qəşəng qıza tutub qısa bir nitq irad etdi.

Kənan onun nitqinə yüngülcə gülümsünə-gülümsünə qulaq asırdı. Cavabı, çılpaq qılçalarını dız qapaqlarına qədər güclə örtən qısa ağ libasını Roma imperatoruna məxsus bir şəstlə geyinmiş Şəmi dədə verdi:

– Paşa həzrətləri, Kənan oğlumuz ilk ilhamını bu yerlərdən daha çox, fəqir və aciz Şəmi dədədən almışdır. Kənana ilk musiqi nəfəsini mən vermışəm.

Şəmi dədənin daz başı ay işığında parıl-parıl işıldayır, xırda mavi gözləri qalın qaşları ilə uzun saqqalı arasından köz kimi parıldayırdı. Yad adam yanında təkəbbürlü, sakit və ciddi davranan Cavidan özünü saxlaya bilmir, güldüyünü görməsinlər deyə, başını Münir bəyin arxasında gizlətməyə çalışırdı. Dədə sözünə davam etdi:

– "Bağa qınından çıxar, qınını bəyənməz", – deyiblər, Kənan bəy oğlumuz da şöhrət qazanandan sonra dədəni yadından çıxardıb. "Dədəni yaddan çıxardıb" deməyimin mənası var, yəni türk musiqisini buraxıb, Avropa musiqisindən yapışıb. Qənaəti-fəqiranəmizə görə, toxum yetişdiyi torpaqdan ayrı yerdə əməlli-başlı nəşvü-nüma tapa bilməz. İndi deyəcəksiniz ki, Kənan sənin məsləkinə qulluq eləsəydi... sənin tək... üzdəniraq, lüt bir dərviş olub qalmışdı. . Bu da başqa bir məsələdir...

Vəfiq paşa üzünü qızına tutdu:

– Görürsənmi, Cavidan, bu Şərqdə nə gözəl insanlar var.

Bu təsadüf sayəsində yaxasını uşaqların əlindən qurtarmış Şəmi dədə qonaqlara bilmirdi necə hörmət eləsin.

Bağçasının bir guşəsinə təzə həsirlər salınmışdı. Ömründə ilk dəfə həsir üstündə oturan Cavidan atasının dizlərinə söykənib:

– Nə yaxşıdır, ata Bu gecə tam bir Şərq həyatı yaşadıq, – dedi.

Şəmi dədənin üzümlərindən yeməyə kimsədə taqət yox idi. Ancaq içəridən onun neyini gətirdilər, ona bir neçə qədim hava çaldırdılar.



* * *

Kənan bir az sonra dəstədən ayrıldı, Münir bəyin qonaqlarına qoşuldu. O, öz bağlarına çatanda ay İlıca təpələrinin dalına çəkilirdi. Sübh, budaqlarını sallamış ağacların başında xəfif buxar kimi ağarır, quşlar yarpaqların və kolların arasında cəh-cəh vururdu.

Anası Mələk xanım hələ yatmamışdı. Oğlunun yubanmasından nigaran idi, arıq çiyinlərinə yun şal atıb, alt otağın açıq pəncərəsi qabağında onu gözləyirdi. Uzaqda bir köpək hürdü, bayır qapıya gedən dar yolda bir kölgə göründü. Mələk xanım yolu yaxşı görə bilmək üçün pəncərədən boylandı.

– Kənan... Kənan, sənsən? – deyə səsləndi.

Kənan cavab vermədi, addımlarını yavaşıtdı, öz mahnılarından birini fitlə çalmağa başladı.

Xeyli vaxtdan bəri Kənanın əsəbləri tarım kaman telləri kimi idi Ən kiçik təsirə qarşı belə həssas, əsəbi bir halda daima bir ehtizaz içində yaşayırdı. Bu hal özünü sübh çağlarında daha çox göstərirdi. O, fit çala-çala çardağın altından keçib anasının durduğu pəncərənin qabağına gəldi.

– Niyə bu qədər yubandın, Kənan?

– Mən oradan çoxdan çıxmışam, ana. Gəzə-gəzə gəlirdim Ta Qırx çamlara[1] qədər getmişəm.

– Qorxmursan, oralara tək gedirsən? Bir daha belə etmə, Kənan!

Kənan əllərini açıq pəncərəyə tərəf uzadaraq, anasının arıq biləklərindən tutdu. Mavi gözlərində süzgün bir heyrətlə gülümsədi·

– Mən nədən qorxacağam? Sənin oğluna kim toxuna bilər? Dövran mənimdir, ana. Mən artıq talesizliyin daşını atmışam.

Dərin bir yaşamaq zövqü ilə titrəyən Kənan çəlimsiz, zəif anasını qucağına alıb pəncərədən çölə çıxartdı. Uzun illər ayrılıqdan sonra onu ilk dəfə qucaqlayırmış kimi bərk-bərk bağrına basdı. Qadının gənclik təravətini hələ də saxlamış gözəl üzündən dönə-dönə öpdü.

Mələk xanıma elə gəlirdi ki, Kənanın yenə yeddi-səkkiz yaşı var O vaxt da Kənan hərdənbir belə anlaşılmaz rıqqətlə titrəyər, mavi gözləri elə bu cür yaşla dolar, sevmək, sevilmək arzusu ilə anasının boynuna sarılardı. Böyüyəndən sonra daha bu xasiyyətindən əl çəkmiş, sakit,

[1] Şam (çam) ağacları bitən bir qoruğun adıdır.

utancaq və kədərli bir gənc olmuşdu Mələk xanım oğlunun uzun saçlarını sığalladı:

– Yatmayacaqsanmı, Kənan? Yorulmamısan? Xəstələnəcəksən.

Kənan daş pilləkəndə əyləşib, anasını zorla dizləri üstünə oturtdu. O, uşaq kimi gülürdü.

– Yatmaqmı? Yatmaq bədbəxtlərin, xəstələrin nəsibidir, ana. Bütün ruhu ilə yaşayan xoşbəxt insanlar neçin yatsın? Bilmirsənmi, bu saat dünyada hələ günəşləri batmamış, yaxud ay işığında qərq olmuş ölkələr var Orada sənin Kənanının əsərlərini çalırlar, orada insanlar öz dərdlərini sənin oğlunun dili və qəlbi ilə söyləyir, ağlayırlar, gülürlər. Sabah mən daha böyük bir əsər yazacağam. Ondan sonra heç ölümü də vecimə almayacağam, ana Kənan ölmüş, dodaqları əbədi olaraq susmuş olsa da, nə qəm? Kənanın susmuş dodaqlarını musiqisi əvəz edəcək, ölmüş Kənan sözə başlayanda dirilər, əksinə susacaq, saralacaq, ağlayacaqlar. Özün görəcəksən, biz nə qədər xoşbəxt olacağıq. Mən talesizliyi məhz öz gücümün sayəsində məğlub etdim, ana. O qədər əziyyət çəkmişəm ki... Nəhayət, tale mənim də üzümə güldü. İndi sevincim yerə-göyə sığmır.

## II

Mələk xanım qoca bir meyvə tacirinin sonbeşiyi idi. Ailənin yeganə qızı olduğu üçün atası onu uşaqlarının hamısından çox sevirdi. O vaxt atasının ticarət işləri yaxşı gedirdi. Bundan başqa, Mələk də həqiqətən mələk kimi gözəl bir qızdı. Hələ on dörd yaşı tamam olmamış ona çox yerdən elçi gəldi. Səlahəddin əfəndi hər adamı qızına layiq bilmirdi. Ancaq qız saf, təcrübəsiz qəlbini atasının katiblərindən birinə, Nail adlı istanbullu bir gəncə vermişdi. Ümidləri yoxdu: Səlahəddin əfəndinin də, oğlanlarının da bu izdivaca razılıq verməyəcəklərini ikisi də yaxşı bilirdi. İki il sirlərini gizli saxlaya bildilər. Lakin bütün sevdalar kimi bu sevgi də, nəhayət, aşkara çıxdı, dedi-qodu bütün İzmirə yayıldı. Qoca əhvalatı eşidəndə yaman sarsıldı, az qaldı ki ölsün. O, köhnə fikirli adam idi. Mənsəb və var-dövləti hər şeydən üstün tuturdu. Üstəlik də bu katibindən zəhləsi gedirdi, ancaq yazığı gəldiyi üçün yanında saxlayırdı. Nailin keçmişi bir az ləkəli idi. Üç il bundan əvvəl Manisa şəhərində bir pul əhvalatı üstündə onu qulluqdan çıxartmışdılar. Lakin məhkəmədə onu cəzalandırmaq üçün kifayət qədər dəlil tapılmamış, Nail



bəraət qazanmışdı. Buna baxmayaraq o, bu ləkədən tamamilə yaxa qurtara bilməmiş, başqa yerlərdə iş axtarmağa, çörək pulu qazanmağa məcbur olmuşdu. Səlahəddin əfəndinin fikrincə gənc katibin günahı təkcə bundan ibarət deyildi. Nail çalışqan, lakin laübalı bir gəncdi, əylənməyi çox sevirdi. Gözəl ud çalırdı, buna görə də hərdənbir onu ziyafətlərə, işrət məclislərinə dəvət edirdilər.

Səlahəddin əfəndi ilə oğlanları işin üstü açılan kimi Naili qulluqdan qovdular.

Mələkə də çox ağır tənbeh verdilər: onu altı aylığa Sökeyə[1], bibisinin yanına göndərdilər. Onlar belə fikirləşirdilər ki, bu yolla gənc qıza ümidsiz sevdasını, İzmir əhalisinə isə bu xoşagəlməz əhvalatı unutduracaqlar. Lakin işlər onların düşündüklərinin əksinə oldu. Nail Dənizlidə[2] özünə ayrı qulluq tapdı, sonra Sökedəki keçmiş məktəb yoldaşının arvadı vasitəsilə Mələkə məktublar göndərir, ondan da cavablar alırdı.

Qız Naili nəinki unutmamışdı, əksinə, onu gündən-günə daha artıq sevirdi. Məktublarında yazırdı ki, Naildən başqa heç kəsə ərə getməyəcək, onun yolunda hər şeyə hazırdır

Qoca tacir qızını təzədən İzmirə gətirmək istəyirdi ki, Sökedən bir teleqram aldı: Mələk Nailə qoşulub qaçmışdı, hətta bir kənd mollasının evində kəbinləri də kəsilmişdi.

Səlahəddin əfəndinin böyük oğlu Saib Naili tutdurmağı, kiçik oğlu Hilmi isə bu namus ləkəsini qanla yumağı təklif edirdi. Lakin qoca ilə o biri oğulları bu fikirdə deyildilər· Mələk həm onları, həm də özünü ömürlük ləkələmişdi; onu ölmüş fərz edəcək, heç adını da çəkməyəcəkdilər.

Səlahəddin əfəndi sözünün üstündə möhkəm durmuş, iki il sonra ölləndə də qızını görmək istəməmişdi. Sərvətini dörd oğlu arasında bölmüş, qızına isə Tülkülük məhəlləsindəki kiçik bir evlə Kəməraltındakı çəkməçi dükanından başqa bir şey verməmişdi.

Bütün səyinə, fədakarlığına baxmayaraq bu izdivac Mələk xanıma umduğu səadəti verə bilməmişdi. Mələk yaşına görə çox ağırbaşlı bir qadın olmuşdu. Dəbdəbədə, var-dövlətdə, bəzək-düzəkdə gözü yoxdu. Qoyub gəldiyi zəngin həyat, itirdiyi böyük ümidləri üçün peşman deyildi. Ərinin məhəbbəti ilə ovunub dururdu. Çit pərdəli, basıq qaratavanlı

[1] Qərbi Anadoluda, Böyük Menderes çayı vadisində qəza mərkəzi olan bir şəhər
[2] Cənub-Qərbi Anadoluda vilayət mərkəzi

kənd evlərinin kasıblığına əhəmiyyət vermır, ən çətin günlərdə belə nəşə və cəsarətini itirmirdi.

Nail talesiz bir gəncdi. Lakin pis, qəlbsız adam deyildi. Arvadını, aralarında yaşyarım fərq olan iki övladını yoxsulluq içində gördükcə əriyib gedirdi. İlk sevda həyəcanları keçirərkən bu günləri nəzərə almadığını fikirləşəndə, özünə lənətlər oxuyurdu. Yüngül xasiyyətlərindən, bütün pis əməllərindən əl çəkmişdi. Arvadını, uşaqlarını bir təhər xoşbəxt və rahat yaşatmaq üçün qabıqdan çıxırdı. Lakin talesizlik yaxasından heç cür əl çəkmir, bu kiçik ailənin güzəranı gündən-günə çətinləşirdi. Nail Aydın vilayətinin bütün qəsəbələrini birər-birər gəzdi, tez-tez qulluğunu, məskənini dəyişdi, ancaq heç yerdə qərar tuta bilmədi.

Bu səfalət içində Kənan yeddi, Əfifə beş yaşına çatdı. Artıq əli hər yerdən üzülmüş Nail bədbin, məğmun və qaraqabaq bir adam olmuşdu. Dərdini unutmaq üçün yenidən içkiyə qurşanmışdı, səhhəti kimi əxlaqı da gündən-günə pozulmağa başlamışdı.

Elə bu vaxtlar ailənin vəziyyəti birdən-birə düzəldi. Nail artıq çox pul qazanır, dırı və əsəbi görünürdü. Ancaq bu firavan güzəran uzun sürmədi. Bir gecə jandarmlar gəlib, heç səbəbini də demədən Naili apardılar.

Mələk xanıma ertəsi gün ərinin yeni bir böhtana düşdüyünü xəbər verdilər. Lakın bu səfərki böhtan deyil, əməlli-başlı oğurluq idi.

Nail bunu açıqca etiraf etdi, çəkinmədən:

– Başqa cür yaşamaq mümkün deyildi, uşaqlarım acından ölürdü, – dedi.

Bu etirafa baxmayaraq mühakimə aylarla uzandı. Mələk xanım iki uşağı ilə sərgərdan qaldı, aylarla ağır yoxsulluq içində yaşadı. Nail həbsxanada dərd, ümıdsizlik içində çırpınır, arvadı uşaqları ilə bərabər onun görüşünə gələndə uşaq kimi ağlamaqdan başqa əlindən bir iş gəlmirdi.

Mələk xanım Nailin təkidi ilə qardaşlarına məktub yazdı, yalvardı ki, ona da olmasa, uşaqlarına rəhm etsinlər.

İndi qardaşlarının da vəziyyəti əvvəlki kimi deyildi. Ortancıl qardaşları Nəciblə Məsud şərikli başladıqları bir ticarət işində sınıq çıxmışdılar. Kiçik qardaşları Hilmi olan-olmazını satıb İstanbula köçmüşdü.

Ailə belə dağıldığı bir vaxtda, yalnız Saibbəyin işi gətirir, çox böyük mal-dövlət sahibi olurdu. Saibbəy məktubun cavabını Mələk xanıma yox, birbaşa Nailin özünə yazmışdı: "Bu işdə müqəssir və günahkar sizsiniz. Bacımızı ata ocağına qəbul etməyə hazırıq. Ancaq bu şərtlə ki, o bizə sizinlə heç bir əlaqəsi olmaması haqda rəsmi və şəri bir boşanma kağızı təqdim etsin."

Kənanın ən köhnə və acı xatirəsi atasından ayrıldığı günə aiddir. Tutqun və yağışlı bir payız günü idi. Mələk xanım son dəfə ərini görmək üçün uşaqları ilə bərabər həbsxanaya getmişdi. Kənan gözlərini yuman kimi, bu kiçik, daş divarlı otağı bütün təfərrüatı ilə görürdü. Bütün əşyası sarı adyal atılmış sınıq çarpayı, bir su qabı, tənəkə lampa, boş bir neft qabı, bir də uddan ibarətdi.

Mələk xanım çarpayının üstündə oturub, uşaqlarını yanına almışdı. Heç bir şey danışmırdılar. Üzü çoxdan qırxılmamış Nail neft qabının üstündə oturaraq, yanındakı udun tellərini dınqıldadırdı. Dəmir barmaqlıqlı kiçik pəncərədən düşən tutqun işıqda üzü daha solğun və zəif görünürdü. Bir ara o, udu bağrına basıb, son dərəcə yavaşdan, ağır-ağır həzin şeylər çaldı.

Kənan sonrakı illərdə ağır yatalaq xəstəliyinə tutulmuşdu. Bu xəstəlik zamanı bəzən huşunu itirən Kənanı həyatla yalnız bu səslər bağlayırdı, o, ruhunu saran qara boşluq içində yalnız atasının çaldığı udun səsini eşitmişdi.

İndi də ona elə gəlirdi ki, qocalıb öləndə axırıncı eşidəcəyi şey bu udun səsi olacaq; xatirində qalan o dərin, uzaq, məhzun səslər içində dünyadan köçəcək.

Pəncərədən düşən son ziyalar rütubətli qara divarlarda sönərkən qapı açılmış və əlində fənər olan zəhmli bir jandarm içəri girmişdi Kənan artıq nə anasına, nə də onu bağrına basıb dönə-dönə yanaqlarından, gözlərindən öpən atasına baxmış, qaranlıqda yıxılmamaq üçün anasının ətəyindən tutaraq uzun, soyuq, daş döşəməli zindandan çıxmışdı.

İzmirə köçəndən sonra daha atası haqda bir söz danışılmamışdı Yalnız bir o yadındaydı ki, bir ilə yaxın vaxt keçdikdən sonra bir jandarm onlara bir sandıq gətirmişdi. O gedəndən sonra anası Kənana qızıl qapaqlı kiçik bir saat, sədəf dəstəli bir cib bıçağı vermişdi. Kənan bunların kimdən gəldiyini, nə üçün ona verildiyini soruşmamışdı.

Ancaq o gecə səhərə qədər anlaşılmaz bir hisslə tez-tez yuxudan ayılmış, yanındakı yataqda qucaqlaşıb yatan anası ilə Əfifəni oyandırmamağa çalışaraq, yanaqlarından öpmüşdü.

Kənanın atasına aid xatirələri bundan ibarət idi.

* * *

Saib paşanın Karantin[1] məhəllesindəki təmtəraqlı evi, Bozyaxada xeyir işlər üçün istifadə olunan böyük mülkü nə Mələk xanımı, nə də Kənanla Əfifəni xoşbəxt edə bilmədi. Bu adamda intəhasız müvəffəqiyyət və mənsəb hərisliyi, sonsuz bir şöhrət düşkünlüyü vardı.

Paşalıq adı və üç-dörd nişan almaq üçün o vaxtın yüksək vəzifə sahiblərinə bir aləm pul yedirtmişdi. Son zamanlar isə bütün bacarıq və səyini İzmirdə bələdiyyə rəisi olmağa və bu mövqeyi necə olursa olsun əlində saxlamağa sərf edirdi. Yay-qış Karantin və Bozyaxadakı evləri təkyə[2] kimi, hacılarla, mollalarla, tüfeyli və havayıyeyənlərlə dolu olardı. Nüfuzundan istifadə edə biləcəyi şəxslərdən birini də özündən incitmir, hər məhsul yığımında İstanbuldakı hamilərinə səbət-səbət üzüm, əncir göndərir, şəhərə yeni vali gələndə qarşılama şənlikləri düzəldirdi.

Saib paşa bacısını evinə gətirmişdisə də, onun təqsirindən hələ keçməmişdi. Kənanı isə heç sevmirdi. Onun gözündə Kənan səfeh və səfil bir oğrunun övladı idi. Fikirləşirdi ki, tərbiyəsilə nə qədər məşğul olsalar da, fayda verməyəcək, mütləq atasının tayı olacaq, həyatını həbsxanada, hətta çox ehtimal ki, dar ağacında başa vuracaq. Zatən bu yaşda, bu boyda belə o, sərsəriyə oxşayırdı; ona görə bu məzlum, həlim, utancaq uşağa bel bağlamaq olmazdı. Elə atasının da görkəmi belə idi. Lakin fürsət tapanda hansı bəd əməldən çəkinmişdi?

Kənan böyük dayısının şiş qapaqlı, iri dəmbərə gözlərinə hər dəfə baxanda canına titrətmə düşürdü. Ədəbli, sakit, qorxaq bir uşaq idi. Çəlimsizliyi, solğun, zəif çöhrəsi onu, əslində olduğundan daha kiçik göstərirdi. Son dərəcə həssasdı. Ətrafında olub keçənləri başı daşdan-daşa dəymiş yaşlı adamlar kimi bütün incəliyi ilə başa düşür, lakin hisslərini büruzə verməkdən çəkinirdi. Anası belə onun uşaq qəlbindən nələr keçdiyini tamamilə anlaya bilmirdi.

Bəzən heç bir səbəb olmadan anasının boynuna sarılır, onun yanaqlarını, gözlərini, boynunu, əllərini dönə-dönə öpərdi. Mələk xanım bu dəqiqələrdə onun həyəcanlandığını, mavi gözlərinin yaşla dolduğunu görürdü. Səbəbini soruşanda isə Kənan heç bir söz deməzdi. Əslində, səbəbini özü də bilməzdi. Bu, yatmaq, su içmək kimi daxildən gələn qəribə bir ehtiyacdı.

[1] İzmirin ticarət mərkəzi olan, zəngin ailələr yaşayan məhəllesi
[2] Dindar təriqətçilərin ibadət üçün toplaşdığı bina



Başqa uşaq olsaydı, bu evdəki vəziyyəti onu həqir bir hala salardı. Lakin o, həqarətə məruz qalmamaq üçün daima hamıdan uzaq olmağa çalışır, dəcəl dayıuşaqlarına qoşulmurdu. Uşaqlıq aləminin bütün sevinclərindən könüllü əl çəkmişdi, o heç kimə ağız açmaz, heç nədən şikayətlənməzdi. Bir haqsızlığa məruz qalanda gileylənməz, dinməzcə məzlum-məzlum başını aşağı salardı. Ancaq üzünə xoş baxanda, kiçik bir yaxınlıq görəndə bunu saf, səmimi bir minnətdarlıqla qarşılardı. Bu xasiyyəti ilə ətrafındakılarda mərhəmət qarışıq bir hörmət oyadır, başqalarının onu saymasına nail olurdu.

Uşaqlıq vaxtının acı xatirələrindən biri də anası və bacısı ilə dayısı evindən çıxıb getdikləri günə aid idi. O zaman Kənanın on bir yaşı vardı. Bir qış səhəri onu qolundan tutaraq silkələyib yatağından qaldırdılar, yuxulu-yuxulu dayısının otağına gətirdilər.

Saib paşanın qiymətli qızıl saatı cibindən yoxa çıxmışdı. Səhər tezdən dindirilən xidmətçilərdən biri demişdi ki, gecə Kənanı dayısının otağının qapısı ağzında görmüşdür. Təqsiri onun boynuna atmaq üçün elə bu kifayətdi. Həbsxana küncləndə ölmüş bir oğrunun uşağı ola-ola, evdə başqalarından şübhələnmək günah deyildimi?

Gecə köynəyində Kənan daha zəif görünürdü. Hələ də yuxulu olan xumar, mavigözlü uşaq başını aşağı salıb, dayısının qarşısında titrəyirdi.

Qara paltar geymiş, sifətinə meyit rəngi çökmüş Mələk xanım qapının ağzında dayanmışdı, söhbətə qarışmırdı.

Saib paşa bu gün sərt və acıqlı deyildi. Lakin ağır, əzici bir etinasızlıqla deyirdi:

– Çox tez başlamısan, balaca... Görünür atanı mütləq rəhmətlə yad elətdirmək fikrindəsən... Heç olmasa üç-dörd il də gözləyəydin. Bəlkə qorxmusan ki, o vaxta qədər bizdə çırpışdırmağa bir şey qalmaz? Atandan sənə miras qalan qızıl qolbaq sağ olsun! Daha çırpışdırmağa başqa şey tapmadın, ay axmaq!..

Kənan nə dayısının zəhər kimi acı sözlərinə cavab verir, nə də onun üzünə baxa bilirdi. Yalnız saatı oğurlamadığını göstərmək istəyirmiş kimi hərdənbir balaca, titrək ovuclarını açırdı.

– Hələ bir bunun görkəminə baxın. Cinayətkarlar da məhkəmə qarşısında belə dayanırlar. Sən indi məndən qorxma, oğlum. Hər necə olsa, bədbəxtlikdən dayınam, dərdi-sərini mən çəkməliyəm. Səni asıb, kəsmərəm. Ancaq belə getsə, tezliklə dövlət məhkəmələrinin qabağında dayanacaqsan... Orada isə dəyənək var, həbs var, bir az da irəli getsən,

dar ağacı var. . İndı iş bundadır ki, səninlə bərabər biz də rüsvay olacağıq... Yaxşı, uzatma, saatı haraya qoymusan gətir ver.

Kənan nə isə demək istədi Ancaq çənəsi titrəyir, solğun dodaqlarından səs çıxmırdı. Yalnız gözlərini yumaraq "yaxşı" demək istəyirmiş kimi bir neçə kərə başını tərpətdi. Ayaqları bir-birinə dolaşa-dolaşa otaqdan çıxdı.

Mələk xanım durduğu yerdə nə qədər çalışdısa da iztirabını gizlədə bilmədi, gözləri yaşla doldu, əlləri ilə üzünü örtdü.

Saib paşa qaşlarını çatdı, bacısının üzünə baxmadan dedi:

– Qurdun balası qurd olar, bacım. Bu, təbiətin qanunudur... Nail ilə həyat qurmağına nahaq yerə etiraz etmirdik. Görürsənmi, bizə də, özünə də nə etdin?

Qapı yavaşca cırıldadı, Kənan əlində üzünə məxmər çəkilmiş köhnə, kıçik bir qutu içəri girdi. O, titrək barmaqları ilə qutunun qapağını açmaq istəyir, ancaq heç cür aça bilmirdi. Bir neçə dəfə qutunu əlindən yerə saldı.

Saib paşa onun üzünə baxmadan qutunu Kənanın əlindən aldı, açdı, içində başqa bir saat vardı; Kənana atasından yadigar qalmış o kiçık saat...

Saib paşa onu əlinə aldı və:

– Bu nədir? – deyə heyrətlə soruşdu.

Kənan bu dəfə ürəklənib başını qaldırdı. Gözyaşı onun uzun kirpiklərini islatmış, mavi gözlərinin qarşısına pərdə çəkmişdi. O, dayısının üzünə baxdı, hıçqırmamaq üçün var qüvvəsini toplayıb:

– Onun əvəzinə bunu götürün, – dedi, – paşa dayım! Mənə acığınız tutmasın, vallah sizin saatınız məndə deyil.

Bir neçə dəqiqə sonra Saib paşanın arvadı itən saatı gətirdi. Saat jiletin sökük cibindən astarın içinə düşmüşdü.

Mələk xanım ağlaya-ağlaya oğlunun əlindən tutdu.

– Sizi narahat edırık, qardaş... – dedi. – İcazə verin, balalarımı götürüb, Tülkülükdəki komaya köçüm.

Saib paşa onu bu fikirdən döndərmək üçün çox çalışdı. Sözünə baxmasa yenə peşman olacağını söylədi. Mələk xanımın başı daşdan-daşa dəymişdi. Dünyanın da işini bilmək olmaz. Kim deyə bilərdi ki, günün birində o yenə qardaşına möhtac olmayacaq.

Bununla belə Mələk xanım qərarından dönmədi. Əslində o elə buradan getmək barədə çoxdan fikirləşirdi. Qardaşının evində günü nə



qədər xoş keçsə də, yenə özünü qonaq kımi hiss edir, heç cür ev xanımı, ailə başçısı ola bilmirdi. Xoşluqla ayrılmaq, qardaşını incitməmək üçün çox dil tökdü:

– Atamız sayılırsan, dara düşsək, əlbəttə, bizə yenə sən əl tutacaqsan, – deyə onu razı sala bildi.

* * *

Öz evlərində güzəranları yoxsul keçsə də, qulağı dinc və rahat yaşayırdılar. Bu üçotaqlı kıçik ev dar, gündüşməz bir küçənin qurtaracağında idi. Onlar evin qabağındakı kiçik bağçanı təmizləmiş, orada çoxlu çiçək əkmişdilər.

Kənan Bəylər küçəsindəki rüşdiyyəyə[1] gedirdi. Boyu yavaş-yavaş uzanmağa, sifəti qəşəngləşməyə başlamışdı Qarayanız üzünün xoş rəngi, incə, zərif cizgiləri, bir qədər də əsəbi görünüşü ilə Kənan daha çox atasına, tünd-mavi gözləri, gözəl sədəf dişləri ilə isə anasına oxşayırdı.

Nə qədər ki, o, uşaqdı, bu bənzəyiş hətta təbiətin istehzası, zarafatı kimi görünürdü. Çünki zərif çöhrənin bu rəngi ilə, tünd-mavi gözlər, ağappaq dişlər heç cür bir-birınə yaraşmırdı. Qəşəng uşaq olsa da, ona diqqətlə fikır verənlər buna gülürdülər.

Lakın ilk gənclık təravəti ilə birlikdə, bu simada bəzi başqa gözəlliklər də doğmağa başlamışdı. Onun qarayanız üzünə xoş bir işıq qonur, gözləri, incə al dodaqları, sədəftək parıldayan ağ dişləri onun üzünə qəribə bir cazibədarlıq verirdi.

Ancaq o, yenə də əvvəlki kimi çəkıngən, süst və şaşqın təbiətli idi. Məktəbdə də dayısı evində olduğu kimi, uşaqlardan uzaq dolanır, yenə nəzakətli, utancaq, mehriban ciddiyyətini saxlayaraq dəcəl uşaqları həmişəki kimi özü ilə hesablaşmağa məcbur edirdi.

Küçə həyatını heç sevmirdi. Yalnız hava çox gözəl olanda, bəzən, axşamüstü anası ilə Top altına, yaxud Qədifə qalasına[2] baxmağa gedərdilər. Kənan çalışqan şagird deyildi. Dərslərinə o qədər də fikir ver-

[1] XIX əsrın ortalarında Türkiyədə yaradılmış ibtidai məktəb. O zamankı baş nazir, Türkiyədəki Tənzımat adlanan islahata başçılıq etmış Reşid paşanın şərəfinə, bu tipli məktəblərə rüşdiyyə adı verılmişdi

[2] İzmir civarındakı tarıxi memarlıq abidələrı

məzdi Ancaq ev işlərində anasına əl tutar, hətta ona bir şey toxumaqda və tikməkdə də kömək edərdi. Qonşular decəl Əfifədən daha çox, onu qıza bənzədərdilər Uşaq vaxtlarında olduğu kimi, yenə də elə bir arzusu, istəyi yoxdu. Anası hələ də onun ürəklə bir şey istədiyini görməmişdi.

Dünyada yalnız bircə şey onun sakit qəlbini təlatümə gətirir, ruhunda həyəcana, həvəsə bənzər hisslər oyadırdı: o da musiqi idi.

Evlərinin yaxınlığında qədim bir təkyə vardı. Bazar ertəsi axşamlar orada dini ayindən sonra musiqi çalırdılar.

Kənan bu ayin axşamlarında bütün ruhu ilə yaşadığını duyur, həmin axşamları səbırsizliklə gözləyirdi. Uzaq bir məhəllədən buraya əlində fənər, əynində rəngi getmiş əba olan yaşlı bir mınbaşı[1] da gəlırdi. Camaat ona çox hörmət edirdi, gözəl bır udu olduğunu söyləyirdilər.

O çaldığı zaman, Kənan bir kənara çəkilib özünü unudur, nəzərlərini uzaqda görünən qəbirıstana zilləyir, yaşadığı dünyadan ayrılıb ruhən başqa bir aləmə köçürdü.

Atasının sınıq, köhnə udu bir küncə atılıb qalmışdı. Bu təsirlər altında Kənan hərdənbir onu bağrına basır, bildiyi havaları çalmağa cəhd edirdi Lakin qoca minbaşının əlində dərdli ınsanlar kimi sızıldayan ud, Kənanla heç bir şey danışmırdı. Odur kı, bu ilk təcrübədən çox məyus olmuş Kənan atasının qırıq udunu yenə bir tərəfə atmışdı.

Musiqi dərsi alması bır yana dursun, onun heç udunu köklətdirməyə də bir adamı yoxdu. Utancaq və məğrur olduğu üçün heç kımə, heç o qoca minbaşıya da ağız açmırdı. Düşünürdü ki, onun bu arzusundan xəbər tutsalar ona gülərlər, hələ bəlkə ona pis nəzərlə də baxarlar.

* * *

Mələk xanım hər il üzüm yetişən vaxtı Bozyaxaya gedir, Saib paşanın bağında bir-iki ay qonaq qalırdı. Bu qayda ilə o, həm qardaşının könlünü alır, həm də şəhərdə darıxmış uşaqlarını bır qədər əyləndirirdi.

Kənan bu iki payız ayını çox sevərdi. Küçədə oynamaqdan xoşlanmayan, saatlarla susub qalmaq üçün qaranlıq, tənha guşələr axtaran, süst, tənbəl Kənan burada tamamilə dəyişərdi. Solğun, qarayanız yanaqları

[1] Köhnə türk ordusunda polkovnikə verilmiş ad



allanar, kədərli ruhuna nəşə gələrdi; səhərin sərınliyində, aylı axşamlarda bağda gəzməkdən, qumun üstündə hərlənməkdən zövq alardı. Ancaq orada da yenə başqa uşaqlara yovuşmaz, tək gəzərdi

Kənan həyatında ilk dəfə idi ki, özünə burada bir dost tapmışdı... Bu, özündən qırx yaş böyük olan Şəmi dədə idi. Şəmi dədə Rumeli[1] mühacirlərindən idi. Otuz beş il bundan qabaq çiynində bir zənbil, qoltuğunda da bir ney torbası İzmirə gəlmiş, əlində olan az-maz pulu verib Bozyaxada bir bağ almışdı.

Bağın bir kənarında çox qoca və hündur bir sərv ağacı vardı. Dədə illərlə çalışmış-çapalamış, sərv ağacının yanında ikiotaqlı bir daş daxma tikdirmişdi. Yay-qış o, Bozyaxada yaşayırdı. Bır işlə məşğul olsun deyə o, üç-dörd keçi də saxlayırdı. Qoca bu keçiləri öz balaları kımi sevirdi

Bozyaxalılar danışırdılar kı, xeyli vaxt bundan əvvəl, çox soyuq keçən bir qış vaxtı Şəmi dədənin pulu qurtarır, hətta bir neçə gün ac da qalır. Vəziyyətini kımsəyə deməsə də, yaxındakı bağ gözətçiləri bunu hiss edir, Şəmi dədəyə çörək göndərirlər. Dədə isə keçilərinin daha ac olduğunu söyləyərək, çörəyi onlara yedirir Bozyaxalılar bunu dədənin heyvanlara olan məhəbbətinə dəlil hesab edirlər Ancaq onun özgə çörəyi yemək istəmədiyi üçün bu cür etdiyini söyləyənlər də vardı.

Şəmi dədə Kənanın ruhundakı ağır, məğmun ciddiyyətin səbəbini çox gözəl başa düşmüşdü, onu övlad kimi, hətta yaşlı-başlı bır yoldaş kimi sevmişdi. Bəzən isti günlərdə onlar bir səbətə pendır, çörək, üzüm qoyub, keçiləri də qabaqlarına qataraq Ərəb dərəsinə enərdilər

Dədə bu dərin, gündüşməz dərəyə öz bağçası kimı bələddi Orada ömründə günəş görməmiş guşələr tapmışdı.

Günortaçağı kölgəsiz bağlar yaman istı olur, qaya parçaları od tutub yanır kimi görünür, gölməçələrdən buğ qalxır. Belə vaxtlarda Şəmi dədə ilə Kənan sərin kölgəli cığırlarla dərəyə enər, sellərin açdığı xırda qobuların üstündən atılar, yosunlu daşlarından sular damcılayan qayaların altından keçib gedərdilər.

Onlar, çox vaxt gəlib "Zeybəklər[2] bulağı" deyilən yerdə oturardılar. Açıq yaralara bənzəyən qırmızı yarğanlarla dolu bu yerdə əzəmətli bir

[1] Osmanlı imperiyasının Balkan yarımadasındakı əyalətləri (Bolqarıstan, Makedoniya və s.) belə adlanardı İndi Ədirnə, Qırxlareli, Tekirdağ və İstanbul vilayətinin Avropa hissəsi də Rumeli adlanır

[2] Qərbi Anadoluda İzmir, Aydın vilayətlərində yaşayan geyim, musiqi, ayin və b etnoqrafik xüsusiyyətləri ilə başqalarından çox seçilən, azadlıqsevən qədim bir tayfa

qaya vardı. Aradan keçən illər və rütubət bu qayanın ətəklərini yavaş-yavaş "gəminb didmiş", altında sərin, kımsəsiz bir mağara əmələ gətirmişdi. Mağaranın görünməz, qaranlıq bir yerindən xoş bir su şırıltısı gəlirdi, yosunlu daşların və daima nəm qayalığın üstündə yabanı otlar, bənövşəyi çiçəkləri olan tikanlar bitirdi, kənarlarından sarmaşığa bənzəyən zərif budaqlarda qaya üzümlərinin açıq-çəhrayı rəngli çiçəkləri sallanırdı.

Kənan ruhunda başqa bir aləm olan, özü də bu aləmdə yaşayan, sevən sənətkarlardandı. Uzaqdan baxanlara mənasız, susmuş, cansız kimi görünən ilk gəncliyini Kənan bu ikinci aləmdə, sönməyən bir gizli həyəcan, yarımxəyali bir məstlık içində keçirmişdi. Kənan bu xəyali dünyanı ilk dəfə "Zeybəklər bulağı"nda, Şəmi dədənin neyini dinlərkən hiss etməyə başlamışdı. Onun bu qoca dostu da bir başqa cür xəyal dəlisi idi. Bir adəti vardı: bir şey çalmazdan qabaq Kənana əvvəlcə onun sözlərini oxuyar, mənasını anladardı:

– Bax, oğlum! Ay doğur. Aşiq ay işığında ayaqyalın, başıaçıq, sevgılisini görmək üçün yol üstə çıxır. Yar artıq yuxudan oyanmalıdır Çünkı röyasına girməyən sevgilisi, indi elə bil onun qoynuna girmişdır. Sən bunları hələ başa düşməzsən, Kənan. İnsan sevgilisıni çox istəyəndə onun xəyalını da görməz olur. İndi bunları gözünün qabağına gətir, sonra qulaq as, yoxsa sənın keçilərımdən heç bir fərqın olmaz, çaldığımı başa düşməzsən.

Dədə sözsüz bir parça çalmaq, sadəcə bir hiss ifadə etmək istəyəndə də bu adətini yaddan çıxarmazdı.

– Bax, indi qoyunları çağıracağam. Yum gözlərinı. Qarşıdakı dağlardan sürülər enəcək. Bulaqlar başında sevgililər mey içəcək. Aşiqlər məşuqələrinin sünbül saçlarını qoxulayacaq. Mən çalarkən sən bunları düşün, sünbülləri qoxula...

Payızda havalar bulanmağa başlayar, göy üzündə buludlar dolaşar, külək yarpaqları qabağına qatıb qovardı. Saralmış çardaqlardan, yarpaqları tökülməyə başlamış ağaclardan meyvələr, salxımlar sallanar, yerə sərilmiş həsirlərın üstündə qızılı üzümlər quruyar, yollardan ardı-arası kəsilməyən üzüm səbətləri yığılmış arabalar, yüklü at karvanları keçərdi. Bozyaxa, əslində bu günlərdə xeyli canlanar, musiqi, qəhqəhə və mahnı səsləri hər tərəfi bürüyərdi. Səhərə qədər bağlardan çalğı səsi kəsilməz, yollarda əllərində məşəllər yanan dəstələr gəzişərdi.



Yayda gizli qalmış bütün kiçık sevda sirləri bu zaman aşkara çıxırdı Axşamüstü bağın kənarındakı yoldan keçən qonşu gənclərə gizlicə çiçək atan, bağları bir-birindən ayıran çəpərlərin arasından ay işığında min nazla barmaqlarının ucunu öpdürən gənc qızlara bu vaxt məyus bir cəsarət gələrdi. Çünki bir də görüşmək üçün səkkiz-doqquz ay gözləmək lazımdı. Daha naz vaxtı deyildi

Tıkanlı yollarda, gənc qızların qırmızı, ağ, mavi geyimlərini artıq gizlədə bilməyən ağaclıqlarda əhd-peyman bağlanar, ayrılıq busələri verılər, lent uclarına saçlardan bağlanmış tellər dəyiş-düyüş edilərdi.

Kənan belə günlərdə yaman kədərli, süst görünərdi. Payızda sönən, solan, xarab olan şeylərin getdikcə artan kədərını o, yaşına yaraşmayan bir həssaslıqla hiss edirdi.

Şəmi dədə Kənanı hər il bir qədər daha böyümüş, onun musiqiyə olan həvəsinin daha da artmış olduğunu görürdü

Yaxşı bir fürsət düşmüşdü. Qonşu evlərdən birınə olduqca gözəl kaman çalan bir reji[1] məmuru köçmüşdü. Məsud bəy adlanan bu adam Kənanın böyük bir zövq və istedad sahibi olduğunu hiss edib, həftədə bir neçə saat ona dərs verməyə başladı. Kənan bu sahədə böyük bır sürətlə inkişaf edırdi.

Saib paşa Kənanın kaman çalmasından xəbər tutanda cin atına minmiş, hakimanə bir tərzdə:

– Qurdun balası qurd olar, – demiş, dərdi yenə təzələnmişdi. – Deyəndə kı, bu uşaqdan adam olmaz, mənə inanmırsınız. Məktəbinın müəllimlərindən utanıram. Hər dəfə görəndə şikayət edırlər Onu sinifdən sinfə çox çətinlıklə keçırirlər. O da mənim xatirımə. Fıkrini kaman çalmağa vermək əvəzinə dərslərinə versə, nə olar? Yox, gərək atasına oxşasın. Bəli, gözümüz aydın, bacıoğlumuz çalğıçı olacaq, toylarda qaraçılarla birlikdə diringi çalacaqdır.

* * *

Saib paşa bir gün bağ qonşusu Münır bəylə qəhvə içərkən·

– Xeyirxahlığınıza görə sizə çox böyük etimad və hörmətim olduğunu bilirsiniz, – dedi. – Mühüm bir məsələ barədə zati-alinizlə

[1] Türkiyənin milli gəlirının mühum bir qismini təşkil edən tütün inhisarına nəzarət edən idarə

məsləhətləşmək istəyirəm. Bilirsiniz ki, mənim bir avara bacıoğlum var, tənbəlin, fərsizin biridir. Üstündə göz olmaq, söz başa salmaq mümkün deyil. Əminəm ki, ondan adam olmayacaq... Allah xatasını başımızdan uzaq eləsin On yeddi yaşı var. Min əziyyətlə bu il edadini[1] bitirdi. Elə düşünməyin ki, bildiyi bir şey var. Bizim Cəmillə Sədi onun yanında Əflatundurlar (Saib paşa oğlanlarından birini fransız, digərini isə ingilis məktəbinə qoymuşdu. Öyrəndikləri "gəl, get, otur, dur" kəlmələri idi, amma ataları bunu eşidəndə onları mükəmməl təhsil almış adamlar hesab edirdi). Kənanı ali məktəblərin birinə göndərməyin mənası yoxdur. Deyirəm, Zeytun burnu[2] fabriki kimi bir hərbi sənət müəssisəsinə verək. Orada həm bir sənət öyrənər, həm də oralardakı möhkəm hərbi nizam-intizam onu düzəldər. Zati-alinizin İstanbulda tanışı çoxdur. Bəlkə birinə bu haqda bir neçə kəlmə yazasınız. Oğlanı da çağırım bir görün.

Münir bəy ipə-sapa yatmayan, kobud, qılıqsız bir küçə uşağı görəcəyini zənn edirdi. Amma gözəl boy-buxunu, incə, təndürüst görkəmi olan qəşəng qarayanız üzlü, gülümsər, mavigözlü zərif və həyalı bir gənc görəndə heyrət etdi.

Münir bəy az danışmasına, soruşulan şeylərə tək-tək sözlə cavab verməsinə baxmayaraq onun mülayim, həssas bir oğlan olduğunu başa düşdü, qonşusunun yanında böyük hörməti olmasından istifadə edərək, nəhayət, Kənanı İstanbula mühəndislik məktəbinə göndərməyə onu razı saldı.

* * *

Kənan İzmirdə anası, bacısı, Bozyaxa və Şəmi dədə ilə bərabər, bir də məsum, nakam ilk gənclik sevdasını qoyub gedirdi: Leyla!.. Leyla böyük vəzifəli bir mülkiyyə[3] məmurunun qızı idi. Kənan Karantində, dayısıgilin evində olanda onu tez-tez görürdü. Bundan başqa, Leylagilin ailəsi də yay aylarında Bozyaxa bağlarına köçürdü. Lap kiçik vaxtı Leyla nadinc, şıltaq bir qız idi. Başqa uşaqlarla heç yola getməz, yalnız Kənanla yaxşı dolanardı. Aralarında ən çoxu iki yaş fərq vardı. Odur

[1] Sultan Türkiyəsində orta məktəb
[2] İzmir civarında, hərbi zavodlar olan bir yer adı
[3] Sultanlıq dövründə Türkiyədə hərbi olmayan dövlət idarələri belə adlanırdı.



ki, Kənan ona böyük qayğı ilə yanaşar, bu balaca, dəcəl qızın hər əzabına dözər, bir sözünü iki eləməzdi.

Bu yay Bozyaxaya gələndə Kənan onun birdən-birə boy atdığının, gənc bir qız olmasının fərqinə vardı Kənan artıq onunla danışmaq istəmir, bağarası yollarda rastına çıxanda dindirməmək üçün gözlərini yerə dikirdi. Leyla isə yenə əvvəlki kimi çox zarafatcıl, açıq-saçıq bir qızdı.

Bir gün yenə dar bağ yolunda rastlaşdılar, qız əlindəki çətirlə onun yolunu kəsdi.

– Keçə bilməyəcəksiniz, Kənan bəy. Məndən nə uçun incidiyinizi deməsəniz, sizə yol verməyəcəyəm

Kənan gülümsəyərək dedi:

– Sizdən niyə inciyirəm ki?

Leyla çətirlə tikanların başını qıra-qıra dodaqlarını büzüb durmuşdu.

– Mənimlə çox soyuq davranırsınız. Məni daha heç sevmirsiniz.

Bu sözlər elə bil saf bir körpənin dodaqlarından tökülmüşdü.

Kənan başını aşağı saldı, yavaş, çox dərindən gələn bir səslə.

– Eləmi zənn edirsiniz, Leyla xanım? – deyə cavab verdi

Bu sözlər onun Leylaya olan çılğın məhəbbətinin ilk və son etirafı idi. Kənan bu balaca qızı çoxdan bəri idi ki, dəlicəsinə sevirdi. Bu məhəbbəti ona Leylanın iri, qara gözləri aşılamışdı. O, dunyada Leyladan başqa heç kəsi sevə bilməyəcəyini, ürəyində onun həsrəti, gözlərində onun xəyalı ilə öləcəyini düşünürdü. Bir uşaq kimi, ümidsizliyə qapıldığı halda, yaşlı bir adam kimi halını, vəziyyətini kimsəyə duydurmamağa çalışırdı. Uzun gecələri gözünü yummadan bu haqda çox düşünmüşdü. Heç bir çarə, heç bir ümid yeri yox idi Bu gözəl kübar qızı sevmək Kənan üçün göydəki ulduzlardan birini ələ keçirmək kimi bir şey idi. Ürəyindən keçənləri bilsələr, kim bilir, ona nə qədər gülərdilər. Leylaya bu barədə bir şey sezdirmək ehtimalı onu ölümdən betər qorxudurdu. Kənan çox məğrurdu O qədər sevdiyi Leylanın bu ümidsiz sevda ilə əylənməsi Kənan üçün dözülməz bir dərd olardı

Bununla birlikdə, o, gənc qızın keçəcəyini təxmin etdiyi yollarda saatlarla dolaşırdı. Lakin onu görər-görməz ya yolunu dəyişir, ya da başını aşağı salıb yanından keçib-gedirdi.

Leyla onun bu sevgisini çoxdan hiss etmiş, ancaq... buna gulməmişdi. Əksinə, o da Kənanı bəyənir, zərif, qarayanız üzü, həyalı mavi gözləri olan bu oğlanı tanıdığı bütün gənclərdən üstun tuturdu.

Yol üstündəki həmin təsadüfdən sonra Leylanın, Kənanın onu sevdiyinə heç bir şübhəsi qalmadı. Başqa qonşu qızları kimi o da Kənanla sevişmək, aylı gecələrdə evdən qısa fasilələrlə qaçıb görüşə gəlmək, onunla qol-qola gəzmək istəyirdi. Lakın Kənan onun açıq-aşkar etdiyi təklifləri anlaşılmaz bir ınadla rədd edir, "bu uşaqlıqdan əl çəkməsi" üçün qıza yalvararkən çox vaxt özü ağlayırdı.

Kənanın İstanbula getməsinə iki gün qalmış bağda son dəfə rastlaşdılar. Leyla özünü saxlaya bilmir, yaylığı ilə üzünü örtərək ağlayırdı.

– Mənə məktub yazacaqsanmı, Kənan?

– Xeyr... Mümkün deyil...

– Bir neçə il sonra sən mühəndis olanda biz evlənərik, elə deyilmi, Kənan?

– Nə üçün bunu söyləyirsən, Leyla xanım?

– Sən də məni... sevirsən, elə deyilmi, Kənan?

– ...

– Niyə cavab vermirsən?

– Ağlamayın, Leyla xanım . Mən sizə layiqəmmi?

– Anan məni anamdan istəsin... Hələlik nişanlanarıq...

– Mənmi, Leyla xanım... Sizi mənim üçünmü istəsinlər?

İndi ağlamaq növbəsi ona gəlmişdi. Göz yaşlarını gizlətmək üçün üzünü yana çevirdi. Leyla od kimi yanan əlləri ilə onun biləklərini tutmuşdu Qız özünü bir an onun ağuşuna atmaq istədi. Kənan isə ümidsiz sevdasının bütün çılğınlığına baxmayaraq, Leyladan uzaqlaşıb ağlaya-ağlaya oradan qaçdı. Bu cür izzəti-nəfs sahibi, yaşlı adam kimi belə fədakarlıq etdiyi vaxt onun vur-tut on yeddi yaşı vardı.

O biri il Kənan tətil vaxtı İzmirə gedəndə, Leylanın Saib paşanın böyük oğlu Cəmilə nişanlandığını öyrəndi. O qədər də məyus olmadı: əslində Kənan Leylaya olan məhəbbətini bir il əvvəl qəbirə gömmüş, Leylası üçün doyunca, ağlaya bildiyi qədər ağlamışdı.

O, yalnız bir şeyə peşman idı. "Madam ki, bundan sonra sevməyəcəyəm, niyə fürsət var ikən Leylamı bir kərə də olsun bağrıma basmadım" deyirdi.

Kənanın bu ilk məhəbbəti bir müddət sonra sönmüş, lakin onun izi, əsəri həzin və gizli bir həsrət kimi illər boyu qəlbindən silinməmişdi. İyirmi yaşına girəndə Kənan tamam süst, lal-dinməz bir gənc olmuşdu.

Məktəbdə Cavad adlı bir yoldaşı vardı. Xasiyyətləri, təbiətləri, hətta zövqləri arasında qətiyyən uyğunluq yox idi. Cavad şən, kələkbaz, zəkalı bir əsilzadə oğlu idi. Buna baxmayaraq bir-birilərini çox sevirdilər.



Cavad yoldaşını bir az şənləndirib əyləndirmək, bir az həyata bağlamaq istəyirdi. Lakin bütün səyi boşa çıxırdı. O, bəzən Kənana:

– Sən hissiz deyilsən, Kənan, – deyirdi. – Bunu başa düşmək üçün kaman çalmağına qulaq asmaq da vacib deyil, elə bir dəfə halına, üzünə baxmaq kifayətdir. İndi ki, belədır, nə üçün heç bir şeydə gözün yoxdur. Niyə bu qədər süstsən?

Kənan yavaşca çiyinlərini çəkır, həmişə olduğu kimi dalğın təbəssümlə:

– Nə bilim... Belə doğulmuşam, – deyə cavab verirdi

Kənan heç də belə doğulmamışdı Ondakı əməl, ondakı yaşamaq həvəsi dünyalara sığışmayacaq qədər böyükdü. Lakin o, həyatının yoxsulluq və müvəffəqiyyətsizlik içində keçəcəyinə vaxtından çox tez inanmış, bəxtindən küsmüşdü. O, yarımçıq səadətdən xoşlanmazdı Axıra qədər içib qurtaracağına əmin olmadığı bir qədəhi dodaqlarına aparmazdı.

Onun fikrincə sənət kimi həyatda da iki yol arasında durub qalmaq mümkün deyildi. Həyatda müvəffəq olanlar istədikləri, bacardıqları kimi yaşarlar, o birilər – bədbəxtlər isə qaranlıq bir guşəyə çəkilib məhrumiyyətlərini gizlətməyə çalışırlar

Dünyada ən çox iyrəndiyi insanlar zənginlərin və xoşbəxtlərin dövrəsində yaşayan, onların səadətlərinin tör-töküntüləri ilə bəxtiyar olmağa çalışanlardı. Adi bir daxmanın pəncərəsində yaraşıqlı pərdə, yaxud gənc bir qadının paltar və qab-qaşıq yumaqdan qırışmış barmağında üzük görəndə həmişə acıyar, gülərdi. Bunlar nəyə lazımdır? İnsan öz halını başa düşməli, əldə edə biləcəyi bir şeyi mümkünsə sevməməli, mümkün deyilsə, bu arzunu könlündə gizlətməlidir.

Sonralar Kənanda qəti bir qərar şəkli alan bu fikir, onun varlığında lap kiçik yaşlarından hakim bir hiss kimi yaşayırdı. Hələ balaca uşaq ikən bu hisslə bütün hüquqlarından vaz keçmiş, zəngin, qayğısız dayıuşaqlarından, onların evindəki dəbdəbəli mühitdən bu hisslə uzaq dolanmış, nəhayət, eşqini, Leylasından bu məqsədlə gizlətmişdi.

Kənan qəlbindəki sirləri yalnız musiqi ilə ifadə edirdi Kaman onun əlində, yeniyetmə bir gəncin qəlbindən necə gəldiyinə heyrət ediləcək qədər canlı, dərin bir iztirabla inləyirdi.

O, edadi kimi, mühəndislik məktəbini də çətinliklə bitirmiş, ancaq buna baxmayaraq kaman çalmaqda çox irəli getmişdi. İzmirə qayıtmaq istəmirdi. Çünki indi anası da orada yoxdu. Mələk xanım Əfifəni

Seyidikoydə, bir tacir oğluna ərə vermiş, toydan bir il sonra özü də oraya köçmüşdü.

Kənanın İstanbulda bir elə tanınmış adamı olmadığına görə yaxşı qulluq tapıb, irəli getməyə imkanı yoxdu. Dostları ona musiqi müəllimliyi eləməyi məsləhət görmüş, ona rüşdiyyə məktəblərində bir neçə yerdə nəğmə dərsi və yoxsul məhəllələrdə iki-üç yerdə kaman müəllimliyi tapmışdılar.

Beşiktaşda[1] kimsəsiz bir qadının evində bir otaq tutmuşdu. Yağış bilmir, palçıq demir, qoltuğunda kaman səhərdən axşama qədər məktəbdən məktəbə, evdən evə qaçırdı. Əslində onu üzən cismani yorğunluq deyildi O, hər gün bir az da alçaldığını, həssas qürurunu bir az da itirdiyini hiss edirdi.

Məktəblərdə onun sənətinə əhəmiyyət vermirdilər. Rüşdiyyə məktəblərinin birində bir müdir vardı ki, indi də xəstələnib eləyəndə, həmin müdir əyri qılçaları, lopa bığı, kifir görkəmi ilə gəlib gözünün qabağında durardı. Bu adam nədənsə Kənanı həmişə əsarətdə saxlamağa çalışırdı. Onun həlimliyini, vüqarını başqalarından fərqli olaraq, izzətinəfsini qorumağa çalışdığını görəndə daha da qızışırdı. Dərs zamanı atmilçəyi kimi Kənanın yaxasından əl çəkmirdi, tez-tez söhbətə qarışır, xəbərdarlıqlar edir, göstərişlər verirdi.

– Əfəndim, niyə bunların səsi çıxmır? Təntənəli mərasimlərdə biabır oluruq Nədir o, memar Qasım məktəbi, əfəndim... Onları görəndə ağzımın suyu axır. Keçən Fateh mərasimində[2] məktəbimiz Ayasofya[3] məscidinin qabağında dayanmışdı... Bir olan Allah haqqı, memar Qasım məktəbinin qayalar tərəfdə oxuduğu marşı biz burada, Ayasofyada eşidirdik. Allah yaman gözdən saxlasın, çox yaxşı bir müəllimləri var. Uşaqlar orkestrin səsini batırırdı . Hərçənd siz də bacarıqlısınız, ancaq nədənsə yavaş oxutdurursunuz... Heyif, bizim prinsipə ziddir... Bir az cəhd edin.

Sonra bu müdir əfəndi bir nümayişdə Kənana tapşırdı ki, qoluna və belinə məktəbin qırmızı-yaşıl lentini bağlayıb, şagirdlərin qabağına düşsün və küçədə bağıra-bağıra marş oxusun, komanda versin. Kənan bundan boyun qaçırdığına görə müdir onu işdən çıxartdırdı.

Başqa bir müdir, oğlunun sünnət toyunda kaman çalmadığına görə Kənandan incimişdi, ona görə də beş-on gün sonra belə bir şikayət

---

[1] İstanbulda məhəllə adıdır

[2] İstanbulu işğal etmiş (1453) Sultan Məhəmməd Fatehə həsr edilən bayram

[3] Bizans dövründən qalmış, sonralar məscidə çevrilmiş, indi muzey olan qiymətli, tarixi bina



raportu yazmışdı: "Dediyimiz müəllim, gənclərə vətənpərvəranə milli şərqilərlə təsir etmək əvəzinə, elmi tərbiyə prinsiplərinə zidd olaraq başına bir dəstə toplayıb onlarla güzəran-dolanacaq söhbətləri edir". Maarif müdiri raportu yoxlamağı əyyaşlıqda ad çıxarmış bir müfəttişə tapşırmışdı. Kənan bu yoxlama gününü də unudulmaz xatirələr sırasına yazmışdı.

Müfəttişin çox içki içməkdən şişmiş üzünü qan laxtaları, göyərmiş burnunu isə irinli sızanaqlar basmışdı, dili pəltəkləşmişdi. Müfəttiş küncdə kresloda oturub, bir tərəfdən Kənanı sorğu-sual edir, bir tərəfdən də əlində balaca bir qayçı şalvarının pürçümlənmiş balaqlarını düzəldirdi.

– Əzizim, raportdan belə çıxır ki, sizin bilik təcrübəniz mübahisə doğurur. Zati-aliniz vətənpərvərənə milli marşlar bilmirmi?

– Bəzilərini bilirəm, əfəndim

– Bəs nə üçün uşaqlara öyrətmirsiniz?

– Bir-ikisini bilirlər, əfəndim

– Qənaəti-vicdaniyyəmi bildirmək məcburiyyətində olduğum üçün bilik və iqtidarınız haqqında bir qərara gəlməyim lazımdır .. Sıxılmayınız canım... Müəllim tayfası sərbəst olmalıdır

Kənan dalğın bir nəzərlə pəncərədən görünən xarabalığa baxır, cavab vermirdi.

– Bəs onda necə edək?

– ...

– Məni çətin vəziyyətdə qoyursunuz.

– Xeyr, əfəndim... Əksinə, bu işi çox asanlıqla qurtaracağıq. Bu saat işdən çıxmağım haqqında ərizə yazacağam.

* * *

İndi Kənan ancaq evlərdə verdiyi dərslərdən gələn qazanc ilə dolanmaq məcburiyyətində qalmışdı, buna görə də yaman sınıxmışdı Həzin nəqarət kimi ağzına belə bir söz düşmüşdü; hər evin qapısını döyərkən başını aşağı salır və öz-özünə:

– Ah, nə qədər alçalıram, – deyirdi.

Bu iş insanlığı və heysiyyəti kimi səhhətinə də təsir edir, zəif vücudunu, xəstə əsəblərini daha da pozurdu.

Axı övladlığa götürülmüş qızlardan yetişmiş xanımlara bir-iki hava oxutmaq, qonşu oğlanlarına özlərini göstərməyə tələsən məhəllə qızlarına kaman çalmağı öyrətmək onun işi deyildi.

Görürsən ki, süpürgə tutmağı bacarmayan məhəllə arvadları iyirmi gündə şərqi havası çalmaq istəyirlər. Kamanı qrammofondan fərqləndirə bilməyən ailə başçıları "iki aydır dərsə başlamısınız, bir az cəhd eləyin, bunu bir aya qurtaraq" kimi sözlər söyləyirdilər. "O biri müəllim bizə türkülər, şərqilər çalardı. Siz niyə çalmırsınız?" – deyə şikayət edənlər də olurdu.

Kənan bəzən də elə sözlər eşidirdi ki, bu onu həm güldürür, həm də mütəəssir edirdi.

– Bu, çala bilmək nə yaxşı şeydir. Adam həm əylənir, həm də pul qazanır.

– Mədihə, başını ört. Ayişə xanım, mən mətbəxə gedirəm, sən Mədihənin yanında qal...

– Bir az üzünüzü o tərəfə çevirin, dəhlizdən qonaqlar keçəcək.

– Sifətiniz mənə tanış gəlir. Bilmirəm harada görmüşəm. Dəllal Arif əfəndinin toyuna gələn kamançalan siz idiniz?

– Siz subaysınız? Niyə evlənmirsiniz? Yəqin, sizə də bir qız verən olar.

– Bayram payınızı ayırmışdıq, xidmətçi axmaq, bilməyib götürüb gözətçiyə verib.

– Bu gün quzu və halva bişirmişdik. Sizin də payınızı saxlamışıq.

– Qızın köhnə müəlliminin gözəl səsi vardı, həm çalır, həm də oxuyurdu. Onda dərs qızın başına daha yaxşı girir...

– Könlünüzə dəyməsin, kaman çalmaq qaraçılara yaraşır.

Məktəbi bitirməsindən iki il idi ki, keçirdi. Kütahiyədə[1] ona bir yol mühəndisliyi təklif elədilər. Kənan sərsəri musiqi müəllimliyindən canını qurtardığına xeyli sevindi, İstanbulu məmnuniyyətlə tərk etdi. Artıq öz ixtisasında işləyərək dolanacaq, musiqini isə yalnız özü üçün çalacaqdı. Lakin çox keçmədən bu ümidinin də boşa çıxdığını gördü. Kütahiyədəki həyatı ona İstanbuldakından daha solğun, daha mənasız göründü. İstanbulda heç olmasa boş vaxtlarında dinc idi. Belə vaxtlarda bir tərəfə çəkilib tək-tənha xəyala dalmasına heç kəs mane olmurdu. Burada o da mümkün deyildi. Qonşuları, yoldaşları, xüsusən amirləri onu

[1] Qərbi Anadoluda vilayət mərkəzi olan bir şəhər



lap cana gətirirdilər. Onlar Kənanı tək qoymur, nə vaxt məşğul olmaq bəhanəsi ilə evinə çəkilsə, tez başının üstünü alırdılar. Kənan uşaqlığında olduğu kimi yenə həlim və yumşaq təbiətli idi. Heç kəsin könlünü qırmaq istəmirdi, üzə durmurdu. Yoldaşlarının könlünü xoş etmək üçün istədikləri havaları çalırdı. Onlar isə getdikcə daha da həyasızlaşırdılar. Kənanı lap qəsəbə çalğıçısına çevirmişdilər.

Kənan buraya gələndə şəhərdə kələkbaz və dərvişanə həyat sürən bir mütəsərrif[1] vardı. O əylənməyi, zövqü çox sevir, tez-tez eyş-işrət məclisləri, gecə əyləncələri düzəldirdi. Sərxoş olanda pencəyini çıxarıb ortaya atılır, əllərinə qaşıq bağlayıb, Aydınlı[2] baş vergi katibini də qabağına salaraq saatlarla atılıb-düşürdü.

Kənan həmişə çaldığı uşaq havalarını bir maşın kimi hissizcə ifa edərək öz-özünə düşünürdü: "Dayım haqlı imiş, musiqini sevənlər mütləq alçalmağa, çalğıçı olmağa məhkum imişlər. O qədər səyim, cəhdim boşa getdi. Yaman düşkünləşmişəm. Həyatım da ruhum kimi səfil olub".

Bir neçə ay sonra bu mütəsərrifin əvəzinə başqasını təyin etdilər. Yerinə gələn acıqlı, sərt bir qoca idi. O, işə başlayandan bir neçə gün sonra Kənanı yanına çağırdı:

– Musiqi gözəl şeydir, ancaq rəsmi vəzifəyə mane olmamaq şərtilə. Onsuz da deyirlər ki, işçilər avaraçılığa meyil edirlər. Bunun da işə təsiri olur... Bu gecə məclislərinə son qoyulmasını, sizin kamanınızla məmur yoldaşlarınıza başçılıq etməmənizi tələb edirəm. Zatən, rəsmi işiniz də xeyli çox və ağırdır.

Bu ara Kənan köhnə yoldaşı Cavaddan bir məktub aldı. Oxumaq məqsədilə Avropaya getmiş Cavad orada işlərini yoluna qoymuş, hətta xırda ticarətlə də məşğul olmağa başlamışdı. Həyatından razılıq eləyir, Kənanı da yanına çağırırdı. O yazırdı: "Kütahiyədəki vəzifən çətin tapılan hind parçası deyil ki! Bir-iki yüz lirə tapa bilsən, durma gəl. Biz burada ucuz və rahat yaşamağın təhərini öyrənmişik. Özün ağıllı adamsan. Sənə işini asanlaşdıran başqa yollar da göstərə bilərəm. Burada həm bir neçə il gözün-könlün açılar, həm də əməlli-başlı bir konservatoriyada sevdiyin peşənin dalınca gedərsən. Mühəndisliyin dadını hər halda

[1] Osmanlı dövlətində məmur. Bu, validən kiçik qəza rəisindən böyük vəzifə sayılırdı.

[2] Aydın – Qərbi Anadoluda, Böyük Menderes çayı vadisində vilayət mərkəzi olan şəhər

bilmisən. Sən kamanından yenə əl çəkmə, sənin fövqəladə istedadın olduğuna inamım var. Bəxtin gətirsə, bir vaxt böyük adam olarsan".

Kənan bu məktubu alandan bir neçə həftə sonra, anasını və Əfifəni görmək üçün bir aylığa izin alıb Seyidiköyə getdi. Bir axşam anasının yanında bu məktubdan söz açdı

Bu dəfə oğlunun halı Mələk xanımın heç xoşuna gəlməmişdi. Gözünə xəstə kimi dəyirdi. Bət-bənizi saralmışdı. Əhvalından, görünüşündən düşkün bir qocaya oxşayırdı.

Kənan nə üçün bu qədər düşmüş, niyə bu yaşda yaşamaqdan bezmiş, yorulmuşdu? Onu bir az xoşbəxt görmək, kədərli gözlərinə bir qədər həyat və nəşə vermək üçün əcəba bir çarə yox idimi?

Mələk xanım gecələr yatağında uzun müddət bunları düşünür, gizlin-gizlin oğlunun bilinməyən dərdinə ağlayırdı. Cavadın məktubu çarəsizlik içində çırpınan anaya ümid çırağı kimi göründü.

– Yoldaşın bəlkə haqlıdır, Kənan Bir neçə illiyə Avropaya get. Bəlkə dediyi kimi oldu.

Kənan anası ilə razılaşdığını açıb demirdi, onun əllərini sığallayaraq gözlərini yerə dikmiş halda:

– Mənim məsum, saf və zavallı anam, – deyə bildi.

– Niyə elə deyirsən, Kənan?

– Məni dünyaya bir quş olaraq gətirsəydin, bu bəlkə də mümkün olardı. Əngin göylərdə qanad çalar, uçardım. Yorulanda ağacların budaqlarına, gəmilərin dorlarına qonar, dincələrdim. Susayanda atəşimi çayların suyu ilə söndürər, acanda Allahdan başqa kimsənin malı olmayan yabanı ağacların meyvəsi ilə keçinərdim. Qiyamət səyahət olardı, elə deyilmi, ana?

Kənan dediyinə peşman olub susmuş, bu gizli dərdi üçün gizli bir əfv istəyirmiş kimi anasının gözlərini öpməyə başlamışdı.

Mələk xanım onun nə demək istədiyini anlamamışdı. Oğlunun saçlarını, çənəsini oxşayaraq:

– Kənan, – demişdi, – mən Kəməraltındakı kiçik dükanımızı sənin üçün saxlayırdım. Bir gün özümüzə layiq yaxşı bir qızla evlənəcəyini düşünürdüm. Bu ümidim boşa çıxdı. Gəl dükanı sataq, bundan gələcək bir neçə yüz lirəni götür, get dostunun yanına.

– Nə danışırsan, ana? Mən heç nə istəmirəm. Mənim həyatım artıq puç olub Mən də atamın gününə düşmüşəm... Fikir eləmə, ana, yəqin ki, həmişə belə davam etməyəcək. Yaşım artdıqca bu məğlub vəziyyətimə bəlkə də alışaram. Kim bilir, bəlkə taleyimlə razılaşacağam. Kim bilir, bəlkə ömrümüzün axırlarında bir az xoşbəxt də olduq.



Kənan anasını bu fikrindən döndərmək üçün günlərcə çalışdı. Ancaq Mələk xanım bu son ümidindən əl çəkmir, uşaq kimi ağlayır, yalvarırdı.

Nəhayət, Kənan razı oldu. Madam ki, bu fikir anası üçün xoş bir təsəlli idi, zavallı qadının bu son məsum xəyalına toxunmağın nə mənası vardı?

* * *

Saib paşa dükanın satılmasından gələn bir-iki yüz lirəni Kənanın lap üç ayda xərcləyəcəyini söyləmiş, dördüncü ay İzmirə qayıda bilməsi üçün gəlmək biletini də bəri başdan almağı məsləhət görmüşdü. Paşanın bu təxmini doğru çıxmadı. Kənan dörd il Avropada qaldı. Dolanmasına kömək etmək üçün Cavad ona kiçik bir iş tapmışdı. Kənan işdən sonra qalan bütün vaxtını incəsənətə həsr edirdi. O, çox böyük bir səylə çalışırdı. Onu əldən salan və əsəblərini pozan acı xəyallara qapılmağa vaxtı qalmırdı. Münzəvi, ürkək ruhu yavaş-yavaş açılmağa başlamışdı. Hətta bəzən kiçik macəraları da olurdu Leyladan sonra tamamilə boş, unudulmuş qəlbində yeni hisslər yanıb-sönürdü. Tanış-bilişləri onun ağır, ciddi, lakin munis, yumşaq təbiətini sevirdilər. Gözəl, qəşəng çöhrəsində hələ də uşaqlıqdan qalan o məzlumluq nişanəsi onu bir çox adama sevdirmişdi.

Kənan sənət dünyasında qeyri-adi bir surətlə yüksəlirdi O, yalnız kaman çalmağını yaxşılaşdırmaqla qalmamışdı. Musiqi sahəsində xeyli geniş axtarışlar da aparırdı Məşhur bir musiqi ustadının təşəbbüsü ilə verdiyi ilk konsert ona böyük müvəffəqiyyət qazandırdı. Görkəmli bir musiqi tənqidçisi onun haqqında kütlənin rəyini bu sözlərlə ifadə etmişdi:

"Bu gənc türk musiqişünasının kamil ustadlıq mərtəbəsinə yaxınlaşmış bir virtuoz olduğunu hamı gördü. Ancaq mən onda başqa keyfiyyətlər də görürəm. Hüseyn Kənan yalnız başqalarının bəstələdiyi parçaları, başqalarının ruhunu yüksək surətdə anlayıb ifadə etməklə kifayətlənməyəcək. Onun özünün də bizə söyləməli gözəl, təmiz, dərin şeyləri var. Düzdür, sadə bəstələnmiş "Şərq gecələri"ndə bəzi xamlıq və qəribəliklər, xoşagəlməz tərəddüdlər, hətta təbəssüm doğuran ibtidailiklər yox deyil. Bunu inkar etmək olmaz. Bəs bu bir az bəsit, bir

az mütərəddid musiqi hansı məziyyəti ilə bizi özünə bu qədər aludə etdi, niyə bizim ruhumuzu bu qədər təlatümə gətirdi? Bu gənc hələlik kəkələyir, lakin gələcəkdə çox gözəl danışacaq, gözəl şeylər söyləyəcək. Kənanın məmləkətinin obrazlı dili ilə söyləyəcək olsam, deyərəm ki, bu gənc hələ təzə pərvazlanan quşa bənzəyir. Onun tərəddüdlərindən, hətta müvəqqəti süqutlarından qorxmamalıyıq. İstedadı onu çox irəli aparacaq".

* * *

Tale artıq Kənanın üzünə gülməyə başlamışdı. Onun bu müvəffəqiyyəti İstanbulun günü-gününə, dəqiqəsi dəqiqəsinə bənzəməyən bu gözəl buqələmunumuzun sənətkarı sevən xoş vaxtına təsadüf etmişdi. Şəhər dörd-beş il bundan əvvəl yanac yola saldığı Kənana indi bir dahi, bir büt kimi ağuşunu açmışdı Avropa onu böyük sənətkar kimi tanıdıqdan sonra bu gəncin istedadına şübhə etmək, onun musiqisinə laqeydlık göstərmək olmazdı.

Şişlinin[1] sənətkarlar salonlarından tutmuş Balıqlı[2] yarmarkasındakı palıkaryalara[3], sandıqburunun[4] əhli-dillərinə qədər hamı "Şərq gecələri"ni dinləmişdi, bu musiqi pianodan tutmuş qrammofona qədər bütün çalğı alətlərində aylarca çalınmışdı.

Bu müvəffəqiyyət, əvvəllər Kənanı bir qədər çaşdırdı, o hələ də müvəffəqiyyətinə inanmırdı:

– "Mümkün deyil, bu hal davam edə bilməz", – deyirdi. Odur ki, Kənan bu şöhrətinə əvvəllər etinasızlıq göstərmiş, yaşayışını dəyişdirməməyi qərara almışdı.

İndi onun İstanbulda bir çox hamiləri, xeyırxah dostları meydana çıxmışdı. Varlı bir tacir ona ali musiqi məktəbi açmaq, böyük miras almış veyil, lakin gözüaçıq birisi, "opera truppası" düzəltmək üçün ona xeyli pul təklif etmişdi. O vaxt ictimai işlər naziri vəzifəsini tutan bir musiqişünas paşa da onu xüsusi dəftərxanasına müdir qoymaq istəmişdi. Sənəti ilə ona təklif olunan vəzifə arasında heç bir yaxınlıq görməyən Kənan şaşqın-şaşqın paşanın üzünə baxanda o:

[1] İstanbulda əsasən zəngin, kübar ailələrin və görkəmli sənət adamlarının yaşadığı məhəllə
[2] İstanbulda balıq bazarı
[3] İstanbulda yunanlı gənclərə verilən ad Burada xırda alverçilər nəzərdə tutulur
[4] İstanbulun əsasən yoxsul peşəkarlar və fəhlələr yaşayan məhəlləsi



– Nə zərəri var, oğlum, – demişdi. – Mən də musiqişünasam, lakin bu mənim vəzifəmi ifa etməyimə mane olurmu?

Gənc bəstəkar bu cür namünasib təklifləri rədd etmiş və yenə əvvəllərdə olduğu kimi dərs deyib yaşamaq istəmişdi. Amma indi İstanbulun bütün kübar və varlı adamları onun tələbəsi olmağa can atırdı. Kənandan dərs almayan xanım qızların musiqi təhsili yarımçıq sayılırdı. Kənan ümid etdiyindən daha çox pul qazanmağa başlamışdı.

İlk zamanlar həyat tərzi kimi əvvəlki dərdli və bədbin görünüşünü saxlamışdı. Böyük faciələrdən xilas olmuş adamlar kimi ürəyində bir səksəkə, uzun müddət soyuqda qalanlartək daxilində onu heç cür tərk etməyən bir ürpəniş vardı.

Kənan öz-özünə düşünürdü: "Bu müvəffəqiyyət mənə balaca vaxtımda, gəncliyimin ilk zamanlarında niyə qismət olmadı. Qəlbim söndü, həvəslərim söndü, həyatım ömürlük şikəst oldu... İndi bunlar nəyimə lazımdır..."

Ancaq Kənan yanılırdı, ruhi aləmindən yaxşı baş açmırdı Özünü yorğun və bezgin bir adam sanan bu gənc əslində təzəcə yaşamağa başlayırdı. Təbiət öz işini görürdü, Kənanın rıqqətə, şəfqətə, ümid və sevgiyə möhtac ruhu bir az gecikmiş bahar qüvvəti və hərarəti ilə yavaş-yavaş açılırdı. Əsil sönənlər, əsil ölənlər isə vaxtilə çox gənc bir hərarət və əməllə yaşayan yoldaşları, qohumları idi. Onlar vücudlarını yıpratmış, qəlblərini yormuş, ömürlərinin həyəcan və məhəbbət nəsibini vaxtsız tükətmişdilər. Onlar indi vücudları, üzlərinin cizgiləri belə qabalaşmış iş adamları, yaxud yorğun, bezgin insanlardı. Onlar üçün həyatda heç bir gizli guşə, heç bir yeni hiss qalmamışdı. Halbuki Kənan uşaqlıq dövrünün, ilk gəncliyinin ağır, qaranlıq yuxusundan hələ yenicə oyanır, körpə gözləri kimi məsum mavi gözləri həyata və işığa hələ təzəcə açılırdı.

On beş yaşında ikən o, yorğun qocalara bənzəyirdi. İndi otuz yaşından sonra isə on beş yaşlı məktəbli uşaqlar kimi yeni hisslərlə titrəməyə başlamışdı. Eşitdiyi tərif və təqdirlər nəticəsində onda əvvəllər mövcud utancaqlıq və ürkək mərdimgirizlik yavaş-yavaş keçib gedirdi. Danışığında şən bir ahəng, sərbəstlik vardı, uca və zərif vücudunun hərəkətlərində bir canlanma duyulurdu.

Hətta bir balaca ərköyünləşmişdi də. Uzun müddət şəfqətdən məhrum qalmış uşaqlar kimi bir az nazlanmağı da sevirdi. Yorğun çöhrəsi gündən-günə gözəlləşir, kamanından axıb gələn nəğmələr kimi təzə, cazibəli bir şirinliyə malik olurdu.

Bır neçə il əvvəl, İstanbulda günlərini tənhalıq içində keçirən Kənanın, indi hətta işlərini görüb qurtarmağa vaxtı çatmırdı

Yoldaşları, dostları onu bir gün belə rahat buraxmır, üzüyumşaqlığından istifadə edərək onu hətta bir az səfahətə də alışdırırdılar.

Bu yay həm əsərini bitirmək, həm də anası və bacısını görmək üçün Seyidiköyə getməyi qərara almışdı Saib paşa qiyamət qopartdı, İstanbula teleqramı teleqram üstündən yağdırdı: "Gözünün işığı, iftixarı" olan Kənanı görmək istədiyini bildirdi.

Böyük dayısının üstündən adlayıb keçmək vicdansızlıq, hörmətsizlik olardı. Odur ki, gənc sənətkar dayısının təkidinə müqavimət göstərə bilmədi. Düşündü kı, dayısının sözünü yerə salsa ona "lovğa nankor" deyərlər.

Bir də ki, Bozyaxanı, illər boyu yoxsul, sönük həyat keçirdiyi yerləri, ömrünün indiki xoşbəxt çağında bir daha görmək istəyirdi

### III

Gəminin uçüncü fiti eşidildi, gedənləri ötürməyə gələnlər asma pilləlvalərlə düşüb qayıqlara oturmuşdular.

Münir bəy bir az kənarda Cavidanla söhbət eləyən Kənanı səslədi:

– İki dəqiqə də geciksən gəmidə qalacağıq... Düşək, Kənan...

Şahzadə Vəfiq paşa Kənanın əlini sıxdı, ürəkdən, çox səmimi:

– Haydı, cavan ustad, – dedi. – Söhbətinizın ardını iki aydan sonra davam etdirərsiniz... İşləyin, inanıram ki, operanızla böyük müvəffəqiyyət qazanacaqsınız.. Bu qışı İstanbulda keçirmək istəyirdik... Ancaq əsərinizin ilk tamaşasına baxmaq məsələsi ortaya çıxdı. Kənan bəyin müvəffəqiyyətini görmək bir səyahət zəhmətinə dəyər; elə deyilmi, Cavidan?

Qız xoş bir təbəssümlə:

– Əlbəttə, atacan, – dedi. – Buna söz ola bilməz.

Sonra əlini Kənana uzatdı:

– Əsəriniz haqqında bizə bir neçə kəlmə də olsa, məlumat verərsiniz, yaxşımı?

Kənan Cavidanın əlıni öpdü, gülərək onun öz sözünü təkrar etdi:

– Əlbəttə, buna söz ola bilməz, əfəndim

Münir bəy asma pilləkənlə enərək arxasınca gələn Kənana yavaşca:

– Kənan deyəsən, arxamda şadlığından rəqs edirsən? – dedi. – İkimizi də dənizə yıxarsan.



Gəmi yavaş-yavaş hərəkət etməyə başlamışdı Kənan gəmi pərlərinin yaratdığı dalğalar içində qalxıb-enən qayıqdan hələ də yaylıq sallayırdı.

Münir bəy məmnun halda, bir az da mənalı-mənalı gülümsünərək·

– Allah mübarək eləsin, Kənan, – dedi. – İndi xeyir iş barədə fikirləşmək lazımdır... İnşallah özün kimi sənətkar, arvadın kimi gözəl uşaqların olar.

Kənan qızararaq gülümsədi, söhbətin nədən getdiyini başa düşmürmüş kimi:

– Nə üçün? – deyə soruşdu.

Yandan gələn bir dalğa Münir bəyın şalvarını islatdı, o yaylığı ilə qurulaya-qurulaya:

– Mənim izah eləməyimə lüzum varmı, oğlum? – dedi

– Xeyr... Ancaq sizi inandırıram ki, o barədə heç bir şey danışmamışıq.

– Bəli, bu da həmin o "buna söz ola bilməz" qəbilindəndır.

Münir bəy sonra ciddi və ağır bir səslə sözünə davam etdi:

– Fövqəladə bir hadisə üz verməsə, bu işi baş tutmuş hesab etmək olar Düzdür, paşa bu barədə açıqca bir şey söyləmədi, ancaq səndən xoşu gəlir. Fikir vermədinmi? Sənətin bəxş elədiyi nəcibliyin heç bir nəciblıklə müqayisə edilmədiyini neçə dəfə təkrar etdi... Qıza gəlincə... Bunu, yəqin ki, sən məndən yaxşı hiss etdin. . Bır sözlə, iki gündə ikisinin də ürəyini fəth eləmisən... Bu izdivaca heç bir manеə yoxdur... Bununla belə mənim fikrımi bilmək istəsən mən buna sizin qədər də tərəfdar deyiləm... Mənim də başqa cür mulahizəm var.. Mühitləriniz tamamilə başqa-başqadır, zövqləriniz də, təbii ki, elə. Cavidanın xasiyyəti ümumiyyətlə, yaxşıdır. Ancaq onu həddindən artıq ərköyün böyütmüşlər... Sənə gəlincə... Eh, mən də gör nə boş-boş şeylər danışıram . Mənə heç qulaq belə asmırsan .. Nəzərin, fikrin başqa yerdədir. Hər halda xoşbəxt olmağını istəyirəm. Dayın bu məsələni eşidəndə, kim bilir, nə qədər razı qalacaq...

– Rica edirəm ona heç şey deməyin.

– Baş üstə... İndi, Bozyaxaya bir yerdə qayıdarıq, elə deyilmi, Kənan?

– Xeyr, mən sabah gələcəyəm. Axşam məni Qarşıyaxaya[1] qonaq çağırıblar.

[1] İzmir civarında, dəniz sahilində, zəngin ailələrin yaşadığı məhəllə

– Sən elə hər axşam qonaq gedirsən. Bəs nə vaxt işləyəcəksən?

– Bu axırıncısı olacaq, Münir bəy əfəndi. Sabahdan etibarən qollarımı çırmalayıb işə başlayacağam.

– "İnşallah" deyək ki, elə olsun.

Qayıq körpüyə yan aldı. Kənan cəld hərəkətlə qayıqdan sahilə atıldı və əlini Münir bəyə uzatdı.

* * *

Qarşıyaxaya səfər edən axırıncı gəmi sahildən aralananda axşam olmuşdu. Menemen[1] ovalığından sərin və ahəstə bir yel əsir, hələ tamamilə sönməmiş qürub şəfəqləri körfəzdəki xırdaca dalğalara incə, qızılı naxışlar vururdu.

Kənan azca kefli idi. İki-üç yoldaşı ilə bir az pivə içmişdilər. O, gəminin sürahısına dirsəklənib üzünü İzmirə tərəf çevirmişdi. Sahil küçəsinin dəbdəbəli gecə həyatı yavaş-yavaş canlanmağa başlayırdı. Yaxında görünən kazino, onun əlvan kağızlardan düzəldilmiş fənərləri misilsiz Çin rəsmlərinə bənzəyirdi. Burada Kənanın mahnılarından birini çalırdılar. Kənan bu parçanı ilk dəfə eşidirmiş kimi, dərin bir həzlə dinləyir, küləyin havaya dağıtdığı ən kiçik hissələri də eşitsin deyə səs gələn tərəfə boylanırdı.

Gəmi uzaqlaşmış, kazinodan bir rəngli ziya xəyalı, musiqidən isə güclə eşidilən bir nəfəs qalmışdı. Kənan hələ də gözlərini kazinonun olduğu nöqtədən ayırmırdı. Bu dəfə lap yaxında başqa bir kaman sızıldamağa başladı. Yenə həmin havanı çalırdılar.

Kənan başını geri çevirdi. Çalan qoca və kor bir dilənçi idi. O, göyərtəyə qalxan pilləkənin sürahısına söykənmişdi. Onun iri şapkası yanındakı uşağın əlində idi. Qoca uzun saçlarını küləyin ixtiyarına vermişdi. Çatlamış, köhnə, o qədər də yaxşı köklənməmiş bir kamanı vardı. Bununla belə, Kənan bu qoca dilənçidə bir sənətkar ruhu sezdi.

Pilləkənin üstündən asılmış fənər qocanın geniş, qırış-qırış olmuş alnına işıq salırdı. O isə sönmüş gözləri ilə başqa bir aləmə baxırmış kimi, başını yuxarı qaldıraraq çalırdı. Hərdən yayı yorğun-yorğun aşağı salır, dərin bir nəfəs aldıqdan sonra yenidən çalmağa başlayırdı.

[1] İzmirin şimal-qərbində bol suyu, məhsuldar torpaqları ilə məşhur ovalıq



Çalınan yazıq, qoca bir korun sınıq, vecsiz kamanı idi. Lakin Kənan öz mahnısında bu qədər dərin xəyal və məhəbbət olduğunu indiki kimi heç vaxt duya bilməmişdi.

Yanında birisinin dərindən köks ötürdüyünü eşitdi. Bu, matəm paltarı geyinmiş yaşlı bir qadındı. Üzünü gizlədib ağ bir yaylıqla gözlərinin yaşını silirdi. O biri tərəfdə çalbığlı, hündür bir kişi yorğun-yorğun qollarını yanına salmışdı. Kənan bir az əvvəl nəşə ilə gülüb danışan, açıq rəngli paltar geyinmiş iki məktəbli qıza baxdı. İndi onlar da susmuşdular. Biri sarışın başını rəfiqəsinin çiyninə söykəyib, dərin bir kədərlə qaranlığı seyr edirdi. Kənan şikəst sənətkara bir də baxdı. Fənərin donuq haləsi altında əvvəlki vəziyyətdə dayanmış qoca başını bir az yuxarı qaldırıb çalırdı, dodaqlarında bir xəyal, cavanlara məxsus bir təbəssüm dolaşırdı.

Kənan getdikcə artan məstlik içərisində öz-özünə düşünürdü: "Bu yazıq da bir vaxt cavan olmuşdur.. Gözləri bəlkə o vaxt görürmüş... Yəqin ki, onun da bir Leylası varmış... Ehtimal ki, o da mənim kimi Leylasının gözlərinin həsrəti ilə gizli-gizli ağlamışdır... Kim bilir, həyatında nə cür müsibətlər görmüşdür... Ancaq bu dəqiqə özünü xoşbəxt hiss etdiyinə şübhəm yoxdur... Nə olsun ki, indi gözləri görmür? Mənim də saatlarca qaranlığa çəkildiyim, saatlarca özümü bilə-bilə korluğa vurduğum vaxtlar olur... Xəyal aləmimi daha yaxşı görə bilmək üçün ətrafımdakı dünyanın işıqlarına qəsdən göz yummurammı? . Bu saat bu yazıq kişi xoşbəxt görünür... Ona bu səadəti mən vermişəm: o, itirmiş olduğu dünyanı görür, mənim sayəmdə o, sevdiklərini görür, Leylasını görür... Həyatının göz yaşları ilə axıda bilmədiyi acılarını mənim musiqimlə axıdır... Bunu bircə o edirmi? Bu yaslı qoca qadınla bu məktəbli qızları da bu dəqiqədə xoşbəxt edən mənəm. . Bu qadının itirdiyi hər kim isə – su çiçəkləri kimi zərif bir qızımı, qəzaya qurban getmiş cavan bir oğlumu, ömrünün ən gözəl çağlarını qolları arasında keçirdiyi sevimli ərimi, hər kim isə bu qadın, indi onu görür, onunla yaşayır.

Bu kiçik məktəbli qızları bu saat xoşbəxt edən mənəm. Dünyada bəlkə heç vaxt görməyəcəkləri xəyali sevgililərini bu dəqiqədə onlara mən göstərirəm. Ömürlərinin səadəti bəlkə elə bu dəqiqədə mənim göstərdiyim röyadan ibarət olaraq qalacaq".

Qoca kamanı daha çalmırdı. Sahil yaxınlaşırdı. Qarşıyaxa körpüsündən dənizə tökülən işıqlar gəminin ətrafında üzür, pərlərin əmələ gətirdiyi dalğacıqlarda elə bil ulduz qaynağı köpüklənirdi.

Kənan hələ də bu məstedici xəyaldan ayrıla bilməmişdi: "İndi bu saat mən dünyanın, kim bilir nə qədər olkəsində yaşayıram... Nə qədər adam mənim bəstələdiyim mahnılarla gülür, ağlayır, sevir, xoşbəxt olur... Özüm də artıq yaşamağa, xoşbəxt olmağa başlayıram Sevirəm, sevdiyimi söyləməkdən çəkinmirəm. Hərçənd kı, səadətim gecikmişdır, qəlbimdə bir çox şey dağılıb məhv olmuşdur. . Böyük hisslər duymağa qabiliyyətim yoxdur. Leylanı sevdiyim zamanlarda olan vəfa və ehtirasım qalmamışdır. Məhəbbət macəralarım isə indi göydə axıb-keçən ulduzlara bənzəyir, qəlbimə ötəri bır işıq saldıqdan sonra sönüb gedirlər.. İzmirə gəldiyim gün Nemət xanımı Bozyaxadakı bağda qonaq gördum. Üzunə baxar-baxmaz bu genc, gözəl və bədbəxt qadını sevməyə başladım Ərının, bu qədər gözəl, incə olan bir qadını başlıbaşına buraxmasına heyrət etdim. Həm də səmimi bir saflıqla...

Ertəsi axşam Münir bəyin köşkündə şahzadə Cavidana rast gəldım. Şahzadə qızın misilsiz gözəlliyi qarşısında Nemət xanım birdən-bırə sönük bir xatirəyə çevrildi. Nişanlı gözü ilə baxdığım Cavidanı ehtiraslı bir eşqlə sevir, səmimi bır saflıqla fikirləşirdim ki, bu qəşəng qızdan ayrı düşsəm, necə yaşayaram.

İndi də qonaq getdiyim evdə məni gözləyən madmazel Lilianı, bu açıq alagözlü, italiyalı artıstı düşünürəm. Zavallı Cavidana indidən xəyanət edirəm.. Bəlı, qəlbim böyük sevdalara, coşqun ehtiraslara ləyaqətini itırmişdir. Indi başa düşürəm ki, Leyla məni vaxtı ilə yamanca məhv etmiş, qəlbimi xarabaya döndərmişdi... Sevgi indi qəlbimdən dodaqlarıma çıxmışdır... O artıq birının digərını unutdurduğu busələrlə bır nəğmə, bir təbəssüm kimi yalnız dodaqlarımda yaşayacaq... Bununla belə, bəlkə xoşbəxt olmaq üçün əsil çarə elə budur. Sevdanı dodaqlarımdan o yana buraxmamaq, zəhər kimi qəlbə axmasına yol verməmək".

## IV

Saib paşa Bozyaxadakı bağının bir tərəfində, əsas binadan xeyli uzaqda gözəl, kıçik bir köşk tikdirmişdi. O, hərdənbir vali, maliyyə müdiri və komandan kimi böyük vəzifə sahiblərini bağında ziyafətə, axşam məclislərinə dəvət edər, onlara həmin xüsusi binada qonaqlıq verərdi. İzmir qəzetlərındən biri zarafatla bu köşkü "Mərasim binası" adlandırmışdı Saib paşanın rişxəndi başa düşmədiyini, əksinə bundan xoşlandığını görən havayıyeyən dostları o gündən bu kiçik köşkü belə adlandırırdılar.



"Mərasim binası" hündür bir yerdə idi Buradan həm Qızıl çöl tərəflər, həm Ərəb dərəsi, həm də Kokarya təpələri arasından körfəzin kıçik bir parçası görünürdü.

Saib paşa "göz bəbəyi və iftixarı" olan Kənana bu "Mərasim binası"nı vermişdi. Köşkün döşədilməsinə şəxsən özu nəzarət etmiş, Kənandan xəbərsiz, Karantindəki evindən buraya mebellə yanaşı, bir piano da gətirtmişdi. Xidmətçilərə, uşaqlara möhkəm-möhkəm. – Kənan bəyi narahat eləməyin, – deyə tapşırmışdı. – Muhum bir əsər yazır Asudə fikirləşməyə ehtiyacı var . Bütün dünyanın qəzetləri yenə şəklini çap edəcək, hətta köşkün də fotosunu verəcəklər... Adət belədir

Onun bu canfəşanlığını görən Kənan

– Paşa dayım, – deyirdi, – bilmirəm sizin xəcalətinizdən necə çıxacağam.

Dayısı isə ona:

– Eybi yoxdur, oğlum . – deyə cavab verirdi – İnşallah işini qurtarandan sonra bır bələdiyyə marşı yazarsan.

Kənan işə başlamağa tələsmir, hələlik kefi istədiyi qədər əylənırdi Ərköyün, yaramaz, dəcəl uşaqlara dönmüşdü.

Əlləri cibində fit çala-çala dərəni-təpəni dolaşır, yer şumlayan bağbanlara kömək edır, bağarası cığırlarda oğlanlarla oynayırdı

Bağdakı uşaqların başçısı olmuşdu. Cürbəcür şən, gurultulu oyunlar düzəldir, aşıq-aşıq, gizlənpaç, əsiralma oyunlarını uşaqlardan daha çox həvəslə oynayırdı.

Bir gün yenə başına bir dəstə uşaq toplayıb Şəmi dədə ilə zarafat etməyə getmişdi Qoca dərviş bu vaxt:

– Zarafat bir yana qalsın, Kənan, – dedi – Mən sənə heyrət etməyə başlayıram, oğlum... Kiçik ikən quzu kimi dinc idin .. Səsini-səmirını eşitməzdik...

Kənan əda ilə çiyinlərıni çəkərək·

– Vaxtilə bu balacaların ataları, anaları ilə oynaya bilməmişdim, – dedi, – indi özləri ilə oynayıram, babacığım.. Həvəsim qəlbimdə gömülüb qalıbmış nədir, bilmirəm, yəqin indi uşaqlıq günlərının əvəzini çıxıram.

Bunları deyərkən yavaş-yavaş uzünə, səsinə bir hüzn çökür, gözlərı Ərəb dərəsi boğazının uzaq yerlərinə tərəf zillənirdi. O birdən silkindi, dərindən bir ah çəkib yenidən əvvəlki tək neşələndi:

– Haydı uşaqlar, getdik, – dedi.

Kənanı yalnız uşaqlar deyil, böyüklər də sevirdi. Onun bu, gənclərə xas tükənməz yaşamaq nəşəsi üzünə, sözlərinə qəribə bir cazibədarlıq verirdi.

Uşaqlarla uşaq olan Kənan, cavanlarla danışanda həyat eşqi və məhəbbəti coşub daşan bir gənc olurdu. Nemət xanımla olan macərası da umulmaz bir sürətlə irəliləyirdi. Gənc qadın bütün vüqar və təmkinini unudur, Kənana məzlum bir uşaq kimi təslim olurdu.

Bir səhər Nemət xanım "Mərasim binası"nın qapısı ağzına gəldi, Kənandan bir kitab istədi.

Kənan:

– Niyə içəri girmirsiniz? – deyə soruşdu.

Nemət xanım qeyri-ixtiyari güldü, "belə şey olar?" demək istədi, ancaq utanıb:

– Münirə məni gözləyir, – dedi.

Kənan dəcəl uşaqlara xas bir cürətlə güldü, əllərini belinə qoyaraq:

– Vay, vay, sən bir səbəbə bax, – deyə əylənməyə başladı.

Bu dəfə Nemət xanım ürəkləndi:

– Əgər əsil səbəbi bilirsinizsə, bəs onda nə üçün soruşursunuz?

Kənan ona yaxınlaşdı.

– Əsil səbəbi bilirəm, ancaq onu boş şey hesab edirəm, – dedi. – Məndən qorxursunuz, elə deyilmi?

Nemət xanım yarızarafat, yarıciddi bir hiddət və heyrətlə etiraz etdi:

– Sizdən? Nə üçün?

– Kim bilir... Bəlkə məsələn, qorxursunuz ki, sizi zorla öpərəm...

Bu xoşagəlməz bir sırtıqlıq idi. Gənc qadın qıpqırmızı oldu, acıqlandı:

– Kənan bəy, rica edirəm. . – dedi.

Kənan nə çəkindi, nə də buna əhəmiyyət verdi

Bayaqkı kimi cəsarət və küstahlıqla gənc qadının biləklərindən tutdu, bir göz qırpımında yanağından öpüb buraxdı.

– Gördünüzmü, bunda qorxulası heç bir şey yoxdur, – dedi.

Bunu o qədər cəld və o qədər dəlicəsinə elədi ki, Nemət xanım Kənana acı, sərt bir söz demək istədisə də bacarmadı, əsəbi qəhqəhələrlə gülərək oradan uzaqlaşdı.

O, ağacların arası ilə qaçarkən Kənan da gülürdü. Sonra onun üzündəki təbəssüm yavaş-yavaş söndü, əlləri cibində fikirli-fikirli içəri keçdi: "Həyat nə qəribədir. Vaxtilə bu qarşıdakı ağaclıqda Leyladan



ayrılmışdım... Onu bir dəfə bağrıma bassaydım, illərlə özümü xoşbəxt hesab edərdim. Lakin bunu edə bilmədim, fikirləşdim ki, hər şeydən məhrum, çarəsiz gənc bir oğlanın belə hərəkəti çirkin bir həyasızlıq olar. İndi isə mən özümü bir küçə cahılı kimi apardım. Utanmadan, çəkinmədən, çardaqdan bir salxım üzüm dərirmiş kimi bu gənc qadını öpdüm... Özünü hirslənmiş kimi göstərdi... Ancaq əminəm ki, onun mənə acığı tutmadı... Deməк, müvəffəqiyyət hər şeyə haqq qazandırır".

Kənan, günəşə baxan pəncərələri kip örtülmüş yarıqaranlıq otağa girmişdi. Piano üstündə duran kamana baxdı, ona bir dost kimi müraciət edərək:

– Bozyaxada darıxmayacağıq, – dedi. – Bu gözəl gənc qadınla bir-iki aylıq macəramız olacaq. . Bütün xoşbəxtliyim kimi bunun üçün də mən sənə borcluyam... Təşəkkür edirəm.

## V

– Bozyaxanın bütün üzüm növlərindən dadmısınız. Kənan bəy... İstanbulun xınalı yapıncağından[1] istəmirsinizmi?

İkindi çağı idi. Uşaq, böyük istidən bağın bir küncündəki küknar ağaclarının kölgəsinə toplaşmışdı. Bura Qırx çamlara gedən yolun üstündə kiçik bir meşə qoruğu idi. Yayda hər tərəf od tutub yananda, bura sərin və kölgəli olurdu.

Şamlıq tərəfdən həmişə sərin yel əsir, ağzı gen quyu isə buranı daima rütubətli saxlayırdı. Əslində bağda səbzəvat əkilən yerlə quraqlığa davamsız bəzi meynələr bu quyunun suyu ilə suvarılırdı.

Mancanağa qoşulmuş "Qərib", bağın bu zəhmətkeş heyvanı və onun uşaq kimi sevilən balası "Kərəm" quyunun ətrafında dolandıqca daş novlardan buz kimi soyuq su axırdı.

O gün quyu başı həmişəkindən tünlükdü. Ağaclar arasında asılmış bir nənnidə yan-yana iki körpə yatırdı. Sərin həsirlər üzərində yarı uzanmış qız və gəlinlər nə isə toxuyur, yaylıq, örpək qırağı işləyirdilər; bir az o tərəfdə hay-huy başa düşməyən bir dəstə nadinc uşaq ördək kimi palçıqlı çalada oynaşırdı. Quyunun yanında kiçik bir daş hovuz vardı, quyudan çəkilən su ora tökülür, sonra novlara axıb gedirdi. Sərin qalsın deyə üzümləri də burada saxlayırdılar.

– Kənan bəy, İstanbulun xınalı yapıncağından istəmirsiniz?

[1] Üstü xallı xırda üzüm növü

Bu sualı Nemət xanım gülə-gülə verdi. Su çarxının ağır iniltilərini dinləyə-dinləyə, yavaş-yavaş gözlərini yuman Kənan başını çevirmədən cavab verdi.

– Rica edirəm, daha mənim yanımda üzüm haqqında danışmayın, Nemət xanım...

Nemət xanım mənalı-mənalı gülümsündü:

– Mənim Xınalı yapıncağımı görsəniz dediyinizə peşman olarsınız.

Kənan bir az dikəlib başını Nemət xanıma tərəf çevirdi. Nemət xanımın yanında açıq yaxalı, ağ, qısa paltar geymiş, on dörd-on beş yaşlarında kiçik, sarışın bir qız dayanmışdı.

Kiçik qız gülməmək üçün dodaqlarını dişləyir, incə biləklərini Nemətin əlindən xilas etməyə, qaçmağa çalışırdı. Kənanın onlara tərəf döndüyünü görən kimi qıpqırmızı oldu. Üzünü Nemətin biləyi ilə örtməyə çalışdı.

Gənc qadın onu buraxmadı, zorla Kənanın yanına çəkməyə başladı.

– Kənan bəy, mənim bu Xınalı yapıncağım[1] sizin kamanınızın pərəstişkarıdır. Kənan bəy o, sizinlə tanış olmaq istəyir, ancaq utanır...

Nemət xanım qızın biləklərini buraxdı. Qız daha dartınmırdı. İmtahana girmiş qorxaq tələbə kimi başını aşağı salmış, gözlərini yerə endirmişdi; kirpikləri, dodaqları titrəyirdi

Kənan ona balaca, ürkək bir uşaqdan artıq əhəmiyyət verməyib güldü:

– Bu nə qəşəng qızdır, – dedi, – qonağınızdırmı?

– Xeyr, bağ qonşumuz Şükrü bəyin qohumudur... Bu sarmaşıqların dalında gizlənib bizə baxırdı. Üsulluca yaxınlaşdım, quş ovlayır kimi tutdum

Kənan.

– Kiçik xanım izmirlidirmi? – deyə soruşdu.

– Xeyr, istanbulludur... Eviniz Qalıncadadır,[2] eləmi, Lamiə?

Lamiə çəkməsinin şiş burnu ilə torpaq topasını yastıladırdı. Başını Nemət xanıma tərəf çevirdi, yenə gözlərini aşağı dikib güclə eşidiləcək bir səslə:

– Xeyr, Paşa bağçasındadır[3] .. – dedi.

Kənan bu dəfə Lamiənin özündən soruşdu:

[1] Üzündəki xırda, ona çox yaraşan çillərə görə Nemət xanım qızı xınalı yapıncaq üzümünə oxşadır

[2] İstanbulda məhəllə adıdır.

[3] İstanbulda məhəllə adıdır



– Nə vaxtdan bəri İzmirdəsiniz, Lamiə xanım?.. Burada çoxmu qalacaqsınız? Ata və ananız İstanbuldadırmı?

Nemət başı ilə Kənana işarə elədi ki, bu söhbəti davam etdirməsin. Sonra qızın əvəzinə özü cavab verdi

– Lamiə xanım izmirli sayılır. Anası, atası vəfat etmişdir Əmisi Şükrü bəy onu bir ata kimi sevir. Nişanlısı ilə toylarına qədər burada qalacaq.

Kənan yavaşcadan güldü:

– Boyu balaca xanım nişanlıdır? O bəxtəvər kimdir, Lamiə xanım?

Lamiə yamanca utandı. Əllərini Nemətin çiyninə qoydu, üzünü biləklərinin arasında gizləyərək incik halda dedi:

– Ah, abla[1]!

Gənc qadın onun qalın təkhörüklü sarı saçlarını, günəşdən yanmış açıq boynunu tumarladı, sonra çənəsindən tutub zorla başını yuxarı qaldırdı:

– Xınalı yapıncağımın nişanlısı bu il məktəbi bitirmiş bir mülazimdir[2]. İndi Trabzon tərəfdədir Bir neçə ilə yüzbaşı[3] olacaq Xınalı yapıncam da o vaxta qədər həddi-büluğa çatacaq. Toyunu da elə burada eləyəcəyik Lamiə, elə deyilmi?

Qızlar və gəlinlər də söhbətə qoşularaq Lamiəni utandırıb əyləndirməyə başladılar, Kənan onlardan bir az kənarda dayanmışdı. O, qımışa-qımışa Lamiəyə baxırdı Qızın nazlı siması, açıq yaşıl rəngli xumar gözləri, düz, yaraşıqlı burnu vardı Gunəş üzunün zərif ağ dərisini qızılı rəngə boyamış, yanaqlarına elə bil çil səpmişdi.

Nemət xanım artıq yuxudan oyanmış və bir az o yanda analarının qucağında axşam yeməyinə başı qarışmış uşaqların boş nənnisində əyləşərək, Lamiəni yanına alıb dizlərinin üstündə oturtmuşdu, gəlincik kimi onun çənəsini, dodaqlarını, yanaqlarını oynadırdı:

– Bu kiçik İstanbul qızı üçün ürəyim gedir, Kənan bəy Baxın, necə də şirin qızdır? Niyə ona "Xınalı yapıncaq" dediyimi yəqin ki, başa düşürsünüz? (Barmağını qızın gözlərinin altına, kirpiklərinə toxundurdu ) Bu çillərə baxın. Qadınlar çildən ölümdən qorxan kimi qorxurlar. Amma bunlar Lamiəyə görün necə yaraşır, lap İstanbulun şəffaf qabığı qırmızı xallı, xınalı yapıncaqlarına oxşayır.

[1] Böyük bacı deməkdir Türkiyədə yaşca özündən bir qədər böyük qadın və qızlara da hörmətlə belə müraciət edirlər

[2] 1930-cu illərin əvvəllərinə qədərki türk ordusunda leytenant rütbəsi

[3] Türk ordusunda, yenə o vaxtlarda kapitan rutbəsi

Kənan guləmək:

– Ah, bu Bozyaxa bağları, – dedi. – Təşbehləri də üzümlə bağlıdır.

"Kərəm" su çarxının ıniltiləri altında ağır bir xəyala dalmış kimi elə bil dalğın-dalğın düşünür, tənəkə novlardan daş hovuza tökülən köpüklü sular içində soyuqdan buğlanmış kimi görünən rəngbərəng salxımlar allı-yaşıllı büllur yığını, sarı kəhrəba kopalarıtək qaynaşırdı.

Nemət xanıma bir salxım müşk üzümü vermişdilər. Gənc qadının artıq üzüm yeyəsi halı yoxdu. Onu zorla Lamiəyə yedirməyə çalışır, nənnidə bir çarpışma gedirdi. Nemət xanım kiçik qızı kip yumduğu ağzını açmağa məcbur etmək üçün burnunu sıxır, qıdıqlayaraq güldürürdü. Nəhayət, Lamiə üsyan etdi. Onun da özünə görə qüvvəsi vardı. Hətta o da zorla Nemət xanıma üzüm yedirtdi.

Çarpışma bitdiyi vaxt gənc qadın yenə Lamiəni yanına aldı, alnına tökülmüş saçlarını düzəldərək.

– Məni qəribə bir şey maraqlandırır, Kənan bəy, – dedi. – Qarşımdakı insanlara baxarkən Allahın onlardan hər birini nədən ötrü yaratdığını düşünürəm... Bu mənə gözəl bir əyləncə olur. Məsələn, tutaq ki, tramvaydayam, beləmi? Qarşımdakı qadınlara birbəbir baxıram... Bunu, deyirəm, Allah hər il evindəki pişiklər ilə bərabər doğmaq üçün, bunu uzun qolları ilə ipə paltar sərmək üçün, bu qoca arvadı gəlinlərini bir-birinin üstünə saldırmaq, onlardan kötək yeyib ah-vay etmək üçün, bu xanımı həmişə ərini qısqanmaq, gözətləmək, hər axşam evdə dava salmaq, bayılıb ağlamaq üçün yaratmışdır. Bizimkilərdən, məsələn, Cəmil bəy mənə elə gəlir ki, yük arabalarına üzüm səbətlərini yığdırmaq, hamballarla savaşmaq, yeznəm Kazım daima plov yeyib oruc tutmaq, Hafiz Əşrəf əfəndi iri, qırmızı burnu ilə daima zökəm olmaq, adını çəkmək istəmədiyim bir tanışım kresloda oturub tovuz kimi özünü dartmaq üçün dünyaya gəlmişdir

Kənan gülərək soruşdu:

– Bəs əriniz Veysəl bəy?

Nemət xanım qollarını yanına saldı, dodaqlarını büzdü:

– Doğrusu, bircə onun nə üçün doğulduğunu, niyə yarandığını başa düşə bilməmişəm.

– Bəs mən?

Nemət xanım incə bir istehza ilə:

– Siz məlum... Bütün aləm deyir... Dünyaya yeni bir ahəng gətirmək üçün ..

– Mənə sataşırsınız, Nemət xanım.



– Yaxşı, bəs mən, Nemət abla?

Bunu ciddi bir surətdə Lamiə soruşmuşdu. O, ilk dəfə idi ki, özü danışırdı.

– Bu söhbəti əslində sənin üçün açmışdım, Xınalı yapıncaq... Sonra söhbəti elə-belə uzatdım, başqa səmtə çevirdim... Səni Allah nazlı, yaraşıqlı bir oyuncaq yaratmışdır, Lamiə. Vucudunda, balaca üzündə ciddi heç bir şey yoxdur. Tamam bir oyuncaq, başdan-ayağa bəzəksən... Təkcə alnın bir az ciddi görünür... İncə qaşlarının ustündə azca qabarmış geniş bir alın. Ancaq oraya da bu incə saç qıvrımları tökülmüşdur. Bunlara heç saç demək də doğru deyil, quş tükü kimi yumşaq, zərif şeylərdir... Beləliklə, alnındakı ciddiyyəti də bunlar pozur.

Günəş İlıca təpələrinin arxasına çəkilmiş, bağlara yavaş-yavaş kölgə düşməyə başlamışdı. Cavan bir qadın ağac üstünə sərilmiş paltarını götürdü.

– Daha sərin düşüb, getməyək? – dedi.

Axşamüstü bu vaxtlar arxadakı yoldan Qırx çamlara getməyə, qaranlıq düşüncəyədək orada vaxt keçirməyə adət etmişdilər.

Qırx çamlar yüksək bir təpənin üstündə yaşlı, sıx şam ağacları meşəliyi idi.

Bu qocaman ağaclar çatlamış gövdələri ilə yüksəklərə ucalmış, təpələrində elə bil günəşə qarşı yaşıl çətirlər açılmışdı.

Bu tənha qoruq Bozyaxa qadınları üçün bir bağça kimi idi Gəlinlər, qızlar burada üst paltarlarını soyunaraq top-top, gizlənpaç, gözbağlıca oynayırdılar. Uşaqlar isə durmadan tökülən, yeri dəniz kimi örtən saralmış şam iynələrinin üstündə yuvarlanardılar

O axşam Lamiəni də özləri ilə bərabər apardılar. Kənanla Nemət xanım lap dalda gedir, Xınalı yapıncaq isə bir az qabaqda yeriyirdi.

Nemət xanım qız eşitməsin deyə yavaş səslə Kənana danışırdı.

– Əslində bu qızcığaza məhəbbətim mərhəmətimdən irəli gəlir... Lamiə əsil nazlı İstanbul qızıdır... Anası üç il bundan əvvəl ölmüşdür... İstanbulda yaxın bir adamı yoxmuş, Kürdüstan qəzalarından birində qaimməqam[1] işləyən atası onu yanına apartdırmış... Bu kiçik qız iki il atasına bir ana kimi baxmışdır... Keçən il bir qəza nəticəsində atası da həlak olmuş, qızcığaz oralarda yenə tək qalmışdır... Məzuniyyətə gələn bir zabitə qoşub onu buraya əmisi Şükrü bəyin yanına göndərmişlər Yazıq qız çox çətinlik çəkir. Şikayət etməməsinə baxmayaraq, başa

[1] Türkiyədə qəza rəisinə verilən ad

düşurəm ki, onun üçün yaxşı keçmir. . Əmisinin uşaqlarına bir dayə kimi qulluq edir. Buna baxmayaraq, əmisi arvadı yenə şikayətlənir, onu evdə artıq hesab edir.

Lamiə onlardan xeyli uzaqlaşmışdı. Kənan laqeyd bir nəzərlə ona baxdı

– Yazıq qız... Acınacaqlı haldır, – dedi. – Ancaq daha onun hekayəsini qurtaraq.

– Sizi mütəəssir etdim, Kənan bəy?

Kənan səsini bir az da alçaltdı.

– Onun üçun demirəm, Nemət xanım... Hər halda bu mənasız Xınalı yapıncağın hekayəsindən daha çox əhəmiyyətli olan məsələlər var... Onlardan danışmayaqmı?

Nemət xanım şikayətləndi.

– Uf, Kənan bəy, – dedi – Ağıllanmayacaqsınız? . Sizdən bu qədər xahiş edirəm, yenə qulaq asmırsınız... Ərli bir qadına necə də pis şeylər deyirsiniz.

Kənan yavaş-yavaş onda bır xasiyyət halına düşməyə başlayan utanmazlıqla güldu:

– Sizin kimi gözəl bir qadının yanında özümü təmkınli aparsam, ən əvvəl özünüz mənə gülərsiniz, məni axmaq hesab edər, üzümə baxmazsınız... Nemət xanım, rica edirəm söz verəsiniz... Bu gecə ay doğandan sonra bağçaya çıxarsınız, yaxşımı?

– Ay gecə yarısından sonra doğur.

– Elə mən də onun üçün sizə bu qədər yalvarıram.

Lamiə yol kənarından sarı rəngli, fəsə oxşar qənbə bir çiçək tapmışdı. Onu vermək üçün Nemət xanımı gözləyirdi.

Kənan azca duyulan bir əsəbilıklə yavaşdan:

– Ah, Nemət xanım, – dedi. – Bu qızı da bilmirəm haradan gətirdiniz..

* * *

Kənan Xınalı yapıncağa lap düşmən kimi baxırdı Nemət xanım bu qızı heç yanından ayırmır, hara gedirdilərsə, onu da özləri ilə aparırdı.

Bir gün yenə Qırx çamlara getməyə hazırlaşırdılar. Kənan açıqdan-açığa şikayət etdi:

– Nə deyirsiniz deyin, bu qızın yanımızda olmasına dözə bilmirəm, – dedi, – aramıza bir qaratikan kolu kimi girmişdir.



Nemət xanım gözlərındə şıltaq bir təbəssümlə Kənana baxdı:

– Ağıllısınız, Kənan bəy, ancaq heç fənd bilmirsiniz Başa duşə bilmirsiniz ki, mən Lamiəni qəsdən yanımızca aparıram.

– Niyə?

– Çünki o olmasa, bizim yalnız getməyimizə başqa məna verərlər... Biz də bundan qorxduğumuz üçün tək getmirik. Məsələn, indi bu saat biz təkbaşına Qırx çamlara gedə bilərdikmi? Lamiənin bir yaxşı cəhəti də var... Yazıq qız çox təmiz ürəklidir.. Heç bir şey hiss etmir. Çox nadir hallarda bir şey hiss etsə də, heç kəsə deməyəcəyinə əminəm

Lamiə bu cəhətdən yaxşı bır yoldaş idi. Həmişə bir yerdə olduqları halda onların söz-söhbətinə çox az qoşulurdu. Bəzən bir yolda yan-yana getdiklərı zaman Kənanla Nemət xanım addımlarını daha da yavaşıtmaq ehtiyacı duyurdular. Lamiə bu vaxt onları gözləmədən, hətta başını da çevirmədən yoluna davam edırdi Bəzən onlar ətrafını tıkanlar, kollar bürümüş bır ağac dibində otururdular. Lamiə isə bir şey hiss etdırmədən onlardan ayrılır, yaxındakı daldalara çiçək toplamağa gedirdi

Qırx çamlar təpəsi dik yamacla bir selli dərəyə enirdi. Yağış olanda burada əmələ gələn sel aşağıdakı şəhid məzarlığından keçərək Qızıl çöllə çaya axırdı. Yamac bir-birı ilə qol-qola vermiş kimi görünən, sıx bitmiş cavan şam ağacları ilə örtulmüşdü Bu gun Nemətlə Kənan bu yoldan dərəyə enmək istəyirdilər. Ağaclar o qədər sıx idi ki, Kənan Nemət xanıma yol açmaq üçün qol-budaqları qucaqlayıb o tərəf-bu tərəfə aralamağa, cavan budaqları qırmağa məcbur olurdu

Çağıltı ilə axan seldən ətrafa bir sərinlik yayılırdı. Onlar ağacların dibindən süzülüb gələn, zəif saqqız qoxusu verən və yaşıllaşmış kimi görünən sularda əllərıni, üzlərini, yudular. Arxada qalan qoruq hərdən-bir astaca xışıldayır, şam ağacı qoxuları ilə ağırlaşmış ilıq, məstedici bir rayihə duyulurdu.

Kənanla Nemət yıxılmış bir ağac kötüyünün üstündə yan-yana oturmuşdular Artıq Lamiədən çəkinəsi halları qalmamışdı. Kənan heç bir söz danışmadan Nemət xanımın biləklərıni oxşayır, gənc qadın isə zövq, ehtiras içərisində yorğun, bitab bir halda başını Kənanın çiyninə söykəmək, yuxuya getmək istəyirmiş kimi yavaş-yavaş gözlərini yumurdu.

Xınalı yapıncaqda da bu gün qənbə bir sayğısızlıq vardı: o, gəlib Kənangilin qarşısında oturmuş, gözlərini onlardan ayırmırdı.

Kənan yavaş-yavaş əsəbiləşirdi. Nəhayət, bir çarə düşündü. Qızın gözlərinə baxmağa cəsarət etmədən utancaq bir təbəssumlə:

– Lamiə xanım, – dedi. – Dərənin o tərəfində sarıya çalan çəhrayı, bənövşəyi gözəl çiçəklər görünür. Nemət xanıma onlardan bir dəstə bağışlamaq istərdim. Ancaq yaman yorulmuşam... Yaşlı adamam, sən məndən cavansan... Nemət ablana o çiçəklərdən kiçik bir dəstə bağışlamaq istəməzsənmi?

Tanış olduqları vaxtdan xeyli keçməsinə baxmayaraq, Lamiə hələ də Kənanla danışmağa cəsarət etmirdi. Bu gözəl kaman çalan adamı qız yarımallah sanır, ona dinməzcə xidmət etməkdən böyük bir zövq alırdı. Buna baxmayaraq, Xınalı yapıncaq bu gün ona itaət etmir, onları tək qoyub getməkdən qorxurmuş kimi Nemət xanımın üzünə baxırdı.

O da kiçik bir tərəddüdlə qızararaq Kənanın sözünü təsdiq etdi.

– Çox yaxşı olardı, Lamiə, – dedi

Lamiə həvəssiz-həvəssiz yerindən qalxdı.

O tərəddüd içində gedir, tez-tez dururdu, elə bil bir daşdan o birisinə atılmağa cəsarət eləmir, arada çevrilib dala baxırdı. Dərənin o biri tərəfinə keçdiyi vaxt birdən-birə ağlına bir şey gəlmiş kimi durdu, yamacın bir nöqtəsinə tərəf üz tutub səsləndi:

– Çoban, bax qoyunlardan bir neçəsi şəhid məzarlığına doğru gedir.

Lamiə bunu söylədikdən sonra birdən-birə yüngülləşmiş kimi idi. Artıq onlara baxmır, ağacların, kolların içində ceyran kimi atılıb düşürdü. Kənanla Nemət xanım Lamiənin səsləndiyi yerə baxdıqları vaxt xəfifcə titrərdilər Ağacların arasından bir çobanla ağsaqqallı bir bağban onlara baxırdı.

Kənan gənc qadının əllərini buraxdı və:

– Lamiə bizi, özü də bilmədən bir təhlükədən qurtardı, – dedi.

Nemət xanım saralmışdı.

– Xeyr, Kənan bəy, – deyə cavab verdi. – Lamiə bunu bilərəkdən etdi. İndi başa düşürəm ki, o niyə getmək istəmirmiş: təhlükəni duyduğu üçün bizi tək qoymağa qorxurmuş.

– Deməк, bu kiçik qız sizi sevdiyimi bilir.

Gənc qadın bir söz demədən önünə baxdı.

Lamiə əlində bir dəstə çiçəklə geri döndüyü zaman azca axsayırdı. Ətəkləri, əlləri toz-torpaq içində idi.

Nemət xanım təlaşla soruşdu.

– Sənə nə olub, Lamiə?

Xınalı yapıncaq gülümsədi.



– Heç. Elə bir şey yoxdur. – Ətəyim kola ilişdi, yıxıldım

Lamiənin ayağı əzilmişdi. Bundan başqa bir tikan kolu da sol biləyini başdan-başa cızmış, qanatmışdı.

Kənan bir ata şəfqəti ilə:

– Vay qızım, – dedi. – Gör nələrə səbəb olduq.

Lamiə məsum bir minnətdarlıqla Kənana baxıb, gülümsündü·

– Ziyanı yoxdur, əfəndim[1]... Sizin əlləriniz kimi kaman çalmır ki

Nemət xanım Lamiənin qolundan tutaraq yeriməsinə kömək edir, bəzən dik yoxuşlarda onu lap az qala qucağına alırdı.

Çoxdan bəri idi ki, Kənanda qəribə bir xasiyyət əmələ gəlmişdi: özünə aid olmayan hər şeyə, başqalarının kədərinə, iztırabına biganə qalırdı.

Buna baxmayaraq, bu gün Lamiə üçün ürəkdən narahat olduğunu özü də duyurdu: "Nə qəribə bir adam oluram... Bəzən dünyanın dərdi mənə heç bir təsir etmır... İndi isə... zəif əsəbli bir qadın kimi əhəmiyyətsiz bir şeydən narahat oluram", – deyə düşünürdü.

* * *

Lamiə hər şeyi başa düşürdü. Bır axşam əmidostusu ilə bərabər Saib paşanın bağına qonaq gəlmişdi. Ay işığı olmadığı üçün çardaq altında, ətrafında pərvanələr uçuşan asma lampanın işığında oturmuşdular.

Nemət xanım o gecə çox solğundu. Bir küncdə sakit-sakit oturmuşdu və söhbətə qarışmırdı.

Bu ara ona nə olduğunu soruşdular. Yorğun bir tövrlə:

– Özümü pis hiss edirəm, – deyə cavab verdi. – Başım ağrıyır. Qorxuram bu gecə heç yaxşı yata bilməyəm. – Sonra dalğın bir təbəssümlə əlavə etdi. – Balaca olanda da hərdənbir bu cür xəstələnirdim Bir çərkəz dayəmiz vardı. Gözəl səsi ilə mənə ninnilər[2], türkülər[3] oxuyardı. Onun səsi sanki bütün ağrılarımı, dərdlərimi yüngülləşdirərdi.

Lamiə o gecə otağında lampanı söndürdükdən sonra pəncərəni açdı. Bir hiss ona "Kənan bu gecə mütləq gözəl bir şey çalacaq"

[1] Türkiyədə əfəndi ağa deməkdir Lakin bir çox halda nəzakətli adamlar qarşısındakı adama da bu sözlə müraciət edirlər

[2] Layla, mahnı

[3] Heca vəznli qoşa formalı aşıq şeirlərinə qoşulan xalq mahnıları

deyirdi Lamiə bu hissində yanılmamışdı. Səkkiz-on dəq.qə sonra kaman səsi gəlməyə başladı. Gənc bəstəkar bu gecə milli turk havaları çalırdı. Uzun, gözəl bir parçadan sonra daha gözəl bir ninniyə keçdi. Kənan bu sadə, yekahəng musiqi parçasına ürəkyaxıcı təsirli bir gözəllik verırdi, elə bil ki, ölmüş ananın uzaqlardan gələn səsini dinləyirdik.

Durğun, qaranlıq bir gecə idi. Ağaclarda bir yarpaq belə qımıldanmırdı. Kölgə yığınlarına bənzəyən evlərdə səslər kəsilmiş, işıqlar sönmüşdü.

Lamiə xəyalında bu işıqsız evlərdən birinin açıq pəncərəsini görürdü Nemət xanım qaranlıqda daha da solğun görünən üzünü çılpaq qollarına söykəmiş, bu gözəl kaman səsini dınləyirdi. Ninnı bır peyğəmbər duası kimi təsir edir, Nemət xanımın ağrıları, acıları yavaş-yavaş azalırdı.

Lamıənın artıq şübhəsi qalmamışdı: Kənanla Nemət bir-bırini sevirdilər Bu sevda Lamiəyə bır "Leyli-Məcnun" hekayəsi kimi gözəl görünür, gənc qəlbində sevinclə qarışıq bir riqqət oyadırdı. Elə zənn edirdi ki, onun özünün də bu gözəl əhvalatda bir rolu vardır. Onların bırbirilərını sevmələrını lap əvvəldən elə o, arzu etmişdi.

Kənanı ilk gördüyü gün idi. Nemət xanım gizli bir şey söyləmək üçün üzünü Kənana yaxınlaşdırmışdı. O, yanaqlarında zərif bir allıq, sözlərində canlı bir hərarətlə danışır, Kənan sözlərdən daha çox onları söyləyən dodaqlara diqqət edərək dinləyirdi.

Lamiə büruzə vermədən onlara tamaşa etmişdi. Kənanın xoş, qaraşın üzü, yaraşıqlı mavi gözlərı qarşısında Nemətın ağ çöhrəsi, qara, parlaq gözlərı nə qədər gözəl görünürdü! Lamiə özlüyündə onları birbirinə yaraşdırmış, "Nemət ablam Kənan bəyi sevsə, nə yaxşı olar", – deyə düşünmüşdü.

Lamiə o yaşdakı qızların çox saf, təcrübəsiz davranışı ilə heç bir şeyin fərqində deyilmiş kimi göründüyü halda, Kənanla Nemətin ən kiçik hərəkətlərini, sözlərini, baxışlarını belə nəzərdən qaçırmır, xəyalındakı bu sevda romanını gündən-günə işləyib gözəlləşdirirdi.

İndi daha şübhəsi qalmamışdı. Kənan bu gecə kamanı Nemət xanım üçün çalırdı Nemət də bunu bilirdi

Vaxt keçir, kaman isə hələ susmurdu. Lamiənın sevincinə bir az da kədər qarışmağa başlamışdı. Sevmək gözəl şeydi. Ancaq heyif ki, bu hekayət də o biriləri kimi hicranla, bəlkə lap ölümlə bitəcəkdi. Nemət xanım ərli bir qadındı. Kənanla evlənməsi mümkün deyildi. Bu gözəl



məhəbbəti onlar ölüncəyə qədər bir-birındən gizli saxlamalı olacaqdılar. Lamiə yaşına görə çox sadəlövh bir qızdı. Onun fikrincə bir gənc sevdiyi qıza öz məhəbbətini ancaq qızın ağ duvağını açdığı gecə deyə bilərdi.

Sevda həyatın yalnız o gecəsinə məxsus bir səadətdi. İnsan o gecə ömründən bütün nəsibini alır, səhər günəş doğduğu zaman artıq Allahdan istəyəcəyi bir şey qalmırdı.

O axşamkı əhvalatdan sonra bu macəra Xınalı yapıncağı daha çox məşğul etməyə başlamışdı. Evdə iş görərkən onları düşünür, əmisinin uşaqlarını əyləndirərkən fikri bu sevda ilə məşğul olur, gecə gözlərində onların bır-birınə yaraşan surətlərinin xəyalı olduğu halda yuxuya gedirdi.

Bir gecə yenə pəncərəni açıb, Kənanın kaman çalmağına qulaq asırdı. Qeyri-ixtiyarı olaraq gözlərindən yaş axmağa başladı· "Heyif, ayrılacaqlar... Heç iki ay belə qalmadı. Nemət xanım evinə, Kənan bəy isə kim bilir, haralara gedəcək... Bir-birılərını daha görməyəcəklər" deyir, başını pəncərəyə dayayaraq: "Onlar bu ayrılığa dözəcəklər? Nemət ablam bu gözəl səslərı dinləmədən, Kənan bəyi görmədən necə yaşayacaq?" – deyə hıçqırırdı

Hər getdikləri yerə onu da aparmalarından çox razı idi Onları özündən incitmək, məhəbbətlərıni görmək zövqündən uzaq olmaq qorxusu qəlbini titrədirdi.

Bu axşam Qırx çamlarda çox yubanmışdılar. Yola çıxdıqları vaxt ətraf əməlli-başlı qaralmış, ay doğmuşdu.

Lamiə əlində Nemət xanımın çətirı qabaqda gedır, dalda onların getdikcə addımlarını yavaşıtdıqlarını hiss edirdi

Xınalı yapıncaq başını çevirmirdi. Lakin onların arxada ay işığında yola düşmüş kölgələrini görürdü Kölgələr getdikcə bir-birinə yaxınlaşır, Kənanın qolu Nemət xanımın belindən qucur, gənc qadının başı Kənanın çiyninə düşürdü. Onlar yol ayrıcına çatanda durdular. Kölgələri soldakı baxımsız qalmış bir evin uçuq divarı üstünə kino pərdəsində olduğu kimi aydın düşürdü.

Lamiə Kənanın Nemət xanımı biləklərındən tutaraq köksünə doğru çəkdiyini, onun bitab bir halda dala əyilmiş başını dönə-dönə öpdüyünü gördü. Gənc qız bir şey bəlli etdırməməyə çalışaraq, yerıyərkən əli-ayağı titrəyir, bu busələr öz üzünə, dodaqlarına toxunurmuş kimi həyəcanlı ürpərmələr, həyəcanlı lərzələrlə için-için sarsılırdı.

Bağ qapısında onlardan ayrılarkən üzlərinə baxmaq istəmədi. Nemət bir az əvvəlki busələrin alovundan yanan hərarətli dodaqları ilə onu öpdüyü zaman Lamiə titrəyərək gözlərini yumdu.

Lamiə o gecə uzun müddət yata bilmədi. Kənanla Nemətə qarşı qəlbində duyduğu çox təmiz, incə hissləri sərt bir şeyə toxunub qırılmışdı, indi onlara həm acığı tutur, həm acıyır, həm də iyrənməyə bənzər bir şey hiss edirdi.

O gecə qərar vermişdi ki, daha bir də onlarla birlikdə gəzməyə getməsin. Lakın ertəsi gün pəncərəsindən düşən səhər güneşinin ziyaları içində hərgünkü kimi şən və sakit oyandı; o gün Nemət xanımla Kənanı görəcəyi saatı hər dəfəkindən daha çox səbırsizliklə gözlədi. Bır yerdə gəzməyə çıxdıqları zaman onlardan bir az aralı durmağa çalışdı. Ancaq qəlbi, zehni yalnız onlarla məşğuldu. Genc qızın builki baharını bu eşqin hekayəti doldurur, o, kədərli bir sevdanın təsiri içərisində dalğın, lakin xoşbəxt yaşayırdı. Bu eşq onu yalnız sevindirmir, onda bir iftixar hissi də oyadırdı. Çünki kimsənin bilmədiyi bu gözəl sırri ancaq o bilirdi. Sonra, əmin idi kı, daima onlarla bir yerdə olmaqla o, bu sevgini himayə edir. Çobanla bağbanın onları dodaq-dodağa görməsinin qarşısını o almamışdırmı? Bir gün küknar ağaclarının altındakı quyu başında onlar, tək qala bilsin deyə, uşaqları dalınca top-top oynamağa o aparmamışdımı?

Ehtiyatsızlıq etdikləri üçün onlara çox acığı da tuturdu. Hətta bir gün Nemət xanımla bu barədə açıq danışmağı da fikrindən keçirmişdi. Amma sonradan onlara haqq vermişdi. Nə etsinlər, bir-birilərini sevirlər. Az sonra isə ayrılacaqdılar.

Bu ayrılıq gününü ağlına gətirdikcə onu ağlamaq tuturdu. Elə bilirdi ki, Kənanın kamanı susduğu gün Bozyaxa da yetim qalacaq, gecələri ağır, yeknəsəq bır kədər qaplayacaq, Ərəb dərəsi çöl kimi kimsəsiz, göy üzü sönük; hər yer, hər şey bomboş olacaq. Nə üçün Nemət xanım Veysəl bəylə evlənməmişdən əvvəl Kənana rast gəlməmişdi? Onların evlənib birləşmələri necə də gözəl olardı!

Lamiə bəzi günlər lap uşaqcasına bir xəyala dalırdı. Paşabağça məhəlləsinə bənzər bir yerdə iki qonşu ev təsəvvür edirdi (o, iki ildi İzmirdə idi, ancaq hələ də bura alışa bilməmişdi. Paşabağçadakı köhnə evləri zehnində gündən-günə gözəlləşirdi. Onun fikrıncə insan oradan başqa ayrı heç yerdə tam xoşbəxt ola bilməzdi). Bu iki evdən birisində Lamiə nişanlısı Nazimə ərə gedir, gəlin olurdu. O bırısində isə Nemət xanımla Kənan yaşayırdılar. Hər gün, hər saat bir-birilərini görür, lap qohum olurdular. Ölüncəyə qədər bır-birilərındən ayrılmırdılar.

Kənan yenə hər gecə kaman çalır, Nemət xanımla onun məhəbbəti gündən-günə artırdı. Lamiə bu gözəl sevginin bir gün zavala uğrayacağını heç cür ağlına sığışdıra bilmirdi. Qızın xülyası bununla bitmırdi. Kənanla Nemətin gözəl, qarayanız üzlü, mavi, gözlü, parlaq mirvari dişli bir oğlu, Lamiənin özünün isə Nemət xanıma bənzəyən bir qızı doğulacaqdı. Bunlar böyüdükləri zaman bir-birilərini sevəcəkdilər

Xınalı yapıncaq bütün günlərini belə düşüncələr, xəyallar içində keçirır, qulağında bu gözəl kamanın səsi, könlündə bu sevdanın həyəcanları ilə yatıb dururdu.

## VI

Kənan bir axşam Şəmi dədəgildən gəlirdi. Qonşu bağlardan birinin qapısında göy rəngli çarşab örtmüş bir qadın dayanmışdı. O, divarın üstündən yola sallanmış böyük əncir ağacının kölgəliyində durub, sıx yarpaqlı budaqlardan birini günəşin qabağına tutmaq istəyirmiş kimi üzünə tərəf çəkirdi

Kənan bu göy çarşablı qadının yanından keçəndə onun Lamiə olduğunu gördü.

Xınalı yapıncaq kiçik, al yanaqlı üzündə utancaq bir təbəssümlə ona baxıb gülümsəyirdi.

Kənan da gülümsəyərək ona tərəf gəldi:

– Az qalmışdı sizi tanımayım, Lamiə xanım . Çarşab örtüb, əməllibaşlı bir xanım olmusunuz... Mübarək olsun.

Lamiə ona baxmağa cəsarət etmirdi. Titrəyərək:

– Mən keçən ildən çarşab örtürəm, – dedi. – Bu gün səhər əmidostumla İzmirə getmişdık...

– Bu istidə nə əcəb?

– Bəli... əfəndim... Çox istıdir. İllah da kı, toy evi. Bir görəydiniz. Çox yaman isti idi. Üstəlik Örtülü bazara da getməli olduq.

– Siz toya getmişdiniz?

– Bəli, əfəndim. Sonra Örtülü bazara da getdik.

– Deməli, bu geyinib-keçinmək toy üçün imiş, Lamiə, barı gəlin də sizin kimi gözəl idimi?

Xınalı yapıncaq bir az da artıq qızardı. Kirpıkləri, dodaqları tıtrəyir, başını yana çevirirdi.

– Haçan gəlmisiniz?

– Elə indicə, əfəndim, mən faytondan sizi gördüm.

– Bəs niyə burada dayanmısınız?

Lamiə əvvəl tərəddud etdi. Sonra gözlərini aşağı endirərək, utana-utana cavab verdi:

– Sizi gözləyirdim...

– !!!

– Sizə salam gətirmişəm, əfəndim.

– Kimdən?

Lamiə çox utanmasına baxmayaraq gülməkdən özünü saxlaya bilmədi, hələ də tutmaqda olduğu əncir budağını bir az da üzünə tərəf çəkdi:

– Nemət xanımdan, əfəndim, – dedi.

O, bu sözün Kənana təsir edəcəyini duşünürdü. Onda görəcəyinə əmin olduğu həyəcanla özü də titrəyir, göz qapaqları tez-tez açılıb yumulurdu.

– Təşəkkür edirəm, Lamiə xanım. Nemət xanımı harada gördünüz?

– Peştimalçılar[1] başı küçəsindən keçirdik. Onlar da mağazadan çıxırdılar Onu yaman könlüm istəyirdi, əfəndim.

Lamiə bu gün ilk dəfə olaraq Kənanla bu qədər çox danışmağa cəsarət edirdi.

Bir həftə bundan əvvəl qayınanası ilə baldızı Manisadan[2] Nemət xanıma qonaq gəlmişdilər. Gənc qadın onlar gəlincəyə qədər Qarşıyaxadakı evlərində yaşamalı olmuşdu. Bu əhvalat Lamiə üçün böyük dərd olmuşdu. O, nəinki Nemət xanımsız qalmışdı, daha Kənanın yanına getməyə də cəsarət eləmirdi. Bu uğursuz qonaqların tez çıxıb getmələri üçün gecə-gündüz dua edirdi.

Lamiənin İzmirdən gətirdiyi xəbərlər tək bundan ibarət deyildi. Faytonda gələrkən söyləyəcəyi sözləri bir-bir hazırlamışdı. Elə xəbərləri, elə müjdələri vardı ki, bunlar onun rolunu Kənanın nəzərində böyüdəcək, onu Lamiəyə bu gözəl sevdaya məhrəm bir adam kimi baxmağa məcbur edəcəkdi. Mağazanın yanında Nemət xanımı necə gördüyünü danışarkən Lamiə qəsdən sözü uzadır, onun suallar verəcəyini gözləyirdi.

[1] Qətfə deməkdir. Burada isə İzmir küçələrindən birinə işarədir.
[2] Qərbi Anadoluda vilayət mərkəzi olan qədim şəhər



Lakin Kənan bir şey soruşmadı, sözü dəyişdi, Lamiə onun utandığını güman etdi.

– Nemət xanımın nə vaxt gələcəyini bilirsinizmi? – dedi. – Sabah yox, o birisi gün – cümə ertəsi, axşam... Gətirdiyim xəbər üçün mənə nə muştuluq verəcəksiniz, Kənan bəy?

Lamiə ona ilk dəfə idi ki, adı ilə müraciət edir, ilk dəfə idi ki, ondan bir şey istəməyə cəsarət eləyirdi.

Qız sadədilliyi ilə Kənanda bu məsələyə bir maraq oyandırmağa çalışırdı. O, getdikcə cəsarətlənir, sözünə davam etsə də ağlamağa hazırlaşan uşaqlar kimi dodaqları, göz-qaşı titrəyirdi

– Nemət ablamın yenə buraya gələcəyinə bilsəniz necə sevindim, Kənan bəy... Mən hər şeyi bilirəm... Qorxmayın, heç kəsə bir söz deməRəm... Neçə gündür ikinizə də elə yazığım gəlir ki... Dünən gecə fikir verdim... Otağınız qaranlıqdı... Lampanızı yandırmamışdınız, heç kaman da çalmadınız. Yaman qorxdum... “Allah eləməmiş, Kənan bəy, xəstə deyil ki”, – deyə fikirləşdim.

Lamiə dərin bir saflıqla bunları danışarkən Kənan gülməmək üçün dodaqlarını dişləyirdi. Çünki onların cürət və cəsarətləri həddini aşmışdı Pəncərələrin qaranlıq, kamanın səssiz qaldığı gecəni onlar Bucada[1] bir oteldə birlikdə keçirmişdilər.

“Kənan bəyin özü üçün olduğu kimi kamanı üçün də yaman darıxmışam. Bu gecə həmin ninnini çalmasını rica et . Mənim əvəzimə də sən qulaq asarsan”, – deyərkən yəqin ki, Nemət xanım da Lamiə ilə bir qədər əylənmək istəmişdi.

Lamiə bu arzunu Kənana söyləyərkən sevincindən titrəyir. Nemət xanım üçün çalınacaq kamanı dinləmək işi ona qürur verirdi.

O, gecə otağına həmişəkindən tez çəkildi Lampanı söndürdü. Pəncərəni açdı. Nemət xanım üçün çalınacaq ninnini gözləməyə başladı. Lakin saatlar keçir, kaman heç cür dilə gəlmirdi. Kənan o gecə Münir bəyin bağına getmiş, gecə yarısından sonra yorğun bir halda evə qayıtdığı zaman qıza verdiyi söz yadına düşməmişdi.

Lamiə də bunu unutmuş kimi göründü, Kənanı gördüyü vaxt heç bir söz demədi. Lakin ürəyində bu, o gözəl sevda tarixindən ilk qırılmış bir xəyal, pozulmuş ilk əhd olaraq qaldı.

[1] İzmirdə otellər, restoranlar olan bir məhəllə

## VII

Sentyabr ayı qurtarmaq üzrə idi. Bağlar isə hələ də iyul ayına məxsus bir istilik içərisində yanırdı, yalnız gecə yarısından sonra hava bir qədər sərinləşirdi.

Kənan artıq avaralıqdan əl çəkmişdi. Əsəri üzərində işi gündən-günə irəliləyir, ona gözlədiyindən artıq nəşə və ümid verirdi. Çox vaxt o, gecələr də işləyirdi.

Əslində kiçik yaşlarından bəri gecənin Kənan üzərində qəribə bir təsiri vardı Gündüzləri daima bir az keyimiş, yorğun, süst olur, qaranlıq düşəndə, ilk işıqların yanması ilə o da canlanmağa, dırçəlməyə başlardı.

Artıq o, hər gecə bir bağda yığışan qonşuların məclisinə getmir, köşkün qabağındakı çardağın altında, yaxud bağın tənha bir guşəsində təkbaşına gəzib papiros çəkir, yatağına ancaq gecə yarısından sonra şeh düşməyə, bağlardan yavaş-yavaş sərin torpaq qoxusu gəlməyə başladığı zaman uzanırdı.

Saib paşa çardağa tərəf açılan pəncərələrə rəngli şüşələr saldırmışdı. Kənan bu pəncərələri həmişə açıq qoyur, otağında işığı ancaq pianonun üstünə düşən qalın abajurla bir lampa yandırırdı.

Kənan bəzən sübhün şəfəqləri onun lampasının işığını zəiflədənə qədər işləyirdi. İşığın ətrafına pərvanələr, parlaq yaşılqanadlı gecə cücüləri toplanır, onların yarıişıq divarlara düşən böyümüş, titrək kölgələri otağı səssiz bir həyatla doldururdu.

Gənc sənətkar bu zərərsiz gecə cücülərini çox sevirdi. Bəzən gülümsəyərək düşünürdü: "Otağım da könlümə bənzəyir. Yaşımın artmağına baxmayaraq orada da daima belə səssiz bir həyatın titrəyişlərini duyuram. Orada da daima nə isə xəyala bənzər şeylər çırpınır, titrəyir, gizli bir atəşdə zərif qanadlarını yandırır... Otağım könlümə bənzəyir".

Bağda "Quzğun" adlı bir qoca it vardı. Gündüzləri "Kərəm"lə bərabər uşaqların həlim, cəfakeş dostu olan "Quzğun", gecələri qorxunc gözətçiyə çevrilir, bağın dalındakı cığırdan ins-cins buraxmırdı.

"Quzğun" Kənana çox öyrəşmişdi. Gecələri onun qapısı qabağındakı çardaqdan ayrılmırdı. Kənan bəzi gecələr yaşlı köpəyin qəfildən yerindən sıçradığına diqqət etmişdi. Belə hallarda "Quzğun" bir daha geri dönmür, yalnız hərdənbir gündüzlər uşaqlarla oynarkən etdiyi kimi kəsik-kəsik yumşaq səslər çıxarırdı.



Kənan bununla maraqlanmağa başlamışdı Bir gecə otağından çıxdı, köpəyin getdiyi tərəfə doğru yollandı. Hələ on addım getməmişdi ki, heyrətlə durdu: meynələrin arasındakı tək zeytun ağacının altında ağ paltarlı bir qadın xəyalı dururdu, "Quzğun" onun ayaqları altında kəsik-kəsik zingildəyirdi. Hər halda o, yad adam deyildi. Yoxsa it onu bağa girməyə qoymazdı.

Kənan bir az da irəliləyib bu ağ geyimli qadının Lamiə olduğunu gördü. O da Kənanı tanımışdı. Sakit bir halda dayanaraq onun yanına gəlməsini gözləyirdi.

– Lamiə xanım, bu vaxt burada nə edirsiniz?

Xınalı yapıncaq bu gecə heç çəkinmədən cavab verdi:

– Sizi dinləməyə gəlmişəm, Kənan bəy... Yuxum qaçıb.

– Qorxmursunuz?

– Xeyr... Niyə qorxum?

– Sizə acıqlanmazlarmı?

– Bura özgə yer deyil ki. Bir də, bu saat məni kım görə bilər? Hamı yatıb...

Hamının yatdığı bir vaxtda bağda gəzişən bu gənc qıza Kənanın nədənsə yazığı gəldi. Şəfqətlə soruşdu:

– Yaxşı, bəs sən niyə yatmırsan, Lamiə?

Lamiə yaşına yaraşmayan ağır, mütəəssir bir ciddiyyətlə:

– Mən musiqini yuxudan çox sevirəm, – deyə cavab verdi. – Kənan bəy, bir neçə gecədir nə gözəl şey çalırsınız...

– Mən elə bir şey çalmıram ki... Hələ işləyirəm ..

– O daima təkrar etdiyiniz parça nə gözəldir... İndiyə qədər belə bir şey eşitməmişəm... Uzaqdan dinləməklə doymuram.. Ürəyimdən başımı pianoya dayayıb o parçanı su kimi içmək arzusu keçir

Lamiənin incə üzü məsum bir hərarətlə qızarır, yaşıl gözləri bitab bir halda süzülürdü.

Kənanın heyrət və rıqqəti getdikcə artırdı. Ahəstə və titrək bir səslə:

– Lamiə xanım, – dedi. – O, neçə gecədən bəri tez-tez çaldığım şey yeni əsərimin ən çox xoşladığım parçasıdır. . Ömrümdə bir də ürəyimdən bu qədər gözəl bir fəryad qopacaqmı? Bunu bilmirəm... Lakin indi məni əsil maraqlandıran bu deyil... Məni indi maraqlandıran odur ki, axı siz bunu necə duya bilmisiniz. Bu yaşlılaşmış, əziyyətlər görmüş, iztırab çəkmiş insanlara məxsus musiqi parçasını Xınalı yapıncağın cavan ruhu necə anlamışdır?

Kənan bir az utanaraq susdu. Bunlar bir qız uşağına deyiləsi şeylərmi idi? O, yavaş-yavaş, bir az ciddi, yaşlı adam tövrü alaraq:

– Yaxşı, Lamiə xanım, – dedi, – gedib yatın... Yuxusuzluq rənginizi saraldar, sonra Xınalı yapıncaq solmuş yarpaqlara bənzər.

Lamiə "nə olsun?" demək istədisə də susdu, yavaşca çiyinlərini çəkdi, sonra qorxa-qorxa rıca etdi:

– İcazə verin, çalmağınıza bir dəfə də yaxından qulaq asım.

Kənan gülərək razılıq verdi:

– Yaxşı, Lamiə xanım, gəlin sevdiyiniz parçanı sizə bir dəfə başdan axıra qədər çalım

Lamiə sevincindən uçurdu. Təşəkkür etmək üçün söz tapmır, yaşıl gözlərındə sonsuz bir minnətlə Kənana baxırdı. Ağacların arası ilə yan-yana köşkə tərəf getdilər. "Quzğun" astadan zingildəyir, quyruğunu bulayaraq onların arxasınca gəlırdi.

Kənan şüşəli qapını açarkən bir anlıq tərəddüd keçirdi: Lamiə necə olsa da cavan bir qızdı, onu öz otağına gətirməsi doğru deyildi. Ancaq bu tərəddüd uzun sürmədi Kənan özü ağlına gələn şeydən utandı.

"Mən, olsa-olsa bu qızcığazın atası sayıla biləcək yaşdayam" deyə düşündü.

Lampa qalın abajurun altından ancaq pianonun dillərıni işıqlandırır, yarıişıq divarlarda pərvanələrın, yaşıl qanadlı gecə cücülərinin böyümüş kölgələri titrəyirdi.

Kənan bir şey söyləmədən pianonun arxasına keçdi, Lamiənin sevdiyi parçanı yavaş-yavaş çalmağa başladı. Qız ayaq üstündə durmuş, bayaqkı arzusuna nail olmaq istəyirmiş kimi başını yavaşca pianoya dayamışdı.

Kənan parçanı çalıb qurtardıqdan sonra üzünü qıza tərəf çevirdi. Lamiə hələ də sarışın başını pianodan qaldırmır, yorğun bir dalğınlıqla ona baxırdı. Kənanı dinlərkən ağlamışdı, qızarmış çil-çil yanaqlarındakı göz yaşları hələ qurumamışdı.

Kənan onun bu donuq aydınlıq içındə daha da açıq rəng alan sarı saçlarını oxşamaqdan özünü saxlaya bilmədi, nəşəli bir riqqətlə güldü:

– Lamiə xanım... Tökdüyünüz bu bir neçə damla gözyaşını əsərim üçün bır uğur sayacağam. Ümid edırəm ki, bu əsərimi də bəyənəcəklər.

– Bəyənməmək mümkündürmü, Kənan bəy!.. İnsan sizin musiqinizi dinlərkən ölmək istəyir.

Lamiə bunu deyərkən titrəyir, bu gözəl səslər içində ölmək zövqünü duyurmuş kimi gözlərini yumurdu. Kənan gülərək onu hədələdi.



– Bax, bir də bu sözü səndən eşitməyim... Dilini kəsərəm, şeytan, – dedi.

Lamiə də artıq gülür, getməyə hazırlaşırdı.

Kənan onu bağın kənarına qədər yola salarkən əsərı haqqında bir xeyli məlumat da verdi:

– Bunu indi yaxşı başa düşmək mümkün deyil, Lamiə xanım Belə pyesi bir piano, ya bir tək kaman sizə lazımi şəkildə çatdıra bilməz. Bunu orada yüzə yaxın ən mükəmməl musiqi alətindən ibarət orkestrin, gözəl səsli məşhur sənətkarların ifasında dınləmək lazımdır. Burada əsərin dəyərini tamamilə təsəvvür də edə bilməzsiniz. Yaxşı, get Lamıə, yuxun şırin olsun.

Lamiə çəpəri aşıb öz bağlarına keçmışdi. Kənandan ayrıldığı zaman dərindən içini çəkdi:

– Heyif, bu əsərə sizin dediyiniz şəkildə nə mən, nə də Nemət ablam qulaq asa bilməyəcəyik.

Kənan evə o saat qayıtmaq istəmədi. Arxası üstə qum üzərində uzandı. Ulduzlara baxa-baxa rabitəsiz şeylər düşünməyə başladı: "Bu qızcığaza yazığım gəlir. Bu gecəki gözlənilməz hadisə məni xeyli kədərləndırdi. Zavallı Xınalı yapıncaq otağımdakı işığın qaranlıqlardan çəkib gətirdiyi o səssiz gecə cücülərınə bənzəyirdi... Pianonu çalmağa başladığım vaxt, görünür, yatmaq üzrə imiş, bəlkə də yatırmış. Gecənin dərinliyindən gələn bu səslər onu oyatmışdır, nə istədiyıni, nə etdiyini özü də düşünmədən, o, gecə cücüləri kimi bu səslərə doğru gəlməyə başlamışdır. Yaşıl, parlaq qanadlarını lampanın atəşində o qədər dərin bir şövqlə yandıran cücülər kimi bu kiçik məxluq da musiqinın atəşində yanmaq istəyirdi. Bu, hələ yeni yaşamağa başlayan qızcığaz ölümdən söz saldığı vaxt ürəyim sızıldadı... Zavallı Lamiə".

* * *

Lamiə o gecədən sonra adət etmişdi. Bağlarda səslər kəsilib işıqlar söndükdən sonra evdən çıxır, Kənanı dınləməyə gəlirdi.

Bu, Kənanın əvvəl xoşuna gəlməmişdi. Adamlar qərıbə olurlar Lamiənin onun üçün adi bir qonşu qızından başqa bir şey olmadığını anlamaya, bəlkə hətta dedi-qodu da edə bilərlər. Ancaq bunu bu saf qızcığaza söyləmək hələ bir yana dursun, fikrindən belə bir şey keçdiyini ona hiss etdırməyə də utanırdı.

Bununla belə, Lamiə də o gecədən sonra daha Kənanın otağına gəlməmişdi. O, gəlib çardaq altındakı həsir divanda oturur, "Quzğun"un başını dizləri üstünə alaraq saatlarla musiqiyə qulaq asırdı.

Kənan arada işinə fasilə verərək bir papiros yandırır, pəncərənin içində oturaraq Lamiə ilə söhbət edirdi. Qız ona əməlli-başlı alışmışdı. Artıq o, çəkinmir, həyatından, işlərindən bir böyük qardaş əmniyyəti ilə ona danışırdı. Bir gecə söhbətləri lap dərdləşmə şəklini almışdı, Lamiə ona ən əziz adamlarından (anasından, atasından) və Paşabağçadakı evlərindən danışırdı. Buna sakit gecənin dərinliklərində birdənbirə qalxan, çardaqları xışırdadıb, yerə xeyli quru yarpaq tökən keçici külək səbəb olmuşdu Kənan yenə pəncərənin yanında papiros çəkirdi. Lamiə gözlərini yumaraq başını küləyin gəldiyi tərəfə çevirmiş, saf və kədərli bir təbəssümlə:

– Nə gözəldir, – demişdi, – İstanbulun küləyi yadıma düşdü.

Kənan gülümsəyərək.

– İstanbulun küləyi, deyirsən? – deyə soruşdu.

O artıq qıza "sən" deyə müraciət etməyə başlamışdı.

– Məgər İstanbulun ayrıca küləyi var?

Lamiə dərin bir səmimiyyətlə başını əydi:

– Əlbəttə, Kənan bəy .. Oranın dənizi, küləyi də başqa cürdür... Burada xətirlərinə dəyər, deyə başqalarına demirəm... Amma siz məni başa duşərsiniz... Evimizdə olanda axşamlar dəniz tərəfdən xəfif bir külək əsərdi. Mən onu dünyanın hansı yerində olsam tanıyaram... Biz o zaman necə də bəxtəvər idik... Qardaşım, anam, atam sağ idilər... Hamısı birdən necə də cavan öldülər... Məni bu cür yalqız qoydular...

Lamiə dizi üstə yatan "Quzğun"un başını tumarlayır, boynunu azacıq bükərək yaşıl gözləri ilə Kənana gülümsəyirdi.

– Ən çox qardaşım Faxir üçün yanıram... O məndən iki yaş kiçik idi... Mənə çox oxşayırdı, ancaq yaman dəcəl idi... Kuklalarımı sındırır, oyuncaqlarım olan şkafı qarışdırır, mənə heç rahatlıq vermirdi... Bir-iki dəfə yazığı döymüşdüm. Bır kərə atam bizə şüşə qutular içində bəzəkli konfetlər gətirmişdi... Faxir özününküləri o saat yedi.

– Hamısını yemə, sonra verməreəm, ağlarsan, – dedim. Qulaq asmadı. Mən qəsdən öz konfetlərimi saxladım. Axşamüstü dəniz kənarına getdiyimiz vaxt yeməyə başladım, Faxir mənə yalvarıb ağlayırdı.

"Oho!" deyə ona acıq verirdim... Sonra başqa bir insafsızlıq elədim, Kənan bəy .. "Oyun çıxardıb, məni güldürə bilsən sənə bir konfet



verərəm" dedim... Qardaşım həm ağlayır, həm o gözəl üzü ilə qəribəqəribə hərəkətlər edirdi... Görün, mən nə pis qızam, Kənan bəy? Ondan sonra da ona konfet vermədim. Bacı da belə şey edərmi? Faxiri bir gün məktəbdən xəstə gətirdilər. Qardaşım bir həftə sonra yatalaqdan öldü. Xəstə vaxtında məni onun yanına buraxmaq istəmirdilər. Mən fürsət tapdıqca o yatan otağa girir, "Faxir, yaxşı ol, öz pulumdan sənə o konfetlərdən alacağam" deyirdim Anamla atama da çox heyifim gəlir Amma onlar barəsində sonralar mənə dərd ola biləcək bir şey eləməmişdim. Ancaq Faxir... Yəqin elə bunun üçün uşaqların nazına, şıltaqlığına bu qədər dözə bilirəm. Əmimin uşaqlarına, bilirsiniz, necə yaxşı baxıram? Düzdür, əslində bu elə mənim borcumdur. Elə deyilmi, Kənan bəy? Evlərində yaşayıram; hər halda əmim, xüsusilə əmidostum mənə baxmağa borclu deyillər. Mənə elədıkləri yaxşılıqların əvəzini çıxmaq üçün bir şey eləməliyəm, elə deyilmi? Səmihə ilə Fikrətə dayə kimi baxıram. Nə istəyirlərsə edirəm. Kimin əvvəl öləcəyi məlum deyil ki, Kənan bəy. Sonradan peşmançılıq çəkməkdənsə...

* * *

Yayın son, aylı gecələrindən biri idi. Təpələr, evlər, ağaclar, qayalıqlar nura qərq olmuş göy üzünün əsmər sədəflərə bənzəyən səthi üzərində bütün cizgiləri ilə aydın görünürdü. Bozyaxa açıq rurşunu rəngində bir barelyefi andırırdı Göz işlədikcə uzanıb gedən çılpaq bağlara düşmüş ay işığı sularda əks edirmiş kimi görünürdü.

Kənan Lamiənin zərif kölgəsini çardaq altında görməyə əməlli-başlı alışmışdı. Ona elə gəlirdi ki, Lamiə burada olanda daha yaxşı işləyə bilir, daha gözəl şeylər tapır. Lamiənin bəzi halları Kənana öz uşaqlığını xatırladırdı. O da vaxtilə çərşənbə axşamları təkyədə qoca minbaşının ud çalmağını dinlərkən gözlərini bu cür yumar, bu cur tıtrəyərək saralardı. Həyatlarındakı oxşayış təkcə bundan ibarət deyildi Lamiə yenə bir gecə ona atasından söz açmışdı:

– Mən Kürdüstana getdiyim vaxt on iki yaşında idim. Atama anam kimi qulluq edirdim... Orada xidmətçilərimiz vardı. Yeməyimizi bişirir, paltarımızı yuyurdular. Mən atamın köynəklərini, yaylıqlarını öz əlimlə ütüləmək üçün inad edir, ona qəhvəni özüm hazırlayım deyə, səhərlər çox tez oyanırdım... O da mənə anamdan danışırdı. Sağ olsaydı, indi bəlkə İstanbula qayıtmışdıq və Paşabağçadakı evimizdə olurduq.. Atam

hərdən jandarm nəfərləri ilə bir yerdə təftişə çıxırdı. Bir gün bır dərədən keçərkən atı selə düşür... Sular atamı beş dəqiqəlik bir yerə qədər sürükləyib aparır. Dəyirmançılar haraya gəlib onu selin əlindən alırlarsa da, ancaq iş-işdən keçmiş imiş. Sel yazıq atamı bir qayaya çırpmış, başı, döş sümükləri ağır bir halda zədələnmişdi. On günə kımi xəstə yatdı. Həkim dostları çox çalışdılar. Ölən gününədək mən də xəstəxanada qaldım. Gecələri səhərə qədər yatmırdım. Nəhayət, bir gecə halı ağırlaşdı. Məni zorla çölə çıxartdılar, canı çıxana qədər yanına buraxmadılar. O qədər sarsıldığıma baxmayaraq həmin gün də mən atama analıq etdim Ağlaya-ağlaya sandıqları açdım, bır ölü üçün nə lazımsa öz əlimlə tapıb çıxartdım. Onu mənə son dəfə bir də göstərmək istəmirdilər. Bir qaimməqam həkimi vardı. Ayaqlarına düşdüm. Mənə yazığı gəldi, əlimdən tutaraq atamın yatağı yanına apardı. Üzünə baxa bilmədim. Yıxılıb ayaqlarını öpdüm.

Lamiənin səsi titrəyır, gözləri yaşla dolurdu. Kənan onun sarı saçlarını dərın bır şəfqətlə oxşadı:

– Hələ çox cavansan, Lamiə, keçər-gedər, – dedi. Sonra kədərlə və dalğın təbəssumlə əlavə etdi.

– Sən heç olmazsa son dəfə ayaqlarını öpə bilmisən. Mən isə heç atamın harada və necə öldüyünü də bilmirəm...

## VIII

Oktyabrın ortaları idi. İlk yağışlar başlamış, köçəköç düşmüşdü. Bağlarda səhərə qədər vida məclisləri qurulur, məşəllər yandırılıb, musiqi çalınırdı. Buna baxmayaraq Bozyaxaya ağır bir kədər, toy gecəsindən sonrakı səhərlərdə olduğu kimi yorğun bir məhzunluq çökmüşdü.

Ağaclar yarpaqlarını tökmüş, hər tərəf çılpaq və səssiz-səmirsiz olmuşdu. Qurumuş çardaqlarda saralmış salxımlar sallanırdı. Solğun günəşin altında sıra-sıra uzanıb gedən yarpaqsız meynələr böyük bir yanğından çıxmış kimi qara və pis görkəm almışdı.

Bağların payızı yenə də Kənana bir yorğunluq və üzüdanlaqlı uşaqlığının süstlüyünü gətirmişdi. Əsərini tamamlamış, İstanbula qayıdıb getməsinə bir neçə gün qalmışdı.

Gündüzlər böyük küçə qapısının yanında saatlarca oturur, palçıqlı yollarda inilti salıb keçən yüklü öküz arabalarına, təkərlərin buraxdığı izlər içində çürüyən yarpaqlara tamaşa edirdi.



* * *

– Xınalı yapıncaq da başqa üzümlər kimi mənə bu gün bir az saralmış kimi göründü. Görəsən nə olub?

Quyu başında, küknar ağacları yanında idilər "Kərəm" yenə başını sallayaraq ağır-ağır dolanır, kiçik daş hovuzda axıra qalan üzümlər soyuyurdu. Lamiə uşaqlardan birini "Kərəm"in belinə mindirmişdi. Yıxılmasın deyə uşağın belındən tutur, dalğın-dalğın düşünərək yeriyirdi.

Qız birdən-birə cavab vermədi. Yaşıl, süzgün gözlərini Kənana tərəf çevirdi:

– Sabah səhər biz də İzmirə qayıdırıq, Kənan bəy!

– Deməli, daha bir-birimizi görməyəcəyik.

– Bəli.. Elədir...

Lamiə nə isə soruşmaq istəyir, ancaq tərəddüd edirdi. Nəhayət cəsarət elədi:

– Gələn il yenə buraya gələcəksiniz, eləmi, Kənan bəy?

– İndidən bir şey deyə bilmərəm .. Bəlkə də... işlərim imkan verərsə...

– Bəs Nemət xanım... Kim bilir, bır-biriniz üçün nə qədər darıxacaqsınız... Mütləq gələrsiniz, deyirəm, Kənan bəy.

Kənan qızın bu sadəlövh inamını azaltmaq istəmədi:

– Bəli, güman edirəm ki, gələ biləcəyəm.

– Ona məktub yazacaqsınız, eləmi?

– Əlbəttə...

– Mənə də yəqin salam yazarsınız.

– Əlbəttə, Lamiə.

– Nemət xanım çox fikır eləsə, mən ona təskinlik verərəm. Narahat olmayın, Kənan bəy.

– Neçə gündür ki, sizi görmürəm.

– Bir az xəstə idim... Sonra, köçməyə hazırlaşırdıq... Bilirsiniz ki, məndən başqa evdə işə kömək edəcək bir adam yoxdur . Kənan bəy, sizdən böyük bir xahişim var...

– Çox böyükdürmü?

– Nemət xanım üçün bir gecə o ninnini çalacaq idiniz. Yadınıza düşürmü, unudub çalmamışdınız. Bu gecə onu çalarsınızmı?

– Yaxşı, Lamiə... Ancaq bunu Nemət xanım üçün yox, sənin üçün çalacağam... Ona qulaq asa-asa yatarsan, yaxşımı?

– Çox sağ olun... Sabah səhər sizinlə vidalaşmağa gələrəm, Kənan bəy.

– Çox gözəl olar... Belə Lamiə xanım, görürsünüz, sizinlə əməlli-başlı möhkəm dost olduq.

* * *

Kənan ertəsi gün günortaya yaxın oyanmışdı. Otağın pəncərələrini açdığı vaxt sarı lentlə pəncərə taxtasının kənarına bağlanmış kiçik bir dəstə bənövşə gördü. Bunun kim tərəfindən buraya bağlandığını o dəqiqə başa düşdü. Lamiəyə verdiyi sözü ancaq indi xatırladı. Narahat bir halda əlini başına çəkərək:

– Vay, zavallı qız, – dedi. – Gecə ondan ötrü ninni çalmağı necə də yadımdan çıxardım. Kim bilir, indi məndən nə qədər inciyib.

Bir az kənarda qoca bir bağban yer qazırdı. Kənan pəncərədən onu səslədi:

– Hüseynağa, sən bilmirsən qonşumuz Şükrübəygil İzmirə köçüblər, ya yox?

– Səhər tezdən getdilər, bəy. O kiçik xanım buraya gəlmişdi. Xahiş elədi ki, sənə salamını yetirim.

Kənan kiçik bənövşə dəstəsini qoxulayaraq:

– Yazıq Lamiəcik, – dedi. – Məndən bir şey istədi, onu da unutdum.

Çiçəkləri nə edəcəyini bilmir, bir əlindən o biri əlinə keçirirdi. Sonra bir stulun üstünə çıxıb çiçək dəstəsini divarda hündür bir yerdə mıxdan asdı.

## IX

Kənanın o gün əhvalı yaxşı deyildi, başı da ağrıyırdı. Neçə vaxtdı ki, səhərlər yuxudan yorğun və bikef oyanır, bir müddət yatağından qalxa bilmirdi. Qalxıb otağının dəniz tərəfə baxan pəncərəsini açdı. Bu gün Bosfor boğazının üstündə hava yenə dumanlı idi. Günortaya az qaldığı halda, Anadolu sahilindəki təpələr hələ çəndən görünmürdü. Dənizin üstündə parça-parça duman komaları üzürdü.



Kənan üzünü, açıq köksünü dəniz tərəfdən gələn rütubətli küləyə tutdu, vücudundakı əzginlikdən doğan bədbinliklə:

– İstanbulun baharı bir şey deyil, – dedi. – İyun ayı da girdi, ancaq havalar hələ açılmır. Duman təkcə mənim başımı bürüməyib. Bosfor da hər səhər belə, duman içində oyanır.

Qəbahət sanki ancaq İstanbulun havalarının dəyişkənliyində, baharın gecikməsində idi. Özünün isə heç qüsuru, günahı yoxdu Səhərə qədər musiqi ilə, işrətlə, qumarla, qadınlarla keçirdiyi gecələr haqqında danışmağa dəyərmi? O il Kənan üçün ən böyük nailiyyət ili olmuşdu. Operası gözlədiyi qədər müvəffəqiyyət qazanmamışdısa da, ona tanınmış sənətkarlar arasında yer tutmağa imkan vermişdi. O, qışın bir hissəsini Fransada, bir hissəsini İtaliyada keçirmiş, aprelin əvvəllərində İstanbula qayıtmışdı.

Şahzadə Vəfiq paşa Rumeli hisardakı[1] kiçik yalısını gələcək kürəkəni üçün ayırmışdı.

Noyabrın əvvəlində Kənanın Cavidanla toyu olacaqdı. Ata və qız bir miras işindən ötrü indi yenə Misirə getmişdilər. Üç ildən bəri müxtəlif şəkillər alaraq uzanıb gedən bu komediya müvəffəqiyyətlə sona çatmaqda idi. Bununla belə, ata ilə qızın bahar kimi yaydan da istirahət üçün istifadə edə bilməyəcəkləri, bu gözəl mövsümü orada başa vuracaqları aydın idi.

Cavidanla Kənan operanın ilk dəfə oynandığı gecə nişanlanmışdılar. Bu izdivac çoxdan qərarlaşdırılmışdı. Bunu hamı bilirdi. Ancaq Kənan o gecəyə qədər nə Vəfiq paşa ilə, nə də hətta Cavidanla bu məsələyə dair heç bir şey danışmamışdı. Qızla olan ən səmimi görüşlərində belə nəzakətli və hörmətcil yoldaşlıq hüdudunu heç bir vaxt keçməmişdi.

O gecə tamaşa qurtardıqdan sonra Vəfiq paşa Kənanla onun bir neçə sənətkar yoldaşını evə dəvət etmişdi. Gecənin yaxşı keçməsi üçün fikrində heç olmazsa Kənanın operası qədər qüvvətli təsir göstərə biləcək bir proqram hazırlamışdı. Dostlarının gənc bəstəkar haqqındakı fikirlərini, tənqidi qeydlərini bir-bir dinlədi. Sonra dirsəklərini masaya dayadı. Kənanın musiqisi barədə uzun mülahizə yürüdüb, fikrini bu sözlərlə tamamladı:

"Əsərin dərəceyi-qiyməti haqqında aramızda ixtilaf ola bilər. Ancaq bir cəhəti təsdiq etməkdə hamımız birləşə bilərik ki, Kənan bizim

[1] İstanbulun Avropa hissəsində qədim qala divarları olan, zəngin ailələrin yaşadığı məhəllə

aramızdan, insanlar arasından çıxaraq, yarımallahlar aləminə daxil olmuşdur. Adlarımıza şərəf gətirən təntənəli ləqəblər, hətta bəzilərimizin başını bəzəyən dünya tacları onun sənətkar alnını bəzəyən əklillərin yanında quru kəlmələrdən, parlaq daş parçalarından başqa bir şey deyildir".

Vəfiq paşa yaylığını ağzına tutaraq astadan öskürüb əsil mətləbi söyləməyə hazırlaşırdı: "Kənan bəy, müvəffəqiyyətiniz üçün sizə qiymətli bir yadigar vermək istəyirəm (barmağını gicgahına dayayaraq qaşlarını qaldırıb, fikirli-fikirli baxdı). Düşündüm, düşündüm. Qızımın məhəbbətindən daha qiymətli başqa bir şey tapa bilmədim. Qan və can nəcibliyinin sənət nəcibliyinə olan bu gözəl hədiyyəsini qəbul edirsinizmi?"

Öz hərəkətinin ülviyyət və əzəməti qarşısında Vəfiq paşa titrəyir, gözləri yaşarır, bir az əvvəl ağzını sildiyi yaylığı ilə indi qızaran burnunu silirdi

* * *

Şahzadə Vəfiq paşa qızı ilə Misirdə qalacaqları müddətdə Kənan Rumeli hisarındakı evdə yaşayacaq, yeni əsər üzərində işləyəcəkdi. "Siyah yıldızlar" adı vermək istədiyi bu opera yenə Şərqə dair qanlı bir hekayətdi. Altay ətəklərində yerləşən bir türk xanlığında dəhşətli üsyan baş verir, hökmdarı çarmıxa çəkirlər, onun on bir oğlunun isə gözlərinə mil çəkilir. Bu faciədən yalnız ən kiçik şahzadə xilas ola bilir. Çünki körpəlikdən qırxılmamış uzun saçlarına görə onu qız hesab edirlər. Dayəsi uzun illər şahzadəni saxladıqdan sonra sirrinin açılmasından qorxaraq, əlinə bir əsa verir və onu həmin ölkənin hüdudlarından kənara çıxarır. Əsərin əsil məzmununu da kiçik şahzadənin dərbədər və avara həyatı təşkil edir Şahzadə təkbaşına Hindistanı, İranı gəzir, illərlə dağlarda, çobanlarla təkyələrdə, rindlərdə yaşayır, nəhayət, İranda bir mahala gəlir.

Kiçik şahzadə sirrini hələ də heç kəsə açmamışdır. Ölümündən qorxmurdu. Çünki yaşamaqdan bir zövq duymamışdı. Onu hər dəqiqə təqib edən bir qorxu vardı. Bu da qardaşlarının aqibətinə uğramaq, "siyah yıldızlarını", yəni gözlərini qeyb etmək qorxusu idi.

Kiçik şahzadə bu yeni ölkədə çobanlıq edərək yaşamağa başlayır. Qoca bir qadının qoyunlarını otlaqlarda otarır. Bir gecə yoluna davam



edərkən qarşısına başdan-başa yabanı sarmaşıqlarla örtülmüş böyük bir divar çıxır. Yoldan keçən bir dərvişdən bunun nə olduğunu soruşur. Qoca dərviş bu qədim qala divarlarının arxasında bir sarayla bir bağ olduğunu söyləyir. Hökmdar, günəşə belə qısqandığı on iki arvadını burada saxlayırmış.

Şahzadə burada qəribə bir cazibəyə tutulur, hər gecə bu divarın qarşısına gələrək saatlarla duşünür.

Qaranlıq gecələrin birində o, divarın bir tərəfində ağ geyimli bir qadın görür. Şahzadə bunu əvvəl gözünə görünmüş bir xəyal zənn edir. Lakin o, bir xəyal deyil, padşahın ən kiçik arvadı idi. Nə o möhtəşəm saray, nə günəş görmədiyi üçün çiçəkləri rəngsiz açılan o bağ qadını təmin eləmirdi. Divarın bir tərəfində sellərin açdığı gizli bir oyuqdan hər gecə bu tərəfə çıxırmış.

Parlaq, qaragözlü çobanla bu solğun çöhrəli gözəl arasında dərin bir sevda başlayır.

Bir neçə gecə göy üzünün ulduzları dünyanın ən gözəl bir eşqini seyr edirlər. Məhəbbət bu iki cavanın gözlərini elə bağlayır ki, bir gecə qaranlıqda yavaş-yavaş ətraflarını buruyan uzun mizraqlı kölgələri görə bilmirlər.

Çoban təhlükəni dərk etdiyi vaxt artıq iş-işdən keçmişdi Lakin o, indi bir çoban deyildi, sevgilisinin böyük bir təhlükə keçirdiyi bu dəqiqədə damarlarındakı qan birdən-birə alovlanan bir hökmdar oğlu idi. Əlindəki əsadan bir mizraq kimi istifadə edərək sevgilisini gizli divar dəliyindən qaçırıncaya qədər vuruşur.

Ertəsi gün çobanı hökmdarın hüzuruna gətirirlər. Təhdidlər, işgəncələr kar etmir, sevgilisinin kim olduğunu inadla gizlədir Onu qaranlıq bir zindana salırlar. Günlərlə düşündükdən sonra çarə tapılır: hökmdarın on iki arvadını bir-bir çobanın qarşısından keçirmək.

Sevgilisini gördüyü zaman çoban hər halda özünü saxlaya bilməyəcək, bir fəryad, bir hərəkət etməsə də, heç olmazsa gözlərində titrəyəcək bir parıltı, ya ifadə ilə sirrini mütləq büruzə verəcəkdi

Şahzadə zindanda bu qərardan xəbər tutduğu vaxt ölü kimi saralır Fəqət, heç bir şey söyləmir.

Ertəsi gün saray bağına böyük bir izdiham toplaşır. Şahzadəni çiçəklər və qırmızı göyərçinlərlə bəzədilmiş bir çarmıxın qarşısına gətirib oturdurlar. Gözəlləri bir-bir onun qabağından keçirməyə başlayırlar Hansının günahkar olduğu aşkar edilərsə dərhal çarmıxa çəkiləcəkdir.

Gözəllər ağ ipək örtüklərinə bürünmüş halda titrəyərək bir-bir çobanın qarşısına gəlirlər, uzunboylu bır ərəb onların üzlərindəki bürüncəyi qaldırır

Hökmdar, atəş kimi parlayan gözlərini çobanın gözlərinə dikərək gözləməkdədir. Hər yeni bürüncək açıldıqca gözyaşları ilə islanmış, qorxudan saralmış gözəl üzlər görünür. Çoban isə hamısına eyni sakit çöhrə, eyni dalğın nəzərlərlə baxır.

Hökmdar ruhu oxumaq işində təcrübəli bir adamdı.

– Bu çobanı tapdığınız yerə də aparın... – deyır. – Siz gecə yəqin xəyal görmüşsünüz. Arvadlarımdan heç biri günahkar deyil. Bu gənc çoban onlardan birində sevdiyini tanımış olsaydı, mütləq sirrini büruzə verərdi. Bu mənim etdiyim ən qanlı işgəncələrdən daha ağır bir təcrübə idi.

Günahkar gözəl keçirdiyi təhlükəyə baxmayaraq ertəsi gecə yenə divardakı həmin oyuqdan kənara çıxır, çobanı eyni ağacın dibində tapır. O, sevgılisinə:

– Buradan qaçaq... Məni hara istəyirsən apar, – deyir.

Çoban ülvi bir peyğəmbər sakitliyi ilə gülümsəyır, gözlərində hələ də o dalğın nəzər olduğu halda:

– Qaça bilməyəcəyik, – deyir. – Sən yolları tanımırsan. Mən isə səni apara bilməyəcəyəm... Səni qarşımda görəcəyim zaman gözlərimın sirrimizi aşkar edəcəyindən qorxaraq dünən gecə zindanda öz əlimlə gözlərımə mil çəkdim. "Siyah yıldızlarım" söndü, mən artıq heç bir şey görmürəm.

* * *

Kənan bir gün əvvəl nişanlısından məktub almışdı. Qız ondan yeni əsərin nə vəziyyətdə olduğunu soruşur, tamamlanmış hissələrin notlarını istəyirdi. Kənan tez yazdığı cavabda operası üzərindəki işin yaxşı getdiyini göstərirdi. Lakin notları göndərməmək üçün ondan icazə istəyır və bunu belə izah edirdi: "Sizdən ilham alıb yazdığım bu parçaların sizə göstərəcəyi ilk təsir məndən ötrü əhəmiyyətlidir. Onları mənim yox, başqa birısinin ifasında dinləsəniz, bu təsiri görə bilməyəcəyəm. Bir az səbir etsəniz, əsərə mənim ifamda qulaq asmaqla, onun edəcəyi ilk təsiri gözəl üzünüzdə görmək səadətini məndən əsirgəməsəniz, minnətdar olaram". Kənan bu sətirləri yazdıqdan sonra həm gülmüş, həm



də utanmışdı. Çünki o, hələ tamam-kamal bitmiş bir parça yazıb hazırlaya bilməmişdi. Əylənirkən çox canlı və hərarətli olan Kənan işləməyə başlamaq istəyəndə qəribə bir həvəssizlik, ağır bir süstlük hiss edirdi. Həyatı kimi zövqü, təbiəti də tez-tez dondan-dona keçirdi.

Əvvəllər o, qələbəliyi sevməzdi. İndi isə onsuz dura bilmır, qələbəlik, gurultu onu günəş kimi açır, canlandırırdı. Hələ balaca ikən butün uşaqlıq hüquqlarından könüllü olaraq imtina etmişdi. İndi isə hər gözəl şeyi arzu etməkdə özünü haqlı bilir, hər zövq üçün özündə bir sönməz arzu duyurdu.

Saf dəniz havasının belə heç cür ortadan qaldıra bilmədiyi başağrısı, bu səhər onun xəyalına bədbin, nəşəsiz şeylər gətırirdi: "Nə gizlədim. Arsız və görməmiş adamlara çevrılirəm... Həyatım hərçənd əyləncədə keçir, ancaq bu təmiz kübar həyatı deyil... Təbiətimdə mötədillik yoxdur... Ya "tamam", ya "heç" deyirəm... Bu həyat tərzini dəyişdırmək lazımdır. Hərçənd yaşamağa, əylənməyə mənim də haqqım var .. Ancaq heç olmazsa, bu haqqın özünü də bir nızama salmalıyam... Heç olmazsa işləyərkən fikrim, qəlbim sərbəst olmalıdır... İki aya yaxındır ki, işə başlamaq istəyirəm, mümkün olmur... Dərunimdən heç bir şey gəlmir... Halbuki, mən heç sönmüş bir adam deyiləm... Görünür, İstanbulun da təsiri var... Bura işləmək mühiti deyil, vəssalam".

Kənan o gün də işləyə bilməyəcəyini anlamışdı. Özünə bir məşğuliyyət tapmaq üçün kitabxanasını sahmana salmaq istədi: əvvəl yaşadığı mənzildən gətirdiyi kitablarını hələ yerbəyer eləməyə vaxt tapmamışdı. O, indi jurnalları vərəqləyir, kitabların tozunu çırpır, lazımsız kağızları, qəzetləri cırıb atırdı. Bir böyük not dəftərinin arasından saralmış bir zərf düşdü. Üstündə köhnə mənzilinin ünvanı yazılmışdı. Avropada olduğu zaman gələn bu məktub kağızların arasına qarışmış, itmişdi Kənan maraqla zərfi cırdı. Bir İzmır poçt vərəqinə solğun mürəkkəblə, qarışıq, lakin incə qadın xətti ilə bu sətirlər yazılmışdı:

"Kənan bəy, dünən bir İstanbul qəzetində sizin haqqınızda bir xəbər oxudum. Operanız Avropada oynanmış, çox bəyənilmişdir. Mən sizə deməmişdimmi? Heyif ki, nə o, nə də mən bu operanı görə bilmədik. Keçən gün Karantinə, dayınızgilə getmişdik. Bır şad xəbər də eşitdik: siz bir şahzadə xanımla evlənirsiniz. Təbrik edırəm. Artıq bu il gəlməyinizdən ümidimi kəsdim. Lamiə".

Bu saralmış məktub parçasından bir yay günəşinin hərarəti duyulur, lətif bağ ətri gəlirdi. Kənanın kədərli, nəşəsiz gözlərində xəfif bir

işıq oyandı. Lamiənin zərif çilli üzünü, süzgün yaşıl gözlərini daha yaxşı xatırlamaq üçün gözlərini yumdu:

– Ah, zavallı Xınalı yapıncaq, məni unutmayıb, – dedi.

Keçən payızdan bəri Kənan Lamiəni ikinci dəfə idi ki, xatırlayırdı. O, bir dəfə də operasının oynandığı gecə yadına düşmüşdü. Lamiənin xoşladığı parça çalınmağa başladığı vaxt Kənan qeyri-ixtiyari olaraq gözlərini yummuş, gecə cücülərinin səssiz rəşələri ilə dolu otağını, yaşıl gözlərində bitab bir məftuniyyət, çilli yanaqlarında isə gözyaşı olduğu halda başını pianoya dayayan Xınalı yapıncağı xəyalı önündə görmüşdü

Kənan əlindəki məktubu masa üzərinə atdı və lazımsız kağızları cırmaqda, kitabları birbəbir kitabxanasının rəflərinə yerləşdirməkdə davam etdi. Lakin bu məktubun oyandırdığı xəyal onu getdikcə daha çox məşğul edir, o, Bozyaxa bağlarını, gümüşü aylı gecələri, yaşıllıqlar içində qeyb olmuş ensiz bağ yollarını, Ərəb dərəsini, Qırx çamları görür, Şəmi dədənin kədərli neyini, "Kərəm"in ağır-ağır dolandırdığı quyu çarxının iniltisini eşidirdi.

Kənan masanın üstündə duran kiçik məktubu bir də oxudu.

– Ah, Xınalı yapıncaq, – dedi, – başıma iş açdın. Məndə İzmiri təkrar görmək həvəsini elə qüvvətlə oyandırdın ki, müqavimət göstərə bilməyəcəyəm. Bəlkə bu daha xeyirli oldu. Nahaq yerə burada axtardığım ilhamı yəqin orada taparam... Görürəm ki, burada rahat çalışa bilməyəcəyəm. Anama da teleqram vurum, bura gəlməsin. Bir neçə günə özüm gedib Bozyaxa bağlarında onu görərəm.

## X

Yay bu il erkən gəlmiş, bağ həyatı vaxtından əvvəl başlamışdı. Bozyaxada hər gün Katıboğlu yolundan axın-axın köç arabaları gəlir, ağ, çəhrayı, bənövşəyi geyimli adamlar, uşaq səsləri, qəhqəhələr, türkülər bağları şənləndirməyə başlayırdı.

Doqquz ay dumanlar, yağmurlar və məhzun bir tənhalıq içində qalan evlər pəncərələrini birbəbir açır, ətraflarını saran yaşıllıqlar içərisində gecə yarısına qədər parlaq işıqlar oynaşırdı.

Lamiə o qış İzmirdə bərk darıxmış, Bozyaxaya köçəcəkləri vaxtı kiçik barmaqlarıyla günləri saya-saya gözləmişdi. Bağa köçdükdən sonra ilk günlər onun üçün pis keçməmişdi. Gün doğmamışdan əvvəl



yuxudan oyanaraq bağarası yollarda gəzir, başqa bir yoldaş tapa bilmədiyi üçün əmisinin uşaqlarını götürüb Qırx çamlara gedir, günorta vaxtı ağacların altında qum üstündə uzanıb dincəlirdi

Bu il Bozyaxada ən yaxın dostları "Kərəm"lə "Quzğun" idi. Bu, məzlum çöhrəli eşşəklə altungözlü qoca köpəyi Lamiə anlaşılmaz bir məhəbbətlə sevirdi. "Kərəm" yenə keçənilki kimi bostan quyusunun ətrafında tükənməz səbirlə zəhmətə qatlaşmağa başlamışdı

Lamiə uşaqlardan birini onun belinə mindirir, yıxılmasın deyə bir əli ilə uşağı tutur, o biri əli ilə "Kərəm"in üzünü, qulaqlarını oxşayaraq addımlarını onun addımlarına uyğunlaşdırırdı Bu ona röya içində, görmədiyi yerlərdə gəzmək kimi gəlirdi. "Kərəm" durduğu zaman Lamiə bu yuxudan oyanmış kimi olur, nə qədər vaxtdan bəri bu vəziyyətdə yeridiyini xatırlamırdı.

Axşamlar, günbatana yaxın o, "Quzğun"la bərabər bağın kənarına gedir, divarın uçulmuş bir yerində oturaraq köpəyin başını dizləri üstünə qoyur, tozlu yollar qaralıncaya qədər gözləyirdi. "Mərasim binası"nın bağlı pəncərələrini çiçəkli sarmaşıqlar bürümüşdü. Lamiə hərdən çiçək dərmək bəhanəsi ilə köşkün ətrafında gezişir, burada olduğu dəqiqələrdə müqəddəs yerləri ziyarət edən adamlar kimi məhzun-məhzun xəyala dalırdı.

Buralar onun nəzərində keçənilki o gözəl yay sevdasının məzarı idi. O sevda indi Leyli və Məcnunun sərgüzəşti kimi uzaq, köhnə bir hekayət olmuşdu.

Şükrü bəyin İzmirdə İkiçeşməlik məhəlləsindəki evində keçən tutqun, yağmurlu qış ayları da Lamiəni bu hekayətin təsirindən qurtara bilməmişdi.

İzmirdə havalar daima buludlu, evin içi isə həmişə axşam çağlarında olduğu kimi yarıqaranlıq olardı. Palçıqlı küçələrdən fayton, araba gurultusu əskik olmur, səhərdən axşama qədər küçə alverçilərinin səsi kəsilmirdi.

Lamiə ev işləri ilə məşğul olmadığı vaxt pəncərənin yanında oturur, axşamlar açılmaqdan ötrü asılmış qalın pərdələrdən daha da tutqun görünən işıqda krujeva toxuyurdu. Əmisi ilə əmisi arvadı ondakı dəyişikliyi sezmişdilər. Lakin qıza nə olduğunu heç cür başa düşə bilmirdilər. Kədərli deyildi; çünki bəzən hər zamankından daha çox güldüyünü görürdülər, həm də ürəkdən gələn təmiz, şən qəhqəhələrlə. Xəstə də deyildi. Əksinə, təzə çiçək kimi gündən-günə açılır, rəngi durulur,

gözlərinin soluq, açıq yaşıllığında içərisi günəş görməmiş zümrüdlər kimi tünd parıltılar titrəyirdi.

O, hətta xoşbəxt də görünürdü. Pərdələrin ağır kölgələrinə aydınlıq verir kimi görünən gözəl sarışın başında bir təravət, krujevasının zərif hörgülərinə dikilmiş gözlərində sönməyən bir təbəssüm vardı.

Xınalı yapıncaq o il ruhunda Bozyaxa bağlarının yayından bir şuxluq, bır hərarət gətirmiş kimi idi.

Bu xoş xəyallar içində saatlarca özünü unudur, krujevasının incə naxışlarında Bozyaxanı, qayalara düşən günün şəfəqlərini, çardaqlardan süzülən ay işığını yolların yaxınlığındakı divarlara düşən titrək, durğun kölgələri görürdü.

Nemət xanıma hədiyyə vermək üçün enli bir yaxalıq toxumağa başlamışdı Yaxalığı nə şəkildə toxumağı da özü düşünüb tapmışdı. Bu, qəribə bir Min bir gecə hekayəti idi: çardaqların oymalı qəfəslərindən meynə yarpaqları, yetişmiş üzümlər sallanır, şam ağaclarının təpələrində doğmuş ayın ətrafında pərvanələr, uzun qanadlı gecə cücüləri uçuşur, salxımlarla dolu hovuzlara sular axırdı. Bu əfsanənin bir guşəsində bir kaman rəsmi də vardı

Lamiə bu əl işi ilə məşğul ikən Kənanın bəzi mahnılarını xatırlayır, başqalarının eşitməsindən qorxurmuş kimi çox astadan dərunı bir səslə onları təkrar edir, bəzən krujevasının üstünə kirpiklərinin ucundan bır damcı yaş da düşürdü.

Yaxalığı qurtaran zaman əmisindən iki gecəliyə izin istəyib Nemət xanımın Qarşıyaxadakı evinə qonaq getdi. Bu günü o, aylardan bəri səbirsizliklə gözləmişdi. Nemət xanım Kənan bəy üçün kim bilir, indi nə qədər darıxmışdı? Ondan danışmağa kim bilir nə qədər ehtiyacı vardı? Yazıq qadın sirrini ətrafındakılardan kımə aça bilərdi ki?..

Qarşıyaxa gəmisində Nemət xanımı görəcəyi dəqiqəni düşündükcə Lamiənin qəlbi xoş bir həyəcanla döyünürdü: evin bır küncündə başbaşa verəcək, iki gün, iki gecə ancaq ondan bəhs edəcəkdilər.

Lamiəyə elə gəlirdi ki, Kənandan danışmaqla onu bir müddət öz yanlarında saxlayacaqdılar.

Nemət xanımın o gün bir çox qonağı vardı. Gənc qadın Xınalı yapıncağı böyük bir sevinclə qarşıladı. Bütün o biri xanımları qoyub daha çox bununla məşğul oldu. Lakın gecə yarısına qədər bir dəqiqə ikilikdə qala bilmədilər.

Nemət xanım xeyli kökəlmişdi. Qabaqkından daha şən, laqeyd və xoşbəxt görünürdü. Onun daim gülüb danışdığını görüncə Lamiə ürəyində iztirab çəkməyə, şübhələnməyə başlayırdı. Əcəba, Nemət xanım Kənanı unutmağamı başlamışdı? Bunu təsəvvür etmək olarmı? Kənanın gözəl qarayanız üzünü, mavi gözlərini, şirin təbəssümünü, ağ parlaq dişlərini, busələrini necə unutmaq olardı? Lamiə bunu ciddi bir surətdə və heyrətlə öz-özündən soruşur, nəticədə öz şübhələrindən utanırdı: Nemət xanım onu yenə sevirdi. Ancaq nə etsin! Ərli bir qadındı. Sirrini saxlamağa, ağlarkən dodaqları ilə gülməyə məcburdu.

Yatmaq vaxtı çatdığı zaman Nemət xanım bir şam yandırdı.

– Yaxşı, Xınalı yapıncaq, gəl səni otağına ötürüm, – dedi. Ən üst mərtəbədə təmiz döşənəkli kiçik, gözəl bir otağa gəldilər. Nəhayət, gözlənilən dəqiqə gəlib çatmışdı. Lamiə dərin bir həyəcanla sarsılırdı. Nemət xanımın üzünə baxmağa cəsarət eləmirdi.

Gənc qadın şamdanı oraya qoydu:

– Sən yorğunsan, Lamiə, yaxşı yatacaqsan. Səhər tez durmaq lazımdır, səni gəzməyə aparacağam. Bu gecə yuxunda nə görsən, yadında saxla. İnsanın birinci dəfə yatdığı yerdə gördüyü yuxu mütləq çın olur... Yuxun şirin olsun.

Nemət xanım qapıya tərəf yönələrkən Lamiə şaşqın bir təlaşla onu çağırdı.

– Nə var, Lamiə? Niyə elə titrəyirsən?

– Mənə heç danışmalı sözün yoxdurmu?

– Səndə qəribə bir hal var.

– Kənan bəy sənə məktub yazır, eləmi?

– !!!

– Kənan bəyi unutmamısan, eləmi, Nemət abla?

Lamiə titrək əlləri ilə Nemətin biləklərindən tutaraq, yaşıl gözlərində dərin bir iztirabla onun üzünə baxdı.

– Bunları niyə soruşursan, Lamiə?

– Mən sizin bütün sirlərinizi bilmirəmmi? Sənə təsəlli vermək istəyirdim.

Xınalı yapıncağın dodaqları titrəyirdi, uzun kirpikləri yaşla dolmuşdu.

Bu o qədər uşaqcasına bir haldı ki, Nemət xanım özünü saxlaya bilmədi. Qəhqəhələrlə gülərək onun qızarmış yanaqlarından öpdü

– Nə qəribə qızsan...

Lamiə bu qəhqəhələrlə qəlbində ən kiçik bir şeyin qırıldığını hiss edir, gənc qadına qarşı mübhəm bir kin duymağa başlayırdı.

– Demək, Kənan bəyi yaddan çıxarmısan, Nemət abla!
Nemət xanım çaşıb qalmışdı.
– Xeyr, Lamiə... Yaddan çıxarmamışam... Kənan bəyi həmişə xatırlayacağam...
– Yuxuna bir az haram qatmazsanmı, Nemət abla!
Gənc qadın yenə güldü:
– Yaxşı, necə istəyirsən...
Ağ çarpayının kənarında yan-yana oturdular. Lamiə əvvəla ona hədiyyə gətirdiyi krujeva yaxalığı verdi. Gənc qadın bu əl işinin çox incə və gözəl olduğunu söylədi.
– Afərin, Lamiə Bu, əslində gözəl bir rəsm əsəridir, – dedi.
Bu krujevada onun başa düşə bilmədiyi bəzi şəkillər də vardı. Lamiə bunlardan birini izah etdiyi vaxt Nemət xanım qəhqəhələrlə gülməkdən özünü saxlaya bilmədi. Bu gözəl yay əfsanəsində "Kərəm"lə "Quzğun"un əskik olmasına Lamiənin qəlbi dözməmiş, qəribə şəkilli yarpaqlar arasında birinin sevimli uzun qulaqlarını, digərinin isə kəsik quyruğunu yerləşdirmişdi.
Lamiə getdikcə artan bir hərarətlə bu köhnə eşq hekayətini anladırkən Nemət xanım onun hafizəsinə heyrət edir, hərdən gülərək:
– Nə yaxşı xatırlayırsan, Lamiə! Bax bu mənim yadımdan çıxmışdı, – deyirdi.
Bu unudulan kiçik əhvalatların hər biri Xınalı yapıncaq üçün ayrı bir iztirab, puç olmuş ümid idi.
Xınalı yapıncaq o gecə heç cürə yata bilmədi. Pərdələri açıq pəncərədən İzmirin ulduz topalarına bənzəyən şəfəqlərinə baxır: "Yazıq Kənan bəy... Nemət xanımın bu qədər qəlbsiz bir qadın olduğundan xəbər tutsa, kefi yaman pozulacaq", – deyə düşünürdü. Qarşıyaxadan Lamiə əslində xəstə qayıtdı, bu ilk puç olmuş xəyalından doğan kədər üzücü bir xəstəlik kimi ruhunun dərinliklərindən aylarca özünü hiss etdirdi.

* * *

İyul ayı idi. Lamiə bir axşam yenə "Quzğun"la bərabər bağda gezirdi. Küçədə fayton səsi eşidib qapıya getdi. O, qapı ağzına çatana qədər fayton keçmişdi. Yolları bürüyən axşam qaranlığı içində faytonda iki kölgə gördü. Münir bəyi iri vücudundan tanıdı. O birisini



Kənana bənzətdi. Birdən-birə ürəyi döyünməyə başladı Görəsən, doğrudan da odurmu? O idisə, fayton mütləq Saib paşanın qapısı ağzında dayanmalı idi. Bu ümidin boşa çıxdığını gördüyü halda, Lamiə yenə qapı ağzında durub, gözlərini yoldan çəkmirdi
Fayton qonşu bağın qabağında dayanmayıb keçdi, bir qədər sonra tinin başında Münir bəyin köşkünə gedən yola döndü.
Lamiə yavaşca köksünü ötürdü.
– O deyil, – dedi. – O ki, bir daha buraya gəlməyəcək...
Lamiə o axşam erkəndən otağına çəkildi. Hava çox isti olduğu üçün pəncərəni açıq qoyaraq yatağına uzandı. Aydınlıq deyildi Qol-budağı pəncərənin qabağına sallanmış çardağa sanki atəş böcəyi buludu çökmüşdü. Ərəb dərəsindən əsən isti yel onları otağa doldururdu. Onlar yuxunun yarımxumarlığı içində gülümsəyə-gülümsəyə gözləri yumulan qızın saçlarına, üzünə qonurdular Lamiə nə qədər yatdığını bilmirdi. Birdən-birə gecənin dərinliklərindən gələn bir kaman səsinə oyandı Əcəba, bu röya idimi?
Xınalı yapıncaq yuxulu-yuxulu bunu heç cür müəyyən edə bilmirdi, röyada eşitdiyini güman elədiyi bu gözəl səslərin kəsiləcəyindən qorxurmuş kimi gözlərini yenidən yumdu. Yavaş-yavaş özünü ələ aldı Yatağında doğrularaq düşünməyə başladı. Axşam Münir bəyin faytonunda gördüyü kölgə şübhəsiz Kənan imiş. Yoxsa ki, bu kamanı ondan başqa kim çala bilərdi?
Kənan bəy yenə o tanış ninnini çalırdı. Lamiə bir payız gecəsi, bu ninnini səhərə qədər gözləmiş, gözüyaşlı yuxuya getmişdi Qıza elə gəlirdi ki, indi eyni səslərlə həmin yuxudan oyanır, atəş böcəkləri ilə dolu otağı yüksəlir, havaya qalxır, göylərin ulduzlu bir parçasına çevrilir.

## XI

O gün axşamüstü gəmi ilə İzmirə gələn Kənan sahil küçəsində Münir bəyə təsadüf etmiş, onun faytonunda Bozyaxaya gəlmişdi. Bağdakıların heç nədən xəbəri yoxdu. Münir bəy bundan istifadə edərək Kənanı yarızorla öz köşkündə axşam yeməyinə qonaq aparmış, gecə yarısına qədər orada saxlamışdı.
Saib paşa yatmağa hazırlaşırkən itin hürməsindən bağa yad adam girdiyini başa düşdü. Əlində lampa pəncərədən başını çıxarıb:
– Kimsən?– deyə səsləndi. Kənanı tanıyınca:

– Vay, nuri çeşmim, sərmayeyi iftixarım, övladım, sənsən gələn? – deyə bağırıb ağlamağa başladı.

Uşaqlı-böyüklü bütün köşkdəkilər yuxudan oyandı. Otaqlardan gecə köynəklərinin üstündən şərf, hətta tuman atmış dağınıq saçlı qadınlar, batıst köynəkli, ayaqyalın kişilər çıxır, Kənanın bu gözlənilməz gəlişi münasibətilə bir növ şənlik edirdilər.

Saib paşa onu tez-tez qucaqlayır:

– Bəs oğlum, adam bir teleqram vurmaz? Səni qarşılamaq üçün lap gəminin qabağına gələrdim, – deyirdi.

Mələk xanım hələ gəlməmişdi. Lakin bir-iki günə kənddən yola düşəcəyi haqda ondan məktub almışdılar.

Kənan bu görüş təntənəsinin mümkün qədər tez qurtarmasını istəyirdi. Yorğunluğunu bəhanə edərək "Mərasim binası"ndakı otağına çəkildi Buraya heç toxunulmamış, şeylər keçən il olduğu vəziyyətdə qalmışdı. Pəncərələrin taxtalarını açan Kənan göylərə qarışmış kimi görünən gecənin qaranlığı içindən uçub gələn atəş böcəklərinə baxıb uşaqtəki sevinirdi:

– Nə yaxşı elədim, gəldim... Yoxsa bu dərin, təmiz duyğuları buradan başqa harada tapacaqdım, – deyirdi.

Qoyub getdiyi şeylərin hamısını öz yerlərində gördükcə uşaqcasına bir rıqqət duyur, divardakı rəsmlərə baxır, pianonun üstündəki fiqurları oxşayırdı

O gün Kənanın gələcəyini bilmədikləri üçün hazırlıq görməmişdilər. Qoca bir xidmətçi əlüstü yataq otağının tozunu alır, Kənanla danışa-danışa işləyirdi Arada xidmətçi qadın əlində lampa ilə otağa girəndə Kənan divarda quş qanadlarına bənzəyən incə kölgə gördü. Diqqət etdi, ayrıldıqları gün səhər Lamiənin sarı lent parçası ilə pəncərəyə bağlayıb getdiyi bənövşə dəstəsini tanıdı. Ona da toxunmamışdılar. Çiçəklər və bir neçə qara yarpaq qurusu qalmışdı.

Kənan birdən Lamiəyə verdiyi, lakin yerinə yetirmədiyi vədi xatırladı. Böyük bir vicdani borcunu ödəmək istəyən adam sakitliyi ilə pianonun üstündəki kamanın qutusunu açdı.

Yalnız Xınalı yapıncağın ninnisini çalmaqla kifayətlənmək istədiyi halda özünü saxlaya bilmir, aşiq olmuş bir dağ çobanı kimi, mahnıdan mahnıya keçir, sadə və məsum könüllərin sonsuz arzuları, duyulmaz kədərləri ilə dolu parçalar çalırdı.

Lampanın işığı ətrafında yenə pərvanələr titrəşir, yarışıq divarlarda yaşılqanadlı gecə cücülərinin zərif kölgələri oynamağa başlayırdı.



Yol yorğunluğundan və hisslərin ağırlığından bitab bir halda kamanı yerə qoyduğu vaxt qaranlığa baxdı.

– Ah, Bozyaxa, – dedi. – Mən uşaqlığımın, ilk gəncliyimin bütün əməl və hisslərini burada görmüşdüm. Onları bir gün bu qədər zənginləşmiş bir halda mənə geri qaytaracağını düşünə bilərdimmi?

## XII

İki gün Kənanın yanına uzaqdan-yaxından dəstə-dəstə qonaq gəldi. Kənan səhərdən gecə yarısına qədər bir saat da olsun tək qala bilmədi. Gələnlərin arasında bircə Lamiə yoxdu. Kənan bir neçə dəfə onu uşaqlardan soruşmuş, lakin dürüst cavab ala bilməmişdi. Ona üçüncü gün axşama yaxın bağın arxasındakı dar cığırda təsadüf etdi. Gülərək yolunu kəsdi:

– Eyib olsun, Lamiə xanım .. Belə də vəfasızlıq olar?.. Köhnə dostuna bir "xoş gəlmisən" də demirsən

Lamiə ona baxmağa cəsarət eləmir, dodağını dişləyərək utanmış bır halda gülümsəyirdi. Nəhayət, yavaş səslə:

– Əmidostumun vaxtı olmadı, əfəndim, gələcəkdik, – dedi.

– Keçən il həmişə əmidostunuzla gəlirdiniz?

– Sizə özünüzdən xeyli gileylənmək istəyirdim, ancaq cəsarət eləmirdim.

Kənan süni bir tərəddüdlə Lamiəyə baxır, əylənərək gülümsəyirdi

– !!!

– Lamiə xanıma, əlbət ki, Xınalı yapıncağa olduğu kimi ərkim çatmır. Lakin bu il Bozyaxada Xınalı yapıncağı bildirki kimi görə bilmədiyimə çox təəssüf edirəm.

Lamiə Kənanın nə demək istədiyini anlamır, onunla bərabər gülürdü.

Kənan eyni zarafat tərzi ilə sözünə davam etdi:

– Xınalı yapıncaq çox dəyişmişdir. Gözəl gənc bir qız olmuşdur. Artıq onunla əvvəlki kimi zarafat eləməyə necə cəsarət etmək olar?

Lamiə daha da qızardı. Bır an gözlərini onun gözlərinə dikərək.

– Mənimlə əylənirsiniz, Kənan bəy? – dedi

Kənan ərköyün, şux qəhqəhələrlə güldü.

– Bəli, bu da Lamiə xanımın, dediyim kimi, böyüyüb gözəl bir gənc qız olduğuna daha bir sübut... İstəyir ki, qarşısındakı çox hörmətcil və təşrifatpərvər olsun . Haqqı da var, madam ki, Lamiə xanım yetiş-

miş bir gənc xanım olmuşdur... Zarafat bir tərəfə, Lamiə xanım, həqiqətən siz çox böyümüş, dəyişmişsiniz... Nəzmi bəy... nişanlınızın adı Nəzmi deyilmi?

– Nazimdir, əfəndim.

– Bəli, bəli, Nazim bəyi bu il də görmədiniz, eləmi? Kim bilir, o gələndə özünü necə itirəcək, nə qədər sevinəcək. Mənim belə gözəl nişanlım olsa dunyanı dağıdaram...

Kənan şən, oynaq bir hərarətlə danışırdı:

– Bu qədər gözəlləşəcəyini təsəvvür etməzdim, Lamiə. Keçən il halında qərıbə bir cılızlıq, solğunluq vardı... Necə deyim, o bir cür bürüşük çiçəklər olur, onlar kimi səndə də bir solğunluq vardı... Bu il isə par-par parıldayırsan, bahar təravətli bir qız olmusan... Dodaqlarında başqa bir təbəssüm, hələ də utancaq və ürkək olan gözlərində başqa bir parıltı var .. Rəngin başqa, qaşların başqa... Hələ xınalı yapıncaqların hovuzdakı sudan təzəcə çıxmış kimidir. Onları tərifə başlasam çox uzun çəkər... Qabaqdan gələn o ikı qadına bax. İndi elə biləcəklər sənə eşq elan edirəm. Nə bilsinlər ki, qəsdsiz-qərəzsiz, əsil dostlarıq? Hələlik, Lamiə... Səni hər vaxt gözləyəcəyəm...

Kənan əllərini cibinə soxdu. Fit çala-çala Ərəb dərəsinə tərəf getməyə başladı.

## XIII

Yayın ən isti günlərındən biridir... Bağlarda yarpaq da tərpənmir... Evlərdə pəncərələrın taxtalarını örtmüşlər. Gözqamaşdırıcı bir parıltı ilə uzanıb gedən yollar bomboşdur... Hava istidən və aydınlıqdan adətən titrəyir... Təpələr, ağaclar rəngi solmuş rəsm əsərlərini xatırladır... Qarşıdakı qayalar elə bil damla-damla əriyib axır... Dərələrin, gölməçələrin üstünü xəfif duman örtmüşdür...

Ağaclıqlar arasındakı bostan quyusu çarxının yorğun iniltisindən, tənəkə novlara tökülən suyun sərinlik saçan şırıltısından başqa bağlardan heç bir səs gəlmir.

Günün şəfəqləri yarpaqların torpağa düşmüş hərəkətsiz kölgələrinə qarışan ulduz kimi parıldayır

Böyük dalğın gözləri həmişə yuxulu kimi görünən "Kərəm" yenə quyunun başına ağır-ağır dolanır. Lamiə, əmisinin iki balaca uşağı və Kənan buradadır Səmihə ilə Fikrət üstünə həşir çəkilmiş qamakda yan-yana yatmışlar.



Kənanla Lamiə kiçik daş hovuzun kənarında yanaşı oturmuşlar.. Danışmırlar. Ətrafda hökm sürən ağır sükut onların üstünə də çökmüş kimidir. Lamiə üzünü hovuza tərəf çevirmiş, çılpaq biləyıni hərdən hovuza salır, sonra onu isladan suyun damla-damla barmaqlarından tökülməyinə tamaşa edir. Fikri dalğın, yaşıl gözləri yalnız bununla məşğul kimidir.

Kənan da əlini yanındakı tənəkə novlardan birinə uzadır, bir ovuc su götürüb cəld Lamiənin üzünə, saçlarına atır.

Xınalı yapıncaq diksinır, titrəyır, yuxudan qəfil oyadılmış uşaq kimi şaşqın bir heyrətlə gözlərini Kənana tərəf çevırir... Bu zarafat üçün bir-birılərinə gülümsəyirlər. Lakin yenə bir şey danışmırlar... Lamiə yenə hovuza baxır, biləyini hovuza salaraq əvvəlki oyununu davam etdirır.

Bu səfər Kənan da başını çevirir, qızın günəşdən yanıb qızarmış boynunda, zərif çilli yanaqlarında, qaşlarının tükündə titrəyən su damcılarına tamaşa edir, sol biləyini hovuza dayayaraq əyilir, köpüklü suların içindən bır salxım "nurgar" üzümü çıxarır Dodaqları ilə bir-iki gilə qoparır, sonra yavaşca yana əyilir, salxımı Lamiənin dodaqlarına uzadır. Qız yenə diksinir, başını gerı çəkmək istəyır, lakın sonra ürkək bir təbəssümlə ağzını açır, ovucda yedizdirılən quş balalarıtək üzüm gilələrıni bır-bir yeməyə başlayır.

Kənan gözlərini ondan heç cür ayıra bilmir, Lamıə bu vəziyyətdə necə də gözəldir! Yumru, zərıf çənəsi, düz, qəşəng burnu, incə qızılı qaşları, azca dik geniş alnı necə sevimli və gözəldır.

Sarışın, quş tükünü xatırladan, yumşaq, ipək saçları halqa-halqa alnında qıvrılır, görülməz gümüş tellərlə bır-birinə bənd edilmiş kimi aramsız olaraq titrəyir. Bir az əvvəl atılmış su damcılarından hələ də yaş olan yanaqları dodaqları arasında tutduğu yaş üzüm gilələrı kimi təravətlidir.

Kənan salxımı əlindən salır. Sakit, tələşsiz, heç bir şey düşünmədən, söyləmədən Lamiəni köksünə doğru çəkir Gənc qız bir az əvvəl, üzünə su sıçradıldığı vaxt olduğu kimi bir azca titrəyir... Bu qədər .

Kənan onun gözlərındən, alnından sonra islaq yanaqlarından, qızılı çillərindən dönə-dönə öpur... Lamiə dodaqlarında iqtidarsız bir nəfəs, vücudunda hərarətli əzginlik duyaraq gözlərıni yumur, başını Kənanın çiyninə söykəyir.

"Kərəm" ətraflarında dəfələrlə dönüb dolanır, sonra birdən durur. Bu vaxt onlar da yuxudan oyanmış kimi silkinirlər. Lamiə yavaşca özünü

Kənanın qolları arasından çəkir. Kənan yenə bir şey söyləmir. Artıq bir-birilərinə baxmırlar.

Xınalı yapıncaq qamakda oyanmış uşaqları götürür, başı aşağı, uzun müddət bürkülü və qapısı bağlı bir otaqda qalmış çiçəklər kimi solğun və yorğun bir halda uzaqlaşıb gedir.

Kənan asta-asta fit çalır, hovuzun kənarında kirəc parçalarını qopararaq suya atır.

* * *

Bu əhvalatdan sonra Lamiə iki gün görünmədi. Kənan etdiyi hərəkəti düşündükcə öz-özünə acığı tuturdu:

– Mən doğrudan da pis adam olmaqdayam. Sövq-təbii ilə hərəkət edən şüursuz heyvanlara bənzəyirəm. Əlimə nə düşürsə qamarlayıram, – deyirdi.

Üçüncü gün axşamdan bir az keçmiş Kənan gəzməkdən qayıdırdı. Bağın qapıya yaxın bir yerində başqa qadınlar arasında Lamiəni də gördü. Yolunu onlar tərəfdən saldı.

Xınalı yapıncaq yavaşca əyilmiş, heç kəsə sezdirmədən üzünü yanındakı qadının arxasında gizlətməyə çalışırdı. Kənan çox təbii bir səslə:

– Bu nədir, Lamiə xanım? Deyəsən incimişik, – deyə soruşdu.

Qız başını qaldırmağa cəsarət etmədən güldü.

– Niyə ki, əfəndim? – deyə cavab verdi.

Kənan daha bənd olmadı. Keçib yaxındakı alçaq bağ skamyasında yorğun-yorğun oturdu və o biri qadınlarla danışmağa başladı. Hərdən onlara da suallar verir, kəsik, qısa cavablar alırdı.

O axşam ayrıldıqları zaman Kənan məsələnin artıq bitdiyini, yavaş-yavaş unudulacağını düşünürdü. Həqiqətdə belə olmadı. Lampa təzədən ona alışmağa başlamışdı. Bircə danışarkən əvvəlki kimi üzünə baxmağa cəsarət eləmirdi... Bu qədər...

Qaranlıq gecələr keçmiş, bədirlənmiş ay artıq bütün gözəlliyini nümayiş etdirməyə başlamışdı. Göy üzü yenə səhərə qədər sədəf kimi parlaq və aydın olur, evlərin, torpağın, qayalıqların açıq qurşuni kölgələri yenə bütün incə cizgiləri ilə elə bil səmada əks olunurdu.

Belə aylı gecələrin birində Saib paşa Qırx çamlarda bir neçə qonşusuna qonaqlıq verirdi. Yemək üçün lazım olan şeyləri bağbanlar



gündüzdən kiçik əl arabaları ilə oraya aparmışdılar. Saib paşanın hacıdan, molladan ibarət yaşlı dostları üçün açıqlıqda, qadınlar üçün isə bitkilərlə əhatə edilmiş görünməz bir guşədə süfrə açılmışdı. İçki içən gənclər isə ağacların aşağısında dərəyə yaxın daha xəlvət bir yerə çəkilmişdilər. Orada çalır, zeybək rəqsi oynayır, səs-küy salırdılar.

Kənan yemək zamanı dayısının yanında idi. Saib paşa sevimli bacıoğlusunu bir saat görməyəndə dayana bilmirdi. Aşağıdakı içki süfrəsində nə qədər çox şüşə boşaldılırdısa, burada da o qədər çox kasa, nimçə və sini boşalırdı.

Gevezəliyi ilə məşhur olan yaşlı bir ordu müftisi yeməkdən ağırlaşaraq qımıldanmağa imkanı qalmamış qonaqlara cinin, cadunun kəramətindən bitib tükənməyən hekayələr danışırdı.

Kənan yeməkdən sonra Şəmi dədə ilə bərabər uzaqda bir ağacın altına çəkilmişdi, qoca dostu ilə keçmiş günləri xatırlayırdılar.

Bir ara, aşağıdakı gurultu çoxalmış, qəhqəhələr, səs-küy artmışdı.

Boy-buxunlu bir bağbanın verdiyi xəbəri eşidən Saib paşa Kənanı səslədi:

– Kənan, bax oğlum, Hafiz Feyzi eşşək oynadır. Dünyanın başqa yerlərində belə şey görə bilməzsən. Get bu oyuna tamaşa elə.

Şəmi dədə başı ilə onu təsdiq elədi:

– Get oğlum, həqiqətən baxmağına dəyər.

Kənan süfrənin yanından keçərkən qoca müfti qalın, qırıq səsi ilə yeni bir hekayə danışmağa başlamışdı.

– Allah rəhmət eləsin, Filibedə Hidayət adlı bir dərviş vardı.. Üzdən iraq, eşşəkləri yox, ilanları oynadardı. İndi deyə bilərsiniz ilan da oynarmı? Bəli, oynar. Lap telli, pərəkli rəqqasələrdən də yaxşı gobək atar... Bir gün...

Topal Hafiz qəribəliyi və oyunbazlığı ilə məşhur bir bağbandı. Bozyaxalılar "Qənbərsiz toy olmaz" zərbi-məsəlini "Hafizsiz əyləncənin nə ləzzəti" şəklinə salmışdılar. "Eşşək oynatmaq" Topal Hafizin son illərdə fikirləşib tapdığı bir əyləncə idi. Uzun bir ağacın ucuna bir az meynə yarpağı ilə bir neçə salxım üzüm bağlayaraq eşşəyinə minirdi. Heyvan üzüm salxımlarını burnunun ucunda hiss etdiyi vaxt boynunu qaldırmağa, üst dodağını oynatmağa başlayırdı Ağzını tam açdığı zaman salxımlar iki tərəfə sallanır, heyvan da qəribə bir iştaha ilə açıq, titrək dodaqlarını o yan-bu yana oynadırdı. Sonra üzüm və yarpaq bağlanmış ağac irəli uzanırdı. Eşşək də ayaqlarını salxımların hərəkətinə uyğun-

laşdıraraq onları təqib edirdi. Nəhayət, salxımlar yavaş-yavaş havaya qalxırdı Ancaq başını qaldırmaqla onları yeyə biləcəyini yəqin edən heyvan dal ayaqları üzərində qalxır, qabaq ayaqları havada, başını tərpədərək yırğalanmağa, titrəməyə başlayardı. Topal Hafizin böyük bir məharətlə idarə etdiyi bu qəribə rəqs beləcə davam edərkən çalğı çalınır, dəflər vurulur, "Yaşa, Hafiz" nidaları göyə ucalır, bəzən hətta eşşək də naümid fəryadları ilə bu ahəngə qoşulurdu.

Topal Hafiz bu axşam "sənətkar"ını xeyli bəzəmiş, başına al ipək parça, boynuna sarı bir baş yaylığından böyük bant bağlamışdı. Kənan xeyli kənardan bu oyuna tamaşa edərkən qulağına ahəstə bir qəhqəhə səsi gəldi. Başını çevirdi. Lamiəni bir az o yanda dayanmış gördü. Qız göstərilən tamaşanı daha yaxşı görmək üçün böyük bir daşın üstünə çıxmışdı. Kənanla o, bir-birinə baş əyib gülümsündülər.

– Gözəl deyilmi, Lamiə xanım?

Oyun Xınalı yapıncağın çox xoşuna gəlmişdi. O:

– Bundan da gözəl şey olarmı? – deyə cavab verdi.

Kənan gülərək ona yaxınlaşdı.

– Sözüm yersiz düşməsin. Bozyaxanın aylı gecəsindən olmaz. Belə bır gecə, mənə elə gəlır kı, ildə ancaq bircə dəfə olur. Bu vaxt şam ağacları daha hündür, qoruq daha geniş görünür, ay işığı qurşuni kölgələrin arasında ağ örtüyə bürünmüş gecə xəyalları kimi dolaşır.

Kənan ağacların arasından uzaqda süd kimi bır aydınlıqla parlayan düzənliyi göstərdi.

– Bu cür ay işığında ağac kölgəsində oturub qalmaqla heç cürə razılaşa bilmirəm, – dedi. – İstəyirsiniz bir az sizi yollarda gəzdirim, Lamiə xanım?

Qız başını aşağı əydi:

– Necə istəyirsiniz.

Bir ildən bəri həyatında əsrarlı bir əhəmiyyət kəsb edən bu adam nə desə, nə istəsə, Lamiə ona yalnız belə cavab verirdi.

Uçuq bir divarın üstündən yola atıldılar. Kənan bir az əvvəl aydınlığın ən açıq və parlaq göründüyü düzən tərəfi göstərmişdi. Ancaq heç bir söz demədən əks tərəfə, bağlara tərəf gedən cığırlardan birinə döndülər. Əvvəlcə tələsik gedirdilər. Sonra addımları getdikcə yavaşıdı. Çox yaxın yeriyir, lakin bir-birinə toxunmurdular.

Kənan ona Avropadan, İstanbuldan danışır, Lamiə susaraq qulaq asırdı. Bir tin başına çatdıqları vaxt Xınalı yapıncaq birdən dayandı.



Yaşıl gözlərində utancaq bir təbəssümlə Kənana baxır, nə isə soruşmaq istəyirdi.

– Nə isə demək istəyirsiniz, Lamiə xanım!..

Qız qorxaq bir tərəddüdlə:

– Buranı xatırlayırsınızmı, Kənan bəy? – deyə soruşdu.

Kənan başını çevirərək ətrafına baxır, onun nə demək istədiyini anlamağa çalışırdı.

– Keçən il bır axşam buradan bağa qayıdırdıq. Siz onunla arxada gəlirdiniz.

Kənan yavaş-yavaş xatırlamağa başlayırdı. Gülərək:

– Bəli, – dedi, – xatırlayıram.

– Bəlkə elə keçən il də həmin bu gecə idi, Kənan bəy. Buralar elə bu cür aydınlıqdı... Ağacların kölgəsi yenə bu uçuq evin divarına qədər uzanırdı.

Qızın başı çiyninə əyilir, yaşıl gözlərində həm şən, həm də kədərli bir xatirə ilə divara baxırdı. Daha yeriməyə taqəti qalmamış kimi idi. Qollarını yanına salmış, kiçik vücudunu ağır bir yorğunluqla çəkirdi. Kənan hərdən bu məzlum görkəmli zərif qıza qarşı duyduğu səbəbsiz riqqət və mərhəmətin yenə qəlbində oyandığını hiss etdi.

– Yorğun görünürsünüz, Lamiə xanım . Bir az dincələkmi? – deyə soruşdu.

Xınalı yapıncaq söyləməyə cəsarət eləmədiyi bu arzusunu birdənbırə tapmış kimi oldu, minnətdar nəzərlə ona baxdı və:

– Necə istəyirsiniz, – dedi.

Uçuq bır bağ hasarının üstündə qarşı-qarşıya oturdular. Baş yaylığı qızın açıq boynuna sürüşmüş, yandan düşən ay işığı içində sarı saçları daha sarı, üzü daha bəyaz və məsum görünürdü.

Kənan onunla söhbət eləyərkən bir şey diqqətini cəlb etdı. Lamıə hərdən başını tərpədir, gözucu qarşıdakı divara baxırdı. Kənan da sezdirmədən yanakı oraya baxdı. Ay işığında başlarının kölgəsi divara düşürdü. Lamiə başını yavaşca hərəkət etdirdikcə kölgələr yaxınlaşır, üzləri, dodaqları öpüş zamanı olduğu kimi bir-birinə toxunurdu

Qızın bayaqkı sözləri hansı hisslə dediyini, hansı xatirəni oyandırmaq üçün orada durduğunu Kənan indi anladı. Yenə quyu başında olduğu kimi heç bir şey söyləmədən, qızın biləklərindən tutdu, onu özünə tərəf çəkdi. Lamiə bu dəfə yorğun bir müqavimətlə çırpındı. Vücudu bay-

ğın və taqətsiz bir halda Kənanın qolları arasına düşərkən başını dala çəkir, saçlarının incə qıvrımları geniş, ağ alnında titrəyirdi.

Kənan onun yaşıl gözlərinin iki iri yaş damlası ilə örtüldüyünü gördü Yuxuda ağlayan uşaqlar kimi zəif bir səslə: "Eləmə, Kənan bəy... Mənə yazığın gəlsin" dediyini eşitdi. Buna baxmayaraq Kənan onu daha artıq bir qüvvətlə qolları arasında saxladı, dönə-dönə dodaqlarından öpdü.

Eyni yoldan Qırx çamlara qayıdarkən Lamiə astadan ağlayırdı. Kənan isə tamamilə əvvəlki sakit vəziyyətində idi. O, qızı sakitləşdirməyə çalışdı:

– Burada ağlamalı bir şey yoxdur, Lamiə, – dedi. – Bir busə ilə nə olacaq ki.. Sən təcrübəsiz bir cavan qız olduğun üçün buna bu qədər əhəmiyyət verirsən... Mənə acığın tutmur, eləmi?

Qız isə hələ də ağlayaraq:

– Xeyr, əfəndim, – dedi.

– Onda ağlama, Lamiə... Bax, yenə ağlayırsan.

– Yox, daha ağlamıram, əfəndim.

Bunu deyərkən daha şiddətlə hıçqırırdı.

Qırx çamlara çatmışdılar. Çalğı, səs-küy, qəhqəhə, gurultu hələ də davam edirdi.

– Yaxşı, Lamiə, sən daha qadınların yanına get... Sabah günortadan sonra quyu üstə gələrsənmi?

– Necə istəyirsiniz..

Ayrıldıqları vaxt Kənan qızı qolundan tutaraq bir dəfə də öpməkdən özünü saxlaya bilmədi.

Lamiə ağacların arasında gözdən itəndən sonra Kənan yolun kənarında oturdu, bir papiros yandırdı.

Öz-özünə gülümsəyərək düşünürdü:

"Zavallı Xınalı yapıncaq... Ah, mənim bu qızcığaza necə də yazığım gəlir... Halbuki bunun üçün bir elə səbəb də yoxdur... Nə söyləsəm, nə istəsəm ancaq "necə istəyirsiniz" deyə cavab verir... Ancaq mən nə pis, yaramaz adam olmuşam, ya rəbb!.. Bir cavan qızla... Hətta buna "cavan qız" da demək düz deyil, bir qız uşağı ilə bu qədər əylənmək pis, təhlükəli bir hərəkətdir... Vay səni... Görünür dünya özü belədir. Pislik dünyanın quruluşunda, bizim mayamızdadır... Əh, hamıdan yaxşı olacağam deyə özümə əziyyət vermək mənəmi qalmışdır?"



## XIV

O gecədən sonra aralarında başqa sevdalara bənzəməyən qəribə bir könül sərgüzəşti başlanmışdı. Kənan hər gün onu bağda, yaxud quyu başında görürdü. Lakin heç tək qalmır, bunun üçün bəhanə də axtarmırdılar.

Kənan əvvəl öz hərəkətini pisləmiş, "övladım yaşında olan bir qız qəlbi ilə bu cür oynamaq həm gunah, həm təhlükəlidir, bundan vaz keçməliyəm", – deyə düşünmüşdü.

Lakin bu peşmançılıq uzun sürməmiş, o yenə xudkam fəlsəfəsi ilə özünə təskinlik vermişdi:

"Nə edim, axı mən də adamam... Bunda nə onun, nə mənim günahım var. Təbiət hökmünü yeridir.. Ancaq bu qədər... Lamiə də o bırləri kimi bir qız uşağı deyilmi? Pişik balası kımi sevilmək, oxşanmaq ehtiyacı hiss edir. Ancaq bu hisslər onun üçün çox təzədir. Buna görə bəlkə bir az çox narahat olur. Digər tərəfdən mən də işləyə bilmək üçün, ruhumun sükutunu dağıtmaq üçün çox incə, xoş, ılıq bır duyğuya möhtacam. Burada qorxulu nə ola bilər... Yay ayları ilə bərabər, təbiidir, bu da keçəcək, gözəl bir xatırədən başqa bir izi qalmayacaq.. Bu qədər...".

Lamiəni başqalarının yanında gördüyü zaman Kənan ona şəfqətlə baxır, bır daha uşaqlıq, ehtiyatsızlıq etməmək uçün öz-özünə söz verırdi.

Lakin tək qaldıqları vaxt bütün qərarlarını unudur, qızı qolları arasına almaqdan özünü saxlaya bilmirdi. Bir axşamüstü faytonla gəzməyə çıxmışdılar. Arada Lamiə ilə tək qalan Kənan:

– Lamiə xanım, bu il siz mənim musiqimi keçən ilkindən az sevirsiniz, – dedi.

Qız güldü:

– Elə şey olarmı, əfəndim?

– Keçən il hərdən gecələr "Quzğun"la bərabər otağın qabağındakı çardağın altına gələrdiniz. Bu il heç gəlməmisiniz... Bır gecə bəlkə yenə gələsiniz...

Bunu zarafat kimi söyləmişdi. Lamiənin bu namümkün şey üçün narahat olub, güləcəyini güman etmişdi. Qız isə əksinə, hər zamankı kımi məzlum, itaətkar bir halda başını əydi:

– Necə istəyirsiniz, əfəndim, – dedi.

Kənanın ürəyi çırpınmağa başladı. Dediyi söz üçün o dəqiqə peşman olmuşdu. Şaşqın-şaşqın və tərəddüdlə soruşdu:

– Nə vaxt? Necə?

– Nə vaxt istəyirsiniz, əfəndim.

Kənan bır neçə saniyə düşündü. Ağır bir tövrlə: "Bu doğru olmaz, Lamiə xanım", – demək istədi. Lakın zəif iradəsi ona itaət etmədi. Dodaqlarından qeyrı-ixtıyari olaraq bir kəlmə düşdü.

– Bu gecə.

Kənan o axşam ertədən otağına çəkılmişdi. Çox əsəbi idi. Lampanı da yandırmadı. Qaranlıqda aramsız olaraq gezınir, papiros çəkirdi Qəlbində qorxu, təlaş və həya qarışıq bir həyəcan vardı. Əsil qorxduğu şeyi özündən uzaqlaşdırarsa, bır təhlükənin qarşısı alınacaqmış kimi dönə-dönə özünü inandırmağa çalışırdı: "Qorxulu heç bir şey yoxdur... Yaşlı-başlı adamam. . Lamiə keçən ilki kimi bu dəfə də çardağın altında bir az oturub gedəcək. Ancaq birdən görən olsa... Əslində elə bundan, təkcə bundan qorxuram... Kim bilir, necə çirkin şübhələrə düşərlər... Ah Lamiə, nə ehtiyatsız qızsan".

Ay doğmuşdu. Pəncərələrdə işıqlar bir-bir sönür, bağlara dərin bır sükut çökürdü Kənan saata baxdı. Gecə yarısından yarım saat keçirdi. "Yəqın daha gəlməz. Elədiyi işın təhlükəlı bır hərəkət olduğunu, əlbəttə, başa düşmüşdür",– dedi. Lakin bu ümid də ona başqa cür bir əzab və əziyyət verırdi. Lampanı yandırdı. Bu gecə belə pərişan bir vəziyyətdə işləyə bilməyəcəkdi. İstədi Cavidana uzun bir məktub yazmağa başlasın. Bir neçə gündən bəri bu barədə düşünür, amma səhlənkarlıq edirdi. Bütün fikrini nişanlısı ətrafında toplamaqla bu əsəbilikdən xilas olacağına ümid edirdi. Ancaq elə tək kəlmələrdə qələmi durdu. Ona yaza biləcəyi bir şey tapmadı.

Bir daha bağa çıxmaq, Lamiənin gəlməyəcəyinə əmin olmaq istədi. Bağ bomboş və qaranlıqdı. Ağacların ancaq təpələrini xışıldadan bir yel əsirdi. Meynələrin arası ilə yeriməyə başladı. Lamiənin gələcəyi kiçik qapıya qədər getdi. Gəlib-gedən yoxdu. Şükrü bəyin evindəki işıqlar da sönmüşdü.

"Lamiə indi yatmışdır. Yaxşı oldu, çox yaxşı oldu", deyə düşünərək geri qayıdırdı. Bağ indi ona daha qaranlıq görünür, Bozyaxaya gəlməmişdən qabaqkı ümidsizlik çağlarını xatırladan bir hiss bütün ruhuna hakim olmağa başlayırdı. Sıx bir ağac komasının yanından keçərkən zəif bir gurultu, yarpaqların içində qanad çırpıntısına bənzər bir səs eşitdi.



Başını çevirincə yaxınlığında Lamiəni gördü. Qız yarpaqlar içində büzüşüb dayanmış, üşüyən adamlar kimi titrəyən qollarını sinəsində çarpazlamışdı. Kənan heyrət və həyəcanla:

– Buradasınız, Lamiə xanım? – dedi.

Qız cavab vermək istədi, amma səsi çıxmadı. Lap dərindən gələn bır üşütmədən dişləri bir-birınə dəydi. Kənan qızı ürkütməkdən qorxurmuş kimi yavaş-yavaş ona yaxınlaşdı. Buz kimi soyumuş əlindən tutdu.

– Niyə belə titrəyirsınız?

Lamiə çox yavaşdan cavab verdi:

– Bilmirəm, əfəndim.

O, başını aşağı əymişdi. Bu vəziyyətində Kənan onun yalnız parlaq sarı saçlarını görürdü.

– Çoxdan gəlmisiniz, Lamiə xanım?

– Xeyli var, əfəndim.

– Mən sizi... ("içəridə" deməyə cəsarət eləmirdi) orada gözləyirdim... Niyə gəlmədiniz?

– ...

– Niyə burada gizlənmisiniz?

– ...

– Qorxmalı bir şey yoxdur... Keçən il də belə gəlmırdinızmi?.. Yadınızdadır?

Kənan bunları söylərkən gülümsəyır, səsinə laqeyd bır ahəng verməyə çalışırdı. Qız başını qaldırmadan:

– İcazə verin, gedim, – dedi.

– Necə istəyirsiniz, Lamiə xanım.

Belə söylədiyi halda qızın hələ də titrəyən barmaqlarını əlindən buraxmadı. O birı əli ilə onun çənəsindən tutdu, üzünü özünə tərəf çevırdi.

Lamıənin arıq çiyınlərində, kölgədə tutqun görünən çöhrəsində daha dərin və tünd görünən yaşıl gözlərındə məğlub olmağa hazır bitab bir hal vardı. Bu çöhrə, bu gözlər Kənana qəribə bır başgıcəllənməsi verirdi Kənan özünü bu təsirdən qurtarmaq istəyirmiş kimi gözlərini qızdan ayırdı, ətrafına baxmağa başladı. Dayandıqları yerə o ancaq indi diqqət etdi. Bu yer vaxtilə Leyladan ayrıldığı, ilk məhəbbətinin ilk busəsini rədd etdiyi ağaclıqdı.

Bır az əvvəlki şiddətli əsəbiliyi yavaş-yavaş sakitləşır, könlündə on yeddi yaşında olan vaxtında, o biçarə və məhrumiyyətlərlə dolu

çağlarının kədərli, məğrur sakitliyi yenidən öz yerini tutmağa başlayırdı.

Hələ Lamiəyə baxmırdı. Xəfifcə titrəyən barmaqları ilə onun çənəsini, alnını, saçlarını oxşayaraq düşünürdü:

"Özümdən nahaq yerə bədgüman oluram. Lap cavan vaxtımda o qədər sevdiyim Leylanı burada öz xoşumla əlimdən buraxmışam... İndi nə qədər düşkünləşmiş olsam da, bu saf gənc qıza məndən bir pislik dəyəcək qədər alçalmamışam".

– Gecə qaranlıqdır, Lamiə. Yollarda heç kəs yoxdur. Gəl səninlə gəzək. Qorxma, yanında mən var ikən sənə kimsədən, heç bir şeydən zərər gəlməz.

Bu elə bil Kənanın həmişəki şən, canlı, bir az da əsəbi ahəng və yüngül istehza duyulan həyəcanlı səsi deyildi. Onda indi bir yorğunluq, bir kədər vardı.

Qız bu fövqəladəliyi hiss edirmiş kimi gözlərini onun üzünə dikdi. Kənanın üzü və gözləri də səsi kimi idi. Kəskin cizgili, əsəbi qarayanız çöhrəsi, cürətlə parıldayan mavi gözləri indi həlim və xoş bir şəfqətlə gülümsəyirdi.

Lamiə bir ildən bəri qorxunc və cazibəsindən qurtara bilmədiyi bu adamı heç bu qədər məzlum və məsum görməmişdi. Xınalı yapıncaq onu oxşayan əllərin təmasından sövq-təbii ilə xoşlanan pişik balası kimi başını Kənanın çiyninə qoydu və·

– Necə istəyirsiniz, Kənan bəy, – deyə bildi.

O axşamdan sonra qəribə bir gecə həyatı yaşamağa başlamışdılar. Hamı yatdıqdan sonra Lamiə otağının qapısını içəridən kilidləyir, pəncərədən çardağa, oradan da dal bağçaya atılaraq Kənanı görməyə gəlirdi. Evdəkilərdən heç çəkinmir, bir gün bu işin aşkara çıxacağını ağlına da gətirmirdi. Qaranlıqda qolu Kənanın uca çiynində saatlarca gəzir, tikanlarla dolu qurumuş sel yataqlarından keçir, yol kənarlarında, ağaclar altında oturur, dik yamaclara dırmaşırdılar Kənan əvvəl qorxurdu. Ancaq sonradan ona da bir qayğısızlıq gəlmişdi. Xoşagəlməz bir təsadüf, bir təhlükə qarşısında nə edəcəyini belə düşünmürdü. Çox düşünsə idi, bu gecə gəzintilərini tərgitməkdən başqa bir çarə tapa bilməyəcəkdi. Halbuki hələlik onlardan vaz keçmir, gecənin və qaranlığın təsiri və təhlükədən ehtiyat hissi ilə zənginləşən bu yeni zövqdən özünü məhrum edə bilmirdi. Hətta gündən-günə cürət və cəsarəti artırdı. Belə gecələrdən birində Lamiəni Qırx çamların o biri tərəfindəki sıx meşəyə aparmış, qucağına alaraq axar suyun üstündən keçirmiş, ta Qızıl çölə yaxın yerlərəcən getmişdilər. Bir gecə yenə eyni yoldan şəhid məzarlığına qədər enmişdilər. Uçuq, sökük daşlarla dolu qəbiristanın hasarı yanında Lamiə qorxudan ağlamağa başlamış, Kənan onu dizlərinin üstündə oturtmuş, gözlərindən, dodaqlarından təkrar-təkrar öpərək qızı ovundurmağa çalışmışdı.

Bu qaranlıqda dərin, mütərəddid həyəcanlarla sarsılaraq otağına qayıtdığı zaman Kənan pianosunun qabağında oturur, gecənin qalan saatlarını "Siyah yıldızlar"ına həsr edirdi.

## XV

– Nə dedin, Xınalı yapıncaq? Məni heç unutmayacaqsan? Saçlarının altun telləri tamamilə ağarıncaya qədər məni qəlbində saxlayacaqsan? Bunlar cahil dayələrin, qoca nənələrin uydurub danışdıqları boş nağıllara bənzər, yanlış, gülünc fikirlərdir, əzizim... Sevdanı sizə necə yanlış, necə də pis başa salırlar. Bizim bir-birimizi sevdiyimizi düşünmə, Xınalı yapıncaq... Mən sənin üçün gözəl bir kaman səsindən başqa bir şey deyiləm... Necə ki, sən də mənim üçün gözəl bir yay röyasından ibarətsən...

Bu, məhəbbət deyil, Xınalı yapıncaq .. Bu, bir az incə desək, bir könül əyləncəsi, bir duyğu oyuncağıdır. Bunda heç birimizin qəsdi, günahı yoxdur... Səni ilk dəfə qollarım arasına necə aldığımı yadına sal... Bu söyüdlərin axar sulara doğru əyilməsi, meynələrin çardaqlara sarmaşması, gecə cücülərinin lampanın işığına uçuşub gəlməsi kimi düşüncəmiz, iradəmiz xaricində baş vermişdir... Bu, bizim daxili tələbatımızdan doğmuşdur, nə edək. Biz bir-birimizi sevmirik, Lamiə... Lakin bu könül əyləncəsi bütün bir yay müddətində bizi əsil məhəbbətdən daha çox xoşbəxt etdi. Havaların soyuduğunu, ayrılığın yaxınlaşdığını fikirləşdikcə üzülürsən, gözlərin iztirablı bir həyəcanla dolur... Mənim zavallı, avam Xınalı yapıncağım... Bilirsənmi ki, bu keçici yay sərgüzəştinə bütün gözəlliyi, bütün səadəti verən də elə bu yaxında ayrılmalı olmağımız, bir-birimizi bəlkə daha heç görməyəcəyimiz qənaətidir?..

Bu üçaylıq könül əyləncəsi insanın həyatını başdan-başa bürüyən uzun, dərin sevdalardan daha gözəldir.

Hisslərin də insanlar kimi solmağı, qocalmağı, ölməyi var... Bizim məsum sərgüzəştimiz qocalmadan öləcək, Xınalı yapıncaq... Bu

sərgüzəşt məzarlarına gözlərində doyulmamış bir röyanın qalıqlarını, dodaqlarında yarımçıq qalmış bir busənin rəşəsini aparan cavan ölülərə bənzəyəcək... Gələcəkdə sənin də, mənim də başımızdan bəlkə daha uzun, daha ciddi sevdalar keçəcək... Lakın bu sevdaların törətdiyi yanğınlar qəlbimizi nə qədər çox yandırarsa, orada bir o qədər böyük xərabələr əmələ gətirəcək, sonra sönüb gedəcək... Qocalığımızın təsəllisiz günlərındə bu keçmiş sərgüzəşti xatırlayacağıq. Sənin qulağına ömrünün on altıncı yayından bır həzin kaman səsi gələcək. Mən isə qışın ortalarında bir yaz çiçəyinin, daha doğrusu tər və təzə bir xınalı yapıncağın qoxusunu almış kimi olacağam...

Kənan dolaşıq ruhunun böhranlarını, xəyalının incə şikəstliklərini, "sonradan görmüş" kimi yaşamağa başladığı təzə həyatının cılız, yaramaz, korlanmış cəhətlərini Lamiənin balaca uşaqlara məxsus saf olan ruhuna bir zəhər kimi damla-damla axıdaraq sözünə davam edirdi:

– Sevgini mın cür qeyd-şərtə bağlayırlar, müəyyən ömrü olan bir hissi zorla saxlamağa çalışırlar, özü də eyni bir şeyi sevmək üçün ömürlük vəfalı olmağa and içırlər...

Daima eyni bir şeyi sevmək, eyni bir xatırəyə bağlı qalmaq nə qədər pisdir... Xəyalına həmişə eyni səsləri təkrar edən bır kaman gətir. Hər dəfə gözlərıni yumduğun zaman eyni rənglərı, eyni şəkilləri gördüyün bır röya təsəvvür et!

Mən də bir zamanlar sənın kimı uşaq idim, Xınalı yapıncaq. Mən də bır vaxt yaxınlaşan ayrılıq günlərinə sənin bu gözəl yaşıl gözlərındəki müztərib qorxu ilə baxdım... Mən də eyni bir səadətı, eyni bir həyəcanı məzarıma qədər qəlbimdə saxlaya biləcəyimə inanırdım... Bunların hamısı uşaq xəyalıdır, Lamiə... İnsanın bu ətrafımızdakı torpaqlardan heç bir fərqi yoxdur... Görürsən, bir gün onun bütün əməlləri payız yarpaqları kimi saralıb tökülməyə başlayır, onda hər şey ölür, hər şey tökülür. Artıq ümıdıni kəsirsən... Bundan sonra bahar, həyat, səadət bitdi, qurtardı deyirsən... Lakin üç ay sonra hər şey yenidən canlanmağa başlayır... O quru torpaq əvvəlkindən daha gözəl bir baharla bəzənir.

Kənan Lamiənin atəş kimi yanan yanaqlarını ovucları içinə alır, üzünü üzünə yaxınlaşdıraraq, onun dərin bir iztirabla geniş açılmış yaşıl gözlərınə öz alovlu gözlərının mavi zəhərıni tökməkdə davam edərək deyirdi:

– Sevgini sizə qəlbdə doğulub ölən bir şey deyə öyrədirlər, Xınalı yapıncaq... Bu necə pis, necə də yanlış fikirdir... Sevginin qəlblə heç



bır əlaqəsi yoxdur... Gərək, onun dodaqdan qəlbə zəhər kimi işləməsinə yol verməyəsən... Mən çiçəklərə "torpağın sevgisi" deyirəm, Xınalı yapıncaq... Onlar da torpağın dodaqlarında bir busə olaraq açılıb solurlar... Ancaq onlardan hansı biri torpağın qəlbinə girməyi düşünür?

Biz bir-birimizi sevmirik, Lamiə. Buna inan, əzizim... Sadəcə olaraq kiçik bir sərgüzəştlə könlumüzü, gözlərimizi, dodaqlarımızı əyləndiririk... Bu qədər... Bir xatirə üçün tökəcəyin uç-beş damla göz yaşını iztirab sanma... İndi öz dodaqlarınla mənə cavab ver. Məni sevmirsən, eləmi Lamiə? Bu, sadəcə məsum bir könül əyləncəsindən ibarətdir, eləmi?

Lamiə yorğun başını Kənanın biləyinə dayamış, gözlərındə iki ırı yaş damlası, içini çəkırdi:

– Mən bundan sonra da yalnız bu əyləncə üçün yaşamaq istəyirəm, Kənan bəy...

## XVI

Kənan bir səhər ürəyində anlaşılmaz bır sıxıntı ilə vaxtından əvvəl yuxudan oyandı. Örtülü pəncərə taxtalarının aralıqlarında hərgünkü kimi günəşin qızılı cizgilərı parıldamırdı. Bayırda hava tutqun idi Pəncərələrin qabağında sallanan meynə yarpaqları sanki tələşla titrəyir, qüvvətli bir külək cərəyanı içərisində uçan quş dəstələrini xatırladırdı.

Pəncərəni açarkən yerə, ayaqlarının yanına bir xəstə arı düşdü. Havadan islanmış toz qoxusu, quru yarpaq iyi gəlirdi. Kənan məsum, uşaqcasına bir kədərlə:

– Ah, payız gəlib çatdı, – dedi.

Bağların saralmağa, yarpaqların tökulməyə başladığına, yaşıllıqların içində gizlənmiş yolların, talaların yavaş-yavaş açıldığına Kənan bu sabaha qədər diqqət etməmişdi Ətrafındakı mənzərənin üfüqü birdən-birə genişlənmiş kimi görünürdü. Bu qarşıdakı daş evləri, Ərəb dərəsinə tərəf enən cığırı, uzaqdakı viranə su dəyirmanını dünən seçə bilirdimi? Kənan eyni dəyişikliyi ruhunda da hiss edirdi. Bir gun əvvələ qədər qəlbi və həyatı dolu idi. Adamın başını yüngülcə gicəlləndirən ılıq üzüm qoxusu ilə dolu yay aylarının doğurduğu hisslər, yeni əsəri ilə yeni macərasının azalmaq bilməyən dərın həyəcanları ruhunu sarmış, heç bir köhnə duyğunun, heç bir uzaq xatirənin oraya girməsinə imkan qalmamışdı.

Bu səhər elə bil orada da bir xəzan küləyi əsmişdi. Kənan qəlbinə tökülən, saralan, qırılan şeylər arasında uşaqlıq çağlarının solğun günlərini görür, köhnə dərdlərinin acısını duyurdu.

O gün heç cür özünü ələ ala bilmədi, axşama qədər boş-boşuna bağlarda gəzdi. Ərəb dərəsinə enərək ta "Zeybəklər bulağına" qədər getdi. Bir qaya kənarında arxası üstə uzandı. Saatlarla havada dolaşan kiçik bulud topalarına, gözlə baxılacaq dərəcəyə qədər təsirini itirmiş günəşə baxdı.

Lamiəni üç gün idi ki, görmürdü. Deyirdilər ki, qız bərk bir boğaz ağrısından yatır. Axşamüstü evə qayıdarkən Kənan Şükrü bəyin bağının qabağından keçdi. Qapıda gördüyü bir qız uşağından Lamiəni soruşdu. O gün artıq bir az yaxşılaşdığını, lakin buna baxmayaraq onu hələ evdən bayıra buraxmadıqlarını öyrəndi.

Gecə qonşu bağlardan birində yenə əyləncə vardı. Cavanlar səhərə qədər çalıb oynayacaq, içki içəcəkdilər.

Kənan o gecə erkəndən otağına çəkilmək, yatmaq istədi. Lakin Saib paşa onu rahat qoymadı, zorla əyləncə yerinə apardı.

– Bu gecəki fövqəladə bir aləmdir, – deyirdi. – Bütün Bozyaxa oradadır. . Sənsiz ürəyimə yatmır.

Bağda təkcə bozyaxalılar deyil, şəhərdən dəvət olunmuş xeyli adam da vardı. Qonaqlar əvvəl dəstə-dəstə çardaqların, ağacların altına toplanır, bir qədər rəsmiyyət gözləyərək əylənirdilər, ancaq gecə yarısına yaxın Topal Hafizin eşşəyi ud və kaman sədaları altında yeni oyunlar çıxarmağa, yeni bir Cüt telli havasını oynamağa başlayanda vəziyyət dəyişdi, məşəllər daha ucadan alovlanmağa başladı, rəsmiyyət, təklif gözləmək yaddan çıxdı. Böyük, kiçik hamı qardaş, can-ciyər oldu. İçkinin təsirindən qıpqırmızı olmuş alyanaqlı məhkəmə rəisi bir tərəfdə: "Sən mənim bəradəri-canbərabərim deyilmisən", – deyə bağıraraq Şəmi dədənin yanaqlarından öpür, qoca bir maliyyə müdiri ilə bir baş nəzarətçi qabaq-qabağa oynayır, bir başqa sərxoş bunlara baxıb: "Ay sağ olun .. Topal Hafizin eşşəyini vurub keçdiniz", – deyə səsi gəldikcə hayqırırdı.

Kənan bu gurultuya çox dözə bilmədi. Dayısının gözünə görünmədən oradan qaçaraq, arxa yoldan yavaş-yavaş bağa qayıtdı.

"Mərasim binası"na yaxınlaşdığı vaxt qulağına zəif bir öskürək səsi gəldi, heyrətlə başını çevirdi. Böyük, qara bir pelerinə[1] bürünmüş

[1] Çiyinə salınan qolsuz qadın geyimi



Lamiə çardağın altında, bir küncdə durur, öskürəyini boğmaq üçün örpəyin ucu ilə ağzını tuturdu.

– Sənsənmi, Lamiə? Burada nə gəzirsən?

– Siz məni çağırmamısınız?

– Haçan? Kim dedi?

– Bu axşam Xədicəyə demişsiniz

Kənan yavaş-yavaş ona yaxınlaşdı. Yanağını oxşayaraq gülümsədi.

– Düz demirsən, Lamiə... Mən başqaları vasitəsilə sənə belə xəbər göndərərəmmi? Xədicədən sənin əhvalını xəbər aldım. Ancaq bu qədər.

– Nə bilim, Kənan bəy... Elə bildim ki, məni görmək istəyirsiniz..

Kənandakı nəşəsizlik, əsəbilik birdən-birə keçmiş kimi oldu. Hələ də qızın yanağını, çənəsini oxşamaqda davam edərək:

– Əlbət ki, səni görmək istəyirdim... Ancaq bu sənin səhhətin qədər vacib deyil... Tamamilə sağalasan deyə bir-iki gecə gözləyə bilərdim.

Lamiə sakit bir cəsarətlə:

– Mən isə gözləmək istəmədim, – dedi.

Sonra bu sözlərdən utanmış kimi başını Kənanın köksünə dayadı. Kənan yavaşca əyilərək onun saçlarından öpdü:

"Bu qızcığaz mənə güman etdiyimdən çox alışır .. Ayrıldıqdan sonra mütləq bir-iki ay əzab çəkəcək... Bu heç də yaxşı olmadı" deyə düşündü.

Lamiə bu düşüncəyə cavab verirmiş kimi astadan içini çəkdi.

– Bir-birimizi görəcəyimiz günlər lap azaldı, Kənan bəy. Odur ki, bir az xəstə olmağıma daha fikir verməyin... Bir də, mən doğrudan da sağalmışam... Məndə heç bir şey yoxdur..

– Düzdür, ancaq gecələr bura rütubət olur, Lamiə Təzədən xəstələnə bilərsən... Yaxşı, daha get.

– Aşağı bağda elə yaxşı şənlik var ki .. Yol kənarından bir az o tərəflərə baxmaq istəyirəm.

– Oralara baxmaq istəmirsən, şeytan... Məni də özünlə aparmaq üçün bəhanə axtarırsan. Ancaq doğrudan sənə soyuq olar, Lamiə... Bircə bax, əllərin od tutub yanır... Sonra da ki, bu gecə oralarda adam çoxdur. Bizi görən olar.

– Onda qoyun çardağın altında bir az da dayanım . Siz də pəncərəni açarsınız.

Kənan daha etiraz edə bilmədi. Əsəbiliyini gizlətməyə, səsinə laqeyd bir ahəng verməyə çalışaraq:

– Orada olmaz Ancaq istəyirsən beş dəqiqəyə otağıma gələ bilərsən, – dedi. Sonra tələsik əlavə etdi:

– Keçən il də bir dəfə gəlmişdin...

Lamiənin cavabını gözləmədən Kənan qapıdan girdi. Bir anda dəhlizə keçdi, qaranlıqdan qorxurmuş kimi əsəbi bir halda lampanı yandırdı. Sonra bayırdan görünməmək üçün pəncərəni örtdü. Amma bunu edər-etməz peşman oldu.

Ətrafındakı ağaclar, gecə, örtülü pəncərələr bu otağa təhlükəli bir yalqızlıq gətirir, onu gizli bir eşq yuvasına döndərirdi. Xəfifcə titrəyən əlləri ilə Kənan yenidən pəncərəni açdı. Pəncərənin arasında yığılıb qalmış pərdənin ucunu heç cür bacarıb çıxara bilmir, əlləri həyəcandan əsirdi.

Lamiə otağa girməmişdi. Qapının arasında dayanmışdı. Buradakı yarımqaranlıq içində qızın saçlarında qızılı bir aydınlıq yanıb-sönürdü.

Kənan pəncərənin yanında dayanıb gecənin sərin havası ilə həyəcanını azaltmağa çalışaraq, sərt bir əsəbiliklə kəsik-kəsik:

– İçəri girsənə, Lamiə, – dedi. – Lap yad adam kimi durmusan. Qorxmalı bir şey yoxdur. Ancaq pianonun qabağındakı stulda otur ki, bayırdan kölgəni seçməsinlər...

Lamiə onun göstərdiyi yerə keçdi. Lakin o, oturmur, pianonun yanında büzüşür, uşüyən adamlar kimi titrəyərək pelerini çiyinlərinə, köksünə sıxırdı.

Aralarındakı sükut uzandıqca Kənanın əsəbiliyi artır, bir təngnəfəslik, qulaqlarında dərindən gələn bir uğultu hiss etməyə başlayırdı.

Kənana bu sükut, özünün pəncərədən ayrılmaqdan qorxurmuş kimi görünən vəziyyəti və Lamiənin qalın pelerin içərisində getdikcə daha çox büzüşməsi qeyri-təbii gəldi. Ona yenidən sərt bir əmrlə:

– Oturunuz, Lamiə xanım, – dedi.

O indi əsəbi addımlarla otağın içində gəzişir: "Nə pis oldu... Ah, bu Lamiə .. Çox ehtiyatsız şeydir... Niyə gəldi", – deyə düşünürdü.

Pianonun üstündə bu günlərdə Cavidandan gəlmiş bir məktub zərfi vardı. Kənan onu əlinə aldı. Məktubda yazılmış sözləri bir-bir yadına salmağa çalışaraq nişanlısına aid xatirələrini fikrində oyandırmaqla təskinlik və təsəlli tapmaq istəyirdi. Ancaq bu saat məktub onun qəlbinə heç bir şey söyləmir, Cavidanın xəyalı qaranlıq bir muzey dəhlizində yaxşı seçilməyən naməlum rəsm əsəri kimi Kənan üçün təsirsiz qalırdı.



Bundan ümidini kəsdiyi vaxt ən köhnə xatirələrindən çarə umdu. Yenə Leylanı xatırlamaq, uşaqlıq illərinin kədərli və məğrur anlarını qəlbində canlandırmaq istədi. Bu da ondakı əsəbiliyi daha da artırmaqdan başqa bir şeyə yaramadı. Bu illərinin məhrumiyyət xatirələri ona boğuq kindən başqa bir şey bəxş edə bilmir, qəlbində zalımcasına gizli bir hiss oyadırdı.

Lamiə indi orada pianonun yanındakı alçaq kreslada oturmuşdu. Başını aşağı sallamış, saçlarının qızılı dalğalarından, pelerindən açıqda qalmış qəşəng boynundan başqa bir yeri görünmürdü.

Kənan da bir kreslada oturdu. Kreslo çox dərin, yumşaq və isti idi. Otaqdakı dərin sükutun içində o, Lamiənin nəfəs almağını da eşidir, getdikcə artan qəribə bir halsızlıq içində müqavimətinin, iradəsinin yavaş-yavaş tükənməyə başladığını hiss edirdi.

Mümkün qədər sakit görünməyə və səsinə mülayimlik verməyə çalışaraq:

– Lamiə xanım, – dedi. "Yaxşı, daha gedin" deyə sözünə davam edəcəkdi. Lakin birdən qəlbi çırpınmağa başladı, Kənan susdu. Hiss edirdi ki, Lamiə itaət eləyib qapıya tərəf gedəcək olarsa o, özünü saxlaya bilməyəcək, qeyri-ixtiyarı olaraq yerindən qalxıb bir anda qızı qolları arasına alacaqdır. Son bir ümidlə ona nişanlısından, bu il Ərzurumdan gələcəyi gözlənilən mülazim Nazimdən bəhs etmək istədi. Lamiənin bir başqasına aid olduğunu xatırladan bu sözlər bəlkə onu əsəbilikdən qurtara bilərdi. Odur ki, kəsik-kəsik söyləməyə başladı:

– Bir neçə aya yəqin Nazim bəy də gələr, deyilmi, Lamiə xanım?.. Səni bu qədər dəyişmiş, gözəlləşmiş görəndə kim bilir, nə qədər xoşu gələcək... İnşallah, çox xoşbəxt olacaqsınız. Nazim səni çox sevəcək. Sən də təbii...

Sözünə daha davam edə bilməyib susdu. Nazimin xatirəsini oyandırmaqla daha böyük bir səhvə yol vermişdi. Xəstə xəyalı gözlərinin qabağında hərarətli bir eşq və ehtiras səhnəsi canlandırır, Kənan Lamiəni ilk dəfə olaraq bir başqasının qolları arasında görürdü. Bu xəyal birdən-birə onu hövsələdən çıxartdı, çənəsində yüngül bir titrəmə hiss etdi:

– Lamiə, gəl yanıma, – dedi

Qız bir az tərəddüdlə ayağa qalxdı. Kənanın qəribə bir atəşlə yanan mavi gözlərinin cazibəsi altında sarsılaraq ona tərəf bir addım atdı. Elə bu vaxt bayırdan bir səsin:

– Kənan... Kənan, – deyə çağırdığını eşitdilər. Gələn Saib paşa idi. Kənan yerindən qalxdı, tez lampanı söndürdü. Boğuq bir səslə:

– Lamiə, keç içəri otağa, – dedi. – Səs eləmə.

Sonra pəncərəyə yaxınlaşaraq dayısına cavab verdi. Bələdiyyə rəisi əyləncəyə tamaşa etməkdən qayıdırdı. Bacıoğlusunun birdənbirə oradan yoxa çıxması onun diqqətini cəlb etmişdi. Kənan:

– Bir şey olmayıb, dayı... Elə bir az başım ağrıyırdı, – dedi.

Paşa çardağın yanına qədər gəlmişdi:

– Gördüm lampan yanır, fikirləşdim ki, hələ yatmamısan.

– Bu saat yatıram, dayı.

– Gecən xeyrə qalsın, oğlum... Eh, orada lap biabırçılıq eləyirlər.

Orada çalğı yenidən dəlicəsinə bir uğultuya çevrilmişdi, qəhqəhələr, fişəng səsləri şiddətlə gecənin içərisinə dağılır, qabaqdakı ağaclar məşəllərin alovundan alışmış kimi görünürdü.

* * *

Kənan dayısının uzaqlaşıb getməsini görəndə özünü çox pis bir fəlakətdən xilas olmuş sandı. Təhlükə artıq sovuşmuşdu. Lamiəni indi evlərinə arxayın yola sala bilərdi. Lampanı təzədən yandırmağa ehtiyat elədi. Qaranlıqda yataq otağının qapısını açdı.

– Yaxşı, Lamiə xanım, – dedi. – Daha getmək olar.

Qız bir küncdə ayaqüstə dayanmışdı, yalnız altun saçları seçilirdi. Tərəddüd içərisində qapıya tərəf gəlməyə başladı. Kənan ona yol vermək üçün bir az yana çəkilmişdi. Birdən Lamiə bir stula toxunub səndələdi. Pelerinin bir ucu çiynindən sürüşüb düşdü. Kənan onu tutmaq istəyirmiş kimi qeyri-ixtiyari olaraq əllərini irəli uzatdı. Qızın çılpaq qolu onun qoluna toxundu, yumşaq saçları ılıq bir nəfəs kimi üzünə, dodaqlarına dəydi. Kənan özünü ələ almaq üçün son bir cəhd də elədi. Lamiənin çılpaq qolunu örtmək niyyəti ilə pelerinin sürüşmüş ucunu qaldırdı. Ancaq o, bunu elə bir tələşla, elə bir sərt hərəkətlə elədi ki, pelerin qızın çiynindən tamamilə düşdü; Lamiənin yarpaq kimi titrəyən qızdırmalı vücudu birdən Kənanın qolları arasında qaldı.

Qız bir müdafiə sövq-təbiisi ilə çırpınır, özünü onun qolları arasından xilas etməyə çalışırdı:

– Buraxın məni, Kənan bəy... Buraxın... Gedirəm, – dedi. Sonra o həmin aydınlıq gecədə olduğu kimi gözlərində iki böyük yaş damlası göründü:



– Yazığam, Kənan bəy, – deyə yalvardı. Kənan isə onu qolları arasında daha qüvvətlə sıxdı, vəhşi bir səslə:

– Çox gecdir, Xınalı yapıncaq... Çox gecdir, – dedi.

Qaranlıqda kölgədən seçilməyən meynələrə toxunmamağa çalışaraq bağın dal qapısına tərəf gedirdilər... Kənan əsəbi, lakin sükut içində başını aşağı əymiş, Lamiə pelerininə bərk-bərk bürünmüş halda ondan bir az arxada gəlir, hərdən astaca öskürərək yavaş-yavaş ağlayırdı.

Arxadakı cığıra çıxdılar. Lamiə Kənandan aralanıb hasarın alçaq bir yerindən öz bağlarına atılaraq başını çöndərmədən ağacların arası ilə uzaqlaşmağa başladı. Arıq çiyinlərində, sallanaraq asta-asta yeriməsində bir yorğunluq, qırıq bir ümidsizlik vardı. Hasara yaxınlaşan Kənan yavaşca:

– Lamiə xanım, – deyə qızın arxasınca səsləndi. Qız durdu, ancaq başını çevirməyə, ona baxmağa cəsarət etmədi Kənan soyuq bir vuqar, acıqlı bir etinasızlıqla:

– Ağlamağın mənası yoxdur, – dedi. – Vəzifəmi başa düşürəm... Sabah gəl görüşək.

Qızın cavabını gözləmədən bağa qayıtdı. Dabanlarını yerə bərk vura-vura əlinə keçən yarpaqları qoparıb, budaqları qıraraq köşkə gəldi. Otağına girdiyi vaxt özünü saxlaya bilməyib pianoya bərk bir yumruq endirdi, əsəbi bir ümidsizliklə:

– Həyatımı yenidən qırdım, gələcəyim heç oldu getdi, – dedi.

## XVII

Kənan o gecə yata bilmədi. Otaqda aramsız olaraq gəzişir, papiros çəkirdi. Cavidanla bərabər bütün o parlaq gələcək haqqındakı ümidlərindən əl çəkməli, həyatını mənasız, əhəmiyyətsiz bir qızcığaza həsr etməli idi. Bu, ölüm kimi qəti bir məcburiyyətdi. Başqa heç bir çarə, heç bir yol yoxdu. Bu məcburiyyət Kənanın onsuz da şıltaq olan qəlbini çılğın üsyanla doldururdu. Səhərə qədər bir qərarsızlıq böhranı içində öz-özü ilə əlləşdi. Nəhayət, dan yeri ağaranda bu daxili çəkişmədən bihal düşdü. Əsəbləri son dərəcə yorulmuşdu. Qarayağız üzü mis kimi qızarmış, qan basmış gözlərinin altı qaralmışdı. Ümidsiz bir halda stolun arxasında oturdu. Cavidana bir məktub yazmağa başladı:

"Sevimli, Cavidanım.

Sənə ilk dəfə "sən" deyə xitab etməyə, ilk dəfə təklifsiz söz söyləməyə cəsarət edirəm. Mən bu səmimiyyəti daha sonraya, sənə

"qadırım" deyə biləcəyim o gözəl və bəxtəvər günlərə saxlamaq istəyirdim Lakin talesizlik və tədbirsizliyim məni bir uçuruma yuvarlatdı. Cavidan, sənə "nişanlım" demək haqqını itirmiş vəziyyətdəyəm. Nahaq yerə çırpındım, üsyan etdim... Xilasım mümkün deyil... Həyatımı öz əlimlə puç etdim... Buna layiq olduğum üçün şikayət etmirəm. Ancaq bundan daha böyük bir qorxum var: sənə də bir pislik etmək qorxusu... Bu macəranın sənin xoşbəxt həyatında acı və qara bir nöqtə olması qorxusu. Söz yox ki, məni unudacaqsan. Yüksək ağlının həssas qəlbinə hökm etməsini görəcəksən; mənim kimi səfil, adi bir adamın sevilməli bir cəhəti olmadığına, əlbəttə öz-özünü inandıracaqsan. Mənə gəlincə, Cavidan, bu gündən sonra başlayacaq səfil, bədbəxt, məğmun həyatımın yalnız bir təsəllisi olacaq: sənə "nişanlım" deyə bildiyim o xoşbəxt çağlarımda duymuş olduğum səadət... Səni uzaqdan-uzağa həmişə sevəcəyəm, Cavidan Nə qədər bədbəxt olaramsa, bu məhəbbət də bir o qədər artacaq.

Bu zəruri ayrılığa səbəb olan hadisə haqqında geniş izahat verə bilməyəcəyəm . Hətta bunu başqa yerdən də öyrənmək fikrinə düşmə... Çünki bir zaman "nişanlım" dediyin adamın necə alçaq bir məxluq olduğunu öyrənərək utanacaq, əllərinlə üzünü örtməli olacaqsan..

Sözsüz, daha dünya gözü ilə bir-birimizi görməyəcəyik... Bir yerdə rastlaşanda da yəqin sən üzünü məndən çöndərəcəksən... Mən günahkar gözlərimlə üzünə baxmağa cəsarət etməyəcəyəm... Bunun üçün ölmüş, daha doğrusu özünü öldürmüş bir biçarənin son arzusu olaraq onu istəyəcəyəm ki..."

Məktub burada bitir, buradan başlayaraq orada qaralanıb oxunmaz hala gəlmiş iki-üç mənasız kəlmə ilə bir neçə mürəkkəb ləkəsindən başqa bir şey görünmürdü.

## XVIII

O gün bağda aləm bir-birinə dəymişdi: Kənanı nahar yeməyinə çağırmağa gedən xidmətçi onu pianonun qabağında yerə sərilmiş görmüşdü. Əynində hələ gecə paltarı vardı. Huşsuz halda idi. Üzü büruşmüş və qızarmış, yarıaçıq gözləri şüşə kimi donuqdu. Yıxılarkən başı hara isə dəymiş, sağ qaşının üstündə göy bir şiş əmələ gəlmişdi. Yaxın bağların birində yayı burada keçirməyə gəlmiş bir hərbi həkim olurdu. O, əvvəlcə Kənanın malyariyaya tutulmasından şübhələndi. Amma



ertəsi gün səhərə yaxın xəstənin hərarəti düşməyə başladı, o, yavaş-yavaş özünə gəldi. Nəhayət, həkim bunun şiddətli beyin yorğunluğu və böyük həyəcan nəticəsində əmələ gəlmiş qan dövranının pozulması halı olduğunu, xəstənin sakitlik və istirahət sayəsində mütləq bir neçə günə yaxşılaşacağını söylədi.

Kənan üç gün yataqdan qalxmadı. Bu müddət içərisində o, daimi bir bayğınlıq içində gözlərini yumub susur, ətrafındakılarla çox nadir hallarda danışırdı.

Dördüncü gün yuxudan gümrah oyandı. Onu artıq yataqda qalmağa qoymadılar. Bu dörd gün içərisində çox zəifləmiş, altı qaralmış mavi gözlərinin şövqü qaçmışdı. Çox halsız olmasına baxmayaraq indi bağda gezişir, Lamiəni görmək istəyirdi. Ancaq qız o gün heç oralarda görünmürdü. Nəhayət, səbir edə bilməyib onu soruşdu. Əmisi arvadı ilə bərabər dünəndən bəri İzmirdə olduğunu söylədilər.

* * *

– İzmirdə sizin üçün nə cür keçdi, Lamiə xanım?

– İzmirə iş üçün getmişdik. Əmidostum İkiçeşməlikdəki evdən köçmək istəyir. Ev axtarırdıq.

– Xəstə oldum, heç halımı soruşmağa gəlmədiniz.

– Sizi həmişə ananızdan soruşurdum. Daha yaxşısınız, eləmi?

– Əslində qorxulu bir şey deyildi. Yaxşı, Naciyə, bir zəhmət çək həkimgilə get. Mənə verdiyi axırıncı resepti itirmişəm. De ki, xahiş edirəm təzədən yazsın.

– İcazə verin mən gedim. Naciyə bəlkə bacarmadı

– Xeyr... Xeyr... Naciyə gedər...

Yenə quyu başında idilər. Lamiə İzmirdən yenicə qayıtmışdı. Kənanın onu görmək istədiyini öyrənincə heç çarşabını da başından açmayıb oraya gəlmişdi. Ona yaxınlaşmağa, üzünə dik baxmağa cəsarət eləmir, ağacların birindən sallanan zərif bir budağın kiçik yarpaqlarını bir-bir qoparıb yerə tökürdü.

Kənan ağır və sakit bir səslə danışmağa başladı:

– Naciyəni qəsdən göndərdim. Sizinlə təklikdə danışmaq istəyirdim. Başımıza gör necə iş gəldi. Bunun nəticəsi olaraq həyatımızda bəzi zəruri dəyişikliklər etməliyik. Aydındır ki, daha nişanlınızdan

ayrılmağınız lazım gələcək. Mən də nə qədər ağır olsa da öz nişanlımdan ayrılıram.

Bunu söyləyərkən Kənan qaşlarını çatır, səsini boğan kini gizlətmək üçün zorla nəfəs alırdı.

– Əminizlə üz-üzə danışmaq mənim üçün çətin olacaq... Bir neçə günlük İstanbula gedirəm. Oradan bir məktub yazıb nişanlınızdan ayrılmağınız və mənə ərə getməyiniz lazım gəldiyini ona izah edərəm. İşlərimi nizama saldıqdan sonra isə təbiidir ki, sizi İstanbula apartdıraram. Aydındırmı? Artıq qanuni nişanlım sayılırsınız. Əbəs yerə narahat olmayın... Sizə elə bunları demək istəyirdim.

Kənan yavaş-yavaş əsəbiləşir, bir az da artıq danışmalı olarsa ağır şeylər söyləməkdən özünü saxlaya bilməyəcəyini hiss edir, oradan tez çıxıb getmək üçün bəhanə axtarırdı.

– Kənan bəy, məni nə qədər kiçik, nə qədər həqir hesab edirmişsiniz... Mənim gənc bir qız olduğumu, başqaları kimi mənim də qəlbim, izzəti-nəfsim olduğunu nə üçün düşünmək istəmirsiniz?

Lamiə bu sözləri boğuq bir fəryadla söyləmişdi. Kənan heyrətlə başını qaldırdı. Qarşısında tamamilə başqa, tamamilə yeni bir Lamiə gördü. Üzü gül kimi solmuşdu. Kirpikləri, dodaqları titrəyir, hıçqırmamaq üçün əllərini sinəsində sıxırdı. Kənan maraqla ona tərəf yeridi.

– Sənə nə oldu, Lamiə? – deyə biləklərindən tutmaq istədi.

Qız onun təmasından qorxurmuş kimi geri çəkildi. Bu hərəkət kiçik bir üsyana bənzəyirdi.

Kənan etinasız sakitliyini saxlamağa çalışaraq sözünə davam etdi:

– Nə demək istəyirsiniz, anlamıram, Lamiə xanım. Mən sizinlə ciddi bir şey haqda danışdım. Güman edirəm, ağır bir söz də demədim.

Lamiə dərindən içini çəkdi:

– Kənan bəy, bu gün mənimlə belə rəftar etməyin. Bəlkə bir daha sizi görə bilmədim.

Kənan yavaşca çiyinlərini çəkdi, acı və istehzalı bir təbəssümlə:

– Güman edirəm, biz bir-birimizi lazım olduğundan daha çox görəcəyik.

Lamiə sakit bir inadla təkrar etdi:

– Xeyr, Kənan bəy, məni nəinki lazım olduğundan çox, heç görməyəcəksiniz... Çünki mən sizin arvadınız olmayacağam. Ölsəm də, hətta ölsəniz də, bu mümkün olmayacaq, Kənan bəy...

– Niyə? Nə olmuşdur ki? Belə deməyinə bir səbəbmi var?

Lamiə sakit təbiətindən gözlənilməz bir əsəbiliklə:



– Niyə başa düşmək istəmirsiz, Kənan bəy? Mən sizə layiq deyiləm... Bilirəm. Sizə ərə getməyi mən, vallah, heç vaxt fikrimdən keçirməmişəm... Kənan bəy, söz versəniz, acığınız tutmazsa, sizə bir şey söyləyərəm.

– Acığım tutmaz. Söylə!

– Gəlib sizi otağınızda xəstə tapdıqları vaxt fəryad eləməyə başladılar. Hamı ilə bərabər mən də oraya gəldim. Sizə yaxınlaşmağa cəsarət eləmirdim. "Yəqin mənim ucbatımdan belə oldu" deyə kənarda özözümü danlayırdım. Stolunuzun üstündə gözümə bir yarımçıq məktub sataşdı. Onu nişanlınıza yazmağa başlamışdınız. Fikirləşdim ki, bəlkə içində kimsənin bilməməsi lazım gələn şeylər var, bəlkə başımıza gələn fəlakətdən orada bəhs etmisiniz. Ələ keçməsin deyə onu götürüb cibimə qoydum. Yaxşılaşdığınız vaxt sizə verəcəkdim.

Kənan özünə gəldikdən sonra məktubu çox axtarmış, nəhayət, o, qarışıqlıq əsnasında itmiş olduğuna inanmışdı. Onun nə olduğunu Kənan indi başa düşdü.

– Oxumusan onu, Lamiə?

– Əvvəlcə, vallahi, belə bir fikrim yox idi. Sonra dayana bilmədım. Başa düşürəm ki, yaxşı iş deyil, amma oxumuşam, nə edim.. Sizın bəlkə də acığınız tutacaq. Ancaq mən onu oxumağıma çox şadam. İndi artıq nə üçün sizdən həmişəlık ayrılacağımı başa duşərsiniz, elə deyilmi, Kənan bəy?

– Bunlar uşaq sözləridir... Bizim evlənməyimiz vacibdir. . Kım bilir, inşallah, bəlkə lap xoşbəxt olacağıq.

– Siz mənimlə xoşbəxt ola bilməzsiniz, Kənan bəy... Bu məktub mənim könlümdə elə bir yara açmışdır ki, ömründə sağalmaz. Bir də, mən sizi necə xoşbəxt edə bilərəm? Mən cahil, fəqir, biçarə bir qızam . Görürsünüz, vəziyyətimi necə yaxşı dərk eləyirəm. Hansı məziyyətim üçün məni sevəcəksiniz, bütün ömrünüzü mənə həsr edəcəksiniz? . Məktubunuzda çox doğru yazmışsınız. Mənimlə həyatınız puç olar. Könlümdən başqa sizə verəcək bir şeyim yoxdur, Kənan bəy. O kifayət olsaydı, əlbəttə, sizi hər kəsdən çox mən xoşbəxt edərdim, amma nə çarə... Heyif ki, bu mümkün deyil.

Lamiə yaşla dolu yaşıl gözlərındə dərin bir iztirabla uzaqlara baxır, məhzun-məhzun gülümsəyirdi.

– O qorxduğunuz şey başınıza gəlməyəcək, Kənan bəy... Siz öz sevgilinizlə xoşbəxt olacaqsınız... Mən sizi xilas edəcəyəm... Əslində,

mən özüm də sizinlə xoşbəxt ola bilmərəm. Bu üç gündə çox düşünmüşəm. Dərin bir yuxudan ayılmış kimiyəm... Hər şeyi anlayıram. Sizin əsil sevdiyiniz başqasıdır... Məni sevmədiyinizi, onu düşünərək əzab çəkdiyinizi gördükcə mən hər gün sizdən çox əzab çəkirəm. Allah eləməmiş birdən xəstələnsəniz, ya ölsəniz? Bir az bundan əvvəl mənə "xəstələndim, halımı soruşmadın" deyirdiniz. Nəyə and içim ki, inanasınız, dünyada hələ heç kəs xəstəsi üçün mənim qədər narahat olub ağlamamışdır, Kənan bəy. Gözlərimi yumduqda sizi ölmüş, o qədər xoşlandığım mavi gözlərinizi yumulmuş görür, dəli kimi olurdum. İndi daha başa düşürsünüzmü ki, mən nə üçün heç vaxt sizin arvadınız ola bilmərəm?

Lamiənin taqəti qalmamışdı. Kənanın bütün israrına baxmayaraq o, daha orada dayanmaq istəmədi. İçin-için ağlayaraq uzaqlaşdı. Kənan kədər və heyrət içərisində öz-özünə düşünürdü: "Lamiənin bu inadı məni öz borcumu yerinə yetirməkdən döndərə bilməz. O, mütləq mənim arvadım olmalıdır. Bununla belə təklifimi rədd etməsi mənə çox toxundu. Bunu, görəsən, doğrudanmı səmimi edirdi? Hər halda bu yaşdakı cavanlar yaşlı adamlardan daha çox təmiz olurlar. Mən də Leylanı öz xoşumla əlimdən çıxardığım vaxt Lamiə yaşda idim. Zavallı Xınalı yapıncağın bugünkü halı mənim o vaxtkı halıma bənzəyir. Nə edək, bir işdir başımıza gəldi... Özüm xoşbəxt olmasam da, bir başqasını xoşbəxt etməyə çalışaram, bu da bir təsəllidir".

## XIX

Aradan bir həftə də keçdi. Ayrılmalarına bir gün qalırdı. Kənan bu bir həftə içərisində Lamiəni hər gün görmüş, onu fikrindən döndərmək üçün çox şeylər demişdi. Ancaq danışan yalnız dili idi. Qəlbi, xəyalı isə başqa şeylərlə məşğuldu. Həyatını bu kiçik Xınalı yapıncağa həsr etmək fikri onu gizlindən-gizlinə əsəbiləşdirir, Kənan itirəcəyi şeyləri başqa bir cazibə və gözəlliklə təsvir edirdi. Əslində o, elə yaradılışdan belə idi. Bir şeyə bağlanması üçün onu itirməsi, bir şeyi sevməsi üçün ondan ümid kəsməsi lazımdı.

Lamiə Kənandakı kədəri, qeyri-sabitliyi yaxşı hiss edir, ona görə də təkid etməməsi üçün göz yaşları ilə yalvarırdı. Bir gün yenə dedi:

– Lazım deyil, Kənan bəy... Mənə yazığınız gəlsin... Mənim sizə ərə getməyim mümkün deyil... Razı olduğum dəqiqədən mənə nifrət



edəcəksiniz... Heç sevilmədən yanınızda yaşamağa necə dözərəm? Fikirləşməyin ki, məktub şənimə toxunmuşdur, Kənan bəy .. Sizə layiq olmadığımı mən çox gözəl bilirəm. Sizin azca da olsun məni sevməyiniz mənim üçün böyük bir təsəlli olardı Əslində başımıza o fəlakət gəlməsəydi belə, mən Nazimə ərə getməyəcəkdim. Bir qadın birisini sevdiyi halda, başqa birisinin qadını necə ola bilər?. Mənim barəmdə narahat olmayınız, Kənan bəy .. Mən İzmirdə dul qalmış bir zabit arvadı tanıyıram. Əri Menemendə quldurlarla vuruşmada həlak olmuşdur. Bu qadın ərini çox sevirdi. Allah ona təsəlli vermişdir: ərinin artıq bir də geri dönməyəcəyini bilə-bilə evi, onun şeyləri, yadigarları, şəkilləri ilə doludur. Bir gün bunlara qonaq gəlmiş qonşu qadının ona yazığı gəlir, bir cavan gəlin üçün tək yaşamağın çətin olduğunu söyləyir. Qonaq getdikdən sonra bu qadın gülərək mənə dedi ki.

"Lamiə xanım... Görürsən, qonağım məni dul hesab edir, halıma acıyırdı. Halbuki əsil dul özüdür, çünki ərini sevmir... Mən isə öz "Şəhid"imi sevirəm. Onu düşünə-düşünə yaşadığım üçün özümü bu qadından daha az yalqız hesab edirəm"

Mən də həmin qadın kimi olaram, Kənan bəy. Arvadınız olsam, mənə nifrət edəcəksiniz. Halbuki, uzaqdan-uzağa sizi daha rahat düşünə biləcəyəm, sevəcəyəm. Elə bil ki, lap bir zaman mənim ərim olmusunuz, Kənan bəy... O qədər çox cavan ikən dul qalmış qadınlar var ki Onların canı yoxdur?

– Təəccüb edirəm, Lamiə, sənin kimi sadə bir qızcığazdan belə mülahizələr gözləməzdim.

– Mən o qədər də uşaq deyiləm. Bilirsiniz ki, az əziyyət görməmişəm... Mənim də qəlbim, izzəti-nəfsim var, Kənan bəy. . İsrar etməyinizin xeyri yoxdur... Ölsəm də sizə ərə getməyəcəyəm

* * *

Xudkam, iradəsiz Kənan heç cür qəti qərara gələ bilmir, Cavidana yazdığı məktubu yola salmaqda tərəddüd edirdi. Bununla belə, Lamiəni qoyub getmək fikri də ona əvvəlki qədər imkansız görünmürdü.

Bir axşam Kənan Misirdən İstanbula qayıtmış nişanlısından uzun bir məktub aldı. Danışığı kimi məktubları da daima bir az qürurlu və rəsmi olan Cavidan, bu dəfə böyük bir səmimiyyət göstərir, onun İstanbula nə vaxt gələcəyini soruşurdu.

Bu məktub Kənanın son tərəddüdlərini də qırırdı. Bununla belə, hələ özünü aldatmağa çalışır, "məktubla bunu Cavidana başa salmaq qaba və pis bir hərəkət olar. Onunla üz-üzə danışaraq hər şeyi anlatmalı, bütün günahlarımı etiraf etməliyəm", - deyə mühakimələr yürüdürdü.

Bu son qərarını Lamiəyə də bildirdiyi vaxt qız birdən-birə saraldı, ancaq heç bir söz demədi.

Ayrılacaqları gecə son dəfə gəzməyə çıxmağı qərara almışdılar. Tərs kimi hava da tutqundu, hətta çiskin yağış yağırdı. Buna baxmayaraq, bağın dalındakı cığırda görüşdülər, dalda yerlərdən keçərək Qırx çamlara qədər getdilər

Bu qaranlıq, ulduzsuz, yağmurlu gecədə Qırx çamların içi böyük bir günbəz xarabasına oxşayır, ağacların arasında çürümüş yarpaq qoxusu ilə dolu rütubətli yel əsirdi. Yağış gəlib çatmır, sadəcə olaraq hündür ağacların təpələri xəfif bir xışıltı ilə aramsız olaraq titrəyirdi.

Yeri dəniztək örtən qurumuş şam tıkanlarını tapdalaya-tapdalaya xeyli müddət gəzdilər. Hələ yola çıxarkən Lamiə Kənandan xahiş eləmişdi:

– Bu gecə ayrılıqdan heç danışmayaq, Kənan bəy... Kim bilir, bəlkə gələn il... yaxud daha sonralar yenə buralara gəldiniz... O vaxt qadınınız, uşaqlarınız olacaq. . Sizi yenə görə bilərəm... Əlbət ki, daha indiki kimı olmaz, ancaq nə zərəri var. Sizi ki, görəcəyəm... Bu gecə ayrılıqdan heç danışmayaq. Sabah yenə bu yerlərdə görüşəcək adamlar kimi ayrılaq, Kənan bəy!

Kənan məzlum bir halda susur, Lamiə isə əli onun uca çiyinlərində kilidlənmiş halda, ara vermədən danışırdı. Kənan qızın kiçik vücudunun bütün ağırlığını hiss edə-edə, dinməzcə yeriyirdi. Hicran məzlum, ürkək və sakit Lamiəni dərdli bülbüllərə döndərmişdi. Qız Kənanın kamanına ilk dəfə qulaq asdığı, mavi gözəl gözlərini ilk dəfə gördüyü andan başlamış, bu günəcən bütün arzu və məhəbbətini yaşına yaraşmayan bir bəlağətlə söyləyir, indiki qaranlıq və yağmurlu Bozyaxanın aylı gecələrini, eşq ilə dolu unudulmuş anları bir-bir Kənanın xəyalında canlandırırdı.

– Qayıdaqmı, Lamiə? Çox gecdir... Üşüyürsən, xəstələnə bilərsən...

– Necə istəyirsiniz, Kənan bəy... Ancaq qayıdanda o biri yoldan gedək, yaxşımı? Yadındadırmı bır gecə Nemət xanımla keçdiyimiz yol?.. Sonra bu il... İki ay əvvəl o cür aylı bir gecədə... Kənan bəy, mənə o



qədər də yazığınız gəlməsin... Yadınızdadırmı, məni də orada Nemət xanım kimi qollarınız arasına aldınız!

Getdikcə artan yağışa baxmayaraq Lamiə yenə həmin xaraba evin qabağında durdu, Kənanı zorla islanmış daşların üstündə oturtdu, islaq sarı saçlarını onun köksünə dayadı.

– Qorxuram, Lamiə, sənin üçün çox ağır olacaq.

Lamiə süzgün yaşıl gözlərini qaldırıb Kənanın üzünə baxdı, göz yaşlarının yanaqları aşağı süzülməsinə baxmayaraq, dodaqlarında acı bir təbəssümlə:

– Yox, Kənan bəy, – dedi. – Bilirsiniz ki, biz bir-birimizi sevmirik... Bu həmişə öz dediyiniz kimi bir könül əyləncəsi olmuşdur. Nə əhəmiyyəti var, Kənan bəy... Bu sevgi ki qəlbin sevdası deyil, dodaqların sevdasıdır. Bir neçə damla gözyaşını iztirabmı sanacağıq? Ancaq bu gecə kaman çalmağı unutmayın, yaxşımı, Kənan bəy?.. Son dəfə sevdiyim ninnini dinləyərək yuxuya getmək istəyirəm.

* * *

Lamiə hasarın kənarından öz bağlarına atılmaq istədiyi vaxt, Kənan onu son dəfə qolları arasına aldı, buz kimi soyumuş dodaqları ilə gözlərindən, geniş alnından öpdü. Sonra onu yağmurlu qaranlıq içində tək buraxdı. Artıq başını çevirməyə də cəsarət etmirdi. Qəlbində bir boşluq, dodaqlarında qızın islaq gözlərindən aldığı son busədən qalmış acı gözyaşının dadı olduğu halda otağına qayıtdı.

# İKİNCİ HİSSƏ

## I

*Nazimdən Şükrü bəyə*

Möhtərəm Şükrü bəy!

Bir ay yarım olar sizə məktub yazmıram. Bəlkə mənə indı lap acığınız da tutub. Səbəbini izah eləsəm, məni bağışlayarsınız. Ənisə xalaya və Lamiəyə birdən-bırə deməyin, mən əməlli-başlı bir təhlükədən qurtarmışam. Bölüyümlə bir quldur dəstəsi arasında baş verən toqquşmada sağ çiynimdən və baldırımdan ağır surətdə yaralanmışdım. Qırx gündür ki, Trabzon xəstəxanasında yatıram. İndi, Allaha şükür, bir elə şey qalmayıb, yaxşıyam Bir neçə günə xəstəxanadan çıxacağam.

Sizə bir xoş xəbər də vermək istəyirəm. Dünən alay komandirindən bir təliqə almışam. Rutbəmın artırıldığını, mənə yüzbaşı çini verildiyini və İskəndəruna[1] təyın edildiyimi yazır. Bu xəbər mənə son aylarda çəkdiyim butun əziyyətləri unutdurdu. Siz də yəqin ki, mənim kimi sevinəcəksiniz.

Zəif olduğumu söyləyərək havamı dəyişmək üçün dörd-beş aylığa vaxt istəmişəm. Hər halda rədd etməyəcəklərinə ümid bəsləyirəm. Odur ki, Allah qoysa, bir aya qədər İzmirdəyəm. Bu istirahət müddətimi təbiidir ki, yanınızda keçirəcəyəm. Bu müddət ərzində toyumuzu da edə bilərık, elə deyilmi? Lamiə xanımı İskəndəruna aparmağım bəlkə sizə bır az çətın gələcək. İkı-üç ildən bəri ona xeyli öyrəşibsiniz. Ancaq mən tək olduğum üçün ona ehtiyacım sizinkindən daha çoxdur. Təklik məni lap yorub. İskəndərunun gözəl bir yer olduğunu söyləyirlər. Ümid edirəm kı, Lamiə ilə bərabər orada çox xoşbəxt olaram. Səmihə ilə Fikrət ındi, kim bilir, nə qədər böyümüşlər. Nadinclik edirlərmi? Gəlib görərəm..

*Nazim*

[1] Türkiyənin cənub-şərqində, Aralıq dənizi sahilində hərbi-dəniz bazası olan liman şəhəri





Oğlum Nazim!

Məktubunu on beş gün olar almışam. Dərhal cavab yazmağa səhlənkarlıq etməmişəm. Ancaq o axşam elə bır hadisə baş verdi ki, yazdığım məktubu cırıb atmalı oldum. On beş gündür ki, böyük bır pərişanlıq içindəyik. Ənisə xalan məsləhət gördü ki, sənə heç bir şey yazmayaq, həqiqəti söyləmək üçün gəlməyıni gözləyək. Mən isə bunu münasib görmədim. Nazim, oğlum, sən əsgərsən. Həyatın süngü, güllə, top atəşi kimi acılıqlarını da görmüsən, bunlara sinə gərməli olursan. Buna görə də həqiqəti elə olduğu kimi sənə yazıram. Lamiə artıq sənin nişanlın deyildir. Özümüz də bilmədən qoynumuzda bır ilan bəsləyirmişik, zahirən məzlum, ağırbaşlı görünən bu qızın nə pis ürəyi varmış. Bəxtin gətirib ki, bu yerəbaxan, pozğun məxluq batinindəkıni indidən meydana çıxartdı. Bəlkə, Allah eləməmiş, qadının olandan sonra bu işləri başına gətirə idi. Onda əlini nahaq yerə qana bulaşdırmalı olardın, ömrün zindanlarda çürüyərdi.

Bu qızın keçən ildən bəri halında bır qəribəlik, bır dalğınlıq və soyuqluq hiss edirdim. Hətta bu barədə Ənisə xalana da bır neçə kərə demışdim. "Bu qızın üstündə gözün olsun," – deyə tapşırmışdım. Ancaq xalanı özün tanıyırsan... Allah ömür vermiş, çox təmiz bir qadındır. Sözümə qulaq asmadı, qızı özbaşına buraxdı.

Bu il Bozyaxadan köçdükdən sonra Lamiə daha da əcaib bir hala düşməyə başlamışdı. Gündən-günə zəifləyir, gözlərinın ətrafı qaralır, halında bir taqətsizlik görünürdü Bır söz dediyim vaxt dalğın-dalğın üzümə baxır, çox dəfə cavab vermirdi. Mən: "Bu uşağa nə olub, xəstə deyil ki", – deyə fikirləşməyə, narahat olmağa başlamışdım. Hətta bir dəfə həkimə də göstərmək istədim. Razı olmadı. "Bir şey yoxdur," – deyə məni inandırdı.

Nəhayət, o gün səndən məktub gəldi. Poçtalyondan zərfi mənə o alıb gətirdi. Sənin yüzbaşı olduğunu, toy üçün bir aya qədər İzmirə gələcəyini oxuduğum zaman sevindiyimdən dəli kimi: "Lamiə, muştuluğumu ver... Nazimin rütbəsini artırıblar. . Özün də hazırlaş, bir aya kimi gəlin gedirsən", – deyə bağırdım. O, əllərı ilə uzünü örtüb, qapıya tərəf geri çəkildi. Mən öz aləmimdə bunu heyrət və sevincdən doğan həyəcan əlaməti hesab etdim. "Qaçma, gəl, əlimi öp görum", – deyə ona tərəf

yeridim. zorla əllərini üzündən götürmək istəyirdim. Birdən-birə qızın yerə sərıldiyini gördüm. Üzü ölü bənizı kimi saralmışdı. Düz beş dəqiqə əlləşdik, limonla, odekolonla onu ayıltmağa çalışdıq. Ənisə xala da elə hey mənə acıqlanırdı:

– Belə şeyi birdən-birə deyərlərmi? Sevincdən adamın nəinki ürəyi gedər, lap ölə də bilər, – deyirdi. Mənim də yenə ağlıma bir elə şey gəlmədi. O gecə Çeşməlikdəki qəhvəxanaya getmişdim. Evə qayıtdığım vaxt Ənisə xalanı elə pərişan bir halda, elə təlaş içində gördüm ki, təsvirı mümkün deyil. O, əhvalatı mənə güc-bəla ilə anlatdı. Lamiə susaraq düşünür, soruşulan suallara cavab vermirmiş. Ənisə xalan onun arada mənim otağıma girdiyini, sonra ətəyinin altında bir şey gizləyərək yenə çölə çıxdığını görür... Oradan qızın nə götürdüyü ilə maraqlanaraq o da mənim otağıma keçir. Ətrafa baxmağa başlayır. Hər şey yerli-yerində imiş. Təkcə komodun alt gözü aralı imiş.

Ənisə xala bu gözdə sınıq ov tüfəngi ilə tapançamdan başqa bir şey olmadığını xatırlayır, təlaşla gözü açaraq tapançamın orada olmadığını görüb dəhşətə gəlir.

Yazıq arvad dəli kimi oradan Lamiənin otağına cumur, silahı yastığının altından tapıb çıxarır. Görünür, bu bədbəxt özünü öldürmək istəyirmiş. Əvvəlcə, belə bir niyyəti olduğunu boynuna almır, bir gecə bundan qabaq otağında qorxduğu üçün belə etdiyini söyləyir. Lakin Ənisə xalan çox təkid edir, Lamiə dözə bilməyib ağlaya-ağlaya həqiqəti boynuna almağa məcbur olur.

Bu yaramaz qızın bu il Bozyaxada yad bir adamla dostluq etdiyini, bunun nəticəsində boynunda üçaylıq uşağı olduğunu eşitdiyim vaxt dərd və hiddətimdən inan ki, lap az qaldı ağlımı itirəm. Bu cür namus məsələlərində nə qədər tələbkar olduğumu bilirsən. Qızı təpiyimin altına salıb əzmək, sonra gecə yarısı küçənin ortasına atmaq istəyirdim. Ənisə xalan mane oldu. Dedi ki, özünü öldürmək istəyəcək dərəcədə peşman olan bir adama, bundan artıq cəza vermək lazım deyil. Mən də çarəsiz qalıb susdum. Lamiə əslində öz övladım olmadığı üçün bundan artıq cəza verməyə haqqım da yoxdur. Təzədən bir iş çıxarmasın deyə, onu bir neçə gün möhkəm nəzarət altında saxladıq.

Qızcığazı yoldan çıxaran alçağı it kökünə salmağı qət etmişdim. Ancaq axtarışlarım heç bir nəticə vermədi. Lamiəni günlərlə sorğu-suala tutdum. Əvvəllər heç bir cavab vermək istəmirdi. Çox təkid elə-



dim, açıb deməyə məcbur oldu. O alçaq bir tütün qoruqçusu qiyafəsində ortaboylu, şişman, çopur bir avara imiş. Nə yerini-yurdunu bilir, nə də ki, adını.

Polis idarəsinə müraciət etsə idim, kələfin ucunu tutardılar. Ancaq bunun da biabırçılığımızı aləmə yaymaq, qəzetlərə düşməkdən başqa bir xeyri olmayacağını düşünərək fikrimi dəyişdim

İndi yəqin özün də mənimlə razılaşarsan ki, bu hadisədən sonra Lamiəni evimdə saxlaya bilməyəcəyəm. Qərara almışam ki, biabırçılığı ört-basdır etmək üçün Lamiəni Kütahiyədəki böyük qardaşımın yanına göndərim. Tez ona bir məktub yazdım. Allah razı olsun, münasib bir cavab verib: "Mən onu möhkəm nəzarət altında saxlayaram. Özünü də burada əri təzəcə ölmüş bir dul qadın kimi tanıdaram. Arvadım və qızlarımdan başqa heç kəsə bir şey deməmişəm. Bu məsələni, hətta kürəkənlərimdən də gizlədəcəyəm. Məyus olmayın, cavandır. İnşallah, bir az sonra ağlı başına gələr. Bəlkə gələcəkdə onu uşağı ilə bərabər qəbul edəcək yaxşı bir adama ərə də verə bildik". Lamiəni sabah yola salırıq. Tanışım bir jandarm yüzbaşısı aparıb onu öz əli ilə qardaşımıza verəcək.

Nazimcan, heç fikir eləmə. Başa düşürəm, cavansan. Bəlkə bu qıza azca da olsa meylin vardı. Olmasa da, yenə belə şeylər adama çox ağır gəlir. Amma bir iş var ki, bu təbiətdə bir məxluqla sən əslində heç vaxt xoşbəxt ola bilməzdin. Yüzbaşımızı hər halda İskəndəruna tək göndərmərık. Ənisə xala işə girişmişdir. İndidən iki qızla bir dul gəlini gözaltı eləyib. Qızlardan birı qonşumuzdur. Boylu-buxunlu gözəl bir izmirli qızıdır, vücudundan üç Lamiə çıxar. İkincisi yenə tanışlarımızdan rodoslu[1] bır tacirın qızıdır. Bu o birisinə nisbətən bir az nərmə-nazikdır, ancaq üzdən ondan da gözəldir. Üçüncüsü bələdiyyə rəisi Saib paşanın arvadının qohumlarından, Nemət xanım dedikləri dul bir qadındır. . Yaramaz, əyyaş, qumarbaz bir əri vardı. İki ay bundan əvvəl bir gecə sərxoş olduğu halda qayıqla Qarşıyaxaya gedəndə dənizə düşüb boğulub. Ənisə xalan bu qadını çox tərifləyir, iyirmi dörd yaşlarında, varlı, nəcib, gözəl və son dərəcə namuslu bir qadındır, – deyir. Hər halda bunlar hara, Lamiə hara! Səmihə ilə Fikrəti görəndə heç tanımayacaqsan

*Şükru bəy*

[1] **Rodos** – Aralıq dənizində, Anadolu sahillərinə yaxın böyük bir ada Uzun zaman Türkiyənin əlində olan bu ada, indi Yunanıstana məxsusdur

## II

Ənisə xanım bir gün Səmihə ilə Fikrəti Lamiənin yanında qoyub hara isə getmişdi Lamiə yola çıxmağa hazırlaşırdı. Paltar tikməkdən göz aça bilmir, əmidostusunun çarşabını, uşaqların pal-paltarını düzəldib qurtarmağa çalışırdı.

Bu vaxt qapı döyüldü. Pəncərədən başını uzadan Lamiə bahalı çarşab örtmüş kök bir qadın gördü. Pəncərənin açıldığını eşidən həmin qadın başını qaldırıb baxırdı. Göz-gözə gəldilər. Bu, hərdənbir Saib paşanın evinə gələn Məftunə xanım adlı yaşlı bir qadındı. Lamiə onun haqqında bəzi dedi-qodular eşitmişdi. Əmidostusunun da bu qadından heç xoşu gəlmirdi.

Məftunə xanım Şükru bəyin evinə ilk dəfə gəlirdi. Lamiə heyrətlə qapını açdı.

– Ənisə xanım evdədirmi, xanım qız?

– Xeyr.. Qonaq getmişdir.

– Vay, vay... Heyif Çoxdan gedib?

– Bir saat olar.

– Qızım, görəsən tez gələr?

Lamiə "indi gələr" deyəcəkdi Ancaq Məftunə xanımın gözləmək üçün içəri girə biləcəyini düşünüb:

– Güman eləmirəm, bir neçə getməli yeri də var, – dedi.

Məftunə xanım həyətə girmişdi.

– Uzaqdan gəlirəm, xanım qız, – dedi. – İcazə versən bir az oturaram.

Lamiə əvvəl nə cavab verəcəyini bilmədi. Sonra yan tərəfdən qonaq otağının qapısını açaraq ağızucu:

– Buyurun, xanım, – dedi

Məftunə xanım çarşabını götürüb, kənardakı döşəkçənin üstündə oturdu İşindən qaldığına görə qanı qaralmış Lamiə qapının yanındakı stullardan birində əyləşdi

– Qəhvə-filan istəmirəm, xanım qız. Ancaq gözəl əllərinlə mənə bir az su versən pis olmaz. Əmidostun Ənisə xanımın xatirini çox istəyirəm. Ancaq görüşünə gələ bilmədiyim üçün yanında xəcalətliyəm. . Axır ki, bu gün yolum düşdü .. Tərs kimi o da evdə olmadı...

– Bəli. . Əslində o da evdən çox az çıxır.

– Yaxşı oldu ki, heç olmasa səni görə bildim, xanım qızım. Əmidostun mənə qonaq gələndə sən də onunla gələrsən, yaxşımı, qızım?



Qadın ətrafı qaz ayağı kimi qırış-qırış olmuş sürməli gözləri ilə Lamiəyə baxır, ondan cavab gözləyirdi. Bu baxış qıza çox qəribə gəldi, tərəddüdlə:

– İnşallah, gələrəm, – dedi.

Məftunə xanım bu cavabdan heyrətləndiyini gizlədə bilmədi:

– Bir şey eşitmişəm, qızım.. Kütahiyəyə, ya da hara isə gedirsən, deyirlər...

– Bəli.

– Vay, vay... Orada çoxmu qalacaqsan?

– Bilmirəm, xanım.

– Kütahiyədə darıxacaqsan... İzmirə öyrəşmiş adam üçün oralarda qalmaq çox çətin olur.

– Bəlkə də...

Məftunə xanım Lamiəni bu cür sirr verməz görəndə xeyli sıxılan kimi oldu. Kiçik bir sükutdan sonra soruşdu:

– Bu səfər nə münasibətlədir, xanım qızım?

– Belə lazım olub, xanım.

– Bəlkə də zəhləni tökürəm, ancaq onu bil ki, sevdiyim adamların hər işi məni maraqlandırır.

Lamiə əsəbiləşməyə başlayırdı.

– İzmirin havası mənə düşmür, xanım, – dedi.

Məftunə xanım süni bir qəhqəhə ilə güldü, gözünün birini qıydı.

– Ah, yaman şeytansan. Sənin kimi gözüaçıq qızlara lap canımı qurban elərəm.

Lamiənin buna fikir verməməsinə baxmayaraq qadının ehtiyat etdiyi, lazımi söz seçməkdə çətinlik çəkdiyi anlaşılırdı. Tərəddüd edə-edə sözünə davam etdi:

– Qızım, nə qədər doğru olduğunu deyə bilmərəm, qulağıma bəzi şeylər çatıb. Çox narahat oldum. Dedim mən ki, özgəsi deyiləm... Başına bu iş haradan gəldi? Ah, avam qızcığaz, ah...

Lamiə oturduğu yerdə titrəyir, üzü rəng verib rəng alırdı. O, kəkələyərək:

– Bu sözləri nə üçün danışdığınızı başa düşə bilmirəm, xanım, – dedi

Məftunə xanım kənarları naxışlı gümüş papiros qutusundan bir papiros çıxartdı.

– Ağbəxt olasan, qızım, bircə o kibriti bura ver görüm.

Papirosunu yandırdıqdan sonra qızın kibriti uzadan əlini biləyindən tutdu, onu yanında oturtdu.

– Sənin nə gözəl saçların var, qızım. Sən yaşda qızları mən çox sevirəm. Mənim də sənə oxşayan bir qızım vardı... Deməli belə... Bir səhvə yol vermisən hə... O qədər də fikir eləmə, belə şey çox qızın başına gəlib... Kaş kı, Ənisə əmidostuna bir söz deməmiş ola idin... Ah, mən bu işdən bir qədər tez xəbər tuta bilsəydim...

Qızı maraqlandırmağa çalışaraq sözlərinə ara verə-verə danışırdı.

– Mən əvvəldə xəbər tutsa idim, heç bəlkə də Kütahiyəyə, nə də ki, nə bilim haralara getməyə ehtıyac qalmazdı. Bir bəhanə ilə səni bır neçə günlüyə qonaq aparardım... Sonra da başqa qızlar kımi bəzək-düzəyinlə, cehizinlə nişanlının evinə köçüb gedərdin. Heç kəsin də ağlına zərrə qədər bir şey gəlməzdi.

Lamiə bu sözlərdən xoşlanmayaraq əlini çəkmək istədi:

– Nə demək istəyirsiniz, xanım? Anlamıram. İcazə verin qarşınızda oturum.

Məftunə xanım saxta bir şəfqətlə yenə onun yanaqlarını, saçlarını oxşadı:

– Doğrudan da çox təcrübəsiz, ancaq yaman şirin bir qızsan. Səni Kütahiyədə, kim bilir, necə kobud adamlara verməyə çalışacaqlar. Burada qalmaq üçün bir bəhanə tapa bilsəydin, mən sənin üçün necə də yaxşı adamlar tapardım.

Məftunə xanım Lamiənın barmaqlarından birini tutub yavaş-yavaş ona qırmızıqaşlı qızıl bir üzük taxmağa çalışdı. Qız birdən-birə diksinərək özünü yığışdırdı.

– Nə edirsiniz, xanım? – dedi.

– Qorxmalı bir şey yoxdur, qızım... Yadigar bir üzükdür... Özü də lap yaxından tanıdığın bir adamdandır...

– Kimdən?

Məftunə xanım əvvəl udqundu, sonra:

– Özgəsi deyil Namiq bəydən, – dedi.

– Fərihənin atası Namiq bəydən?

– Elədir ki, var... Əhvalatı o da eşidib, çox təəssüf edib. Bu üzüyü də yadigar göndərdi.

Namiq bəy əlli yaşlarında varlı bir tacirdi. Taxta-şalban alveri edirdi. Ənisə xanım onun Uzunyol məhəllesındəkı evinə tez-tez gedər, arvadı Məqbulə xanımı bacı kimi sevərdi. Namiq bəyin qızı Fərihə də Lamiənin yaxın dostu idi. Bu ərköyün dövlətli qızı Lamiəni hərdən evlərinə



çağırır, onu axşama qədər qonaq saxlayırdı. Namiq bəy kübar tövrlü, şən bir adamdı. Qızının yoldaşına yaxşı münasibət bəslər, hərdənbir ona kiçik hədiyyələr də verərdi. Görəsən, bu üzük də həmin hədiyyələr qəbilindən bir şey idimi? Elədirsə, bəs bunu nə üçün Məftunə xanımla göndərmişdir?

Lamiə bu yaşlı qadının üzünə bir az şübhə ilə baxdı.

– Fərihənin bu hədiyyədən xəbəri varmı?

– Xeyr, qızım... Heç sən də Fərihəyə bir şey demə.

– Nə üçün, xanım?

Məftunə xanım yenə göz vurub güldü:

– Olmaz, qızım... Fərihə sonra başqa şübhələrə düşər.

– Nə şübhə?

– Lamiə xanım, nə dediyimi çox gözəl başa düşürsən, amma məni incitmək istəyirsən... Namiq bəyin səndən çoxdan bəridir ki, xoşu gəlir. Kütahiyəyə gedəcəyini eşidib çox heyifsilənir. Deyir ki, getməmişdən qabaq mənə bir də "xudahafiz" desin... Mənə, qulaq as, qızım... Sən sabah günortadan sonra "bəzi yoldaşlarımla xudahafizləşməyə gedəcəyəm" deyə əmidostundan icazə alarsan Mən tindəki aptekin qabağında faytonla səni gözləyərəm. Namiq bəy də bizi mənim Dəyirman dağındakı evimdə gözlər... Yarım saat, bir saat görüşərsiniz... Bu gün sənə bir cüt brilyant sırğa almağa getdi... Onları da sabah verəcək.. Danışdıq, eləmi, qızım? Namiq bəyə nə cavab verim?

Lamiə qapının yanında ayaq üstə dayanmışdı. Yıxılmamaq üçün qabağındakı stuldan yapışmışdı... Üzü yamanca saralmışdı. Sönük bır səs, acı bir təbəssümlə cavab verdi:

– Deyin ki, xanım, Lamiə deyir, Namiq bəy Allahdan qorxmurmu? Elə bu bəsdir...

Məftunə xanım bunu eşidib özünü itirdi, nə isə demək istədi. Lamiə bu vaxt otağın qapısını açdı:

– Buyurun xanım, – dedi. – Əmidostum indi gələr. Sizi görməsə yaxşıdır.

Məftunə xanım qapıdan çıxarkən qəribə bir nəzərlə Lamiəyə baxdı. Dodaqlarını büzərək:

– A qızım, – dedi, – madam ki, belə ötkəmliyin vardı, elə o tütün qoruqçusuna da bir az dikbaşlıq edəydin, bəlkə başına bu işlər gəlməyəydi.

* * *

Lamiə bu əhvalatı əmisi arvadına danışarkən nifrətindən titrəyir, gözləri yaşarırdı. Ənisə xanım onun gözlədiyi qədər hirslənmədi. Kədərli və əsəbi bir tövrlə dedi:

– Məgər biz səni Kütahiyəyə xoşbəxtliyimizdən göndəririk? Sənin vəziyyətində olan bir qızı burada saxlamaq mümkün deyil. Ah, Lamiə, özünü də, bizi də oda saldın.

## III

Üçüncü zəng vurulmuşdu. Konduktorlar təlaşla fit çalaraq qaçışır, vaqonların qapılarını bağlayırdılar.

Lamiə hələ də qucağından düşmək istəməyən Səmihəni pəncərədən Şükrü bəyə verdi. Fikrətin əlindən tutan Ənisə xanım möhkəm büründüyü çarşabın altında astadan ağlayırdı. Qara çarşabın içində daha da solğun və üzgün görünən Lamiə mümkün olmayan bir şey istəyirmiş kimi, qorxa-qorxa soruşdu:

– Əlinizi öpə bilərəmmi, əmican!

Şükrü bəy titrək əlini ona uzatdı, o gündən bəri ilk dəfə olaraq qızın üzünə, gözlərinə baxdı Lamiənin hələ də dodaqlarından ayırmadığı əlini çəkməyə taqəti yoxmuş kimi, o biri əli ilə yanında durub ağlayan arvadının çiyninə yavaş-yavaş toxunurdu.

Bir də fit verildi Qatar yerindən tərpəndi. Bu vaxt Şükrü bəy dözə bilmədi. Hündür boyu ilə qatarın pəncərəsinə tərəf uzandı, Lamiəni çiyinlərindən tutub özünə tərəf çəkdi, onun solğun, islaq yanaqlarından öpdü.

Şükrü bəyin qaranlıq çökmüş gözləri qabağından sürətlə gedən vaqonları görmür, yanında daha da şiddətlə ağlayan arvadına:

– Bu qızı qəbrə qoyub qayıtmış olsaydım, məni belə yandırmazdı, – dedi.

Qatar Qarşıyaxanı keçincəyə qədər Lamiə pəncərədən ayrılmadı. Qədifə qalası və Dəyirman dağı üstündən Bozyaxanı bir dəfə də görə bilməyi arzu edərək orada durdu.

– Bu qaraçarşablı sarışın qız görəsən dəlidir, ya gicdir?

– Niyə?



– Onun üçün ki, bayaqdan başını vaqonun divarına söykəyib yatır.. Mən qatarla yola çıxmağı ətrafa tamaşa etmək üçün xoşlayıram .. Bir saatdır fikir verirəm, bir dəfə də olsa pəncərədən çölə baxmayıb.

Bu söhbət on altı-on yeddi yaşında, gonbul, balacaboy bir qızla yaşı iyirmini keçmiş zərif, qumral bir cavan qız arasında gedirdi. Qumral qız yoldaşının qolunu dartaraq:

– Yavaş danış, – dedi. – Yatmayıb, görmürsən, için-için ağlayır... Kirpikləri yaş içindədir. Kim bilir, yazığın nə dərdi var?..

– Bir bəhanə tapıb onunla danışaq?

– İşin yoxdur, Məqbulə... Mənim belələrini narahat eləməyə yazığım gəlir.

– Danışdırsaq yaxşı olar... Bəlkə təsəlli verə bildık

– Sən hələ uşaqsan, Məqbulə. Başa düşə bilmirsən. Asanlıqla təsəlli verilə biləcək bir dərd insanı bu cür ağlatmaz.

– Nə olursa olsun... Bu iş məni çox maraqlandırır.

Məqbulə bir-iki dəfə Lamiənin qarşısında gezişdi, sonra onun yanındakı pəncərəyə yaxınlaşıb dirsəklərini oraya söykədi. Onu dindirmək üçün söz açmağa bəhanə axtarır, ancaq tapa bilmirdi.

Bu vaxt qatar stansiyalardan birinə yaxınlaşdı Qəfil bir təkanla sərnişinləri silkələdi. Gonbul qız özünü saxlaya bilməyib Lamiənin qucağına yıxıldı. Şən bir qəhqəhə qopdu. Lamiə də qeyri-ixtiyari gülməyə başladı. Bu hadisə dərhal dostlaşmaları üçün vasitə oldu Qumral qızı da yanlarına çəkib söhbətə başladılar.

Məqbulə:

– Gedəcəyiniz yer uzaqdırmı, bacı?

Lamiə:

– Kütahiyəyə gedirəm.

Məqbulə:

– A... Nə yaxşı... Biz də oraya gedirik... Tək gedirsiniz?

Lamiə:

– Bəli.

Məqbulə (heyrətlə):

– Lap təkbaşına?

Lamiə:

– Xeyr... Bir jandarm yüzbaşısı var...

Məqbulə:

– Atamla bir vaqonda gedənmi? O keçisaqqallı, həvədiş...

Qumral qız (qaşlarını çataraq):

– Məqbulə!..

Məqbulə (birdən-birə qızarıb gülməyə başlayaraq):

– Birdən atanız-zadınız olar ha... Mən lap baltanı dibindən vurdum.

Lamiə:

– Xeyr, əmimin tanışıdır. O da bir iş üçün Kütahiyəyə gedir.

– Elə isə eybi yoxdur... Adınız nədir?

– Lamiə.

– Mənim adım Məqbulədi... (Yoldaşını göstərərək) – Xalamın adı isə Naciyədır. Naciyə xalamı İzmirdə operasiya eləyiblər... İndi anasının yanına aparırıq... Mənim anam keçən il İzmirdə ölmüşdür. O biri xalamın əri Kütahiyədə olur, məmurdur... Nənəm də orada olur. Atam məndən ötrü ondan üç ay izin alıb. Mən Kütahiyəni heç görməmişəm. Naciyə xalam tərifləyir... Oraya getməyimə çox sevinirəm. Kütahiyədə görüşərik, yaxşımı? A, odur atam da gəlir, sizin keçisaqqallı yüzbaşınızla bərabər.

* * *

Qatar bu stansiyada xeyli duracaqdı. Kişi sərnişinlər platformada gəzişmək üçün düşürdülər. Vaqonların qabağı suçular, qoğal və portağal satanlarla dolu idi. Lamiə yüzbaşının yanında hündürboylu, uzunbığlı, saçı-saqqalı çallaşmış bir minbaşı gördü. Onun meşin kimi, sərt və qarayanız üzü, heybətli qara gözləri vardı. Saçlarını dibindən vurdurmuşdu. Başının peysərindən aşağı hissəsində dəri qat-qat olmuşdu. Meşinqınlı uzun, əyri qılıncını vağzal səkisinin daşlarına toxunduraraq keçib vaqonun qabağında dayandı. Məqbulə ilə Naciyə üçün böyük bir kağız bağlamada xeyli fındıq və kişmiş aldı. Yüzbaşı da qeyrətə gələrək bir şəkərçörəyi aldı və Lamiəyə verdi.

Minbaşı qızının yanında duran Lamiəni sərt və sürətli bir nəzərlə süzdükdən sonra yüzbaşının qolunu dartdı. Danışa-danışa uzaqlaşdılar.

Lamiə yüzbaşının əl-qolunu oynadaraq nə isə anlatdığını, minbaşının tez-tez başını çevirib vaqona tərəf baxdığını gördü. Qız onların nə danışdığını eşitməsə də, ondan bəhs etdiklərini başa düşür, üzü od tutub yanır, Məqbulə ilə danışdığı sözləri çaşbaş salırdı.



* * *

Qatar yenə yola düşmüşdü. Məqbulə ilə Lamiə qırx ilın dostları kimi sənli-mənli söhbətə məşğuldular. Lamiə yavaş-yavaş yalqızlığını unutmağa, təsadüfün bəxş etdiyi bu həmsöhbətinin şən gəvəzəliyi ilə ovunmağa başlayırdı.

Məqbulə ondan nə üçün başını küncə soxaraq saatlarla o cür ağladığını soruşdu. Lamiə utanaraq əsil səbəbini açıb deмədi, "gözlərimə pəncərədən duman dolmuşdu" deyə gülümsədi.

Məqbulə ona inanmadı. Ancaq Naciyənin ona göz-qaş ilə etdiyi işarələri görüb daha Lamiəni çox sorğu-suala tutmadı.

Axşam düşürdü. Bir az sonra qatar dayanacaq, sərnişinlər gecəni keçirmək üçün otellərə dağılışmalı olacaqdılar. Məqbulə belə bir şey təklif etdi:

– Atama deyim, bu gecə bizdən ötrü bir otaq tutsun. Sən də əslində təksən, bir yerdə olsaq söhbət eləyərik... Canımız da sıxılmaz.

Yarım saat sonra sarıboyalı, baxımsız qalmış bir otelin çamadan və bağlamalarla dolu yarıqaranlıq dəhlizində idilər.

Məqbulə atasını bir küncə çəkib ona nə isə deyirdi. Lamiə minbaşının birdən diksinib onun dayandığı tərəfə baxdığını gördü. Qoca zabit qaşlarını çatmışdı. Başının sərt hərəkətlərindən qızına rədd cavabı verdiyi anlaşılırdı. Qızı onunla razılaşmadığı üçün minbaşı bir az kənarda dayanmış Naciyəni yanına çağırdı, hündür qamətini onlara tərəf əyərək, astadan nə isə anlatmağa başladı.

Lamiənin əl-ayağı titrəyir, ürəyi döyünürdü. Dəhlizin xeyli qaranlıq olmasına baxmayaraq, çarşabına bərk-bərk bürünmüşdü.

Məqbulə üzrxahlıq etmək üçün bir yalan uydurmağa çalışaraq Lamiənin yanına gəldi. Lakin onun, çarşabı içərisində astadan ağladığını görüncə heç bir şey deмədi. Sadəcə əllərini tutub sıxdı.

– Zavallı bacım, – dedi.

Lamiə o gecəni alçaqtavanlı dar bir otaqda yalqız keçirdi Ertəsi gün qatarda Naciyə ilə Məqbuləni görmədi. Minbaşı onları başqa vaqona aparmışdı.

## IV

Şükrü bəyin böyük qardaşı Rza bəy köhnə süvarı minbaşısı idi. İyirmi beş il bundan əvvəl bir siyasi məsələ üstündə işdən çıxarılmış, Kütahiyəyə sürgün edilmişdi.

O vaxt burada varlı bir kəndli qızı ilə evlənən Rza bəy bir daha İstanbula qayıtmamışdı. Üç qızı, dörd oğlu vardı. Böyük qızının əri və uşaqları ilə bərabər ailə üzvlərinin sayı bir düjündən[1] artıq idi. Əlavə olaraq neçə vaxtdan bəri işləri o qədər də yaxşı getmirdi.

Bu yaşlı adam böyük ailəni dolandırmaqda çətinlik çəkir, təbiətindəki əsəbilık bununla əlaqədar olaraq gündən-günə daha da artırdı.

Rza bəy Lamiəni, sevimli, lakin soyuq bir çöhrə ilə qarşıladı. Arvadı Huriyə xanımın isə Şükrü bəyin məktubu gələn gündən bəri nitqi kəsilmişdi.

On altı yaşında, fəlakətlərin ən pisinə, ən rəzilinə uğrayan bu qız, kım bilir, İzmirin hansı tərbiyəsizi, əxlaqsızı idi. Bu qız onlar üçün təkcə ağır və məsuliyyətli bir yük olaraq da qalmayacaqdı, hətta bəlkə onların mələk kimi məsum, inci kimi təmiz qızlarının əxlaqını da pozacaqdı. Bundan başqa, uzun müddət həqiqəti gizlətmək də mümkün olmayacaqdı. Bu iş torbada pişik gizlətmək kimi şeydir. Gec-tez onun quyruğu görünəcəkdi.

Lamiənin çarşabını başından götürməsinə, üst paltarını çıxarmasına macal vermədilər. Ər-arvad onu qarşılarında oturdub nəsihət verməyə, gizli təhdidlər, eyhamlarla dolu qarışıq şeylər danışmağa başladılar.

Lamiə yol yorğunluğunda ağırlaşmış başını aşağı sallamış, çirkli oteldə yuxusuz qalmaqdan xumarlanmış yaşıl gözləri dərin bir kədər içərisində qırpım çalırdı.

Ərlə arvad biri qurtarmamış o biri başlayaraq, düz yarım saat danışdılar. Rza bəy çox dərinə getdiklərini hiss etdi, bu zəruri saydığı nəsihətləri xoş və yumşaq bir ifadə ilə tamamlamaq istədi:

– Belə, qızım... Bu nəsihətlərə əgər qulaq asarsan, inşallah, sənin üçün yaxşı olar, bəlkə sənə sonralar ağıllı və qabiliyyətli bir adam da tapdıq. Uşaqların olar. Bu indi gözlədiyin bədbəxt də onlara qarışıb böyüyər. Keçmiş günləri unudarsan.

Lamiəni pal-paltarını dəyişmək üçün ondan ötrü ayırdıqları otağa göndərdikləri vaxt Rza bəy arvadının üzünə baxdı, kiçik bir tərəddüdlə:

[1] Bir düjün – on ikiyə bərabərdir.



– Bilmirəm, amma bu qız gözümə çox elə də pis görünmədi. Necə bilirsən? – dedi.

Huriyə xanım dodaqlarını büzdü.

– Deyə bilmərəm. Amma mənə də elə göründü. Ancaq yenə də bilmək olmaz...

– Fikir verdinmi, gələcəkdə ona bir yaxşı ər tapmağa çalışacağımızı söylədiyim vaxt xoşu gəldi, gizlindən-gizlinə gülümsəməyə başladı. Axır ki, çətin məsələdir, Allah köməyimizə çatsın.

* * *

Lamiə Rza bəyin ən böyüyü on üç yaşında olan dörd oğluna çox tez alışdı. Bir neçə gün keçməmiş onlara yaxşı, mehriban bir böyük bacı oldu Bu halında sevmək onun üçün ən böyük bir ehtiyac, ən dərin bir təsəllı idi.

Balacalar dəcəllik edib nazlandıqca sevinir, nə qədər onu yorurdularsa, o da onları bir o qədər çox sevırdi.

Lakin qızlarla Lamiə çox o qədər dil tapa bilməmişdi. Ən böyükləri Məxmurə iyirmi üç yaşlarında idi. Orta yaşlı əyyaş bir vergi məmurunun arvadı idi. Qızların ən çoxbilmişi, həm də ən yüngülü və yelbeyini bu idi. Aralarında çox az fasilə ilə doğulmuş üç kiçik uşağını anası ilə bacılarının öhdəsinə buraxmışdı. İşi-peşəsi güzgü qabağında saçlarını düzəltmək, üz-gözünü boyamaq, rəfiqələrini başına toplayıb ud çalmaq, qonşuları qapı-qapı gəzməkdi.

Lamiənin gələcəyini eşitdiyi zaman çox sevinmişdi. Şükrü bəyin məktubuna əsasən onu oynaq, işvəkar və pozulmuş bir qız hesab edirdi.

Ancaq gözlədiyi üz-gözü boyalı, yüngül əxlaqlı bir adam əvəzinə çox sadə geyinmiş, sakit və utancaq, kədərli bir gənc qız görüncə bəslədiyi xəyallar puç oldu. Bununla belə ondan da başqa cür istifadə edə biləcəyini düşündü: boynunda beşaylıq uşağı vardı Evdə uşaqsız qadın da yoxdu. Dörd ay sonra dünyaya gələcək körpəsinin baxımsız qalacağı onu narahat edirdi. Lamiə bu təhlükənin qarşısını almış olacaqdı Məxmurə indidən qızın qulağına çatdırırdı:

– Lap onu da sənə verərəm, Lamiəcan. Özününkü ilə bərabər böyüdərsən, – deyirdi.

O biri qızlardan biri tuluq kimi şişman, balıq kimi səssiz, təəssübkeş, səfeh bir qızdı. Ən kiçikləri isə əsəbilikdən üzü qaşıq boyda qalmışdı, quru, gevezə, tez özündən çıxan idi.

## V

Lamiə özünü o qədər də bədbəxt saymırdı.

İlk günlər xeyli sıxılmış, bu yeni həyata öyrəşincəyə qədər xeyli əziyyət çəkmişdi. Ancaq bu hal uzun sürməmişdi. Qırılmış oyuncaqlarının parçaları ilə ovunan uşaqlar kimi, ümidsiz sevgisinin yadigarı ilə, qırıq qəlbinin parçaları ilə özünə həzin təsəllilər tapmışdı. Ümidsizliyin özü də onun üçün başqa cür bir təsəlli olmuşdu: əmin idi ki, "O"nu bir daha görməyəcək. Ümidi olsaydı, yenə barmaqları ilə günləri saymağa başlayacaq, saatlar gün, günlər il kimi uzanacaq, səbatsızlıq içində "O"nu görmək istəyəcək, gözləyəcək, pərişan olacaqdı.

Lakin "O" bir daha məzarlardan qayıdıb gəlməsi mümkün olmayan ölülər kimi idi.

Ölülər necə dərdli, ümidsiz bir məhəbbətlə sevilirsə, Lamiə də "O"nu elə sevirdi. Ölülərdən görülən pislik necə unudularsa, Lamiə də "O"nu elə əfv edirdi.

Ürəyində "O"ndan nəinki incimir, əksinə bəzi şeylər üçün özünü məzəmmət edirdi. "O" evdə xəstə yatarkən İzmirə getməyə Lamiənin könlü necə də razı olmuşdu? Kiçik bir boğaz ağrısından ötrü Lamiə "O"nu iki gecə də gözlətmişdi? Ayrıldıqları gecə nə üçün o qədər ağlayaraq "O"nu kədərləndirmişdi? Bunlar və buna bənzər kiçik əhvalatlar ürəyində dərd olub qalırdı.

"O"nun üçün etdiyi fədakarlıqlar da bir ayrı cür təsəlli idi. Bir iztiraba, bir həqarətə məruz qaldığı vaxt ürəyində bu dərdi də: "O"nun üçün çəkirəm, – deyə düşünür, bu yeni dərd ona gizli və həzin bir səadət kimi görünürdü.

Rza bəyin evi üzü restorana baxan köhnə bir taxta bina idi. Üst mərtəbədə onun üçün kiçik bir otaq ayırmışdılar.

Lamiə bütün səyini həmişə qələbəlik olan evin içində özünü unutdurmağa sərf edirdi. Küçəyə çıxmaq, gələn qonaqların gözünə görünmək istəmir, ev işlərindən, uşaqlara baxmaq qayğısından qurtardığı vaxt kiçik otağına çəkilirdi.

Pəncərələrinin birində daima dumanlı və qarlı bir düzənlik parçası görünürdü. Bu mənzərənin bütün yaraşığı uzaqlarda göz işlədikcə uzanıb gedən teleqraf dirəkləri, bir də hərdənbir buradan keçən qatarlardan ibarətdi.

Lamiə yenidən krujeva toxumağa başlamışdı. Bu incə əl işləri də ruhu kimi gündən-günə zərifləşir, sanki həzin, ümidsiz sevdasının qırıq əməlləri dil açıb danışırdı. Onun toxuduğu bu krujevalarda ay işığı düşmüş kimi görünən beyaz yolların kənarlarına misilsiz əfsanəvi çiçəklər tökülür, yenə oymalı çardaqlardan üzüm salxımları sallanır, ağac təpələrinə düşən ay işığı ətrafında pərvanələr, uzun qanadlı gecə cücüləri titrəşirdi.



Günlər keçdikcə Lamiənin qəlbində başqa bir sevinc də oyanmağa başlamışdı: doğulacaq körpə "O"nun yadigarı idi. Bu sirri kimsə bilməyəcək, bəlkə "Özü"nün də bundan xəbəri olmayacaqdı. Bu mütləq mavigözlü, qarayanız bir oğlan uşağı olacaqdı. Lamiə bütün həyatını onun səadətinə həsr etməyi qərara almışdı. Bu uşaq hər il bir az da böyüyəcək, "O"na bir az daha çox oxşayacaq. Onun mavi gözləri, əsəbi üzü, al dodaqları arasında görünən mirvari dişləri yavaş-yavaş gözəlləşəcəkdi. Lamiə onu kiçik yaşlarından kaman çalmağa qoyacaqdı. İyirmi yaşına çatdığı vaxt o da atası kimi mutləq böyük bir sənətkar olacaq, "O"nun mahnılarını çalacaqdı.

Lamiə əlindəki işi dizlərinin üstünə qoyur, qollarını yanına sallayır, gözlərini yumur, bu mavigözlü, gözəl mirvarıdişli, qarayanız cavanı görür, onun kamanının səsini eşitməyə başlayırdı.

O vaxt Lamiənin saçları ağappaq olacaq. Özünü bilməməzliyə vuraraq çaldığı o gözəl musiqi əsərlərinin kim tərəfindən bəstələndiyini soruşacaqdı. Oğlu, əslində kim olduğunu bilmədiyi o böyük sənətkardan hörmət və pərəstişlə danışacaq, beləcə, ana-oğul daima "O"ndan söhbət açmış olacaqdılar.

* * *

Lamiə sevirdi.

Bu gizli atəş onu için-için yandırır, qızın incə, nazlı çöhrəsi lap ruhunun dərinliklərindən gələn bir başqa gözəlliklə işıqlanırdı. İlk vaxtlardakı dalğınlığı və yorğunluğu aradan qalxmışdı. Bəzən onun yüksəkdən güldüyü də eşidilirdi. Səhər tezdən otağında kiçik aynanın qabağında qızılı saçlarını düzəldirdi, hətta bəzən bəzənir, uzun-uzadı özünə tamaşa da edirdi. Düzənlikdən keçən qatarların tüstülərini görüncə ürəyində qəribə bir həyəcan oyanırdı. "O"ndan məktub, xəbər gəlməyəcəyini bilirdi. Buna baxmayaraq o, yenə qatar keçdikcə həyəcan keçirir, pəncərədən poçtalyon görmək ümidi ilə gözlərini yollara dikirdi.

O, özünə bir məşğuliyyət də tapmışdı: bəzən gecələr yatmazdan əvvəl "O"na məktublar yazırdı. Xəyalən əzizlədiyi adam gəlib çıxmayacağı kimi, bu məktublar da heç yerə getməyəcək, sandığın bir küncündə atılıb qalacaqdı

Əksərən bir neçə sətirdən ibarət olan bu məktublar bəzən uzanır, Lamıə fərqinə varmadan bütün qəlbini, bütün dərdlərini "O"na söyləmiş olurdu.

Bu məktublarda Lamiə "O"nun adını yazmağa cəsarət etmirdi. Bir gecə qələmindən qeyri-ixtiyari olaraq bir "uşağımız" sözü düşdü. Böyük bır eyib iş görmüş kimi qızardı, əlləri ilə üzünu örtdü, yazını davam etdirməyə cəsarət eləyə bilmədi. Ancaq bu onun üçün təzə kəşf edilmiş bır səadət oldu. Yazılarında o, getdikcə daha da səmimiləşir, hələ adını yazmağa cəsarət etmədiyi halda "ərim", "sevgili bəyim" kimi ürəkdən gələn xitablar işlədirdi. Lamiə bədbəxt deyildi.

## VI

Rza bəyın bu ağır təbiətli, səssiz, nazlı və dərdli qıza əvvəllər ancaq yazığı gəlmiş, sonralar isə yavaş-yavaş onun xatirini istəməyə başlamışdı. Hərdənbir arvadı ilə ondan danışırdı·

– Yazıq qız.. Aydındır ki, onun təmizliyindən, təcrübəsizliyindən sui-istifadə etmişlər... Hər halda bu fəlakətə əxlaqsızlığı ucundan düşməmişdir.

Huriyə xanım da görürdü ki, Lamiə onun gözlədiyindən daha çox xoşxasiyyət, sakit və çalışqandır. Bununla belə yenə də heç cür ona isinişə bilmir, onun namuslu bır qız olduğuna ürəyində hələ də inana bılmirdı. Rza bəyın Lamiədən bu qədər inam və məhəbbətlə bəhs etməsini də xoşlamırdı:

– Ona birdən-birə bu qədər inanma, – deyə cavab verirdi. – Bəlkə hiyləgərin birıdır... Elə sakit ilanlar bilirəm ki, adamı çalmaq üçün ancaq fürsət gözləyirlər. Ehtiyatlı olaq, çox üz vermə.

Lamiəyə pis munasibət bəsləmirdilər. Ev işlərində ona qızlarından çox köməyi dəyən, dörd uşağı üçün dayələrdən çox zəhmət çəkən bu qızdan Huriyə xanımın şikayəti yoxdu. Ancaq hər vasitə ilə ona ağır nəsihətlər etməyi də özünə borc bilirdi.

– Kişi qonağımız olanda ətəyinin ucunu da göstərməyəcəksən ha... Sənin adın duldur. Ağıllarına cürbəcür şey gələ bilər...



– Hə, bax, yaxşı ki, yadıma düşdü. Dünən Fatma xanımın qızı ilə bır tərəfə çəkilib gizli-gizli danışırdın. Arvad tərs-tərs baxdı. Çox qərıbə arvaddır. Elə bilir ki, qızına pis şeylər öyrədirsən. .

– Molla Nəsibə dünən qapıdan çıxanda sənə nə isə dedi. Babalı deyənlərin boynuna, o qadın haqqında çox elə yaxşı şeylər danışmırlar. Özünü ondan gözlə...

– Quzum, o pozğun, tabor mirzəsi niyə tez-tez qapımızın qabağından keçir?.. Gözlə özünü, bəlkə səni pəncərədən-zaddan görübeləyib?

– Lamiə, qızım. Biz evdə olmayanda sən keç mənim otağımda otur. Onlar hamısı oğlanlı-qızlı gülürlər, oynayırlar, bır namünasib iş tutarlar, boynunda qalar. Necə olsa da sən onlardan böyüksən.

Bir gün daha mühüm bir hadisə baş verdi. Bir təsaduf nəticəsində Lamiənin hər axşam "O"na yazdığı məktublardan biri Huriyə xanımın əlinə keçdi. Bu ahıl arvad qızı günlərcə sorğu-suala tutdu: guya bu məktub mütləqa qonşulardan birinə göndərılmək üçün yazılıbmış. Məktub göndərilmək üçün yazılır. Adam gərək dəli olsun kı, durduğu yerdə elə-belə məktub yazsın. Lamiə bu adamın kim olduğunu deməsə, arvad məcbur olacaq ki, işi ərınə xəbər versin. Əmisi də ki, kim bilır, ona nə cəza verəcək.

Lamiənin ağlayaraq, and içərək onu inandırmağa çalışması Huriyə xanımı heç cür təmin etmirdi. Ən axırda Lamiə həqiqəti söyləməyə məcbur oldu:

– Bəzən gecələr yuxum qaçır, – dedi. – Bır daha üzünü görməyəcəyim o yad adama bunları yazıram. Nə edim, əmidostu... Beləliklə, özümü ovundururam. Başıma gələn fəlakət o qədər böyükdür kı...

Bu haqsız şübhə onu qəlbinın, izzəti-nəfsinin ən incə yerındən yaralamışdı. Günlərlə gizli-gizli ağladı. Sonra bu əzabı da "O"nun üçün çəkdiyini düşündü, sakitləşdi.

## VII

Evlərinin qabağındakı təzəcə təmir edilmiş binaya yeni kirəçilər daşınırdı. Huriyə xanımla qızlarına o gün gözəl bir məşğuliyyət tapılmışdı. Qapının qabağında yük arabaları gəlib dayandıqca pəncərəyə cumurdular:

– Ay Allah, bunların sandıqlarına baxın. A qız, bunlar ki, boyanmış nöyüt qablarıdır.

– Bunlar da yəqin ki, pərdədir... Adam bunları heç döşəmə yumaq üçün də işlətməz.

– A, bunlar necə qazandır? Vallah, mən onları güvəc bildim.

– Hələ o yorğan-döşəklərinin çirkinə baxın. İçində it də yatmaz.

– Süpürgələri kişinin çuxasına büküblər... Balam, bunlar nə pis adamlardır

Lamiə evin bir küncündə oturub tikiş tikir, hərdənbir ayağının ucu ilə balacalardan birinin beşiyini tərpədirdi. Məxmurə böyük bir külqabını doldurmuş fındıq qabıqlarından birini götürüb Lamiənin başına atdı (bəzən onu dalğın görəndə o tərəfə bir şey atıb qızı diksindirməyi özünə adət etmişdi).

– Mənə bax, sən necə cavan qızsan, – dedi. – Rahiblər kimi dünyadan əlini çəkmisən, nədir? Bir dəfə pəncərə qabağına gəlsənə. Təzə qonşularımızla heç maraqlanmırsan?

Şeylər daşınıb qurtarmış, növbə kirəçilərin özlərinə çatmışdı.

– O qızın bir görkəminə bax... Lap pis arvadlara oxşayır...

– İpək çarşabı yaxşıdır, ancaq əgər altındakı qara mətbəx paltarı deyilsə, onda mən lap adımı dəyişərəm...

– Yazıq qoca arvadın əlinə özündən ağır bir asma saat veribler...

– Atalarının görkəminə baxın... Məscid qabağındakı çolaq dilənçi on dəfə bundan təmizdir...

– Ay aman, zabitin gözlərinə baxın... Dombalangöz... Adam gecə yuxuda görsə qorxar...

Məxmurənin təkidi ilə Lamiə əlindəki tikişini yerə qoyub könülsüz bir halda pəncərənın qabağına gəlmişdi. Zabiti görüncə heyrətlə "a" dedi. İki ay əvvəl qatarda rast gəldiyi qoca minbaşı idi. Elə bu vaxt üst mərtəbədəki pərdəsiz otaqlardan birində qrammofon çalınmağa başlamışdı. Lamiə başını qaldıranda minbaşının gonbul qızını gördü.

Məqbulə çarşabının ucunu çiyinlərindən atmış, sındıra-sındıra oynayırdı, bir yandan da divara vurulmuş böyük aynada özünə tamaşa edirdi.

Məxmurə qəhqəhə çəkərək:

– Bu mənim xoşuma gəldi, – dedi. – Şən adamlara oxşayırlar. Sabah inşallah, onlara bir "xoş gəldinə" gedərık.



* * *

Təzə qonşular doğrudan da şənlik, fərəh sevən adamlardı. Köçmək və yerbəyer olmaqla əlaqədar yorulmalarına baxmayaraq, o axşam xeyli gülüşdülər, səs-küy saldılar. Pərdə əvəzinə pəncərələrdən asılmış döşəkağıların üzərinə duşən dağınıq saçlı qadın kölgələri sanki boğuşur, bir-birini qovurdular.

Hər gün axşam namazını qılar-qılmaz yatağına uzanan Nuriyə xanım bu axşam pəncərədən ayrılmadı.

– Yaman ləzzət çəkdim, vallah, o elə bir qaragöz[1] tamaşasına getmişdim, – deyirdi.

Sonra arada yenə qrammofon çalmağa başladılar "Koniyalı", "Aman adanalı" mahnılarını üst-üstə azı iyirmi dəfə çaldılar.

Rza bəyın ailəsi iki günün içındə təzə qonşularla lap can-ciyər oldular. Lamiə minbaşının qatardakı hərəkətini unuda bilmirdi. Ona görə də təzə qonşuya getmır, qonşular onlara gəldikləri vaxt isə yorğunluğunu, yaxud bir şeyi bəhanə edərək öz otağına çəkilırdi. Məqbulə Lamiənin nə üçün belə etdiyini başa düşmüşdü Naciyə xalası ilə bərabər bir gün Məxmurəyə qonaq gələndə Lamiənin yanına qalxdı, heç bir müqəddiməyə lüzum görmədən:

– Niyə məndən qaçdığını bilirəm, – dedi, – atamdan çəkinirsən, eləmi? Vallahi, ondan izin almışam. Bax, mənim də elə bircə ayım qalır, sonra İzmirə gedəcəyəm.

Lamiə qızarır, tərəddüd edir, cavab verməyə söz tapmırdı. Heç beş dəqiqə söhbət etməmiş gonbul Məqbulə onu qolları arasına aldı, qəribə bir məhrəmliklə gülərək qızın yanağından öpüb silkələməyə, hədələməyə başladı.

– Naz eləsən, bildiklərimin hamısını açıb deyərəm, ha.

Az keçmədi ki, Lamiə bu saf, şən və dəlisov qızla dostlaşdı. Məxmurə ilə bərabər hərdənbir onlara gedib-gəlməyə başladı. Hətta bir dəfə həyətdə minbaşıya da rast gəldi. Qaçmaq istədi. Məqbulə zarafata salaraq ondan möhkəm yapışıb zorla atasının əlini öpdürdü.

[1] Türkiyədə qədimdən bərı geniş yayılmış xalq tamaşası Bu tamaşanın təşkilatçıları. Qaragöz və Hacı İvad adı daşıyan artistlər göndən və başqa bu kimi şeylərdən kəsilmiş gülməli insan fiqurlarını pərdə dalındakı işıq qabağında oynadıb gülməli sözlər danışır, tamaşaçıları güldürub əyləndirirlər.

Məqbulənin ən çox xoşladığı şey qrammofonu çalaraq oynamaqdı. Bəzən Məxmurə də ona qoşulur, eyni havanı dönə-dönə çalır, qabaq-qabağa oynayırdılar.

## VIII

Bir gün Məxmurə onlarda şkafda tozlu bir qutu val gördü:

– Bunları niyə heç çalmırıq? – deyə soruşdu.

Məqbulə:

– Bunlar elə bir şey deyil, – deyə cavab verdi. – Ucuz düşüb deyə atam alıb Bəzisi sınıqdır, bəzisi də bivec şeylərdir.

Məxmurə onlarla maraqlandı, yumşaq əsgi parçası ilə tozlarını silir, bir-bir qrammofona qoyub çalırdı.

Vallar doğrudan da yaxşı vəziyyətdə deyildi. Bəzisindən sızıltılı zəif bir inilti gəlir, bəzisi yaxşı bir orkestr çalğısı ilə başladığı halda birdən-birə səsi dəyişir, boğazlanan heyvanlar kimi qulaqbatırıcı pis bir səslə bağırmağa başlayırdı.

Məxmurə hər valı üç-dörd kərə fırlatdıqdan sonra saxlayır, yerinə başqasını qoyurdu. Bir dənəsindən isə yuxuda eşidilirmiş kimi zərif, keçmiş bir xatirə qədər dumanlı, incə bir kaman səsi gəlməyə başladı.

Məxmurə onu da götürmək istəyirdi ki, bır əl bırdən biləyindən tutdu:

– Qoy qalsın, abla!

Məxmurə başını çevirəndə Lamiəni gördü Qızın çöhrəsi birdən-bırə dəyişilmişdi. Qrammofondan sərt, soyuq bır dağ küləyi əsirmiş kimi Lamiənin bütün vücudu titrəyir, rəngi ağarır, gözləri yumulur, sarı ipək telləri alnına tökülürdü. Məxmurə qrammofonu unutmuşdu. Qızın buz kimi soyuyan əllərindən tutdu:

– Sənə nə oldu, Lamiə?

Lamiə·

– Heç bir şey... Heç bir şey olmayıb, – deyə özünü ələ almağa çalışıb, başını o biri tərəfə çevirdi. Təlaş içərisində başı onu qolları arasına almaq istəyən Məqbulənin çiyninə düşmüşdü. O, sonra daha özünü saxlaya bilmədi, başı Məqbulənin çiyninde için-için ağlamağa başladı. Unudulmuş val isə hələ də fırlanır, qızın neçə ay əvvəl başını "O"nun pianosuna dayayaraq dinlədiyi parçanı təkrar edir, əbədi olaraq sönmüş



yay günlərini və aylı gecələrin xəyalını keçmiş xatirələr qədər zərıf röyalardan gəlirmiş kimi eşidilən incə kaman səsi ilə qızın gözləri qarşısında yenidən oyandırırdı.

Bu xarab, yarısilinmiş qrammofon vallarının tapılması Lamiə üçün gözlənilməz bir səadət oldu. İndi o, Məqbuləgilə gedəcəklərı günü səbirsizliklə gözləyir, ayna qabağında özünə bəzək-düzək verir, sevgilisi ilə görüşə gedən adamlar kimi qəlbi dərin həyəcanla döyünürdü.

Bu il Kütahiyədə qış çox şiddətli keçırdi. Hava daim tutqun və buludlu olurdu. Gah kəsilmək bilməyən yağış yağır, gah fırtına qopur, bəzən də pəncərələr qarla örtülürdü. Val fırlanmağa, kamanın uzaqlardan, başqa dünyalardan gəlirmiş kimi eşidilən yuxulu səsi inləməyə başlayanda Lamiə üçün yağış kəsilir, külək susur, pəncərələrdəki qarlar ərıyir, otaqda ılıq bir bahar yeli əsməyə başlayırdı Lamiə solğun, yaraşıqlı üzünü ovucları içinə alır, Bozyaxanın aylı gecələri, günəşli səhərləri, oymalı çardaqlara ələnən parlaq şəfəqləri yarıyumulu yaşıl gözlərinin önünə gəlirdi. "Kərəm" yenə küknar ağaclarının arasında ağır-ağır dolanır, "Quzğun" yenə qoca başını Lamiənin ətəklərinə sürtür, qızın vücudu yenə yavaş-yavaş "O"nun qolları arasına düşurdü. Lamiə yorğun bir məftunluq içində özünü bu qolların ixtiyarına verir, başını "O"nun köksünə dayayır, xırdaca əlləri ilə "O"nun çiyinlərıni qucaqlayırdı.

Beləcə "O"nun qucağında olduğu halda aylı gecənin parlaq xəyallarla doldurduğu şam meşəsində gəzir, axar suların üstündən keçir, dan ulduzu doğarkən ətrafı kol-kosla örtulü cığırlarla qayıdıb evə gəlirdi.

Gözlərındə "O"nun mavi gözlərinin atəşi, dodaqlarında "O"nun busəsinin alovu ilə bu xəyaldan ayrıldığı vaxt vücudu sevgilisi ilə ehtiraslı bir görüşdən ayrılmış kimi yorğun olurdu. Lakın ruhu yuxuda anasını görmüş yetim uşaqlartək xoşbəxt idi.

Bu səadət Lamiə üçün bahara qədər davam etdi. Havaların qızmağa, ilk çiçəkləri açılmağa başladığı günlərın birində, Lamiəyə böyuk bir fəlakət üz verdi: dəcəl bir uşaq təsadüfən həmin valı yerə salıb sındırdı.

– Canı sağ olsun... Eybi yoxdur... Təzə deyildi . – dedilər.

Lamiə isə heç bir söz danışmadı. Ancaq rəngi meyit rəngi kimi saralmışdı. Bu qırılan val yox, onun öz qəlbi idi. "O"nu artıq tamamilə itirmiş kimi olurdu.

## IX

Aprel gırmişdi. Bir axşam aşağı dəhlizdə çörək yeyirdilər. Məxmurənin əri Rasih birdən yumruğunu masaya vurdu:

– Buna daha dözmək olmaz. Bu xuliqanlar axırda məni bir işə salacaqlar, – deyə bağırdı.

Onun üzü qızarmış, gicgahlarının damarları şişmişdi. Rasihin bu halından uşaqlar qorxmuş, qadınlar çaşıb qalmışdılar. Rza bəy qaşlarını çataraq:

– Nə var? Nə olub? – deyə soruşdu.

Rasih qayınatasından çəkinır, onunla həmişə hörmətlə danışırdı. Buna baxmayaraq əsəbi halda:

– Nə olacaq... – dedi. – Oxuduqları mahnını eşitməmisiniz? – Mənim əlimdən mütləq bir xəta çıxacaq.

Bir az bundan əvvəl bır neçə cavan oğlan bazarda yayılmış mahnılardan birini oxuya-oxuya küçədən keçmişdilər.

Məxmurə ərinin yenə qalmaqal salmaq üçün bəhanə axtardığını güman etdi.

– Sənə nə! Adamlar mahnı oxumaq üçün səndən icazə almayacaqlar ha... Özü də burada pis nədir? – deyə deyinməyə başladı. Rasih hiddətlə:

– Sən sus, – dedi. Bilmədiyin şeyə qarışma... Yəqin bir səbəb var kı, danışıram.

Rza bəy təkrar soruşdu:

– Nə var, Rasıh? Pis bir şeymi oxuyurlar?

Rasih başı ilə qadınları və uşaqları göstərdi.

– Daha danışmıram, ata, – dedi. – Bir də buradan keçdikləri zaman mahnı oxusalar fikır verərsiniz. Təəccüb edirəm, necə olub ki, indiyə qədər bunu heç kəs başa düşməyib.

Bunu deyib Rasih dəsmalını hiddətlə süfrəyə ataraq dəhlizdən çıxdı.

Lamiə Rasihin bu sözləri deyərkən qəribə bir şəkildə ona baxdığını hiss etmişdi. O heç kəsə bir söz demədi. Ancaq ürəyinə şübhə damrnışdı. Rasihi bu qədər əsəbiləşdirən mahnıda nə isə yəqin Lamiə ilə əlaqədar bir şey vardı. Ertəsi gün Lamiə bu mahnını on üç-on dörd yaşlarında olan iki oğlan uşağının ağzından eşitdi:



"Qolçubaşının[1] sırtındadır[2] əbası,
Kiçik xanımın qarnındadır dadası.
Qolçubaşı bu çocuğun babası[3].
Aman kiçik xanım, nasıl[4] qıydın zabitə[5]
Şanlı zabit bənzərmidi o itə?"

* * *

Huriyə xanımın dediyi kimi pişiyin quyruğu, nəhayət, görünməyə başlamışdı. Rza bəygilə İzmirdən qonaq gələn cavan dul qadının əhvalatını Kütahiyə çoxdan öyrənmişdi. Gizli bir dedi-qodu halında aylardan bəri dillərdə dolaşan bu əhvalat, nəhayət, həmın adi el mahnısı vasitəsilə üzə çıxırdı.

Bu, sakit, kiçik, macərasız və buna görə də müxtəlif əhvalatlar eşitməyə hərıs olan şəhər həmin hadisəni şişirdib yayır, onu həyəcan dolu bir sərgüzəşt romanı şəklinə salırdı.

Lamiənin küçəyə çıxmaması da şəhərdə böyük bir maraq doğurmuşdu. Heç güman getməyən adamlar küçədən keçərkən onun yaşadığı evin pəncərələrinə baxır, gezintı yerlərində gözləri ilə onu axtarırdılar.

Evdə hamı Lamiədən incimiş kimi idi. Rza bəy artıq onun üzünə baxmaqdan çəkinir, Huriyə xanım ona daima ikibaşlı acı sözlər deyirdi. Hətta Məxmurə də ona qarşı soyuq dolanmağa başlamışdı.

Bu yandan da Rasihin əsəbiliyi gündən-günə artırdı. Lamiə buraya təzə gəldiyi zaman onunla hamıdan artıq xoş rəftar eləyən Rasih idi İndi isə onunla anlaşılmaz və əsəbi bir nifrətlə danışır, bəzən kobud işarələr eləməkdən belə çəkinmirdi.

Yalnız Məqbulə ona sadiq qalmışdı. O indi atası ilə bərabər ayrı bir evdə olurdu. Minbaşı İzmirə qayıtmaq istədiyi vaxt Eləzizdə[6] qulluğa

[1] "Lamiənin uşağının ata"sı deyə uydurduğu tütün qoruqçusuna (qolçusuna) işarə edilir.
[2] Əynindədir
[3] Atası
[4] Necə
[5] Lamiənin nişanlısı Nazim bəy nəzərdə tutulur.
[6] Şərqi Anadoluda, indi vilayət mərkəzi olan bir şəhər Sultanlıq dövründə o yerlərdə aramsız kürd üsyan və narazılıqları baş verərdi Minbaşı Kamal bəy bu səbəbə görə oraya getmək istəmir.

təyin olunduğuna dair bir əmr almış, bundan qanı qaralmışdı. Odur ki, onu təqaüdə buraxmalarını xahiş etmişdi.

Lamiə bir şeyə təəccüb edirdi: Kamal bəy dörd-beş ay bundan qabaq qızının Lamiə ilə bir vaqonda getməsinə razı olmamışdı. Halbuki, indi onların bir-birilərinin yanına gedib-gəlmələrindən xoşlanır, hətta Lamiəyə rast gələndə kefini soruşur, bir ata şəfqəti ilə ona mehriban sözlər də deyirdi.

Uğradığı pis rəftarlar, həyatının və qəlbinin məlul kimsəsizliyi müqabilində Lamiənin ikı kiçik təsəllisi vardı: Məqbulənin yoldaşlığı, bir də gecələri otağına çəkilərək "O"na yazdığı məktublar.

İndi daha "sevgilim" deyə başladığı bu saf məktublar gündən-günə incə, həssas bir səmimiyyət kəsb edir. Lamiə günün bütün acılarını, bütün şikayətlərini bu məktublarında "O"na söyləyirdi. Sonra bu həzin şeylərlə "O"nu yormaqdan qorxurmuş kimi məktubunu daima bir təsəlli sözü ilə bitirirdi:

"Bunların nə zərəri var? Madam ki, məni aylarca kamanının gözəl səsləri ilə yatırdıb oyatmısan... Madam ki, bir çox gecələri məni ay işığında gəzdirmisən.. Madam ki, çox yaxın bir zamanda sənin canlı yadigarını qucağıma alacağam. Bu əziyyətlərin nə ziyanı var". O, məktublarına da daima "Sənin Xınalı yapıncağın" deyə imza atırdı.

* * *

Mayın axırlarına yaxın, bır axşam Lamiə "O"na bu məktubu yazdı:

"Bir həftədir sənə məktub yaza bilmirəm. Bərk xəstə idım. Öldüm, ölümdən qayıtdım. Üstəlik bu bir həftə ərzində mən heç yalqız olmamışam Yanımda qalan qoca qonşu qadın elə indicə yuxuya gedib. Güclə bir təhər lampanın yanına sürünmüşəm, sənə bu bir neçə sətri yazıram. Məbrurə, üzündə mavi bürüncək, yatağımda uyuyur. Məbrurənin kim olduğunu başa düşdün, eləmi? Mən, sənə bənzəyən bir oğlan uşağı gözləyirdim. Sənin adını qoymaq üçün bəhanələr də hazırlamışdım, ümidim boşa çıxdı. Məbrurəni çox o qədər də sevmirəm. Ancaq yazığım gəlir Zərif, kiçik böcək boyda bir körpədir..."



# X

Bir gecə Rasih adətinin əksinə olaraq evə gec gəldi. Bərk sərxoş idi. Küçədə yıxılmış, fəsini[1] harada isə itirmişdi, üst-başı toz-torpaq içində idi. Qəribə azğınlıqlara yol verirdi. Həyətdə sərələnib köpək kimi ulayır, "mən məhv olub getdim, yerə girdim. Bu ev mənə haram olsun. Qayınatamı çağırın. Ona ikicə kəlmə sözüm var", – deyə bağırırdı.

Rza bəy deyinə-deyinə otağına çəkilmişdi. belə coşqun-daşqın zamanlarda kürəkəni ilə qarşılaşmaq istəməz, onunla uz-göz olmaqdan özünü saxlardı.

Huriyə xanım ilə Məxmurə xeyli əlləşdıkdən sonra Rasihi sürüyə-sürüyə içəri apardılar.

Lamiə onun ikinci mərtəbədəki otağında yarım saata qədər bağırdığını, arvadına bəzi anlaşılmaz şeylər söylədiyini, hətta arada ağladığını da eşitdi. Sonra yavaş-yavaş səslər kəsildi, evə dərin bir sükut çökdü.

Lamiə lampasını söndürüb təzəcə yatağına girmişdi. Pilləkənlərdən qulağına ahəstə ayaq səsi gəldi. Bır az keçmədən otağın qapısı açıldı, Məxmurə əlində bir şam içəri girdi. Gənc qadının saçı-başı dağılmış, bənizi tamamilə saralmışdı. Lamiə tez yatağından qalxdı.

– Nə var? Nə olub? – deyə soruşdu

Məxmurə əlində şam qapının yanında yerə çömbəldi. Bütün vücudu titrəyir, dişləri bir-birinə dəyirdi. Lamiə bır də soruşdu·

– Nə olub? Sənə bir şeymi deyib?

Məxmurə güclə:

– Məhv oldum... Evim yıxıldı, – deyə bildi, sonra üzüüstə Lamiənin yatağına düşüb hıçqırmağa başladı.

Lamiə təzədən lampanı yandırdı, Məxmurənin açıq çiyinlərini bir yun şalla örtərək onu döşəyin üstündə oturtdu. Bu qorxu, dərd və hiddətlə qarışıq bir əsəb coşqunluğu idi. Bir az sonra Məxmurə özünə gəldi, kəsik-kəsik anlatmağa başladı:

– Lamiəcan, səndən bir şey gizlətməyəcəyəm Mən bir neçə aydan bəri bir jandarm-çavuşu[2] ilə sevişirəm. Bəlkə görmüsən, hərdənbir küçəmizdən keçir. Uzunboylu, qıvrımsaçlı, mavigözlü bir adamdır . Məndən qabaq Hənifə mollanın gəlinini istəyirdi... Mənə gülməzsən,

[1] 1930-cu illərə qədər Türkiyədə kişilərin başına qoyduğu qırmızı, saçaqlı baş geyimi.

[2] Keçmişdə türk ordusunda və polisdə serjant demək idi.

eləmi? Ancaq başın çəkib bilirsən, elə deyilmi? İnsan öz könlünə hökm edə bilərmi? Bir işdir olub. Əvvəl bir-birimizə uzaqdan him-cim eləyirdik. Nəhayət, bir gün onun anasıgilə getdim. Tərs kimi qoca hamama getmişdi. Çavuşum evdə təkdi. Məni zorla əlimdən tutub içəri çəkdi. Özün fikirləş, bıçaqlı-tüfəngli nəhəng qaçaqları tutub həbsə soxan aslan kimi bir jandarm çavuşuna qarşı mənim kimi zəif bir qadın nə edə bilər?

O gündən tez-tez görüşməyə başladıq. Mən gecəyarısı yavaşca bağçaya çıxır, qapıda onu gözləyirdim. O bayırda, mən içəridə beş-on dəqiqə söhbət edirdik. Təhlükəli işdir. Ancaq çavuşumla görüşmək üçün başqa çarə yoxdu. Axırda bir gecə çavuşumun tərs damarı tutdu, qapını itələyib zorla içəri girdi. Div kimi kişiyə qarşı mən nə edə bilərdim? Elə deyilmi? Beş-on dəqiqə sonra çavuş küçəyə çıxarkən mamaça Adilə xanımın oğlu Məmduhla üz-üzə gəldi. Nə hala düşdüyümü özün təsəvvür et. Mən də bu vaxt qapı ağzına çıxmışdım. Məmduhu görən kimi əllərimlə üzümü tutub içəri qaçdım. Bu axşam da bizim kişi Məmduhla bərabər meyxanada imiş. İnsafsız Məmduh yaramaz ərimə hər şeyi xəbər verib. Evim yıxıldı, lap biabır oldum.

Əhvalatı danışarkən bir az sakitləşmiş Məxmurə yenidən ağlamağa hazırlaşırdı. Lamiə həyəcanla soruşdu:

– Sən Məmduhun nə söylədiyini haradan bildin?

– Bu axşam o cür içməyinin səbəbi elə budur. Sonra bir də sərxoş-sərxoş ağzından bəzi sözlər qaçırtdı. “Gör başına nə oyun gətirəcəyəm. Qoy bir səhər olsun”,– dedi.

– Bəlkə başqa şeydən hirslənibmiş?

– Yox, Lamiə. Ərim hər şeyi bilir. Hələ başqa sözlər də dedi. “O bağça qapısının qabağında sənin canını alacağam”, – deyə məni boğmaq istəyirdi, zorla özümü onun əlindən qurtardım. Allah üzümə baxdı ki, sərxoşdu, tərpənməyə taqəti yoxdu. Səhər Rasih məni boşayar. Düzdür, çavuşum qədər yapışıqlı adam deyil, ancaq onu da sevirəm... İlk görüşdüyüm kişi odur. Neçə il bir yastığa baş qoymuşuq... Uşaqlarım var... Hələ biabırçılığı heç demirəm. Atam da ki, onda mütləq məni öldürər.

Lamiə çox mütəəssir olmuşdu. Bununla belə ağlamamaq üçün özünü zorla saxlayırdı.

– Ah, Məxmurə, – dedi. – Niyə belə uşaqlıq etdin?

Məxmurə mütəəssir olmasına, ağlamasına baxmayaraq, gülümsəməkdən özünü saxlaya bilmədi.



– A bacı, haldan bixəbər adam kimi danışma, – dedi. – Sən niyə bəs nişanlın ola-ola tütün qoruqçusu ilə sevişdin? . Bu ürəkdir. Söz başa düşür?

Lamiə məhzun-məhzun ona baxdı, cavab vermədi.

Məxmurənin gizli bir məqsədi vardı. Hərdənbir gözünün ucu ilə Lamiəyə baxır, sözə haradan başlamağı qət edə bilmirdi.

– Gecən xeyrə qalsın, Lamiə, mən gedim, – dedi. Sonra səsində süni bir titrəyişlə əlavə etdi:

– Gəl səni bir dəfə öpüm. Bəlkə bir-birimizi görmədik. Məni halal elə, Lamiəcan.

Lamiə heyrətlə gözlərini onun üzünə dikdi.

– Niyə? Nə olub ki? Ərinin sənə bir pis şey edəcəyindənmi qorxursan?

– Yox, Lamiəcan onun üçün deyil, Allah özü kömək olsun. Lamiə...

– Bəs elə isə nə olmuşdur?

– Daha nə deyim, gecən xeyrə qalsın. Artıq mənim üçün həyat bitmişdir.

Məxmurə qapıya tərəf yönəldi, çıxmaq istərkən bir dəfə də çevrildi. Səsində yenə həmin süni titrəyişlə:

– Anama, bacılarıma deyərsən... uşaqlarıma yaxşı baxsınlar, – dedi.

Lamiə onun biləklərindən tutdu, zorla şamı əlindən aldı:

– Sənin pis bir fikrin var, Məxmurə... Mənə demirsən. Dünyasında buraxmaram... Nə edəcəksən?

Məxmurəyə də elə Lamiəni bu cür mütəəssir görmək lazımdı. Özünü onun təkidi ilə deməyə məcbur olmuş kimi göstərərək.

– Demək istəmirdim, ancaq bu qədər ki, üstümə düşürsən... yaxşı.. – dedi, – özümü öldürəcəyəm... Bu ləkəni ölümdən başqa bir şey təmizləməz... İndi gedib özümü quyuya atacağam.

Lamiə zəif bir fəryad qopardı, titrəyən qolları ilə onun boynuna sarılıb yalvarmağa başladı:

– Allah xatirinə, belə fikirləri ağlına gətirmə, Məxmurə abla. Mən də sənin kimi əvvəl özümü öldürmək istədim... Olmadı... İndi bu fikrimdən vaz keçdiyimə peşman deyiləm. Allah səbir versin. Həm də ərin bəlkə hər şeyi bilmir. Özünə də olmasa, dörd balana yazığın gəlsin.

– Yox, Lamiəcan, bu biabırçılıq, başqa cür təmizlənməz. Burax məni. Ölmək daha yaxşıdır. Ən kiçik uşağımı sən götürərsən, Məbrurə ilə bərabər böyüdərsən.

Lamiə kədərindən, həyəcanından ağlamağa başlamışdı.

– Bu fikirdən vaz keç, Məxmurə bacı. Bəlkə bir çarə tapıldı. Rasih bəyi başa salmaq olar.

Məxmurə də elə safdil əmiqızısının elə bu fikrini və bu sözlərini gözləyirdi. Məyus bir halda çiyinlərini çəkdi:

– Ərimi yola gətirmək üçün yalnız bir çarə var, o da mümkün deyil?

– Nədir o çarə?

– Qapı ağzında çavuşla söhbət eləyən qadının mən olmadığımı söyləmək, isbat etmək.

– !!!

– Axı dedim ki, buna çarə yoxdur. Evin içində bacılarımla səndən başqa ayrı bir cavan qız yoxdur. Bacılarım qız uşağı, özləri də kiçik. Sənin də öz dərdin başından aşır

Lamiə gözlərini bir nöqtəyə dikib susur, dərin-dərin düşünürdü. Məxmurə isə sözünə davam edərək deyirdi ki, bu qəbahəti öz üzərinə götürən qadın üçün heç bir təhlükə yoxdur. Elə ki, Rasih bəy çavuşla danışan qadının Məxmurə olmadığına inandı, yəqin razı qalacaq. Baldızları və yaxud bir başqası üçün də nə qədər olsa canı yanar, ancaq hər halda heç kəsə bir söz deməz. Biabırçılığı mütləq ört-basdır eləyər.

Lamiə üzünü ovucları içinə almış, gözlərini yummuşdu. Nə düşündüyünü, nə duyduğunu anlamaq mümkün deyildi. Məxmurə narahat bir halda ona baxdı. Sonra səsindəki o süni kədər və titrəyişlə yenə vəsiyyətlərinə davam etdi:

– Lamiə, anama, bacılarıma təsəlli vermək vəzifəsi sənin üzərinə düşür. Ah, uşaqlarım... Ən çox onlara yazığım gəlir. Dörd uşaq zarafat deyil.

Lamiə solğun üzünü qaldırdı, mavi gözlərində saf bir mərhəmət olduğu halda yorğun-yorğun:

– Yaxşı ablacığım, tütün qoruqçusu kimi, jandarm çavuşunu da mən sevmiş olaram, – dedi.

## XI

Səhər Rasih bağçadakı böyük qoz ağacının altında oturmuşdu. Axşamkı ifrat sinir yorğunluğu onu üzmüş, xəstə etmişdi. Üzü sapsarı idi Gözləri qan çəkmiş, göz qapaqları şişmiş və göyərmişdi.

Məxmurə ilə Lamiə bir az o tərəfdə yan-yana alçaq mətbəx skamyalarında oturmuşdular. Rza bəyin kiçik qızı Zibeydə nə isə bəzi şeylər baş verdiyini hiss etmişdi İy tutmuş ov tulası kimi sinsiyə-sınsiyə o ətrafda hərlənir, oralardan ayrılmaq istəmirdi. Məxmurə onu yanına çağırdı:

– Gəl mənə kömək elə, xalıları çırpacağıq, – dedi. Sonra başı ilə Lamiəyə işarə edərək oradan uzaqlaşdı.

Rasih hərdən kəsik-kəsik öskürür, barmaqları ilə gicgahlarını sıxaraq:

– Başım çatlayır, – deyirdi.

Lamiə uzun bir tərəddüddən sonra ayağa qalxdı. Titrəyə-titrəyə sözə başladı:

– Yeznə, – dedi, – Məxmurə ablamın günahı yoxdur. Ona acığınız tutmasın.

Gecədən bəri fikrində hazırladığı kəlmələri elə bil unutmuşdu, gözlərinin qabağında qığılcımlar oynaşır, qulaqları uğuldayırdı. Rasih azca boylandı, qaşlarını çataraq:

– Elə bir şey deyirdi, ancaq inanmıram, – dedi.

Lamiə kəsik-kəsik sözünə davam etdi:

– İnanınız, yeznə. Məxmurə abla doğru deyir... O gecə çavuşla bağça qapısında danışan... mən idim, yeznə... Nahaq yerə onu günahkar bilməyin.

Rasih cavab vermir, qan basmış gözlərini ona dikərək qəribə bir nəzərlə baxırdı.

Lamiə artıq cəsarətlənmişdi. Fədakarlığının getdikcə artan hərarəti ilə danışmaqda davam edirdi:

– Mənim kimi bir qızdan niyə də gözlənilməsin, yeznə... Bilirsiniz ki, keçən il də... Elə deyilmi? Çavuşu hərdənbir görürdüm... Kifayətdir, elə deyilmi, yeznə? Çox danışmağıma ehtiyac yoxdur.

Rasih hələ də o dik və qəribə nəzəri ilə Lamiəyə baxaraq:

– Bu münasibət nə vaxtdan bəri davam edir?

– Bilmirəm... Bir ay olar... Bəlkə də bir az artıq.

– Nə vaxta qədər davam edəcək?

– Heç... Daha aramız dəyib..

– Onu güman eləmirəm... Sən düz-əməlli adama oxşamırsan... O şeşəbığ, alçaq herifin nəyinə vurulmusan! De mənə görüm, onun nəyi xoşuna gəlib?

Rasih yerindən qalxmış, Lamiənin lap yanına gəlmişdi. Bir az əvvəlki sönük, xəstə gözləri qəribə bir atəşlə parlamağa, yorğun

çöhrəsi canlanmağa başlayırdı. Heyvan xırıltısına bənzəyən boğuq bir səslə:

– De görüm haralarda görüşürdünüz? O lənətə gəlmiş səni necə elə keçirmişdir? Deməli, biz burada eşşək kimi xoruldaya-xoruldaya yatırkən, sən onun qolları arasında... – O, sözünə davam edə bilmədi. Tez-tez başını çevirərək arada bir mətbəx qapısına tərəf baxır, qızın biləklərindən tutmaq ehtirası ilə ovuclarını sıxırdı.

Lamiə Rasihin bu qəribə həyəcanından qorxaraq bir addım geri çəkildi, sərt bir səslə:

– Yeznə, – dedi.

Rasih birdən özünə gəldi, yenə əvvəlki yerinə qayıtdı. Ancaq özünü saxlaya bilmir, çavuşun dalınca acı, ağır söyüşlər yağdırırdı:

– O alçaq hərifi gərək boğazlayam. Bir də buradan keçdiyini görsəm, onu gəbərdəcəyəm.

– Belə iş görməyiniz doğru olmaz yeznə. Məni öldürməkmi istəyirsiniz?

Rasih etinasız, acı bir qəhqəhə ilə:

– Mən yox, sən məni... Yəqin bizi, ailəmizi öldürməyi qəsd etmisən... Ayağını düz uzat, Lamiə. Bir də bir adama baxdığını, bir yad adamın üzünə güldüyünü hiss etsəm, səni öldürəcəyəm. Çıx get, daha burada durma... Gözümə görünmə...

## XII

Jandarm çavuşu ilə əlaqədar əhvalat ətrafa yayılmamış ört-basdır edilmişdi. Lamiə artıq Rasihin üzünə baxmağa cəsarət eləmir, gözünə görünməmək üçün özünü daldaya verirdi. Ancaq Rasih bu məsələni heç cür unutmur, hiddəti, əsəbiliyi azalmır, əksinə gündən-günə artırdı. Küçədə bir ayaq səsi eşitdiyi zaman pəncərə qabağına yüyürür, bəzən gecəyarısı yatağından qalxıb bağçada gezişirdi. Lamiəyə münasibəti tamamilə başqalaşmışdı. Çox vaxt onu görəndə üzünü yana çevirir, hiddətlə qaşlarını çatır, bir söz deyərkən kinli-kinli və etinasızlıqla dodaqlarını büzürdü. Sözlərində daima acı, həqarətli kinayələr olurdu. Yemək vaxtı mütləq fürsət tapıb vicdansız, əxlaqsız qadınlardan söz açır, belələrinin başını küt bıçaqla tərsinə kəsmək, əzab verə-verə doğramaq, daş-qalaq etmək lazım gəldiyini söyləyirdi.



Hərdənbir Lamiəni tənha bir yerdə, bağçada, yaxud dəhlizdə yaxalayaraq:

– Mən yenə bəzi şeylər duyuram, – deyə sorğu-suala başlayırdı. – Sən yəqin dinc oturmursan.

Lamiə bəzən məsum-məsum and içərək özünü müdafiə edir, bəzən də hiddətlənir, ağlayırdı. Rasih bu zaman tez tövrünü dəyişir, bir az əvvəlki rəftarına heç bənzəməyən bir mehribanlıqla onu sakitləşdirməyə çalışır, belə ağlamaması, ondan inciməməsi üçün yalvarırdı. Hətta bir gecə çox sərxoş olduğu vaxt:

– Halıma baxıb bir şey başa düşmürsən? – deyə için-için ağlamağa başlamışdı.

Lamiə onun ürəyindən keçənləri çoxdan başa düşmüşdü. Ancaq dərdini heç kəsə aça bilmir, gecələr gizli-gizli ağlamaqdan başqa əlindən bir şey gəlmirdi.

Çox ehtiyatla dolanmasına baxmayaraq bərk qorxduğu iş, nəhayət, başına gəldi. Evdə paltar yuyulurdu. Huriyə xanım qızları ilə bərabər mətbəxdə məşğuldu. Lamiə yuyulmuş paltarları bağçada sərirdi Rasih o gün xəstə olduğunu bəhanə edərək evdə qalmışdı.

Yatır, oyanır, yenə yatır, pəncərələri örtür, dəhlizdə fit çala-çala gezişirdi.

Məxmurə mətbəx qapısından Lamiəyə bir məcməyi uzatdı:

– Quzum, yeznənin yeməyini aparsana! – dedi.

Lamiə əlində məcməyi yuxarı mərtəbəyə çıxdığı vaxt Rasih döşəkçənin kənarında oturub kart falı açırdı. Onu görüncə birdən ayağa qalxdı, şaşqın bir təbəssümlə:

– Yemək gətirdin? – dedi. – Çox sağ ol... Təşəkkür edirəm... Gətir bu masanın üstünə qoy...

Lamiə məcməyini qoyub çıxmaq istərkən Rasih tələsik:

– Dayan, Lamiə, – dedi. – Sən mənə yemək gətirdin. Mən də sənə alma verim.

Lamiə kiçik tərəddüdlə cavab verdi:

– Təşəkkür edirəm. Paltarlar qalır...

O isə israr etdi:

– Olmaz, olmaz, mütləq...

O, ləmədən götürdüyü böyük bir almanı soymağa başladı.

– Siz zəhmət çəkməyin, mən aşağıda soyaram.

– Nə zəhməti var...

Alma birdən Rasihin əsəbi barmaqları arasından sıçrayıb çarpayının altına yuvarlandı. Lamiə astadan güldü.

– Nə etmək olar, qismətim deyilmiş, – deyə qapıya tərəf yeridi.

Rasih cəld bir hərəkətlə onun yolunu kəsdi, əli ilə qapını tutaraq:

– Niyə belə həmişə məndən qaçırsan? – dedi.

Lamiə özünü itirdi:

– Mən qaçıram?.. Mənim... Niyə qaçıram, yeznə? – deyə kəkələdi.

Rasih onun əllərini tutmağa çalışaraq:

– İnsafsız qız, – dedi, – halımdan heç şey başa düşmürsən? Qəsdin məni öldürməkdir, nədir?

Lamiə qorxudan, həyəcandan ağappaq olmuşdu, pəncərəyə tərəf geri çəkildi:

– Yeznə, ağlınızı başınıza yığın. Mən sizə nə eləyirəm ki?..

Rasihın rəngi gömgöy olmuşdu Əsəbi barmaqları ilə özünü boğmaq istəyirmiş kimi əllərini boynunda gəzdirərək addım-addım qıza yaxınlaşırdı. Boğuq, xırıltılı bir səslə:

– Məni öldürürsən. Səndən ötrü dəli-divanəyəm... Nə olar, məni xoşbəxt et, – dedi.

Lamiənin gözləri böyümüş, tükləri biz-biz olmuşdu.

– Yeznə, mənə yaxınlaşsanız özümü pəncərədən atacağam. Qanıma bais olarsınız, – dedi.

Rasih daha ona yaxınlaşmağa cəsarət etmədi, yerə yatmaq, ayaqlarına düşmək istəyirmiş kimi hərəkətlər edərək yalvarmağa başladı.

– Lamiə, mənə yazığın gəlsin... Daha taqətim qalmamışdır... Mən də insanam. Mən qoruqçulardan, çavuşlardan əskik kişiyəm? Mənə rəhmin gəlsin. Billah, bu evdə heç kəsin bundan xəbəri olmaz... Sən də qadınsan... Sənin də sevilməyə ehtiyacın var... Elin-obanın gədəgüdəsi ilə başını bəlaya salmaqdansa məni bəyən. O çavuşun səni qucaqladığını düşündükcə ağlım başımdan çıxır. Billah, qatil olacağam...

Onun üzü, gözləri qorxunc bir ehtirasla yanır, sinəsindən boğuq xırıltılar gəlirdi.

Zibeydənin mahnı oxuya-oxuya oraya gəlməsi Lamiəni bu müşkül vəziyyətdən xilas etdi. Rasih tez otaqdan çıxdı, baldızı halındakı pərişanlığın səbəbini başa düşməsin, deyə yuxarı otağa qalxdı.



## XIII

O gündən sonra bu evdə yaşamaq Lamiə üçün dözülməz bir əzaba çevrilmişdi. Rasih çılğın bir inad və israrla onu təqib edir, işin aşkara çıxmasından heç qorxmurdu.

Lamiə mümkün olduqca ondan qaçır, axşamlar körpəsi ilə bərabər ertədən otağına çəkilərək qapını içəridən bağlayırdı.

Lakin bütün bu tədbirlərə baxmayaraq Rasih yenə onu hərdən yalqız görməyə müvəffəq olurdu. Bəzən qandan, ölümdən söz salır, min cür hədə-qorxu ilə onu qorxutmağa çalışır, bəzən qırsaqqız olub yalvarır, hətta ağlayırdı.

Lamiə də bir gün ona yalvardı, evlərinə sığınmış bir biçarənin üstünə bu qədər düşməyin günah olduğunu söylədi.

Lakin Rasihə söz qandırmaq mümkün deyildi.

– Qoruqçunu, çavuşu bəyəndin, məni niyə bəyənmirsən? Onlara olar, mənə niyə olmaz? – deyə özündən çıxırdı.

Lamiə bəzən vəziyyətini Huriyə xanıma danışmaq istəyir, ancaq buna cəsarəti çatmırdı. Fikirləşirdi ki, evdəkilər bu məsələdən xəbər tutsalar, daha çox onun özünü günahlandıracaqlar.

Məxmurəyə qarşı münasibətində də vicdan əzabı çəkir, o bir şey başa düşər, – deyə ürəyi titrəyirdi. Nəhayət, bir axşam daha pis bir əhvalat oldu. Onu pilləkənin yanında yaxalamağa müvəffəq olan Rasih qudurmuş heyvan kimi üstünə atıldı; zorla qucaqlamağa, öpməyə çalışdı.

Lamiə özünü onun əlindən çox böyük çətinliklə qurtardı. Paltarının qolu tamamilə cırılmış, saçlarına ilişən sırğası qulağını qanatmışdı

* * *

– Əmidostu, sizə bir şey demək istəyirəm

Huriyə xanım əlindəki süpürgəni pəncərənin kənarına vuraraq tozunu çırpdıqdan sonra əllərini belinə qoydu.

– Söylə, qızım...

Lamiə kiçik bir tərəddüddən sonra başını aşağı salaraq:

– Məni qabaqlarda bir teleqraf məmuru üçün istədiklərini demişdiniz... Hətta yaxşı bir adam olduğunu da söyləyirdiniz.

Huriyə xanım diqqətlə ona baxdı:

– Elədir, qızım. Yaxşı adamdır, ancaq azı əlli yaşı var... Sonra, üç uşağı da var. Bilirsən ki, mən əslində çox da razı deyildim.

Lamiə qapıya söykənmişdi. Göydəki bulud topalarına baxaraq yavaş bir səslə:

– Yaşlı olmağı daha yaxşı, əmidostu, – dedi. – Əgər o adam hələ də məni istəyirsə, mən razıyam.

Huriyə xanım əvvəl çaşıb qaldı. Sonra:

– Ay Lamiə, bu nə qəribə işdir, qızım! – dedi. – Bunu o vaxt sənə dediyimiz zaman atılıb düşdün, hətta ağlamağa başladın... Məncə Müxlis əfəndi çörəkli adamdır. Min bığıburma cavana dəyər. Ancaq səni məcbur eləmək istəmədik. Nə üçün də edək... Axı onunla sən yaşayacaqsan, qoy kasıb olsun, ancaq bir az cavan olsun, – deyə fikirləşdik.

– Mən əslində Müxlis əfəndini elə yaşlı bir adam olduğu üçün istəyirəm, əmidostu. O vaxtdan bəri çox düşünmüşəm. Mənim kimi biçarə qadının cavan ər nəyinə lazımdır? Mən onun uşaqlarına əlimdən gəldiyi qədər qulluq edərəm. Əgər o da Məbrurəni öz övladlarından ayırmayacağını vəd edirsə, razılıq verin qurtarsın getsin.

Huriyə xanım ona əvvəl nə cavab verəcəyini bilmədi. Sonra isə:

– Yaxşı, – deyə, – ancaq bu iş məni çox maraqlandırır, qızım. Sən, daha heç vaxt ərə getməyəcəyəm, deyə inad eləyirdin. İndi nə olub?

– Düzdür, amma... Sizin üstünüzdə də yük olub qala bilmərəm...

– Biz səni, Allah özü şahiddir ki, övladlarımızdan ayırmırıq. Məxmurə nədirsə, sən də bizim üçün eləsən.

Lamiə kədərli təbəssümlə:

– Mən sizə çox minnətdaram, əmidostu, – dedi. – Ancaq qoyun nə qədər gec deyil, mənim də evim-eşiyim olsun.

– Mənə qalırsa, bir az da gözləyək, Lamiə. Bəlkə ürəyinə yatan daha yaxşı adam tapıldı. Elə çıxmasın ki, səni başımızdan eləmək istəyirik.

– Xeyr, əmidostu. Elə şeyi heç fikrinizə də gətirməyin. Bu yaşlıbaşlı Müxlis əfəndidən münasib könlümə yatan adam olmaz.

Huriyə xanımın səmimi sözləri müqabilində Lamiə qəlbini bir az açmaq ehtiyacı duydu, onunla dərdləşməkdən özünü saxlaya bilmədi:

– Yaşımın azlığına baxmayın, əmidostu. Başım çox bəlalar çəkib. Dünyada heç bir şeydə gözüm yoxdur. Əgər bu Müxlis əfəndi yaxşı bir adamdırsa, onu bir... ata kimi sevəcəyəm. Uşaqlarını da övladım kimi böyüdəcəyəm. Siz Rza əmidən də icazə alın. Yaxşımı, əmidostu?



## XIV

Teleqraf məmuru Müxlis əfəndi bu məsələ ilə əlaqədar olaraq bir çox şərt irəli sürmüşdü. Qonşularındakı yaşlı bir qadın hər gün Rza bəyin evinə gəlir, Lamiəni qabağında oturdaraq ağır və kobud bir dillə həmin şərtləri sayırdı.

– Bax qızım, müsəlman qayda-qanununu bilirsən. Açıq danışaq. Sən başqa dullara bənzəmirsən. Nə qədər olsa da adın pis çıxmışdır. Başına belə bir iş gəlmiş, dilə-dişə düşmüş bir qadını almağa hər kişi cəsarət eləməz. Bu adamcığaz necə olsa, dünya görmüşdür. Deyir ki, qadın bəxtəbəxtdir. Necə olacağını əvvəlcədən bilmək olmaz. Bakirə qız alarsan, axıracan səninlə qalmaz, başdan çıxararlar, yolunu azar; başıaçıq, pozğun alarsan, görərsən ki, tövbə elədi, namaz-niyazdan başı ayılmadı, ətəyinin ucunu belə kimsəyə göstərmədi. Xülasə . Mən savab iş görməyi sevirəm. İnşallah, Lamiə mənə gəlsə, keçmişini unudarıq, gözəl-gözəl dolanarıq. İndi qızım, sən də yaxşı düşün. Əgər bir evin xanımı olmaq, rahat və xoş gün görmək istəyirsənsə, bu adama get, yox, əgər başqa fikrin varsa, ola bilər də, adamdır, deyərsən ki, bir kərə adlı-sanlı bir adama ərə gedim, sonra da istədiyimi edərəm. Belə şeylər fikrində varsa, indidən də, bu işdən vaz keçək. Doğru söz acı olur, qızım. Bu sözlərimdən incimə. Müxlis əfəndi yaşlıdır, ancaq pis adam deyil. Burmabığlı cavanlar adama yaxşı çörək yedirmir, qızım... Onlar adamın üzünə bir həftə, on gün gülürlər. Həvəsləri soyudumu, atlarını başqa istiqamətə sürürlər. Onu sən gərək məndən daha yaxşı biləsən. Kim bilir, o qoruqçu hərif də sənə nə dillər tökmüşdü.

Lamiə bir söz demədən bu nəsihətləri dinləyir, qadının dediklərini başı ilə təsdiq edirdi. Fikri-zikri bir biabırçılığa yol vermədən bu evdən çıxıb getməkdi.

Rasih bu evlənmə məsələsinə mane olmaq üçün çox çalışdı, hətta bir dəfə qayınatası ilə dava da saldı. O indi həmişəkindən daha çox içir, hər kiçik məsələ üçün hiddətlənir, evdə qabağına çıxana öcəşirdi. Bir səhər Lamiə Rza bəy üçün qəhvə aparırdı Dəhlizdə Rasih ilə üzüzə gəldi. O, məyus və sakit bir tövrlə:

– Səninlə vacib bir şey barəsində danışmaq istəyirəm, – dedi. – Bir az bağçaya çıx.

Lamiə bir adam onları görər, deyə qorxur, gözucu pilləkən tərəfə baxaraq:

– Rica edirəm, çəkilin, – deyə yalvardı.

Rasih sakit bir inadla onun yolunu kəsməkdə davam etdi.

– Səni inandırıram ki, qorxmalı bir şey yoxdur, Lamiə. Sənə söz deyəcəyəm. Qorxma. Gəlmək istəmirsən, elə burada danışaq. Görsələr də vecimə deyil.

Yuxarı mərtəbədəki dəhlizdə kim isə gezişir, qapısı aralı olan yan otaqdan Rza bəyin öskürəyi eşidilirdi. Lamiə çarəsiz razı oldu.

– Yaxşı gələrəm, – dedi.

Rasihdə bu gün həmişəki çılğınlıqdan əsər-əlamət yox idi. Əksinə, çöhrəsi solğun, gözlərinin ağı sapsarı, özü yorğun və cəsarətsiz bir halda idi. Kəsik-kəsik öskürərək danışmağa başladı:

– Yanında günahkaram, Lamiə... Tərbiyəsizlik etmişəm, özümü ədəbsiz aparmışam, səninlə kobud rəftar eləmişəm. Nə deyirsən de... Ancaq bu məndən asılı deyil . Sən sevmək, qısqanmaq nə olduğunu bilməzsən. Dünən axşam küçədə o Müxlis əfəndiyə rast gəldim. İstədim tutub başını lap toyuq boğazı kimi üzəm. Onun arvadı olacağını ağlıma sığışdıra bilmirəm. Lamiə, bu gecə səhərə qədər yatmamışam. Dəli olacağam... Arvadım, uşaqlarım mənə ilan kimi görünür... Bir qərara gəlmişəm: Məxmurəni boşayacağam... Mənim kəbinli arvadım ol. Sənə qurban olum... Sənsiz yaşaya bilmərəm.

Rasih yavaş-yavaş həyəcanlanır, gözlərindən od parıldamağa, gicgahlarının damarları şişməyə başlayırdı. Lamiə sakit bir səslə:

– Ayaqlarının altında ölüm, yeznə, – deyə cavab verdi. – Məni daha rahat buraxın. Arvadınız, uşaqlarınız var... Məndən əl çəkin. İnanın ki, dediklərıniz mümkün olan şey deyil.

– Səni o Müxlis əfəndiyə verməyəcəyəm .. İkinizi də...

Rasih ona yenə hədə-qorxu gəlməyə başladı. Lamiə daha qulaq asmayıb oradan uzaqlaşdı.

## XV

O gün evdəkilərin hamısını toya çağırmışdılar. Huriyə xanımın dövlətli, qoyun alveri edən, böyük tacir qardaşı nəvələrini sünnət elətdirirdi. Qoca tacir toyun təntənəli keçməsi üçün heç bir şey əsirgəməmiş, bütün Kütahiyəni dəvət eləmişdi. İki gündən bəri evinin qabağındakı açıqlıqda qazanlar qaynayır, təbillər çalınırdı.

Bir neçə gündən bəri yenə boğazı ağrıyan Lamiə iki kiçik uşaqla evdə tək qalmışdı.



Teleqraf məmuru ilə evlənmələrinə hələ bir həftə qalırdı. Ancaq bu son günlər Lamiə çox rahatsızdı: yata bilmir, yemək yemir, ətrafdakılarla danışmırdı.

Rəngi solmuş, gözləri yol çəkirdi, dodaqlarının qanı qaçmışdı. Gözlərinin yaşıllığı belə gün-gündən solur, od yanında qalmış çiçəklər kimi yanıq bir rəngsizlik alırdı. Vaxtaşırı bədənini vicvicə tutur, yanaqlarında, gicgahlarında qırmızı ləkələr əmələ gəlirdi. Gözləri iztirablı bir parıltı ilə yanırdı. Özünə heç baxmırdı. Əvvəllər geniş gözəl alnına, zərif, incə üzünə yaraşıqlı bir cazibə, təravətli bir canlılıq verən, yaxşı hörülmüş sarı saçları indi qatma-qarışıq halda çiyinlərinə tökülmüşdü Bu, çöhrəsini daha süzgün və xəstə göstərirdi

O gün evdə və məhəllədə böyük bir sakitlik vardı. Bir neçə küçə o tərəfdə yerləşən toy evindən isə hərdənbir təbil gumbultusu, zurna səsləri gəlirdi.

Gözəl bir payız günü idi. Lamiə otağının düzənliyə baxan pəncərəsini açmış, döşəkçənin üstündə uzanmışdı. Məxmurənin ən kiçik uşağı ilə Məbrurə küncdəki beşikdə yan-yana yatmışdılar Lamiə taqətsiz halda başını barmaqlığın kənarına dayayıb, ağ, incə, özü kimi yorğun görünən bulud topalarına, hərdənbir ötüb keçən durna qatarlarına tamaşa edirdi. Arada gözləri yavaş-yavaş yumulur, yarımyuxulu bir halda özünü unudurdu.

Bir ara bağçadan ahəstə bir gurultu eşidildi. Lamiə dıksınərək, gözlərini açdı, qulaq asmağa başladı Gurultu kəsilmişdi. Yəqin taxta hasardan pişik, ya it atılmışdı.

Yenidən döşəkçənin üstündə uzanmaq istədi. Bu zaman mətbəx tərəfdən qapı cırıltısı eşidildi. Pəncərəni açıb bağçaya tərəf baxdı. Mətbəx qapısı aralı idi. Bu qapı içəri tərəfdən cəftəsi vurulmayanda bəzən bərk küləkdən öz-özünə açılardı. Hər halda yenə elə bir şey olmuşdu. Ancaq ürəyinə nə isə dammışdı. Pilləkənin başından aşağıya qulaq asdı. Oradan ahəstə bir gurultu, taxta cırıltıları eşidən kimi oldu. Öz-özünü ürəkləndirmək üçün "mən də lap səksəkəli olub getmişəm, günün günortaçağı oğru gəlməyəcək ki", – deyə düşündü, sonra pilləkənlə enməyə başladı. Ayaqları titrəyir, ürəyi döyünürdü. Həyətə enən pilləkənin başına çatanda durdu. Pilləkənin altı zirzəmi kimi sərin və qaranlıqdı. Bu boş və tənha ev onu nahaq yerə vahiməyə salırdı

Aşağı enməyə tərəddüd edərkən soyuq bir rəşə ilə başını yandakı otaqlardan birinə tərəf çevirdi. Qapı arasından Rasihin uzun boyunu

gördü. Lamiə dəhşətə gəldi, fəryad qoparmaqdan özünü güclə saxlaya bilmədi.

Rasih ona tərəf bir addım atdı.

– Yəqin ki, qorxdun. Özgə deyil, – dedi. – Papirosum yadımdan çıxmışdı, gəldim ki, onu götürüm.

Səsində titrək bir boğuqluq vardı. Üzü qızarır, göz qapaqları tez-tez açılıb örtülürdü. Lamiə əlləri ilə paltarının açıq yaxasını örtür, pilləkənlə yuxarı çıxmaq istəyirdi. Ürəkli görünmək üçün:

– Niyə bəs qapını döymədiniz? – dedi.

Rasih:

– Həyət qapısının açarı yanımda idi, narahat etmək istəmədim, – deyə cavab verdi.

Lamiə ilk pillələri çıxmağa başlamışdı. Rasih pilləkənə tərəf gəldi. Boğuq bir səslə:

– Həyət qapısından təkcə çavuş girməli deyil ki, – dedi.

Lamiə durduğu yerdə donub qaldı. Ayaqları daha yerimir, bir pillə də çıxsa dizlərinin büküləcəyini, yerə yıxılacağını hiss edirdi. Rasih:

– Niyə elə titrəyirsən, Lamiə? – deyə soruşdu. Niyə məndən bu qədər qorxursan?

Bu "qorxu" sözü Lamiənin izzəti-nəfsinə və iradəsinə vurulan son qamçı oldu. Titrəyə-titrəyə başını qaldırdı:

– Niyə qorxuram... Qorxmalı nə var ki? – dedi.

Rasih başını aşağı saldı, mümkün qədər sakit bir səslə:

– Elədir, – dedi. – Qorxmalı bir şey yoxdur... Lamiə xanım... Lamiə, sənə bir də təklif edirəm... Hələ gec deyil. O kaftarı rədd et getsin. Qaçaq buradan... Qurbanın olum. Görürsən ki, daha tab-tavanım qalmamışdır.

Lamiə yenə yuxarı çıxmağa hazırlaşaraq:

– Sizə keçən dəfə də demişəm ki, bu mümkün deyil. Məni öldürsəniz də bu baş tutası iş deyil.

Rasih dərin bir ah çəkdi, sonra ehtirasla titrəyərək boğuq bir səslə:

– Mən də səndən keçə bilməyəcəyəm, – dedi, – başa düşürsənmi? Ya sən mənim olacaqsan, ya ikimiz də öləcəyik.

Ağır-ağır, lakin qorxunc bir tövrlə qıza tərəf yeridi.

Lamiə:

– Üstümə gəlsəniz, qışqıracağam, – dedi.



– Onu edə bilməyəcəksən.. Eləsən də mənim üçün fərqi yoxdur... Mən onsuz da canımdan keçmişəm.

Rasih birdən pilləkənə tərəf atıldı. Lamiə qaçmaq istədi. Lakin iki pillə qalxmamış özünü Rasihin qolları arasında gördü. İkisi də birlikdə aşağı yuvarlandılar.

Aralarında bir dəqiqəlik qısa, sərt bir mübarizə davam etdi. Lamiə belinə dolanan, boynunu sıxan, nəfəsini tıxayan qayış kimi sərt, əsəbi qollardan canını qurtarmaq üçün bir kərə də çapaladı. Büsbütün taqətdən düşür, bədənini ağır bir keylik bürüyürdü. Spirt qoxuyan bir nəfəs birdən üzünü yandırdı, heyvan sümürməsini andıran vəhşi bir busə dodaqlarına yapışdı, Rasihin at qılı kimi sərt bığları ağzına doldu.

Lamiə bu vaxt zərif vücudunda gözlənilməyən bir qüvvət hiss etdi. Bir kərə də çırpındı, qıvrıldı, boğuq bir xırıltı ilə Lamiəni tutub saxlamağa çalışarkən Rasih birdən səndələdi, pilləkənin yanındakı pəncərəyə toxundu, qolunun biri bərk cingilti ilə sınan şüşəyə keçdi.

Lamiə cəld pilləkəndən atıldı, özünü Rza bəyin otağının aralı qalmış qapısından içəri saldı, qapının daldan cəftəsini vurdu. Üst paltarı ilə köynəyinin bir qolu Rasihin əlində qalmışdı. Sol ovcunun içində isə onun gicgahından qopmuş bir çəngə qanlı saç vardı. Lamiə qışqırmağa çalışır, səsi çıxmırdı, pəncərəyə tərəf getmək istəyir, ayaqları hərəkət etmirdi. Qapının dalında yerə çökmək istəyirdi ki, pilləkəndə yenidən bir gurultu, bir boğuq səs eşidildi. Bu ona yeni bir qüvvət verdi, cumub yan tərəfdəki şkafdan Rza bəyin tapançasını götürdü.

Qüvvətli bir təpik qapının alt taxtalarından birini sındırdı, ikinci təpikdən sonra cəftə yerindən qopdu. Lamiə tapançanı qaldırıb:

– Yaxınlaşmayın, – deyə qışqırdı. Sonra qudurmuş heyvan kimi üstünə cummaq istəyən Rasihə tərəf iki dəfə atəş açdı.

Rasih hələ birinci atəş açılanda qapıya tərəf geri atılmışdı. İkinci atəşdən sonra qolları ilə havada dövrə vuraraq dizi üstə kandarda yerə yıxıldı. İki əli ilə üzünü tutdu. Bir an o vəziyyətdə hərəkətsiz qaldı. Sonra hündür qaməti atılmış yay sürəti ilə arxaya sıçradı və dalı üstə yerə düşdü. Başı pilləkənin aşağı pilləsindən sallanıb qaldı. Güllənin biri sağ gözündən girib beynini parçalamışdı. Vücudu yıxılıb qalmaq istəyirmiş kimi hərdən şiddətli bir lərzə ilə sarsılır, açıq ağzı ilə böyümüş burun dəliklərindən qorxunc bir xırıltı gəlir, beyninin parçaları köpüklü qan içində yerə tökülürdü.

## XVI

Lamiə gözlərini açdığı vaxt özünü təkpəncərəli kiçik bir otaqda gördü . Onu alçaq bir çarpayıda saman dolu bir döşək üstünə uzatmışdılar, hörüklərini açmış, üzünü, boynunu su ilə islatmışdılar. Biləklərini ovuşduran hərbi paltar geymiş, ağsaqqallı bir adam:

– Keçmiş olsun, qızım, necəsən? – deyə soruşdu, sonra arxasında yavaş səslə danışan iki kişiyə tərəf döndü.

– Ayıldı, qorxulu bir şey yoxdur, – dedi.

Lamiə otağa dolan axşam qaranlığı içərisində Rza bəyin üzünü seçə bildi. Rza bəy bu bir neçə ay ərzində xeyli dəyişilmiş, qocalmışdı. Sallaq, ağ bığları titrəyir, gözləri daha da çuxura düşmüş və daha fərsiz görünürdü. Soyuq, titrək əlini Lamiənin alnında, saçları üzərində gəzdirdi, yarıaçıq köksünü çarşaba örtərək:

– Gözün aydın, qızım. Şükür olsun ki, azad oldun, – dedi.

Lamiə olub-keçənləri ancaq indi xatırlaya bildi. O bədbəxt hadisə ilə əlaqədar günlər – polis və istintaq otaqlarında, dustaqxana və həbsxana künclərində, məhkəmə salonlarında, jandarm və polislər arasında keçən o qara, uzun, faciəli günlər sürətlə gəlib gözlərinin qabağından ötdü. Çarpayının üstündə yarımqalxmış halda əmisinin qollarına sığınaraq:

– Necə oldu, əmican? – deyə soruşdu.

Rza bəyin ətrafı göyərmiş və çuxura düşmüş gözlərindən səssizcə yaş axırdı.

– Qurtardın, qızım. Məhkəmə sənə bəraət verdi. Allahın sənə rəhmi gəldi.

– Bəs məni buraya niyə gətirmisiniz?

– Qərarı eşidəndə ürəyin getdi, qızım. Onun üçün...

Bir az əvvəl Lamiənin biləklərini ovuşduran ağsaqqallı hərbi adam:

– Bu yaşda böyük fəlakətdən xilas oldun, qızım. Allah bir daha başına belə iş gətirməsin.

Rza bəy onun əllərini sıxdı:

– Allah sizdən razı olsun, doktor, – deyə təşəkkür etdi.

Qoca doktor otaqda olan o biri kişilərlə bərabər çölə çıxdı. Rza bəy çarpayının kənarında oturub, başını ovucları içinə aldı, o dalğın-dalğın düşünür, hərdənbir dərindən ah çəkirdi.

Hava artıq qaralmışdı. Çöldə tutqun və kirli bir axşam aydınlığı vardı. Qar yağırdı.



Bir məhkəmə xidmətçisi otağın qapısını açdı, başını uzadıb içəri baxdıqdan sonra onu yenə örtdü. Bu vaxt Rza bəy yerindən qalxdı. Cilovlamağa çalışdığı bir iztirab və tərəddüd içində yavaş-yavaş

– Daha azadsan, Lamiə, – dedi. – İndi buradan çıxacağıq. Ancaq təəssüf ki, səni evimə apara bilməyəcəyəm, qızım. O iş üçün səni günahkar hesab etmirəm... Lakin onu deyirəm ki, məgər namusunu qorumaq üçün silahdan başqa bir ayrı vasitə yox idimi? Düzdür, indi daha bunu düşünməyin mənası yoxdur. Amma necə olsa, ölən adam mənim kürəkənim, qızımın əri, nəvələrimin atasıdır.

Lamiə halsız-halsız onun dediklərini təsdiq etdi:

– Bəli, haqlısan, əmican... Əslində siz istəsəniz də, mən daha oraya gedə bilmərəm. Mən yaxşı bilirəm ki, əmidostum, Məxmurə məni bağışlamayacaqlar.

Rza bəy sözünə davam etdi:

– Bəraət qazanacağını yəqin eləmişdim, qızım. Necə olsa da əmin sayılıram. Səni başlı-başına buraxa bilməzdim. Ona görə bu barədə fikirləşmişəm. Mənim Həqqi əfəndi adlı bir dostum var. Bir taborda[1] xidmət etmişik, taborumuzun imamı idi. Namuslu, bir müsəlman adamdır. Yaxşı da bir arvadı var. Onunla danışmışam, qızım. Hələlik səni onun evinə aparacağam. Yəqin ki, sonra yenə sənin üçün yaxşı bir adam tapılar. Hələ küy-kələk bir az yatsın, görək necə olar Uşağını da sabah özüm oraya gətirərəm. Hərdən səni görməyə də gələrəm. Atan üçün verilən təqaüdü almaq üçün Həqqi əfəndini vəkil edəcəyəm. Dur qızım, səni onun evinə aparım.

Qapının qabağına çıxmışdılar. Rza bəy ətrafa göz gəzdirir, minik axtarırdı. Lamiə:

– İstəyirsiniz gəzə-gəzə gedək, əmican, – dedi – Oraya qədər piyada gedə bilərəm.

Rza bəy ona qayğılı-qayğılı cavab verdi.

– Sən hələ də öz vəziyyətinin necə olduğunu başa düşmürsən, qızım. Başına elə bir əhvalat gəlib. Bu saat bütün camaatın gözü sənin üstündədir... Küçədə heç kəs səni görməməlidir

Rza bəyin xahişi ilə gənc bir jandarm tinə qədər gedib bir fayton çağırdı. Qar və soyuq getdikcə şiddətlənirdi. Yol getdikləri müddətdə Rza bəy ona xeyli nəsihətlər elədi; fəzilətdən, dəyanətdən, namusdan danışdı, pis qadınların faciəli aqibətinə dair əhvalatlar nağıl elədi

[1] Keçmiş türk ordusunda batalyon

## XVII

Həqqi bəy məscid yanında köhnə bir evdə yaşayırdı, ətrafına divar əvəzinə, taxta hasar çəkilmiş balaca bir bağça evi küçədən ayırırdı. Alçaq tavanlı kiçik, qaranlıq otaqlar hücrəyə bənzəyir, balaca və boş həyətdə isə bir parça səmadan başqa heç bir şey görünmürdü. Həqqi əfəndinin arvadı altmış yaşlarında, türkcə çox elə təmiz danışa bilməyən, təmizürəkli bir çərkəzdi. Qonağı üçün təmiz yatacaq və isti şorba hazırlamışdı.

Günün yorğunluğundan, həyəcanlardan bitab düşən Lamiənin heç şorbanı yeməyə də taqəti qalmamışdı. Güclə soyunaraq özünü yatağa saldı.

On iki saat davam edən dərin bir yuxudan ertəsi gün Məqbulənin səsinə oyandı. Qız həm gülür, həm ağlayır, rəfiqəsinin başını yastıqdan qaldıraraq yanaqlarını, şaşqın-şaşqın baxan xumar gözlərini öpürdü.

– Lamiəcan, sənin başına nələr gəlib?.. Mən səni nə qədər sevirmişəm. "Məni Lamiənin yanına aparın" deyə neçə dəfə atama yalvarmışam, ağlamışam. Razı olmurdu. Dünən o da məhkəmədə idi. Axşam gəlib nəticəni mənə xəbər verincəyə qədər evdə nigarançılıqdan lap az qala dəli olacaqdım. Bu gecə səhərə qədər yatmamışam. Atama dedim ki: "Lamiəni mütləq görməliyəm. Məni sabah onun yanına aparırsan apar, olmasa vallah, özüm qaçıb gedəcəyəm. İstəyirsən sonra məni as". Atam da ki, dəliliyimi bilir. Yaxşı, dedi, narahat olma, sabah gedərik. Məni qapıya qədər özü gətirdi. İki saatdan sonra gəlib aparacaq.

Lamiə bir ana şəfqətinə sığınırmış kimi başını onun köksünə qoydu, xumarlanan pişik balasıtək böyük bir həzlə gözlərini yumdu.

Dustaqxanada olanda minbaşı Kamal bəy bir neçə dəfə qızının adından onu yoluxmağa gəlmiş, hədiyyələr gətirmişdi. İşin gedişini maraqla izləyir, müntəzəm olaraq mühakimələrə gəlir, vəkillərlə görüşürdü. Lamiəni hər dəfə görməyə gələndə ona ümid və mətanətverici sözlər də söyləyirdi. Lamiə bu ailəyə dərin bir minnətdarlıq hissi bəsləməyə başlamışdı.

Məqbulə rəfiqəsinin yanında iki saatdan çox qaldı. Bu, budaqdan budağa atılan quşlara bənzər, bir sözü ilə o birisi bir-birinə uyuşmayan, şən, təcrübəsiz, sadədil qızla dərdləşmək Lamiə üçün mümkün deyildi.

Ancaq Lamiə onun ərköyünlüyünü xoşlayır, onunla bir yerdə olanda həyatın gözəl olduğunu düşünməyə, bu həyatdan, hətta nə isə yaxşı bir şey, səadət ummağa da başlayırdı.



Atasının bir vədi Məqbuləni çox sevindirmişdi. İndi tez-tez bu vədi xatırlayır, Lamiənin yorğun vücudunu qolları arasında silkələyərək:

– Atam məni həmişə sənin yanına gətirəcək, – deyirdi, – özümüz də səni tez-tez evimizə dəvət edəcəyik.

* * *

Lamiənin günü bu evdə o qədər də pis keçmirdi. Həqqi əfəndi sərt təbiətli, vasvası və tərs bir albandı. Buna baxmayaraq, bütün əziyyət ancaq arvadına deyirdi. Həyatını səssiz-sədasız, iş görmək və namaz qılmaqla keçirən bu məzlum qadını incidirdi. Bəzən xınalı saçlarından tutaraq döydüyü vaxtlar da olurdu.

Lamiənin ona yazığı gəldiyini, əzab çəkdiyini görən Fatma xanım pozuq türk ləhcəsi ilə qıza təsəlli verməyə çalışırdı:

– Eybi yoxdur, qızım. O kişidir, çörək verənimdir, – deyirdi. – İncimirəm. O məni cənnətə aparacaq, həm də sahibimdir. Allah razı olsun Yaxşı adamdır.

Doğrudan da elə idi. Arvadını bu qədər təhqir edən də əziyyət verən Həqqi əfəndinin başqalarına, xüsusilə Lamiəyə münasibəti çox şəfqətli və mərhəmətli idi. Lamiənin bir təsəllisi də uşağı idi. Anadan olandan sonra ilk günlər Lamiənin bu körpəyə sadəcə yazığı gəlmişdi. Halbuki, indi onu sevməyə də başlamışdı. Onu saatlarla qucağında saxlayır, kukla kimi oynadırdı.

Axırıncı fəlakəti ona çox əvvəllər görmüş olduğu qorxunc bir yuxu, başqa bir dünyada başına gəlmiş bir faciə kimi görünürdü. Bu hadisədən xəyalında bir neçə dağınıq lövhə, qəlbində isə keçib-getməyən soyuq bir rəşə qalmışdı. Nə qədər çalışırdısa, xatirələrini xəyalında bir yerə toplaya bilmirdi.

Bəzən heç bir səbəb olmadan birdən-birə bu lövhələrdən biri gözlərinin qabağına gəlir, o, elə bil dumanlı, uğultulu bir qarğaşalıq içinə düşürdü. Gah özünü dustaqxanada görür, ətrafını oradakı pis geyimli, pis çöhrəli qadınlar bürüyür, gah örtülü bir arabanın küncünə qısılmış halda bitməz-tükənməz küçələrdən keçir, gah özünü ilk mühakiməsinin dəhşətləri içərisində hiss edir, ilk suala cavab vermək üçün karıxıb qalırdı.

Buna baxmayaraq, vaxt ötüb keçdikcə bu dağınıq xatirələr əvvəlki təsir qüvvəsini itirməyə, ruhu yavaş-yavaş əvvəlki müvazinətini almağa başlayırdı. Məqbulə onun yanına daha tez-tez gəlir, hər gələndə də Məbrurəyə hədiyyələr gətirir, onun üçün qəşəng paltarlar tikirdi.

Məbrurə onların əlində bir oyuncağa, canlı bir kuklaya çevrilmişdi. Uşağı bəzən top kimi atıb tuturdular. Hələ Məqbulə bəzən coşqun vaxtlarında yazıq uşağı elə dəlicəsinə öpür, qucağında elə sıxıb qışqırırdı ki, Fatma xanım işini buraxmağa, yaxud təsbehini kənara qoymağa məcbur olub, qızcığazı zorla onların əllərindən alır, öz otağına aparırdı. Bir axşam Həqqi əfəndi:

– Uşaqlar, – dedi, – sabah hazır olun, Kamal bəy bizi günorta yeməyinə dəvət etmişdir

Ayda-ildə bir dəfə evdən çıxmayan Fatma xanım atlaz paltarını geydi, böyük bir səyahətə gedir kimi "bismillah" çəkib sandıqları, qapıları kilidlədi.

Aylardan bəri ilk dəfə küçəyə çıxan Lamiə üçün o gün xeyli yaxşı keçdi. Kamalbəygil şəhərin bağ-bağçalı bir yerində olurdular. Evləri də gözəl bir bağ içərisində idi.

Mınbaşı ilə Həqqi əfəndi bağçada qəlyan çəkərək söhbət etdikləri vaxt, Lamiə ilə Məqbulə dəhlizdə qrammofon çaldırırdılar.

O gündən sonra Həqqi əfəndi Lamiənin də hərdənbir Məqbulənin yanına getməsinə razılıq verirdi.

Kamal bəy qızının rəfiqəsinə çox hörmət göstərir, kefini soruşur, Məbrurəni qucağına alıb bağda gəzdirirdi. Bir gün yenə dəcəl Məqbulə bir münasibətsizlik elədi. Oturduqları yerdə birdən:

– Bax, görürsən, ata... – dedi. – Sən mənə qatarda "Lamiə ilə danışma" deyirdin.

Lamiə dərhal qızardı, yanında oturduğu rəfiqəsini çimdiklədi. Məqbulə eyni zəvzək tövrlə:

– Yalan deyirəm? Nə çimdikləyirsən? – dedi.

Pis vəziyyətə düşən Kamal bəy də utandı. Əvvəl qızına nə cavab verəcəyini bilmədi. Sonra kəskin bir səslə:

– Lamiə xanımı onda birinci dəfə görürdük, – dedi. – Bu qədər ağırbaşlı, gözəl əxlaqlı bir xanım qız olduğunu haradan biləydik. İndi isə yaxşı tanıyırıq.

Məqbulə yenə qəhqəhə çəkərək:



– Hə... Elə təkcə onun üçünmü.. – deyə sözünə davam etmək istədi. Ancaq atasının hirslənməyə başladığını görüb susdu.

Otağa qısa, cansıxıcı bir sükut çökdü Məqbulə piano çalırmış kimi barmaqları ilə masanın kənarını taqqıldadır, Lamiə isə hələ də gözlərini yuxarı qaldıra bilmirdi

Kamal bəy özünü saxlaya bilməyib gülməyə başladı

– Çox quşbeyin qızsan, Məqbulə... On yeddi yaşına girmisən, hələ də adam olmaq fikrin yoxdur, – dedi Sonra da bu münasibətsizliyi düzəltmək istəyirmiş kimi, Lamiəni uzun-uzadı təriflədi.

* * *

Yaz günlərindən birində Məqbulə əlində böyük bir çiçək dəstəsi Lamiənin yanına gəldi. Bağlarında nə bitmişdisə, hamısından toplamış, lalədən, çobanyastığından tutmuş nar çiçəyinə qədər heç bir gülü yaddan çıxarmamışdı. Küçədən qaça-qaça gəlmiş kimi təngnəfəs idi. Tərdən bürüncəyi üzünə yapışmışdı. İçəri girər-girməz çiçəkləri Lamiənin qucağına basdı, gonbul, yumru vücudunu isə küncdəki döşəkçənin üstünə saldı. Nəfəsi kəsilə-kəsilə:

– Vay öldüm... Ölürəm.. Başıma nələr gəldiyini soruşma, – deyə bərkdən danışmağa başladı.

Təşvişə düşmüş Lamiə onun çarşabını götürməyə çalışaraq.

– Nə olub? Tək gəlirdinmi? – deyə soruşdu.

Məqbulə açıq sinəsini çarşabın ucu ilə yelləyərək başına gələni danışmağa başladı:

– Tək-tənha gəlirdim. Yolda bir neçə dələduz dalımca düşdü. "Xanım qız, biz də çiçək istəyirik" deyə söz atmağa başladılar. Baxdım əllərindən qurtara bilməyəcəyəm. Bir neçə dənə çiçək verib: "Di alın, çıxın gedin işinizə", – dedim. Daha artıq sırtıqlıq etməyə başlamadılarmı? İndi mən qaçıram, onlar da məndən əl çəkmirlər. Ha istədim çiçəkləri çırpım başlarına, küçənin ortasında heç olmasa biri ilə bir möhkəmcə vuruşum. Vallah, eləyərdim də. . Ancaq yenə özümə eyib bildim.

Lamiə gülməyə başladı:

– Bəs, Məqbulə atan səni küçəyə tək buraxmırdı? İndi yalqız niyə gəlirdin? – dedi.

– Düzdür, ancaq bu gün icazə vermişdi... Atamın qonaqları vardı. Özü də bilirsən kimdir? Ömründə ağlına gəlməz.

– Mən nə bilim.

– Dedim ki, ömründə ağlına gəlməz... Həqqi əfəndi ilə əmin.

– Rza bəy?

– Elədir ki, var. Daha Kütahiyədə sənin neçə əmin var ki?

Lamıə heyrətlə soruşdu:

– Əmim sizə gedib-gəlir?

– Xeyr. Atamla lap köhnədən tanışdırlar. Amma indiyə qədər birbirlərinin evinə get-gəlləri yoxdur. Bu gün atam onları dəvət eləyib.

Bu xəbərdən maraqlanan Lamiənin qaşları tələşla çatılmışdı.

– Görəsən atan əmimi niyə çağırıb?

Məqbulə əllərini oynatdı, dodaqlarını büzdü, gözlərində hiyləgər bir təbəssümlə:

– Vallah, mən də bilmırəm, – dedi. Sonra tələsə-tələsə əlavə etdi. – Tövbə, ya rəbbim Bax, and da içdim, günaha da batdım. – O, qəhqəhələrlə gülməyə başladı. Lamiə əlini onun çiyninə qoydu, ciddi bir tövrlə:

– Yaxşı, Məqbulə, gizlətmə, – dedi.

Qız daha da bərkdən gülməyə, dilini çıxarıb, göz vuraraq onunla əylənməyə başladı.

– Bilirəm, ancaq deməyəm. Vallah, deməyəm.

Lamiə əsəbi halda.

– Mütləq deyəcəksən, Məqbulə, – deyə israr etməyə başladı. – Vallah, inciyərəm, bir də üzünə baxmaram.

Məqbulə indi nə edəcəyini, ona nə və necə cavab verəcəyini qərara ala bilmirdi. Bir ara söyləmək istəyən kimi oldu, ancaq qorxaraq tez dilini dişlədi. Həyəcanla rəfiqəsinə baxdı.

– Deməyəm dedi, deməyəm, vallah deməyəm, billah deməyəm, – deyə özündən uydurduğu bir mahnını oxuyub oynamağa başladı.

Lamiənin ürəyi əməlli-başlı sıxılmağa başlamışdı. O, qaşlarını çatdı. Həmin məsələ ilə daha maraqlanmırmış kimi:

– İstəyirsən de, istəyirsən demə, – dedi. O, daha Məqbulənin üzünə baxmır, yastıqları düzəldir, stulların yerlərini dəyişdirirdi.

Məqbulə ona incikliyini unutdurmaq üçün şəhər dedi-qodularını danışır, suallar verirdi. Lamiə də yenə onun üzünə baxmamağa çalışır, suallarına sadəcə "bəli", "xeyr", – deyə cavab verirdi.

Qız nəhayət, dözə bilmədi, kədərli bir tövrlə:



– Lamiəcan, danışaram, ancaq... Vallah, atam bilsə, məni doğramdoğram edər, – dedi.

Lamiə onun əllərindən tutaraq döşəkçənin üstündə oturtdu.

– Atan haradan biləcək. Mən ki, bir adama deyən deyiləm, – dedi.

Məqbulə qollarını rəfiqəsinin boynuna doladı, üzünü onun üzünə dayadı, çənəsini oynada-oynada ahəstə səslə danışmağa başladı:

– Lamiəcan, bax, ancaq məndən incimə. Sən ki, o Müxlis əfəndi deyilən bir qoca kişiyə ərə getmək fikrində idın. Başına gələn o hadisədən sonra Müxlis əfəndi daha səni almaq istəmədi. Çox pis vəziyyətdə qaldın, elə deyilmi? İndi ömrün boyu qəbrə oxşayan bu evdə yaşamalı deyilsən ki. Atam səni çox tərbiyəli, namuslu hesab edir. Mənim də səni nə qədər sevdiyimi bilir. Keçən gün xalamla danışanda qulaq asmışam. Deyirdi ki, Lamiə xanım yaşı az olsa da, çox ağırbaşlıdır. O, bu evin xanımı olmağa razılıq versə, bizim üçün də yaxşı olar, özü üçün də... İndi başa düşdünmü, Lamiəcən? Əminlə imam əfəndiyə də elə bunu deyəcək.

Məqbulə başını Lamiənin köksünə söykədi, üzünə baxmağa qorxurmuş kimi onun qucağında büzüşdü.

– Lamiəcan, atam səndən ötrü çox yaşlıdır, ancaq Məbrurəni də öz balası kimi sevəcək... Mənə acığın tutmur ki?

Lamiə əslində, qoca minbaşının hərəkət və rəftarından bunu çoxdan hiss etmişdi. İndi bu məsələni Məqbulənin ağzından eşitdiyi vaxt yüngül bir kədərdən başqa ayrı bir şey duymadı. Sakit bir şəfqətlə qızın başını qaldırdı, üzünü oxşadı, dərin və ağır bir səslə:

– Burada acıqlanmalı nə var ki, Məqbulə? – dedi. – Atan doğrudan da belə bir şey düşünürsə, mən ona minnətdar olmalıyam. Deməli, mən çoxlarının zənn etdiyi qədər də pis bir.. qız deyiləm.

Məqbulə ondan belə bir cavab gözləmirdi. Odur ki, çılğın bir sevinclə:

– Deməli, razı olacaqsan! – deyə bağırdı.

Lamiə yenə əvvəlki ciddiyyəti ilə sakitcə:

– Mən hələ bir söz deməmişəm, Məqbulə, – dedi. – Sadəcə onu demək istəyirəm ki, atan mənim üçün çox o qədər də...

Lamiə başını çiyninə əymiş, həyatının uzun və kədərli macərasına baxırmış kimi, süzgün, yaşıl gözlərini uzaqlara dikərək sözünə davam edirdi:

– Düzdür, səninlə bir yaşda, yaxud çox az fərqli görünürəm Ancaq əslində elə deyil, Məqbulə. Mənim bu yaşda olmağıma baxma,

könlüm çoxdan qocalmışdır.. Mənim üçün gecə ilə gündüzün, yay ilə qışın fərqi yoxdur. Heç bir şey ilə maraqlanmıram. Bu körpəmdən başqa heç bir şey haqqında düşünmürəm. Məndən ötrü həyat artıq bitmişdir... Məbrurəm xoşbəxt olarsa, mən də özümü xoşbəxt hesab edərəm... Gənc bir adama ərə getmək heç xəyalımdan da keçmir... Mənim vəziyyətimdə olan bir qadın kimin nəyinə lazımdır?.. Bir də ki, cavan adam arvadından məhəbbət istər. Halbuki, mənim könlüm indidən sönmüşdür... İndi yəqin məni başa düşürsən? Atan doğrudan da məni istəyirsə, rədd cavabı verməyim üçün bir səbəb yoxdur. Mən də, körpəm də bir yuva tapmış olaraq. Daha mənə heç kəs pis gözlə baxmaz. Bunun əvəzində mən də əlimdən gələn qədər sizin xoşbəxtliyiniz uçün çalışaram.

Axırıncı sözləri söylərkən gözlərindən bir neçə gilə yaş töküldü. Məqbulə birdən hıçqıra-hıçqıra ağlamağa başladı:

– Əziz abla, ürəyinə bir şey gəlməsin... Mənimlə bir yaşdasan... Biz yaşıdıq... Mən buna ağlayıram...

Lamiə onun üz-gözünü təkrar sığallayaraq gülümsədi:

– İstəsən, bundan sonra mənə "ana" da deyə bilərsən...

## XVIII

Lamiə sakit, ciddi, çalışqan bir ev xanımı olmuşdu. Köhnə yaraları yavaş-yavaş sağalır, unudulurdu. Tanışlara, qonşulara özünü yaşlı-başlı bir xanım kimi saydırmağa başlamışdı. Qohum-əqrəbası ilə də artıq barışmışdı.

Şükrü bəy Lamiəyə tez-tez məktub yazır, onu əri ilə bərabər havalarını dəyişmək üçün İzmirə qonaq çağırırdı. Onlar da üzüm vaxtı bir aylığa İzmirə getməyi qərara almışdılar. Ancaq Məbrurənin qəfildən xəstələnməsi onların bu səfərinə mane oldu.

Rza bəy həftədə iki dəfə Lamiəni görməyə gəlir, bəzən arvadı ilə kiçik qızını da özü ilə bərabər gətirirdi.

Lamiə evdən çox az çıxır, qonşularından heç biri ilə təklifsiz görüşmürdü. İlk günlər məhəllədə bir az dedi-qodu olmuşdu: minbaşı arvadı olduqdan sonra onun xeyli ədalı göründüyünü söyləyirdilər. Ancaq sonralar bunun utancaqlıq əlaməti olduğunu başa düşməyə və onun bu xüsusiyyətini hətta bəyənməyə başlamışdılar.

Lamiə heç kəsi incitmir, böyük-kiçik hamı ilə xoş rəftar edirdi. Ancaq heç kəslə çox səmimi, açıq ola bilmirdi. Onda başına gələn hadisələrin nəticəsi olan bir ürkəklik, insanlara qarşı bir inamsızlıq vardı ki, bu da heç cür azalmaq bilmirdi.



Ən böyük təsəllisi evdə məşğul olmaq, ərini və Məqbuləni razı salmaqdı. Onlara elə dərin minnətdar idi ki, nə eləsə, bunun əvəzini çıxa bilməyəcəyini güman edirdi

Məbrurəni sevdiyini onların yanında çox sezdirmir və o qədər qayğı göstərmirdi. Kamal bəylə Məqbulə uşağı buna görə də bəzən ondan daha çox özlərinə yaxın sayırdılar.

Ərköyün Məqbulə elə bir qızdı ki, atası başqası ilə evlənsəydi, onunla yola getməyəcək, cürbəcür hövsələsizlik edəcək, qan qaraldacaq, evi cəhənnəmə döndərəcəkdi. Ancaq Lamiəni qəribə bir itaətlə sevir, atasından da çox onun sözünə qulaq asırdı.

Lamiənin on səkkiz yaşı tamam olmaq üzrə idi. Boyu-buxunu xeyli artmış, üzü daha da gözəlləşmiş, dərisinin və gözlərinin rəngi başqa bir rövnəq almışdı.

Onun çöhrəsinə məsum bir görkəm verən açıq-qızılı saçlarını, gözlərinin heç sönməyən sakit təbəssümünü görən qonşuları heyrət edir, ərini ona layiq görmədiklərini bildirən eyhamlar atırdılar

Gənc qadın bu eyhamları anlamırmış kimi gülümsəyir, əslində isə bu sözlərə etina etmirdi O, bu vaxt özünü qocalmış, dünyada heç bir şeylə maraqlanmayan, arzuları sönüb getmiş zənn edirdi. Bəzən öz-özünə: "Bir vaxt vardı, mən də cavandım, – deyə düşünürdü: – Mən də başqaları kimi sevdim. Hələ də sevirəm. Ancaq sevdiyim məndən ötrü artıq çoxdan ölmüşdür. "O"nu artıq heç bir vaxt görməyəcəyəm. İndi ərimin gənc, ya qoca, gözəl və ya çirkin olmasının məndən ötrü daha heç bir əhəmiyyəti yoxdur... Onun yaxşı, namuslu bir insan olması mənə bəsdir. Bəli, mənə elə bu bəsdir".

Lamiə hələ də sevirdi. Gözlərini yumduğu vaxt meşələri, günəşli gündüzləri və aylı gecələri ilə Bozyaxanın üzüm bağları, gözəl qaməti, zərif, qarayanız üzünə qəribə bir cazibə verən mavi gözləri, yaraşıqlı ağappaq dişləri ilə "O" gəlib xəyalı önündə canlanırdı.

Ancaq bu xəyal artıq ona əzab vermir, onu həyəcanlandırmır, sakit qəlbində sadəcə yüngül və məhzun bir rıqqətdən başqa ayrı bir şey oyandırmırdı. Artıq bu xatirələr üfüqdə gizlənmiş günəşdən qalan şəfəqə bənzəyirdi. Bu solğun şəfəq işıqlı bir toz kimi qızın keçmişinə dağılır, qaranlıqlar içində yavaş-yavaş yanıb-sönür, unudulmuş, itirilmiş şeyləri aydınladırdı. Ancaq bu qədər... O daha heç bir şeyi yandıra bilmirdi.

* * *

Lamiənin indiyə yalnız bir iztirabı, bir dərdi vardı: ərinin məhəbbəti. Minbaşı onu bəzi yaşı ötmüş ürəklərdə baş qaldıran, qurumuş saman yığınının alovlanmasına bənzəyən şıltaq, ümidsiz bir son eşqlə sevirdi. Kamal bəy orduda xidmət etdiyi illərdə sevməyə vaxt tapmamış, qəlbi ilə heç məşğul olmamış bir adamdı. Lamiəni ilk dəfə gördüyü, onun həzin və dolaşıq macərasını eşitdiyi vaxt bu qıza qarşı nifrət və ikrahdan başqa hiss duymamışdı. Sonra, günlər keçdikcə bu hissə bir az mərhəmət qarışmağa başlamışdı.

Rasihin öldürülməsi ilə əlaqədar əhvalat isə Kütahiyəni alt-üst etmiş, bir çoxları kimi minbaşını da həyəcana salmış və maraqlandırmışdı. Məhkəmənin başlandığı birinci gün Kamal bəy də bir çoxları kimi orada idi

Lamiəni qara çarşabı və meyit kimi saralmış rəngi ilə müttəhim vəziyyətində görəndə qəlbi çırpınmağa başlamış, hakimin ilk sualına qız "Lamiə" deyə cavab verdiyi zaman, Kamal bəyin ömründə ilk dəfə gözləri yaşarmışdı.

Qoca minbaşı məhkəmənin həyəcanlı səhnələrini böyük bir maraqla izləmiş, bir müddət sonra bu bədbəxt qıza qarşı duyduğu yeni hissin nə olduğunu oz-özündən gizlədə bilməmişdi.

Əvvəl o, qızı ümidsiz bır eşqlə sevir, ona kömək etməkdən başqa bir şey arzu etmirdi Bəraət qazanandan sonra isə Lamiəni qızının rəfiqəsi, yurdsuz qalmış bir biçarə kimi öz evinə aparmaq haqqında düşünmüşdü. Ancaq bu mümkün olası şey deyildi. Nəhayət, uzun düşüncələrdən, tərəddüdlərdən sonra onunla evlənməyi qərara almışdı.

O, ağlı başında olan, təmkinli, ciddi bir adamdı. Bu cür keçmişi ləkəli cavan bir qadından vəfa görəcəyinə ümid bağlamırdı. Hamının ona güləcəyini bilirdi. Qəlblərinin də bir-birinə büsbütün yad qalacağına əmindi. Bu qıza sahib olmaq bir yana dursun, onu bir neçə gün müddətində yaxından görə bilmək imkanı Kamal bəyin qocalmış qəlbi üçün əlçatmaz bir səadətdi.

Başqalarına, bu çoxlu fəlakət görmüş cavan qadınla, onu maddi səfalətdən qurtarmaq üçün və başına yeni müsibətlər gəlməsin deyə evləndiyini söyləmişdi. İlk günlər Lamiə də belə düşünürdü.

Bu çox cavan qadınına qarşı duyduğu gecikmiş eşqindən minbaşı özü də utanır, hisslərini, ehtirasını ifadə edəcək bir kəlmə belə söyləməyə cəsarət eləmirdi. Bu acizlik və utancaqlıq onun davranışına sövqtəbii ilə hərəkət edən bir heyvan nahamvarlığı verirdi.

Gənc qadın həftələrlə bu qəliz ehtiras havası içində saralıb solmuş, heysiyyətinin ən incə yerlərindən yaralanmış, ruhi səfalətlərin ən acısını dadmışdı.

Evlənmələrindən bir ay keçmişdi. Lamiə bır gecə qəfildən xəstələndi. Kamal bəy təlaş içində idi, gecəyarısı, xeyli uzaqda yaşayan şəhər həkiminin dalınca getmək üçün geyinirdi.

Lamiə buna ehtiyac olmadığını söylədikdən sonra:

– Məndən ötrü özünüzü belə yormayın, – dedi. – Çox fədakarlıq edirsiniz. Özüm də bilmirəm sizə necə təşəkkür edim.

Minbaşı əlini onun saçlarına çəkdi, üzünə məhzun-məhzun baxdı·

– Əslində mən sənə borcluyam, Lamiə Gəncliyini mənə həsr etmisən. Sənin üçün həyatımı versəm də, minnətdarlığımın mində birini ifadə edə bilmərəm.

Bu ilk etirafdı. On beş yaşında sevməyə başlamış məktəb uşaqlarına yaraşan bu söz Kamal bəyin dodaqlarında kədərli bir səmimıyyət kəsb edırdi. Lamiə bu zahirən çox qaba və nahamvar görünən qoca əsgərin onu nə qədər sevdiyini bu vaxt anlamış, ona yazığı gəlməyə başlamışdı.

Buna baxmayaraq ki, bu məhəbbətə heç cür alışa bilmir, onu həyatın həzin və həqır bir məcburıyyəti kimi qəbul edirdi

## XIX

Bürkülü və qaranlıq bir sentyabr gecəsi idi. Lamiə yeməkdən sonra yuxarı dəhlizə çıxmış, bir az hava almaq üçün iki yandan da pəncərələri açmışdı.

Ortadakı böyük masanın üstündə abajurlu bir lampa yanırdı. Kamal bəy küncdə qoyulmuş geniş taxtın üstündə yarıuzanmış halda qəzet oxuyur, həm də qucağında yatan Məbrurəni yavaş-yavaş tərpədirdi. Artıq yaşyarım olan Məbrurə anasından çox, qoca minbaşıya isinişmişdi. Körpənin bütün nazını, qəhrini Kamal bəy çəkir, ağladığı vaxt onu çiyninə mindirməyincə Məbrurə susmur, dinclik nə olduğunu bilməyən bu qız zərif, kiçik barmaqları ilə onun uzun, çal bığlarını yolurdu.

Məbrurə axşamlar pişik balası kimi Kamal bəyin qucağında yuxuya getməyə adət etmişdi. Sarı, qıvrım başını onun boynuna söykəyir, yaxasından möhkəm yapışır və yuxuya gedirdi.

Lamie masanın yanında oturub tikiş tikir, üzündə, sarı saçlarında abajurun qırmızı kölgələri oynaşırdı. Aşpaz qadın Əminə nənə açıq pəncərələrin birindən bağçaya işıq salırdı.

Yaşı artdıqca dəlisovluğu, ərköyünlüyü də artan Məqbulə nar dərmək üçün ağaca çıxmışdı Cürbəcür dəcəlliklər edərək gülür, mahnı oxuyur, pəncərədən dəhlizə nar qabıqları tullayır, kiçik budaqlardan qırıb oraya atır, Əminə nənəni qorxudub qışqırtmaq üçün hərdənbir budaqları silkələyərək:

– Vay yıxılıram, kömək edin? – deyə qışqırırdı.

Kamal bəyin sərt bir məzəmmətindən sonra qız ağacdan düşürdü ki, küçə qapısı döyüldu. Məqbulə aşağı düşmək istəyən Əminə nənəyə:

– Sən gəlmə, mən açaram, – deyə səsləndi.

Kamal bəy nəzərini qəzetdən ayırdı·

– Kimdir görəsən? Lamiə, bir bax gör... – dedi.

Gənc qadın tikişini masanın üstünə qoyub yavaş-yavaş yerindən qalxırdı ki, birdən bağçada qorxunc bir çığırtı qopdu. Pəncərədən əyilib baxan Əminə nənə əlindəki şamdanı qabağa uzadaraq:

– Bıy əfəndi, tez gəlin. Kimdırsə Məqbulə xanımın boynuna sarıldı, – deyə fəryad qoparmağa başladı.

Minbaşı cəld yerindən qalxdı, Məbrurəni kənara qoyub aşağı yüyürdü.

Lamiənin son hadisədən sonra gözü yaman qorxmuşdu. Bir fəryad, bir gurultu eşidən kimi birdən-birə titrəməyə başlayır, əl-ayağı hərəkətdən qalır, bütün vücudu buz kimi soyuyur, əsirdi.

Məqbulənin hələ də davam edən qışqırığı, Əminə nənənın təlaşı onu o qədər qorxutmuşdu ki, durduğu yerdən bır addım da olsa irəli gedə bilmədi, əllərı ilə üzünü örtərək kresloda oturdu.

Təkrar pəncərədən sallanıb baxan aşpaz qadın ona tərəf dönərək heyrətlə:

– Xanımcan, hələ bir bura gəl, – dedi. – Məqbuləni qucaqlayan adam, görünür qonaqmış. Bu nə işdir belə... Bəy əfəndi də onun boynunu qucaqladı.

Lamiə yavaş-yavaş özünə gələrək pəncərəyə tərəf yeridi. Ancaq bir şey görmədi. Bağçadakılar içəri keçmişdilər. Danışa-danışa, gülə-gülə pilləkənləri çıxırdılar.

Lamiə gücle özünü yandakı otağa sala bildi, qapını örtərək qulaq asmağa başladı. Kamal bəy bərkdən danışaraq Məqbuləni danlayırdı:



– Allah cəzanı versin... Adam heç elə qışqırar? Bizi yaman qorxutdun.

Lamiə Məqbulənin şıltaq bir qəhqəhə ilə gülərək:

– Sənə nə olub, ata? Adamı danlamaq üçün bəhanə axtarırsan. Nə edim, qəfildən görəndə qorxub özümü itirdim, – dediyini eşitdi.

Ata ilə qızın söhbətinə yad bir kişi səsi qoşuldu

Lamiə qapını aralayaraq baxdı. Masanın yanında uzunboylu, qarapaltarlı bir kişi durmuşdu. Üzü o tərəfə çevrılmişdi. Lampanın işığında Lamiə onun ancaq qumral saçlarını seçə bildi.

Məqbulənin bu qədər sevinclə qarşıladığı, Kamal bəyin bu dərəcədə məhrəmanəliklə yuxarı gətirdiyi kişi görəsən kim idi? Lamiə qaranlıqda onu tanıya bilməyəcəyini yəqin edəndən sonra qapıya bir az da yaxınlaşdı, maraqla baxmağa, onları dinləməyə başladı. Masanın yanında ayaq üstə danışırdılar. Minbaşı əllərini qonağın çiyninə qoyaraq soruşdu:

– İndi de görüm, hansı külək səni buraya atdı? Məqbuləyə acıqlandım, ancaq elə mən də az heyrət etmədim Kütahiyəyə nə vaxt gəlmisən?

Bir yandan da Məqbulə onun qolunu dartaraq soruşurdu:

– Bibim necədir, Bülend necədir? Dayə necədir?

Qonaq şən, ahəngdar bir qəhqəhə ilə güldü:

– Hansınıza cavab verim? Bir səbir edin, nəfəsimi derim.

Bunu deyərək bir az bu tərəfə, Lamiənin durduğu otağa tərəf çevrildi. Bu, üzü təmiz qırxılmış, cavan, sarışın bir adamdı. Çox şən, açıq və aydın danışığı vardı.

– İki saat bundan qabaq gəlib otelə düşmüşəm. Düzdür, yorğun deyildim. Ancaq sizi səhər axtaracaqdım. Allah rast gətirdi, evinizi tanıyan bir adama təsadüf etdim. Yaxşı oldu, belə kiçik yerlərdə adamı axtarıb tapmaqdan asan nə var ki.

– Bəs niyə elə birbaşa bizə gəlmədin?

– Yoldaşlarım var, onlardan dərhal ayrılmaq yaxşı olmazdı.

– Kütahiyədə çoxmu qalacaqsan?

– Onu ancaq cənab Allah bilər... Yəqin ki, bir neçə il...

Məqbulə yenə qışqırıb sevınməyə, əllərini bir-birinə vurmağa başladı. Minbaşı onu bir təhər susdurduqdan sonra xəbər aldı:

– Bir qulluğa-zadamı gəlmisən, Vədad?

– Qulluğa gəlməmişəm, dayı. Elə-belə, havamı dəyişmək istəyirəm.

– Havanı dəyişməyəmi? Mənimlə zarafat edirsən?

Cavan oğlan gülürdü:

– Sən mənimlə zarafat edirsən, dayı. Ağlınca belə bir yerdə qulluq etməyə razı ola bilərəmmi?

– Bəs onda...

– Onda, gəlməyə məcbur olmuşam... Daha doğrusu məcburən gətiriblər. Məni buraya dörd-beş yoldaşımla birlikdə sürgün ediblər, dayıcan.

Məqbulə yenidən fəryad qopardı. Kamal bəy heyrət və şübhə ilə:

– Sürgünmü? Ola bilməz, – dedi.

Qonaq bir kefdən ya toydan danışırmış kimi canlı söhbətini əvvəlki surətlə davam etdirərək:

– Bu məmləkətdə mümkün olmayan şey varmı, dayı?.. – dedi. – Canım, vallah, sürgün olunmuşam. Belə gülə-gülə dediyimə görə yəqin inanmırsınız... Bu mənim xasiyyətimdir. Sürgünə yox, Allah eləməmiş, lap dar ağacına da göndərsə idilər, yenə belə danışacaqdım. Biz buraya bir zarafatla, bir deyə-gülə gəlmişik ki, heç təsəvvürünə gətirə bilməzsən. Bizə iki jandarm ilə əhli-dil bir yüzbaşı da qoşmuşdular. Yoldaşlarımın bəzisinin qanı qaralmışdı. Mən də şübhəsiz buna sevinmirdim. Ancaq fikirləşdim bir işdir düşüb, nə etmək olar, istər-istəməz buna dözməli olacağıq. Odur ki, çarəsizlikdən özümü arsızlığa vurdum. Bir zarafat, bir qiyamət ki, gəl görəsən. Mənim bu məcburi neşəm yoldaşlarıma da sirayət etdi Vallah, neşə çox yaxşı şeydir, dayı. Mən bir çox xəstəmi də gülüşlə müalicə edirəm. İnsan gülməyə başladımı, ürəyi, ciyərləri da yaxşı işləməyə, bədəni canlanmağa başlayır, hətta mədəsi, böyrəkləri də düzəlir. Hələ əsəblərlə əlaqədar xəstəlik demirəm. Belə xəstələrə neşənin daha çox xeyri olur. Axır ki, ədəbiyyatçıların ən böyük bir faciə kimi təsvir etdikləri sürgün səfərini biz bir toy mərasiminə döndərmişdik. İstanbuldan yenicə uzaqlaşmışdıq ki, jandarmları da bizə qoşulmağa vadar etdik. Hələ o yüzbaşı, ay Allah, necə canlara dəyən adamdı. Stansiyada bizi təhvil aldığı vaxt üzümüzə elə baxırdı ki, sankı hamımızı o saat öldürəcəkdi. Bir az bundan əvvəl bizi Kütahiyə polis idarəsinə təhvil verəndə boynuma sarıldı. Utanmasa idik, ikimiz də ağlayardıq. Axır ki, çox əyləncəli bir səfər oldu. Yolda bir neçə qəsəbədən keçdik. Sürgünə gəldiyimizi eşidən əhali işini-gücünü ataraq bizi görməyə axışırdı. Qəribə yerlərdir, zövq yox, əyləncə yox, həyat yox. Sürgünlər gələndə onlar üçün elə bil kəndirbazlar, yaxud teatr truppası gəlmiş kimi olur. "Sürgün" deyəndə onlar



həmişə yol yorğunluğundan pörtmüş, ordları batmış, əzik-üzük geyimli, üzünü saqqal basmış adamlar görməyə alışmışlar. Bizi görəndə çaşıb qalırdılar. Sözün qısası, elə bil sürgünə deyil, vilayətlərdən birinə vali, yaxud mütəsərrif vəzifəsinə gəlirdim.

Qonağın bu qədər laqeyd neşəsi təkcə ata və qıza deyil, qapının arasından onlara tamaşa edən Lamiəyə də sirayət etmişdi. O da onlarla bərabər gülürdü.

Lamiə bu qumral gəncin kim olduğunu anlamışdı. Minbaşının İstanbuldakı bacısının Vədad adlı bir həkim oğlu olduğunu bilirdi.

Məqbulə beş-altı ildən bəri görmədiyi bibioğlusundan tez-tez söhbət açır, onun haqqında qəribə əhvalatlar danışırdı.

Bu vaxt səs-küydən oyanan Məbrurə döşəkçənin qırağından yapışaraq ayağa qalxmış, balaca yumruqları ilə gözlərini ovuşdura-ovuşdura ağlamağa başlamışdı. Gənc həkim birdən ona tərəf döndü, heyrətlə:

– A, bu kimdir? – deyə soruşdu.

Ancaq sualının cavabını almadan onun kim olduğunu başa düşdu, uşağın çılpaq qollarından yapışıb onu havaya qaldırdı·

– "Məbrurə" dedikləri gözəl dilbər budurmu?

Uşaq hələ də üzünü əlləri ilə örtmüşdü, yatdığı vaxt dağılıb bir-birinə qarışmış qıvrım, sarı saçları üz-gözünü tamamilə örtüb gizlətmişdi.

Minbaşı ilə Məqbulə Lamiəni ancaq indi xatırladılar. Kamal bəy ətrafına baxaraq:

– Lamiə necə oldu? – dedi.

Məqbulə:

– A, doğrudan anamı lap yaddan çıxardıq, – deyə bağırdı.

Lamiə Kamal bəylə evləndiyi gündən Məqbulə ona həmişə "abla" deyirdi. Ancaq bir neçə dəfə zarafatla "ana" demişdi. Bu söz ikisinin də o qədər xoşuna gəlmişdi ki, Kamal bəyin etirazlarına baxmayaraq Məqbulə onu elə "ana" çağırmağa başlamışdı.

Kamal bəy:

– Lamiə... Lamiə – deyə çağırır, gənc qadın cavab verməyə cürət eləməyib səsini çıxarmırdı. Məqbulə onun otaqda olduğunu hiss edərək oraya cumdu, biləyindən tutub zorla çəkib gətirdi. Kamal bəy tək bir kəlmə ilə Lamiəni bacısı oğluna təqdim etdi:

– Dayıdostun.

Doktor Vədad qarşısında parlaq sarı saçları möhkəm hörülmüş, məsum çöhrəli, cəsarətsiz gözləri uzun kirpikləri arasında titrəşən çox cavan bir qız görüncə çaşıb qaldı. Hətta yüngülcə, gülümsəməkdən də özünü saxlaya bilmədi.

– Məqbulə sizə "ana" deməkdən utanmır, ancaq mən dayıdostu kimi əlinizi öpməyə hələlik cəsarət edə bilməyəcəyəm, – dedi.

Minbaşı Vədadın qucağında hələ də sakitləşməyən Məbrurəni ondan alıb təzədən döşək üstə oturtdu. Cavan həkim masanın yanında, bir az əvvəl Lamiənin oturduğu kresloda, Lamiə ilə Məqbulə də pəncərənin yanındakı stullarda oturdular. Kamal bəy:

– Yaxşı, cavan oğlan, indi danış görək, səni Kütahiyəyə nədən ötrü sürgün ediblər? Sən gərək ki, siyasətə-filana qarışan deyildin. Xəstəxanada başını aşağı salıb işləyirdin.

Qonaq başına gələn fəlakəti gülməli bir əhvalat danışırmış kimi, əylənə-əylənə nəql etməyə başladı:

– Heç vallah, bir elə mühüm şey deyil. Bir "qaragöz" məsələsidir. İndi dayıdostum mənə güləcək, ancaq gec-tez necə adam olduğumu biləcək Onun üçün elə çəkinmədən qoy danışım... Bilirsiniz, günlərlə xəstəxanada qalmalı oluram. Adamların dərdi ilə, ağrısı ilə, yaraları ilə əlləşə-əlləşə öz urəyim, beynim elə bil zəhərlə dolur... Sonra elə ki, oradan çıxdım, lap dəlixanadan qaçmış adama oxşayıram... Bir axşam məni bir yerə qonaq çağırmışdılar Burada bir "qaragöz" tamaşası göstərdim

Çox az-az gülən minbaşı özünü saxlaya bilmədi. Qəhqəhə çəkərək:

– Sən? "Qaragöz" tamaşası göstərmək? Bu yekəlikdə həkim. Sənin belə hünərin də var?

Vədad zarafata salıb cavab verdi:

– Nə edəsən? Bu məmləkətdə adamın günü elə keçir ki, əlindən gərək hər iş gəlsin. . Məsələn, Kütahiyədə çox qalmalı olsam, özümə bir iş tapmasam, onda gərək "qaragözçülük" edəm...

– Allah eləməsin. Heç qoyaram səni?

Məqbulə də gülməkdən özünü saxlaya bilmir, uğunurdu. O, Lamiənin yanından qalxıb Vədadın lap ayaqlarının yanında yerə oturmuşdu. Gənc həkim ona tərəf əyilərək:

– Çox maraqlanırsansa, bir axşam da sizin üçün göstərərəm... Hələ qoyun, bir az dincəlim, – dedi, sonra əlavə etdi: – Həmin qonaqlıqda İstanbulun adlı-sanlı adamlarından da səkkiz-on adam ilə üç-beş nəfər



də... xanım vardı. Ürəyinizə başqa şey gəlməsin .. Yaşlı xanımlar idi . O axşam zarafat etməyə, nəşələnməyə böyük ehtiyacım vardı. Öz əlimlə operasiya elədiyim sevimli bir dostum o gün vəfat etmişdi Nə üçün təəccüb edirsiniz?.. Mənim ürəyim nə qədər dərdli olursa, gülməyə, əylənməyə meylim də bir o qədər çox olur Bu da bir xasiyyətdir... Birdən könlümə bir zarafat eləmək duşdü. Tez bir az rəng və bir parça karton tapdım. Oraya tələsik üç karikatura çəkdim Axı bir az rəssamlığım da var. Salonun bir küncündə bir pərdə də asdırdım, hər şey hazır oldu. O axşam orada olanları gülməkdən qırıb tökdum... Mən onlara heç də "Qanlı qovaq" və "Yolova[1] səfası" tamaşalarını göstərmədim. Kaman və pianoda ifa olunan avropasayağı bir opera var. "Siyah yıldızlar" adlı gözəlcə bir şeydir. İstanbulda çox məşhurdur. Onu masqaraya qoymağa başladım Onu yazan bəstəkar da orada idi. Bizim yoldaşlardandır. Hamı ilə birlikdə o da xeyli guldü, ancaq əməlli-başlı hirsləndi də. Aradan bir səkkiz-on gün keçmişdi Bir axşam məni yenə bir yerə dəvət etdilər. Təbii məsələdir ki, getdim. Bir də gördüm ki, nazirlərdən biri də buradadır Hər şeyə məsxərə edir, ətrafdakılar da ona yaltaqlanırdılar. Kefim pozulmuşdu. Çıxıb getmək üçün bəhanə axtarırdım. Birdən boşboğazlardan biri nə desə yaxşıdır? "Əfəndimız, icazə verin qulunuz Vədad bəy bir "qaragöz" tamaşası göstərsin, xeyli əylənərsiniz". Beynim birdən qızdı. Dost-aşna arasında əylənmək üçün "qaragöz" tamaşası göstərmək heç də pis şey deyil. Ancaq özləri gülməli olanların arasına qarışmaq, nazir əyləndirmək? Çox acı bir cavab verməyə hazırlaşırdım. Ancaq nazir də o boşboğazlara uyaraq:

– Hə, Vədad bəy, bir məharətinizi göstərin görək, – dedi

İndi ölümmü, öldürümmü, bilmədim

– Əfəndim, inşallah, xəstəxanaya təşrif gətirərsiniz, onda mənim də məharətimi görərsiniz, – deyə cavab verdim. Qanan adam olsa idi, bu ona bəsdi. Ancaq o, görünür, sözümün əsil mənasını başa duşmədi Çox qəribə bir kobudluqla israr etdi. Məni də yəqin ki, ətrafında ona "bəli-bəli" deyənlərdən biri hesab edir, təsəvvüredilməz dərəcədə məğrur bir adam olduğumu bilmirdi. Öz-özümə: ""Qaragöz" tamaşası görmək istəyirsən, sənə bir dərs verim kı, heç yadından çıxmasın" dedim. Tez yan otağa keçdim. Çox uzunboylu, uzunqulaqlı, uzunbu-

[1] Mərmərə dənizi sahilində, İzmir körfəzinin cənubunda mədən suları, gözəl iqlim və təbiəti ilə böyük şöhrət tapmış məşhur bir kurort

runlu, uzun sivrı saqqallı bir karikatura çəkdim. Bu, nazirin lap öz şəkli idi... Sonra ona yaltaqlananlardan bir neçəsinin, nəhayət, aşnası şişman polyak qadının şəkillərini də çəkdim. Bu yaxınlarda nazirin başına gəlmiş bir biabırçılığı da... tamaşa üçün mövzu müəyyən etdim. Artıq sakit olmuşdum. Onları insafsızcasına lağa qoyur, hərdənbir pərdənin arasından üzlərinə də baxırdım. Tamaşaçılar arasında bir dəhşət qasırğası əsir, nazir özünü xamlığa vurub tamaşaya gülürdü. Ancaq üzü sapsarı olmuş, dodaqları, saqqalı titrəyirdi, gülüş necə də kinli, acı gülüşdü. Öz-özümə: "Ay Vədad "qaragöz" yaxşı keçdi, ancaq bu, nazir kimi sənə də yaman baha tamam olacaq", – dedim və oyunu "Ay ağalar, yol göründü yenə qərib gözümə", – deyə başlanan türkü ilə qurtardım.

Doğrudan da aradan heç iyirmi gün keçməmiş necə deyərlər, yox yerdən bir məsələ çıxartdılar. Günlərin birində məni həbs etdilər, kiçik bir istintaq düzəltdilər, ardınca da "qaragöz"də olduğu kimi "Ay ağalar..." türküsünü söyləməli olduq. Yoldaşlardan biri mənim bu halıma "Qaragözün Kütahiyə səfəri" adını verib... Başıma gələn qısaca olaraq bundan ibarətdir. Ardı da təfriqə ilə çap edilən romanlarda olduğu kimi qalsın sabaha. Çünki indi tez getməliyəm. Özü də gecikmişəm. Otel bağlanar, yad ölkədə küçədə-zadda qalaram.

Minbaşının acığı tutdu:

– Bu nə deməkdir? Burada dayının evi ola-ola sən oteləmi gedəcəksən? Dünyasında razı olmaram. Bu məni tapdayıb keçmək deməkdir. Eyib olsun, Vədad, eyib olsun!

Məqbulə də inciyir, and-aman eləyib onu saxlamağa çalışırdı. Ancaq Vədad sözünün üstündə möhkəm durmuşdu.

– Mümkün deyil, yoldaşlarım var. Özü də bilirsiniz ki, biz özbaşına deyilik. Polis bizi otelə sayıb təhvil verib. Gələn kimi qaçdığımı güman edərlər, o da mənim üçün bir iş olar. Halbuki, bu günlər işlərim xeyli yoluna düşüb...

Bu sözlərdən sonra minbaşı ilə qızı daha təkid etmədilər. Vədad da sabah yenə gələcəyini vəd edərək getdi.

## XX

Vədad qoca bir erməni arvadının evində olurdu. Kamal bəy onu öz evində saxlamaq istəmiş, bunun üçün Məqbulə də çox israr etmişdi.

Ancaq gənc həkim buna razı olmamış, "İstanbulda çox avara olmuşam. Odur ki, bu məcburi qürbət həyatından istifadə edib bir az



oxumaq, çalışmaq istəyirəm. Burada olsam Məqbulə məni başdan çıxarar, işimiz-peşəmiz lağlağılıq və qəhqəhə çəkmək olar" kimi sözlərlə qəribə bir şəkildə üzr istəmişdi.

Əslində isə ayrı olmaq istəməsinin səbəbi təzə dayıdostusu idi. O, bu qadının necə bir adam olduğunu bilmirdi. Minbaşının adam öldürmüş bir qadınla evləndiyini eşitdikləri vaxt İstanbulda əməlli-başlı dedi-qodu etmişdilər. Sonra Vədad bu cür cavan arvadı olan yaşlı kişinin hər şeydən narahat olacağını düşünmüşdü.

Bununla belə, göstərdiyi səbəblər də mənasız deyildi Vədad çox şən və qəribə görünməklə bərabər, yorulmadan çalışmağı, öyrənməyi sevən bir adamdı. Dünyaya ancaq gülüb əylənmək üçün gəlmiş kimi görünən bu zarafatcıl gəncin bəzən həftələrlə öz kitabxanasına çəkilib oturduğunu görənlər heyrət edirdilər.

Vədad tez-tez dayısıgilə qonaq gəlir, laübalı, zarafatçı və mülayim təbiəti sayəsində Lamiəni də yavaş-yavaş özünə isinişdirirdi.

Məqbulənin Lamiəyə "ana" deməsinə müqabil o da "qayınana" deyir, indidən Məbrurəyə "müştəri" çıxırdı.

Lamiə haqqında o, əvvələ yaxşı fikirdə deyildi. İstanbulda olarkən sənəti ilə əlaqədar hər sinifdən, hər təbəqədən cürbəcür adamlar görməsi Vədadın insanlar haqqında çox düşünüb daşınmaq vərdişini korlamışdı. Onun fikrincə dayısının belə qoca yaşlarında özü ilə bacara bilməyib aldığı bu qadın, yəqin ki, yaxşı adam deyildi. O, çox adi bir adam olmasını, əxlaqsızlığını kiçik bir tərbiyə pərdəsi ilə də olsa örtə bilməyən quşbeyin, işvəkar, səfil bir məxluq ola bilərdi. Onu gördükdən sonra da Vədad bu barədə fikrini dərhal dəyişdirə bilməmişdi.

Lamiənin sadə, hər şeydən çəkinən halına, məsum gözlərinə inanmır, öz-özünə:

– Sən, düşündüyümdən daha anlaşılmaz, hiyləgər bir şeysən, – deyirdi. – İstanbulda olsa idin, xeyli müvəffəqiyyət qazanardın. Gözəl komediya oynayırsan. Mən də inanmış kimi görünərək səfeh-səfeh sənə tamaşa edirəm. Ancaq arxayın ol, yalanını tutacağam. Biz səndən də bədtərini görmüşük. Belələri rollarını nə qədər məharətlə oynasalar da, yenə bir gün dodaqlarından qopan bir kəlmə ilə, vücudlarının bir hal və hərəkəti ilə, bütün keçmişlərini, necə bir adam olduqlarını büruzə verirlər. Eybi yoxdur, səni də bir gün tutarıq

Ancaq günlər keçir, Vədad qorxu və intizar ilə gözlədiyi hallardan heç birini onda görmür, "bu qadın, görəsən nədir, bir istisnamıdır,

göründüyü kimi də təmiz, günahsız bir biçarəmidir?" deyə şübhələr içində fikirləşirdi. Bir neçə dəfə məharətlə verilmiş suallarla onu keçmiş haqqında danışdırmağa çalışmış, ancaq bildiklərindən artıq bir şey öyrənməyə müvəffəq olmamışdı.

* * *

Bu gün Kamal bəy bacıoğlusuna Kütahiyə bələdiyyəsindən şikayət edir, bir neçə ay bundan əvvəl bələdiyyə mühəndisləri ilə elədiyi dava haqqında məlumat verirdi. Sözünün ən mühüm yerinə çatdığı vaxt Vədadın onu dinləmədiyini hiss etdi. İncimiş olduğunu gizlətmədən:

– Vədad, oğlum, – fikrin dağınıqdırsa, məni nahaq yerə yorma.

Vədadın qulağı bu zaman evin alt qatından gələn bir səsdə idi. O. Lamiənin güclə eşidilə bilən bir səslə oxuduğu mahnını dinləyirdi, heyrətlə:

– Qəribədir, dayıdostum bunu haradan öyrənmişdir? – deyə soruşdu. Sonra mınbaşının cavab verməsini gözləmədən aşağıya düşdü. Böyük bir masanın üstündə dalğın-dalğın paltar ütüləyən Lamiə onu görcək susdu. Vədad gülümsəyərək:

– Dayıdostu, siz bunu haradan öyrənmişsiniz?– dedi.

– Nəyi, Vədad bəy?

– Oxuduğunuz mahnını?

Lamiə özünü itirib, qızardı:

– Bilmirəm... Mən oxuyurdummu?

Vədad bərkdən bir qəhqəhə çəkdi.

– Bu çox qəribə oldu, dayıdostu... Oxuduğunuz mahnı həmin o dediyim "Siyah yıldız"ların ən gözəl bir yeridir. Şahzadə ilə Sultanın ay işığında deyişmələridir. Siz bunu haradan bilirsiniz?

– Elə-belə, İzmirdən yadımda qalıb.

– Bu elə-belə yadda qalan şeyə oxşamır. Düzdür, mən bunu elə o qədər də yaxşı başa düşmərəm. Ancaq həmin parçanı olduğu kimi, eyni elə təkrar edirdiniz.

Lamiə çətin vəziyyətdə qalmışdı. Həyəcanını göstərməmək üçün camaşır yığılmış səbətin üstünə əyilərək:

– İzmirdə olan zaman bu mahnını bəstələyən adam qonşumuza qonaq gəlmişdi, – dedi. – Həmişə bunu çalırdı. O vaxtdan yadımda qalıb.



– A, siz Hüseyn Kənanı tanıyırsınız?

Lamiə qısa bir tərəddüddən sonra başını salladı, mümkün qədər laqeyd bir səslə:

– Elə, bir-iki dəfə uzaqdan görmüşdüm, – dedi.

– Onu mən də tanıyıram. Allah cəzasını versin, başıma bu işin gəlməsinə bir az da o səbəb oldu. Belə ki, "qaragöz" məsələsi elə onun "Siyah yıldızlar"ı ilə əlaqədar ortaya çıxdı də

Buraya ilk gəldiyi gün "O"ndan və "Siyah yıldızlar"dan danışdığı dəqiqədən Vədad Lamiənin nəzərində başqa bir əhəmiyyət kəsb etmişdi. Gənc qadın Vədadı yenə "O"nun haqqında danışdırmaq üçün bəhanələr axtarır, suallar hazırlayırdı. Lakın Vədadla üz-üzə gəldiyi zaman buna heç cür cəsarət edə bilmirdi. Lamiəyə elə gəlirdi ki, "O"nun adını çəkərsə qəlbinin və həyatının bütün sirləri üzə çıxacaq.

Bu əhvalat Lamiəni qorxu və tərəddüddən qurtarmış oldu. Bu hadisədən sonra Lamiə Vədadla yalnız qaldığı vaxt bəzən bir bəhanə tapıb "O"ndan söz açırdı. Halı o qədər sakit, görkəmi o qədər laqeyd olurdu ki, gənc həkim ürəyinə başqa şey gətirmədən dostunun son illərdəki həyatı haqqında uzun-uzadı məlumat verirdi· indi Kənan əvvəlkindən daha böyük, daha məşhur bir adam olmuşdur Ancaq "Siyah yıldızlar"dan sonra heç bir yeni əsər yaza bilməmişdir. İl yarıma yaxın arvadı və qayınatası ilə bərabər Avropanı gəzmiş, bu il isə baharda İstanbula gəlmışdir. İndi arvadı ilə İstanbulda yaşayırdı. Keçən il qayınatasının başına gülməli bir eşq macərası gəlmiş, nəticədə o, bir polyak müğənnisi ilə evlənmişdır. Bu biabırçılıq bitib-tükənməyən dedi-qodulara səbəb olmuşdur. Həmin o məşhur "qaragöz" tamaşası göstərilən gecə Kənan Vədada bildirmişdı kı, bir-ikı günə qədər arvadı ilə bərabər İzmirə gedəcək.

Vədad ağlına başqa heç bır şey gətirmədən bunları söyləyir, Lamiə başını əlindəki krujevanın üstünə doğru sallayıb uzun kirpiklərini aşağı endirərək gözlərini yarıörtülü saxlayıb laqeyd halda onu dinləyır, toxuduğunun ilmələrini saymaqla məşğul kimi görünürdü

Vədad bır gün uzun-uzadı Cavidan haqqında danışdı

– Boylu-buxunlu, ətli-canlı, adlı-sanlı möhtərəm bir xanımdır. . Düzdür, mənim o tipli qadınlardan bir o qədər də xoşum gəlmir. Ancaq gözəl olmağına söz yoxdur... Bu bir-ıki ildə daha da gözəlləşmişdir. Evlənmələrinin həftəsi tamam olanda bir qonaqlıq vermişdilər . Mən də təsadüfən orada iştirak edirdim... Hələ də o axşamı xatırlayı-

ram. Ərlə arvad teatrlarda, operalarda aşiq-məşuqə rollarını oynayan məşhur artistlərə oxşayırdılar. Kənan yaxşı oğlandır... Ancaq onda bu yeni, zəngin həyatı "sonradan görən"lərə, xas bir əda vardır ki, bundan heç cür xilas ola bilmir Mən onu çoxdan tanıyıram... Yoxsul, adi bir gənc olan vaxtlarında sonradan kasıblaşmış bir kübara bənzəyirdi. Tanınmış və çox dövlətli bır adam olunca sonradan varlanmış bir əsnaf vəziyyətinə düşdü... Onun əvvəlki çekingən halı indiki süni zarafatlarından, ərköyün sərbəstliyindən nə qədər üstün idi... Nə isə bunlardan keçək...

O gecə hamının gözü onlarda idi... Dediyim kımi, Kənan gözəl qaməti, çöhrəsinə xoş bir görkəm verən mavi gözləri, nəzəri cəlb edən görkəmi ilə dram əsərlərində baş qəhrəman rolunu oynayan artistə bənzəyirdi. Bu həm xoş, həm də bir az gülünc görünürdü. Qonaqlar şahzadə Cavidanın vasitəsilə ondan kaman çalmağı xahış etdilər. Təbiidir ki, o saat razı oldu... Onun həmin gecə kaman çalmağını heç vaxt unuda bilməyəcəyəm... "Sənət məhəbbətdən ibarətdir" deyənlərə mən o gecə haqq verdim... Yandakı alaqaranlıq bir otağa girmişdi... Pəncərədən içəri ay işığı düşür... Üzü ilə bədənının bir tərəfini işıqlandırırdı... Elə şeylər çaldı ki, deyərdin o bu saat bizım dünyada yox, başqa bir dünyada yaşayır .. Xülasə, çox qüvvətli sənətkardır. Arvadı isə öz ağlına çox qürrələnir Məsələn, onun türk musiqisini görməyə gözü yoxdur. Ancaq buna baxmayaraq bir gecə Kənan ona bir türk ninnisi çalmış, Cavidan az qala dəli olmuşdur Deyilənlərə görə qadıncığaz iki ay müddətındə bu nınniyə qulaq asmadan yuxuya getmirmiş.

Vədad söhbətinə davam edir, onların məhəbbətlərinə daır bır çox şeylər danışırdı.

Lamiə bunları eşidərkən aldığı təsiri, həyəcanını büruzə verməmək üçün nəfəs çəkməkdən də qorxur, dalğın bir halda, kədərlə fikirləşirdi: "Vədad bunları mənə nahaq yerə danışır. İndi özümü zorla birtəhər saxlayıram. Ancaq tək qaldığım zaman, Allah bilır, nə qədər əzab çəkəcəyəm. Yenə gecələr yuxu mənə haram olacaq... Deməк, Kənan onu, iki ay mənim üçün çaldığı o nınni ilə yatırırmış".

Lakın Lamiə həmın gecə o qədər də iztirab çəkmədiyini, qəm və kədərinın gündüzkü azca dalğınlıqdan və təəssürdən ırəli getmədiyini heyrətlə gördü. Ertəsi gün qəlbinin büsbütün sakit olduğunu görüncə düşünməyə başladı: "Görəsən niyə çox narahat deyiləm? Məgər onu daha əvvəlki kimi sevmirəm? Bu ki, mümkün olan şey deyil. Mən ki,



nə qədər ömrüm var, bu məhəbbətə sadiq qalacağımı, onu unutmayacağımı bilirəm. Görünür, artıq bu acılara da alışmışam, ona görə çox iztirab çəkmirəm... İnsan hər şeyə alışır... Əlbəttə, belə olması daha yaxşıdır".

## XXI

Bu il qış çox şiddətli keçirdi. Kütahiyə həftələrlə günəş üzü görmürdü. Küçələr qar və palçıqdan keçilməz bir hala düşmüşdü Doktor Vədad indi hər gün Kamalbəygilə gəlir, evinə ancaq gecə yarısından sonra gedirdi. Qoca minbaşı ona "günəş bəy" deməyə vərdiş etmişdi. Onun gəldiyini görən kımi: "Gəl görək, günəş bəy, sən gələndə evimizə elə bil gün doğur", – deyirdi. Doğrudan da belə idi. Onun şən, zarafatcıl, oynaq təbiəti sayəsində evdəkilər qışın necə keçdiyini heç hiss etmirdilər.

Vədad uşaqla uşaq, böyüklə böyük olmağı bacarırdı. Məqbulə ilə bağçada saatlarla qartopu oynayır, Məbrurəni çiynində oturdub dəhlizdə at kimi o tərəfə, bu tərəfə qaçır, hətta bəzən mətbəxdə Əminə nənəyə kömək etməyə də gedirdi. Bir gün:

– Ah, Əmınə nənə, sənə yamanca vurulmuşam, – deyə onun boynunu qucaqlamışdı.

Zarafatı başa düşməyən arvad isə:

– Vay namusum əlimdən getdi... Bu evdə qalmağa qorxuram... Mən daha burada qala bilmərəm, – deyə bar-bar bağırmışdı.

Axşamlar Vədad dayısı ilə sobanın yanındakı yumşaq divanın üstündə oturur, saatlarla dama, nərd və kart oynayırdılar.

Bir gün Vədad onlara gəlmədi. Evinə iki dəfə adam göndərdilər, öyrəndilər ki, o gün İstanbuldan gəlmiş bir məmur yoldaşını görməyə getmişdir. Vədad o gün dayısıgilə ancaq gecəyarısına yaxın gəldi. Çox şən və məmnun görünürdü. Qardan ağappaq olmuş paltosunu soyunduqdan sonra cibindən bürüşük bir məktub çıxartdı, onu müzəffəranə bir şəkildə əlində oynadaraq:

– Yaşasın hürriyyət, – dedi. – İstanbula qayıdıram.

Bu qəfil xəbər evdəkilərdə soyuq və kədərli bir təsir oyatdı. Kamal bəy:

– Allah eşqinə, zarafat eləmə... Yox canım... Yalan deyirsən, – deyə şübhə ilə baxır, Məqbulə əllərini dizlərinə vuraraq ınıldəyır, fəryad edirdi

Vədad ucadan qəhqəhə çəkərək gülməyə başladı:

– Vay sizi, bunlar nə qəribə adamlardır, – dedi. – Öz kefləri üçün mənim burada illərlə sürgündə qalmağıma razıdırlar.

Kamal bəy gülərək izah etdi:

– Yox, elə deyil... Gözlənilməz olduğu üçün belə edirik... Yaxşı, bu xəbəri kim gətirdi?

Vədad soyuqdan qıpqırmızı olmuş üzünü isitmək üçün sobanın qapağını açdı və sözünə davam etdi:

– Mötəbər bir adamdandır... Ancaq buna baxmayaraq xəbər hələ tam həqiqət də deyil. Siz mənim bu cür qəti deməyimə baxmayın... Bilirsiniz ki, bir az mübaliğə etməyi sevirəm. Mənim üçün daxiliyyə nazirindən xahiş eləyiblər. O da bu işlə məşğul olacağına ciddi surətdə söz verib... Hələlik bu qədər. .

Məqbulə dərindən bir nəfəs aldı, sevincini gizlətməyə lüzum görmədi:

– Hökumət adamları bolluca vəd verirlər, – dedi. – Ancaq sözünün üstündə duran kimdir ki.

Kamal bəylə Vədad yenə nərd oynamağa başlamışdılar. Məqbulə hər zamankı kimi başını atasının çiyninə dayayaraq oyuna tamaşa edirdi.

Lamiə isə əlində tikiş, lampanın yanına çəkilmişdi. Hərdən gözünün ucu ilə Vədada baxaraq düşünürdü: "Vədad gedəndən sonra dərd-qüssə yenə dövrəmi alacaq. O, burada olanda heç olmasa, ara-sıra mənə "O"ndan danışırdı. Mən "O"nu nə qədər sevirmişəm. Belə çox sevməsə idim, heç "O"nun yoldaşına bu qədər əhəmiyyət verərmi idim?"

## XXII

Ertəsi gün Lamiə Məqbulədə qəribə bir hal hiss etdi. Hara gedirdisə, qız daima onun dalınca gəlir, nə isə demək istəyir, lakin cəsarət eləmirdi. Bir ara o, Məbrurəyə paltar gətirmək üçün sandıqların saxlanıldığı yuxarı mərtəbəyə çıxdı. Aşağı düşəndə Məqbuləni yenə qarşısında gördü. Qız qorxa-qorxa:

– Abla... Lamiə abla... – dedi.

Kamal bəylə evləndikləri vaxtdan bəri ilk dəfə idi ki, Məqbulə ona bu cür müraciət edirdi. Lamiə diqqətlə qızın üzünə baxaraq:

– Sənə nə isə bir şey olmuşdur, Məqbulə, – dedi. – Səhərdən bəri görürəm hey ardımca gəzirsən.



Qız diksindi:

– Heç... Heç bir şey olmamışdır... Elə bil ..

Lamiə yaxşı bir ana nəvazişi ilə:

– Yaxşı, qızım... Nə dərdin var, danış mənə, – dedi.

Məqbulə kiçik bir tərəddüddən sonra ürəkləndi·

– Abla... Mən sevirəm, – dedi.

Məqbulə bu sözləri elə qəribə bir əda ilə dedi ki, Lamiə gulməkdən özünü saxlaya bilmədi, qızın yanağına bir çırtma vuraraq:

– Hanı, bəs deyirdin Nail bəyin adını bir də çəkməyəcəksən, – dedi. "Artıq nifrət edirəm", deyə and içirdin...

Məqbulə qəribə xasiyyətli bir qızdı. Hər iki aydan bir tanıdığı, gördüyü kişilərdən birini uzaqdan-uzağa sevməyə başlayır, Lamiə ilə uzun-uzadı bu barədə dərdləşir, "atam məni ona verməsə vallah, billah, öləcəyəm", – deyə ağlayırdı.

Lamiənin ona acığı tuturdu. Məqbulənin onu heç saymadan belə incə şeylərdən söhbət açması Lamiənin ciddi olaraq duymağa başladığı "ana"lıq heysiyyətinə toxunurdu. Sonra bu işlərdən Kamal bəyin xəbər tutub acıqlanacağından da qorxurdu Həm də Məqbulə kimi ərköyün bir qızla məşğul olmağa onun imkanı yoxdu. Ancaq bu qədər çox adamı sevən bu qızın bir yaxşı cəhəti də vardı; o, özü-özlüyündə sevib-sevilir, bu qədər müxtəlif bəy və əfəndilərdən heç birinin isə sevildiklərindən xəbərləri olmurdu. Təsadüfən küçədə biri ona söz atarsa, Məqbulə o saat dönüb sərt cavab verir, dəcəl məktəb şagirdləri kimi dava salardı.

İndi qız "Nail" adını eşitcək üz-gözünü büzüşdürdü.

– Mən Naildən danışmıram, abla, – dedi. – O alçaq hərif mənim nəyimə lazımdır?

Lamiə yenə gülümsədi·

– Onda, o cavan piyada leytenantı, Rəfiq bəyi deyirsən? Bilirsən ki, Rəfiq bəyin İstanbulda nişanlısı var.

– Eh abla, mən məgər Rəfiq bəydən danışıram?

– Bəs kimi deyirsən?

Məqbulə gözlərini yenə endirdi. Lamiənin lacivərdi yun jaketinin düyməsini burub dartışdıraraq:

– Mən Vədadı sevirəm, – dedi.

Lamiə nə deyəcəyini bilmədi. Başqa birisinin bu sözləri eşitməsindən qorxurmuş kimi:

– Vədadı sevirsən? Aman Məqbulə, nə etdiyini, nə danışdığını düşünürsənmi?

Məqbulə ağlamsınaraq onun boynuna sarıldı.

– Nə edim, ablacan... Bu ürəkdir... Ürəyim gedir ondan ötrü. Sən Allah, mənə bir yol göstər. Lamiə abla, nə etsən, yenə sən edəcəksən. Vallah, biliah, öləcəyəm.

Bu məsələ Lamiəni ciddi düşündürməyə başladı. Otağın aralı qalmış qapısını örtdü, sonra ağır-ağır, ciddi və mehriban bir səslə:

– Məqbulə, – dedi, – bilirsən ki, mən müəyyən dərəcədə sənin anan sayılıram. Hər halda bu məhəbbət də dediyin o birilər kimi gəlib-keçici bir şey olacaqsa .. Dayan sözümü kəsmə... Vədad bəy bu evdə hamımıza qardaş kimidir. Allah eləməmiş, bir şey hiss eləsə, hamımız biabır olarıq...

Məqbulə əsəbi bir səbirsizliklə ayağını yerə vurdu:

– Uf, Lamiə abla... Məni başa düşmürsən. Mən deyirəm "yanıram"... Mən Vədadın arvadı olmaq istəyirəm... Burada gözəl bir toy eləyərsiniz.. Sonra da İstanbula gedəndə məni də özü ilə götürüb aparar... Ah, bu necə yaxşı olar! Atamla sən də İstanbula qonaq gələrsiniz. Vədada mən, kim bilir, sənə necə hörmət...

Lamiə qeyri-ixtiyari gülərək onun sözünü kəsdi:

– Sən allah, uşaq olma, Məqbulə. Ortada heç bir şey olmaya-olmaya belə ümidlərə qapılma.

– Görəsən Vədad da məni sevirmi, Lamiə abla? Çox elə kifir-zad da deyiləm axı... Danışsana, Lamiə abla!

O, əsəbi əlləri ilə Lamiəni silkələyir, zorla qucağına alıb otağın içində fırlandırırdı.

– Vədad da məni sevər, elə deyilmi! Desənə!

– Eləmə, Məqbulə. İncitmə məni! Mən nə bilim?

– Ablacan, mənim səndən yaxın heç kəsim yoxdur... Bunu olsa-olsa, ancaq sən başa düşə bilərsən.

– Mən bunu haradan başa düşə bilərəm? Sən dəli olmusan nədir, Məqbulə?

– Sən məndən daha ağıllısan, ablacan... Vədada özümü sevdirmək üçün nə edim? Nə deyim?.. Nə cür geyinim? Yad olsa idi bu, asan idi. Çox çətinə düşəndə uzaqdan bir işarə edərsən, məktub göndərərsən, qurtarar gedər.

Lamiə özünü saxlaya bilməyib güldü:



– Sən düşündüyümdən də çox uşaq imişsən, Məqbulə.

Qız bundan cəsarətə gələrək daha da başqa cür rıcalar etməyə başladı:

– Quzum, Lamiə ablam... Sən bir onun ürəyindən keçənləri öyrənəydin... Görək mənim haqqımda nə fikirləşir... Nəyimi bəyənmir.. Mən də ona görə hərəkət edim. . Bəlkə elə o da məni sevir. . Bu yaxşılığı mənə edərsənmi, Lamiə abla? Nə olar?. Sən birini sevsən, mən sənə... Ay, ay... Gör nələr danışıram. Tövbə, tövbə... Onsuz da əslində ağlım o qədər də çox deyildi... Olan-olmaz ağlım da başımdan çıxıb.

Lamiə bu işdə kömək edə bilməyəcəyini açıqdan-açığa Məqbuləyə söylədi. Ancaq qız əl çəkmədi, zorla onu tək otağa salıb, qapını daldan bağladı, saatlarca dərdini ona açıb-tökdü, ağlayıb-sızladı, əllərini, üzünü öpərək yalvardı.

Lamiədən ümidini kəsəndən sonra gülünc, hətta təhlükəli çarələr düşünməyə başladı: Vədadın cibinə məktub qoymaq, Əminə nənə vasitəsi ilə ona xəbər göndərmək, bibioğlusu ilə açıqdan-açığa bu barədə danışmaq...

Lamiə onun belə dəliliklər edə biləcəyini düşünür, bir biabırçılıq baş verəcəyindən qorxurdu. Qızın halında əmələ gəlmiş qəribəliyi evdəkilər də hiss etməyə başlamışdılar. O, uşaq kimi şıltaqlıq edir, dalğın, kobud hərəkətləri ilə rastına düşən şeyləri vurub yıxır, tək qalanda evi başına götürüb, uca səslə qəzəllər oxuyurdu. Vədadla rəftarı dəyişmiş, bəzən özünü işvəli qız kimi aparmağa başlamışdı. Heç bir münasibət olmadığı halda bəzənir, gözlərinə sürmə çəkir, qəribə görkəmlər alaraq onunla ciddi mübahisələrə girişmək istəyirdi. Vədad bəzən bu qeyri-adiliklərin heç fərqinə varmır, bəzən də belə şeyləri lağa qoyurdu. Bu vaxt Məqbulənin cin başına vurur, aşiqanə bir tərzdə başlanan bu səhnəni uşaq kimi səs-küylü bir dava ilə başa çatdırırdı

Vədad xeyli vaxtdı ki, dayısının tanışlarından birini müalicə edirdi. Bir gün yemək vaxtı Məqbulə onun ağzını aradı:

– Mahmud bəyin bir də mən yaşda qızı var... Meymun sifət... Lap atasına oxşayır.

Vədad güldü:

– Bağışlayarsınız, xanım qız, – dedi. – Nəbilə xanımı hər dəfə gedəndə görürəm. Çox şirin qızdır. Ya elə ondakı o süzgün gözlər, o boy, o buxun...

Kamal bəy zarafat eləməyə başladı·

– Bəyənirsənsə, alaq onu sənə, Vədad.
Məqbulə birdən-birə özündən çıxdı:
– Afərin ata, dedi. – Axtarıb-axtarıb o gicbəsəri tapdın! O qız bəzək-düzək gözəlidir... Özü də elə əxlaqsız və fitnə şeydir ki. Amma madam ki, Vədad bəy bəyənir... Allah mübarək eləsin... Əslində kişilər elə zövqsuz olur...
Bir axşam Məqbulə Vədadı küçə qapısına qədər yola salırdı. Ayrıldıqları vaxt:
– Sabah öz əlimlə sizin üçün xurma kətəsi bişirəcəyəm, mütləq gələrsiniz, yaxşımı? – dedi.
Ertəsi gün axşam yemək vaxtı çatmasına baxmayaraq Vədad gəlib çıxmamışdı. Məqbulə toya gedirmiş kimi geyinmişdi. Pəncərənin qabağında dayanıb səbirsizliklə Vədadı gözləyirdi. Onun Mahmudbəygildə olmasına şübhəsi yox idi.
Kamal bəy süfrəyə oturdu:
– Uşaqlar, Vədad deyəsən gəlməyəcək... Gəlin biz çörəyimizi yeyək, – dedi.
Məqbulə hiddətlə pəncərəni örtdü. Qaş-qabağını sallayıb:
– Mənim başım ağrıyır, yemirəm, – dedi. Qapıları çırparaq, dabanlarını yerə bərk-bərk vura-vura öz otağına getdi, paltarını cırırmış kimi çıxardıb atdı, hirsindən ağlayaraq yatağına girdi.
Kamal bəy.
– Xeyli vaxtdır bu qızın təbiətində bir sərtlik əmələ gəlib, ancaq səbəbini başa düşə bilmirəm, – dedi.
Lamiə çiyinlərini çəkərək:
– Bilmirəm .. Fikir verməmişəm, – deyə cavab verdi.
Yemək qurtarmaq üzrə idi. Birdən qapı döyüldü. Vədad təlaşla içəri girdi:
– Qorxmağa haqqım var imiş... Yaxşıca ac qalacaqdım. Heyvərənin biri məni yamanca laqqırtıya tutmuşdu. Hanı, bəs Məqbulə haradadır?
Kamal bəy cavab verdi·
– Nə səbəbdənsə başı ağrıyır... Bilmirəm, ona nə isə olub.
– Bir başağrısından ötrü yeməkdən boyun qaçırarlarmı, canım? Gəlsin, mən onu sağaldım. Haradadır, öz otağındadırmı?
O, yuxarı mərtəbəyə qalxmaq istəyirdi ki, Lamiə ayağa durdu:
– Qoyun, mən çağırım, – dedi.
Məqbulə qapını bağlamışdı. Əvvəl Lamiəyə cavab vermədi. Sonra hiddətli bir səslə:



– Nə var? – deyə soruşdu.
– Dur gəl, Məqbulə... Vədad bəy gözləyir. Sonra inciyər...
Məqbulə acıqla yorğanı başına çəkdi·
– İnciyər, qoy incisin... Lazım deyil... Canı sağ olsun, – dedi.
Lamiə yemək otağına qayıtdığı vaxt gülümsəyirdi. Sadəcə:
– Deyəsən yatmışdır, – dedi.
Kişilər sözü çox uzatmaq istəmədilər. Ayrı məsələlər haqqında danışmağa başladılar. Süfrədən qalxmaq istədikləri vaxt qapı açıldı. Məqbulə sallaq çöhrəsində dalğın və utancaq bir təbəssüm olduğu halda içəri girdi. O, geyinib-kecinmiş, saçlarını tələm-tələsik düzəltmişdi. Vədad onu qızarmış burnu ilə döyüşə hazırlaşmış bır xoruz vəziyyətində görürkən özünü saxlaya bilmədi, qəhqəhə ilə gülməyə başladı·
– Xanım qız, bu nə sir-sifət, bu nə haldır?
Məqbulə hirslənərək:
– Sirim-sifətim hər nədir, odur... Sız öz üzünüzə baxın,– dedi.
Qabağına baxmadan yeriyərkən ayağını bilmədən yemək məcməyisinin kənarına basdı. Mis qablar cingildədi.
Kamal bəy artıq özünü saxlaya bilmədi:
– Nə olub, mısmırığını nə sallamısan? – deyə soruşdu – Deyəsən döyülməyin çatıb. Nə bədxasiyyət olmusan. Yoxsa ərə getmək istəyirsən?
Tam nazlanmağa hazırlaşdığı bir vaxtda Vədadın yanında eşitdiyi bu sözlər Məqbulənin qüruruna bərk toxundu Amma atasına cavab verməyə cəsarət etmədi. Əlləri ilə üzünü tutaraq otaqdan bayıra atıldı. Sürətlə yuxarı cumdu. Pilləkənın ortasına çatdıqda əsəbiliyi tutdu, pillələrdən birinin üstünə tırtap düşərək çırpınmağa, əcaib bir səslə·
– Ay ürəyim getdi, boğuluram, ölürəm... Vay, vay, vay... Aman, aman, aman, – deyə qışqırmağa başladı Otaqdakılar əllərində lampa, su qabı tez qaçıb gəldilər, qızı çiyinlərindən, ayaqlarından tutaraq yuxarı çıxartdılar. Lamiə onun başını dizləri üstə alaraq üzünə su səpir, biləklərini ovuşdurur, Kamal bəy lampa tutaraq:
– Allah sənə lənət eləsin, – deyə soylənir. Vədad bu hala gülməkdən özünü saxlaya bilmirdi.
Az sonra Lamiə ilə Vədad tək qalmışdılar. Bir-birinə baxaraq gülməyə başladılar. Vədad mənalı bir baxışla:
– Siz bu məsələyə necə baxırsınız, dayıdostu? – deyə soruşdu
Lamiə saxta bir heyrətlə qaşlarını qaldıraraq cavab verdi:
– Bilmirəm... Yəqin bir az kefsizdir.

– Nədəndir, görəsən?

– Kim bilir?

– Siz heç bir şey hiss etməmisiniz?

– Xeyr...

Sonra ikisi də susdu. Vədad bir kağız parçasından qayıq düzəltməklə məşğul kimi görünürdü Lamiə hərdənbir gözlərini onun üzünə dikir, bir şey demək istəyir, ancaq cəsarət eləmirdi. Nəhayət yavaşdan, titrək bir səslə:

– Vədad bəy, – dedi. – Mən Məqbulənin anası sayılıram, elə deyilmi?

Vədad başını aşağı saldı, onunla əylənir kimi görünərək:

– Buna şübhə ola bilərmi, xanım əfəndi?

– Buna necə baxılır baxılsın, mən onun anasıyam, Vədad bəy. Məqbuləni öz qızım hesab eləmək mənim borcumdur. Ona görə də, xahiş edirəm, deyəcəyim sözlər sizə qəribə görünməsin. İndi mən sizdən soruşuram, siz də heç bir şey hiss etməmisiniz kı?

– Xeyr... Necə məgər?

– Necə ola bilər? Mümkün deyil...

Vədad bir-birilərinin məqsədini çox gözəl başa düşdüklərini göstərirmiş kimi gülümsədi:

– Ola bilər, dedi. – Ancaq indi ki başlamısınız, davam edin. Məndən heç bir şey soruşmayın.

– Mənim hiss etdiyimə görə qızım... sizi sevir.

– Çox təəssüf ki, bu belədir, Lamiə xanım... Xeyli vaxtdır mən də bunu hiss edən kimiyəm... Siz bu işə nə deyirsınız?

– Nə deyim... Siz də onu sevsəniz çox sevinərəm... Qayınananız olmağı, əlbəttə, istəyərəm

– Elə indi də sizə "qayınana" demirəmmi? Bəs Məbrurə?

– Rica edirəm. Vədad bəy... Biz ciddi danışırıq, elə deyilmi?

– Məqbulə ilə mənim evlənməyim məsələsindən ciddi danışmaq olarmı, Lamiə xanım? Buna siz razı olarsınız?

– Niyə razı olmaram? Yazıq qız sizi çox sevir.

– Düzdür, ancaq bu kafi deyil... Bilirsiniz, mən elə bir adamam ki.. Bu işin mümkün olmayacağına səbəb göstərmək də gülünc çıxar.

– Elədir. Ancaq hamımız çətin bir vəziyyətdə qalırıq, Vədad bəy.

– O da düzdür. Vay, Allah cəzasını versin... Bir yol tapıb buradan çıxıb gedə bilsəydim, bu məsələ asanlıqla həll olunardı. İndilik heç olmasa, gərək ayağımı sizdən kəsəm.



– Bu necə olar? Dayınız sizdən şübhələnməzmi?

– Yəqin ki, şübhələnəcək... Vay, vay, o kişini narahat edəcəyik. Vay səni, qız. Hər halda başqa bir çarə yoxdur, Lamiə xanım. İşlərimin çox olduğunu bəhanə edib lap az gəlib-gedərəm.

Lamiə məhzun-məhzun:

– Yazıq Məqbulə, – dedi. – Kim bilir nə qədər əzab çəkəcək.

– Hər halda bu keçib-gedəsi həvəsdən başqa bir şey deyil, Lamiə xanım. Bəs indi sevdalı Məqbulə hardadır?

## XXIII

Vədad dayısının evinə çox az-az gəlməyə başlamışdı. Tibbə dair bir kitab yazmaqla məşğul olduğunu söyləyir, həftədə bir-iki dəfə də bəzi yoldaşları ilə bərabər ova gedirdi. Məqbulə kitab yazmaq və ova getməyin onlara gəlməmək üçün bir bəhanə olduğunu hiss etmişdi. Şıltaqlığı, əsəbiliyi gündən-günə artırdı.

– Sən məni düşünmürsən, sən istəsən dərdimə çarə taparsan, – kimi mənasız şikayətlərlə Lamiəni təngə gətirirdi.

Bahar yaxınlaşdığı halda havalar hələ də heç cür düzəlmir, yenə də qar yağırdı.

Lamiə bir gün xəstə bir qonşunu yoluxmağa getmişdi. Orada rast gəldiyi bir qoca arvad sözarasında pis bir xəbər verdi.

– A qız, eşitmisinizmi? – dedi. – Bu gün ovda bir hadisə olub. O qoca erməni arvadı Mardik dudunun[1] evində yaşayan sürgün həkim var ha... O bu gün ovda yaralanıb, xərəkdə xəstəxanaya gətiriblər.

Lamiə xəfif bir fəryad qopardı. Rəngi qaçdı.

– Doğrudanmı, xanım? Harasından dəyib? Görəsən yarası ağırdırmı? – deyə soruşdu.

– Bilmirəm, qızım. Mən də bizim muxtarın[2] gəlinindən eşitmişəm.

Ev sahibləri xəstəxanaya adam göndərməyi təklif etdilər. Ancaq Lamiə o vaxta qədər səbir edə bilməyəcəyini söyləyərək küçəyə çıxdı Əvvəl tələsə-tələsə evə getmək istədi. Gedib məsələni Kamal bəylə, Məqbuləyə xəbər vermək fikrində idi. Ancaq yolda ağlı bir az başına gələndən sonra bunun doğru iş olmayacağını düşündü. Vədadın yarası

[1] Yaşlı erməni qadınlara edilən müraciət forması

[2] Türkiyə kəndlərində yüzbaşı (kəndxuda), qəsəbə və şəhərlərdə isə məhəllə və rayonları idarə edən dövlət məmuru

çox elə qorxulu deyilsə, ərini nahaq yerə niyə narahat etsin. Sonra Məqbulə də bəlkə çox narahat oldu, yenə özündən gedərək onları təzədən işə sala bilərdi. Evə getməmiş bir yerdən bunu yaxşı öyrənmək pis olmazdı. Vədadın yaşadığı mənzilin sahibi Mardik dudu indi hadisədən yeqin ki, yaxşı xəbərdar idi.

Lamiə bir tinə çatanda yolunu dəyişdi, sürətlə Vədadın olduğu evə tərəf getməyə başladı. Qapıya yaxınlaşdıqca pis bir xəbər eşitmək qorxusu ilə ürəyi çırpınır, gözlərinin qabağı qaralır, ayağının altını görə bilmirdi Mardik dudu böyük bir həsir yelpinclə həyətdə yandırdığı manqalı alışdırırdı. Lamiənin qapıdan girdiyini görəndə heyrət etdi. Əllərini belinə qoyaraq:

– Xeyr ola, xanımcan? Xeyir xəbərdir, inşallah? – dedi.

Lamiə həyəcanını boğmaq üçün əlini ürəyinin üstünə qoyaraq:

– Qəziyyəni eşitməmisiniz? – dedi.

Qadın özünü itirdi:

– Hansı qəziyyəni?

– Vədad bəy ovda yaralanıb... Xəstəxanaya gətiriblər. İndi biz nə etməliyik?

Qoca qadın qəhqəhə ilə güldü, sonra pilləkəndən yuxarı səslənərək:

– Vədad bəy... Bir aşağı düş... Gör kim gəlib, – dedi.

Vədad Lamiəni qara, palçığa batmış, həyəcandan səsi, nəfəsi kəsilmiş bir halda həyətdə dayanmış görəndə yerində donub qaldı:

– Dayıdostu, olmaya, bizimkilərdən birisinin başına bir iş gəlib?

Lamiə həyəcan və sevincdən danışa bilmirdi. Mardik dudu onun əvəzinə cavab verdi·

– Eşidiblər ki, səni yaralayıblar, xəstəxanaya aparılmısan.

– Məni yaralayıblar? Bunu kim özündən düzəldib? Dayım da bunu eşidibmi, dayıdostu?

Lamiə başı ilə "yox" işarəsini verdi, sonra kəsik-kəsik sözünə davam etdi:

– Mən bunu bir tanışgildə eşitdim. Dayınızı qəfildən qorxutmaq istəmədim . Birbaş buraya gəldim. Ah, Vədad bəy, necə də qorxmuşam Demək, yalan deyiblər...

Lamiənin bədəni hələ də titrəyir, gözləri parıl-parıl yanırdı. Vədad gülərək cavab verdi·

– Tamam yalan da deyil. Ancaq sizə xeyli şişirdib deyiblər. Yaralanmağına yaralanmışam Amma bu çox əhəmiyyətsiz kiçik bir şeydir.



Bunu deyərək Vədad əlini irəli uzatdı. Lamiə xəfif bir fəryad qopardı. Vədadın sağ əli ağ tənzif ilə sarılmışdı.Bunu heç ev sahibəsi də hiss etməmişdi. Vədad həmişə olduğu kimi yenə zarafatından qalmadı:

– Mənim ovçuluğum elə belə olar. Tüfəngi atarkən çaxmaq ovcumun dərisini siyirib. Əlbət ki, səkkiz-on damcı qan da axıb. Qayıdanda bir aptekə girdim. Bir az tənzif aldım. Bir az da səy etsəydilər, mənim üçün "öldü" xəbərini çıxara bilərdilər. Siz doğrudan nahaq yerə narahat olmusunuz, dayıdostu.

Lamiə getməyə hazırlaşırdı. Mardik dudu onu buraxmaq istəmədi

– Bu qədər yol gəlmisən. Bir az dincəl.

Lamiə tərəddüd etdi:

– Gecdir. Bəlkə evdəkilər də eşidiblər... Dayınızla Məqbulə narahat olarlar.

Vədad ona haqq verdi:

– Əlbəttə, əlbəttə, gecikməyin, – dedi.

Ancaq Mardik dudu təkid etdi:

– Necə ev sahibisən, ay Vədad bəy! Beş dəqiqə... Sənə təzə çay dəmləmişəm... Xanıma bir stəkan verməyək?.. Bir bax, gör necə üşüyüb. Bir az əli-ayağı qızışsın...

Lamiə doğrudan da çox üşümüşdü, hərdənbir elə titrəyirdi ki, dişləri bir-birinə dəyir, göyərmiş barmaqlarını ağzına aparıb nəfəsi ilə isidirdi.

Mardik dudu onları öz qonaq otağına apardı. Həyətdəki manqalı da gətirib oraya qoydu:

– Siz qızının, mən bu saat çay hazırlayıram, – dedi. Ev yiyəsi bu balaca otağı ancaq çox əziz qonağı gələndə açardı. Bütün qiymətli şeyləri və ərindən qalan yadigarları burada idi Vədad yırtıqları yaşıl parça ilə yamanmış göy atlazüzlü divanda oturdu.

Lamiə balaca skamyanı götürüb manqalın yanında əyləşdi Qızındıqca sızıldayan barmaqlarını ovuşdururdu:

– Allah razı olsun ev sahibinizdən, donacaqdım, – dedi.

Divarlar cürbəcür müxtəlif parçalardan qurama "xalılar"la örtülü idi. Ev sahibəsi ailə fotoşəkillərindən tutmuş qəzet, kitab rəsmlərinə qədər əlinə nə keçmişdisə, bu "xalılar"ın üstünə asmış, tikmiş, yapışdırmışdı. Vədad səsini alçaldaraq danışırdı:

– Mənim ev sahibəm doğrudan əntiqədir... Dünyada bu otaqdan daha gülünc, daha əyləncəli bir muzey təsəvvür eləmirəm... Hələ bir

ətrafınıza baxın. Bu uzundəstəkli, qaşıq kimi şey bir növ qaşovdur, "rəhmətlik" əri bununla dalını qaşıyırmış. Bu nal vaxtilə anası gəlin gedəndə mındiyi qatırın nalıdır. Bu taxta qutuya babası vaxtilə qızıl doldurarmış. Bunları mənə bir-bir özü danışıb.

Ev sahibəsi əlində çay qabları içəri girdi. Vədad söhbəti dəyişdi, bu dəfə Məqbulədən danışmağa başladı:

Dayıqızısının şıltaqlığı, münasibətsiz hərəkətləri ilə çox əylənir, Məqbulənin bəzi hallarını, vəziyyətlərini elə gözəl təqlid edirdi ki, Lamiə qəhqəhə çəkib gülməkdən özünü saxlaya bilmirdi.

Buna baxmayaraq Lamiyə yenə bu fürsətdən istifadə edərək qızı müdafiəyə başladı:

– Nə qədər insafsızsınız, Vədad bəy! Məqbulə pis qız deyil. Bir az ərköyün, bir az da sadədildir. Ancaq siz onu istədiyiniz kimi tərbiyə edə bilərsiniz. Sonra bir şeyi nəzərə alın ki, yazıq qız sizi çox sevir. Onun əzab çəkdiyini gördükcə, mən də özümü pis hiss edirəm.

Lamiə bunları söylərkən hərdənbir barmaqları ilə gicgahlarını sıxırdı. Vədad sözünü kəsərək:

– Deyəsən kefiniz yoxdur?

Lamiə·

– Başım bir az ağrıyır, gözlərimin qabağı da hərdən qaralır, – dedi. – Bir şey deyil. Keçər. Yəqin bir az əvvəl keçirdiyim qorxu və həyəcanın nəticəsidir.

Yenə Məqbulədən bəhs etməyə başlamışdı. Vədad da indi ağır və ciddi danışırdı. Bu qızla evlənməsinin nə üçün mümkün olmadığını uzun-uzadı izah edirdi.

Vədadda da bir az əvvəlki neşə və canlılıq yoxdu. Başında şiddətli ağrı, bədənində bir əzginlik hiss edirdi. Yavaşca əsnəyərək:

– Nə cansıxıcı gündür, Lamiə xanım, – dedi. – Ətraf da elə bil, lap qaranlıqlaşıb. Mən də sizin kimi özümü yaxşı hiss eləmirəm. Heç olmasa bir az yaxşılaşdınızmı?

Lamiə cavab vermədi. O, sağ qolunu yanındakı divana dayamış, alnını biləyinə söykəmişdi. Bu təbii bir oturuş deyildi. Çiyinləri yavaşca titrəyir, sol qolu yanına sallanmışdı.

Vədad yerindən çətinliklə qımıldandı:

– Dayıdostu, özünüzü pis hiss edirsiniz? – deyə soruşdu.

Lamiə yenə cavab vermədi. Vədad ona tərəf əyildi, sualını təkrar edərək çiynınə toxundu. Lamiənin qolu birdən-birə divanın kənarından sürüşdü, bədəni cansız bir şey kimi yerə yuvarlandı.



Vədad ona kömək etmək istəyir, lakin dəhşətli yuxu içərisində imiş kimi əl-qolu hərəkət etmirdi. Şaşqın bir nəzərlə ətrafına baxmağa başladı. Otaq bir quyu kimi qaralıb dərinləşir, uzaq, boğuq əks-sədalar eşidilirdi. Birdən bu qaranlığın içində gözləri ağzınacan közərmiş kömürlə dolu manqala və onun üstündə hələ də yanıb-sönməkdə olan mavi alova dikildi. Başlarına nə gəldiyini ancaq indi anladı. Qışqırmaq istədi, səsi çıxmadı. Son qüvvətini toplayaraq qapıya tərəf bir neçə addım atdı. Birdən ayaqları bir-birinə dolaşdı. Ancaq yıxılarkən qapıdan yapışdı, qolunun bərkdən toxunması ilə onu açmağa müvəffəq oldu.

## XXIV

O gecə Lamiənin huşu özündə olmadı. Bədəni od içində yanır, ara-sıra anlaşılmaz sözlər deyərək sayıqlayırdı.

Ertəsi gün ağır bir yuxudan oyandığı vaxt havanı açılmış gördü. Göy üzü islanmış bənövşə rəngində idi. Göz işlədikcə uzanıb gedən qarlı mənzərələr üstünə parlaq bir bahar güneşi doğmuşdu.

Lamiə taqətsiz və yorğundu. Ancaq axşamın böhranından əsər-əlamət qalmamışdı. Əksinə, qəlbində bu gözəl səhər kimi təzə və yüngül bir şey hiss edirdi.

Pəncərənin yanında sakitcə oturub tikiş tikən Əminə nənədən Məbrurəni istədi. Uşağı yanında oturdaraq saçlarını daradı. Bu zaman Məqbulə də otağa gəldi. Lamiə gözləyirdi ki, qız indi onun boynuna sarılacaq, yatağının yanında oturaraq, dünənki əhvalatı mübaliğəli bir şəkildə danışacaq. Lakin Məqbulə bu gün nəşəsiz və durğun görünürdü. Başını da ağ bir yaylıqla möhkəm bağlamışdı. Lamiənin suallarına bir-iki kəlmə ilə cavab verdi. Sonra bir iş bəhanəsi ilə otaqdan çıxıb getdi.

Kamal bəy də görünmürdü. Lamiə bu gün ərinin və ögey qızının ona qarşı bu qədər etinasızlığına təəccüb edirdi Əminə nənədən Kamal bəyin harada olduğunu soruşdu və onun səhər evdən çıxıb haraya isə getdiyini öyrəndi.

Lamiə bir az sonra yatağından qalxmış, yavaş-yavaş otaqda gəzişərək geyinməyə başlamışdı. Bir ara aşağıdan qulağına ərinin səsinə bənzəyən bir səs gəldi. Otağın qapısını açaraq qulaq verdi. Onun səsi idi. Kamal bəy aşağı otaqda acıqlı bir səslə qızını danlayırdı Qız da ona nə isə cavab verirdi. Ancaq çox yavaş danışdığı üçün nə dediyi anlaşılmırdı.

Lamiə bu səhər evdə gördüyü, eşitdiyi şeylərdən qorxmağa başladı. Yavaş-yavaş aşağı düşdu, onların olduğu otağa girdi.

Ata və qız onu görən kimi susdular. Məqbulə üzünü yana çevirərək otaqdan çıxdı Rəngi əvvəlkindən də solğun, gözləri qıpqırmızı idi.

Kamal bəy küçədən indicə gəlmiş, paltosunu hələ çıxarmamışdı. Soyuq bir tövrlə.

– Daha yaxşısan ki, Allaha şükür? – deyə soruşdu. Arvadına baxmamaq üçün üzünü pəncərəyə tərəf çevirdi. Qaşlarını çatdı. Lamiə təmkınlə danışmağa çalışaraq:

– Məqbuləyə nə olmuşdur?

– ...

– Bir şeydən narahatsınızmı?

– ...

– Məni qorxudursunuz, Kamal bəy .. Sız allah, deyin görüm nə olmuşdur?

Kamal bəy eyni hımayəkar çöhrə, lakin sərt və soyuq bir tövrlə qapıya tərəf yeridi.

– Heç... Sonra danışarıq

Lamiə onun yolunu kəsdi:

– Yox, Kamal bəy, görürsünüz kı, təlaş içindəyəm... Mənə əzab verməyin...

Ərinin inadla susduğunu görüb nə edəcəyini bilmir, fikrindən cürbəcür ehtimallar keçirdı. Birdən Vədad yadına düşdü. Əminə nənə səhər onun da başına eyni kömür əhvalatı gəldiyini, onu dəm tutduğunu və dünəndən bəri onun da xəstə yatdığını söyləmişdi. Olmaya o daha ağır vəziyyətdədır? Yaxud da...

Bu fikır Lamiəni elə həyəcana saldı ki, özünü saxlaya bilmədi, gözlərində böyük bir iztirab və qorxu ilə:

– Vədad bəy .. – dedi. – Bəlkə Vədad bəyə bir şey olub?

Qapıdan çıxmaq üzrə olan Kamal bəy sərt bir hərəkətlə geri döndü. Onun üzü qızarıb-bozarırdı. Gözləri köz rəngi almışdı. Ağır bir söz deyəcəkdi. Ancaq özünü saxladı. Məcburi bir təmkinlə soruşdu:

– Daha xəstə deyilsən ki? Məni dinləyə biləcək haldasan?

Lamiənin üzünə kül rəngi çökmüşdü. Titrəyərək cavab verdi:

– Yaxşıyam... Buyurun

– Suallarıma aydın cavab ver. Dünən orada, onun evində nə işin vardı?



– Nə işimmi vardı? Vədad bəy yəqin ki, sizə danışmışdır. Dünən dəyməyə getdiyim xəstənin evində eşitdim ki. .

Kamal bəy onun sözünü kəsdi.

– Mən onu görməmişəm. Bu əhvalatları mən birbaşa sənin özündən soruşuram... Heç bir şey gizlətmədən cavab ver

Lamiə ərinin ondan nə münasibətlə şübhələndiyini ancaq indi başa düşdü. Bir gün əvvəl baş verən hadisələri sürətlə xəyalından keçirdi Kamal bəy bu şubhəsində haqlı idi. İndi nə edəcək, özünün də, Vədadın da heç bir günahı olmadığını necə isbat edəcəkdi? Başına gələn bu qədər fəlakətlərdən sonra nə üçün yenə belə ehtiyatsız bir hərəkət etmişdi?

Əhvalatı olduğu kımi başa salarsa, Kamal bəydə bir az inam oyada biləcəyini düşündü. Ağlamağını kəsdi. Şaşqınlığına və mütəəssir olmasına baxmayaraq bır nöqtəni də unutmasın deyə, bütün qüvvəsini səfərbərliyə alıb sözə başladı. Hərdənbır yaşlı və qızarmış gözlərini ərinin üzünə tərəf çevirirdi. Kamal bəy hissız bir sakitliklə onu dinləyir, ancaq inanmırdı. Saralmış dodaqlarında acı bir təbəssüm, pəncərədən ınadla çölə baxmaqda olan gözlərində məyus bir qənaət vardı. Lamiə başa düşdü ki, indi nə edir etsin, bu şübhəni onun qəlbındən çıxara bilməyəcək. Odur ki, danışmağını yarıda kəsib acızliyından və kədərindən ağlamağa başladı.

Kamal bəy arvadının ağlamağını kəsməsini də eyni hissizlik və sakitliklə gözlədi, sonra ağır-ağır danışmağa başladı.

– Lamiə... Ağlamağın xeyri yoxdur.. Mənə səninlə çox ciddi danışmaq lazımdır... Bızim evlənməyimiz mənasız bir iş imiş.. Bunu ınkar etməyək... Bu işə razı olmaqla sən bir uşaq, mən isə səfeh bır qoca kimi hərəkət etdik... Sən bu kıçik yaşınla boyük fəlakətlər görmüşdün... Mən isə qoca qəlbimə söz qandıra bilmədım . Nəticədə bu namünasib iş baş verdi... Mən insaflı, namuslu adamam, Lamiə. . Düzdür, bunu heç kimə deməmişəm, ancaq özüm də hiss eləmişəm. . Mən özümdən bəlkə bır qırx yaş kiçik olan bir qızla evlənərkən nə qədər utandığımı bir Allah bilir. Bundan sonra Kütahiyədə dostlarımın uzunə baxa bilmirdim. Bir qəhvəxanada iki adam bir-birı ilə yavaşdan söhbət eləyəndə, elə bilirdim məndən danışırlar.

Sonra səni qısqanırdım... Ancaq sən bunu heç hiss etmirdin, elə deyilmı? Çünki bunu səndən gizlətmək üçün nə qədər çalışdığımı, nə qədər əzab çəkdiyimi ancaq mən özüm bilirəm. Mənə münasibətində bir pis iş görə biləcəyındənmi şübhələnirdim? Qətiyyən yox . Onu heç ağlıma da gətırmirdim. Bayaq dedim ki, mən insaflı və dərrakəli

bir adamam. Fikirləşirdim ki, sən gəncsən, gözəlsən. Bir gün necə olsa, könlün birinə meyil edəcək. Mən ölüb gedəndən sonra necə olsa, başqa birisini sevəcəksən. Necə ki, indi, heç mən ölməmişdən sevdin... Başa düşürsənmi, hələ ortada heç bir şey yox ikən mən səni qısqanırdım . Hər şeyi deyə bilmirəm... Mən Vədadın bura gəlməsindən heç də xoşlanmamışdım. Ancaq bu şübhəni də hiss etdirmək çox çirkin, çox eyib bir iş olardı... Onun gəncliyi, onun gözəlliyi, onun şuxluğu məni öldürüb məhv edirdi.. Bir-iki həftə bundan əvvəl Məqbulə ağzından bir söz qaçırtmış·

– Vədad bəyin bəyənəcəyi qadın Lamiə ablama oxşamalıdır, – demişdi. Qızım bu sözləri ilə atasının qəlbində nə qədər dərin bir yara açdığını bilmirdi.

Nəhayət, dünənki hadisə baş verdi... Bir jandarm nəfəri ilə qoca bir qadın təlaş içərisində buraya qaçıb əhvalatı danışdılar. Vədadla səni kömür dəmi tutmuş Həyatınız təhlükədə imiş... Məqbulə bir qışqırıq saldı:

– Vədadı Lamiə öldürdü. Bir-birilərini sevdiklərini bilirdim, – deyə çığırıb-bağırmağa başladı. O dəqiqədə necə ölüb qurtarmadığıma təəccüb edirəm... Xülasə, dünəndən bəri Kütahiyə bir-birinə dəyib. Hamı: "Sürgün olunmuş həkimlə Kamal bəyin arvadı bir otağa girib özlərini zəhərləmişlər, qucaqlaşıb ölmək istəyirlərmiş" deyir... Həqiqətən günahınız varmı, yoxmu? Bunu bilmirəm... Ehtimal ki, əhvalat sənin danışdığın kimidir... Əlbət ki, bunun belə olması mənim üçün son bir təsəllidir... Ola da bilər ki, belə deyildir...

Buna baxmayaraq necə olur olsun, bundan sonra bizim bir yerdə yaşamağımız mümkün deyildir... Səni daha evimdə saxlaya bilməyəcəyəm... Hətta sənin kimi Vədad da mənim üçün həmişəlik öldü... Bütün həyatım boyu özümü dürüst, təmiz bir adam olaraq tanıtdıqdan sonra bu yaşımda belə bir aqibətə uğramaq istəməzdim... Nə etmək olar, alnıma belə yazılıbmış... Əslində gec-tez bu belə də olacaqdı. Səadətimə onsuz da inanmırdım... "Belə davam edə bilməz, yox atam, çölə tökülməyib, bu qədər gənc, belə gözəl bir məxluq axıracan sənin ola bilməz" deyirdim... Elə də oldu, qorxduğum başıma gəldi.

Qoca minbaşı qapının dalındakı divanın üstünə çökmüş, başını qolları içinə almışdı.

Lamiə yalvarmaq, onun ayaqlarına düşmək istəyirdi. Lakin Kamal bəy əlinin sərt hərəkəti ilə otağın qapısını göstərdi, boğuq bir səslə:

– Allah xatirinə, məni yalqız burax, – dedi.



## XXV

– Lamiə xanım, bir neçə dəqiqə danışa bilərikmi?

Lamiə uşağı qucağında qəbiristanlığın dalındakı boş yoldan keçirdi. Çox dalğındı. Birdən diksinərək başını çevirincə doktor Vədadı gördü.

– Sizsinizmi, Vədad bəy? Səsinizi birdən tanıya bilmədim.

– Xeyli vaxtdan bəri görüşmədiyimiz üçün səsimi yaddan çıxarmısınız.

Vədad adəti üzrə zarafat eləməyə çalışırdı. Ancaq üzü solğun və kədərli idi. Sözləri ağzından tökülürdü. Məbrurənin qıvrım sarı saçlarını oxşadıqdan sonra utancaq bir tövrlə:

– Haçandır sizi görmək istəyirəm, – dedi. – Heç cür imkan tapa bilmirdim... İndi bazardan keçdiyinizi gördüm. Gizlincə dalınızca düşdüm... Adi bir küçə sərsərisi kimi sizi bayaqdan bəri təqib edirdim.. Yaxşı ki, bu tərəfə döndünüz... Bu necə də xoşagəlməz hadisə oldu, elə deyilmi, Lamiə xanım? Biz ki, hələ indi-indi qohum-qardaş olmuşduq.

Həmin hadisədən sonra ilk dəfə idi, bir-birilərini görürdülər. Lamiə həm sevinir, həm də qorxurdu. Vədad onun təşvişlə tez-tez yan-yörəsinə baxdığını görüb:

– Sizinlə burada danışmaq hər halda az qorxulu deyil, – dedim. Ancaq başqa çarə olmadığı üçün mən buna məcburam. Bir də ki, daha olan olmuşdur. Nə qədər çalışsaq da, bu iftiradan yaxamızı qurtara bilməyəcəyik. Bu yoldan o tərəfə dönəkmi, Lamiə xanım?

Lamiə tərəddüd etdi:

– Söhbətiniz uzundurmu, Vədad bəy? – deyə soruşdu.

Vədad təkid etdi:

– Hər halda beş-üç dəqiqə asudə danışdığımız mütləq lazımdır.

Vədadın göstərdiyi cığır boş bir tarlaya çıxırdı. Çobanyastığı və lalələrlə dolu otların arasında balaca bir çoban uşaqla üç-beş keçidən başqa bir şey görünmürdü.

Vədad bir az əvvəlki sözlərini təkrar edərək:

– Bəli, Lamiə xanım, – dedi. – Biz ki, hələ təzə-təzə qohum-qardaş olmuşduq. Sizi adi küçə sərsəriləri kimi təqib eləməyim, belə gizli-gizli, otlaqlarda danışmağa məcbur olmağımız nə qədər kədərli haldır! Elə deyilmi? Son vaxtlar sizə çox az-az gəlməyimin əsil səbəbi Məqbulə deyildi... Dayımın mənə olan yaxşı münasibətinizdən xoşlanmadığını bilirdim... O gün təkbaşına evimə gəlmək kimi ehtiyatsız hərə-

kətinizdən çox narahat olmuşdum... Yəqin ki, yadınızdadır, dayım nigaran qalar bəhanəsi ilə sizin tez evə getməyinizi istədim... Ancaq mərdimazar dudu qalmağına bais oldu. Mən indi bunları özümü təmizə çıxarmaq üçün demirəm, Lamiə xanım... Necə olsa, bu işdə mən də günahkaram... Dayımı görmək, ona həqiqəti olduğu kimi başa salmaq istədim, mənimlə danışmaq istəmədi... Uzun bir məktub yazıb göndərdim Məktubu açılmamış geri qaytardı... Xülasə, sizi müdafiə etmək üçün heç bir çarə tapa bilmədim. Bu on günün içində nə qədər əzab çəkdiyimi təsəvvür edə bilməzsiniz .

Lamiə məhzun-məhzun gülümsədi:

– Nə etmək olar, Vədad bəy? Bəxtim belədir, əfəndim, – dedi.

Vədad qorxa-qorxa soruşdu:

– Bəs indi nə etmək, haraya getmək fikrindəsiniz?

– Bir neçə günə İstanbula gedəcəyəm, Vədad bəy... Aydın məsələdir ki, daha Kütahiyədə qala bilmərəm... Kamal bəy də əslində belə istəyir. İstanbul istədiyi kimi yaşamaq istəyənlər üçün daha münasib bir yerdir. Elə deyilmi? Anamın bir qoca süd anası var. Orada Bəylər bəyi[1] tərəfdə olur. Əgər sağdırsa, mən onlara yaxın bir yerdə yaşayacağam. Rəhmətlik atama görə verilən az-maz təqaüdlə bir təhər özümü, uşağımı dolandıraram. Hətta mümkün olsa, işləyəcəyəm də, Vədad bəy... O qədər əziyyətlər görmüşəm ki... Daha belə şeylərdən qorxum yoxdur.. Arxayın olun. Təsəvvür elədiyinizdən də çox-çox sakitəm. Hətta İstanbulu təzədən görə biləcəyimi düşündükcə, ürəyimdə xoş bir həyəcan da duyuram.

O, əli ilə Məbrurənin başını sığallayır, gözlərində kədərli bir təbəssümlə uzaqlara baxırdı.

– Həyatımı bu körpəmin səadətinə həsr etmək istəyirəm, Vədad bəy. O xoşbəxt olarsa, mən məhv olan gəncliyim üçün təəssüf etmərəm.

Vədad onu bu qədər sakit və gələcəyə ümidli görəndə heyrət edir və hətta bir az əsəbiləşirdi.

– Düzdür, başınız çox müsibət çəkib. Ancaq inanın ki, həyata hələ yaxşı bələd deyilsiniz... Hələ çox cavansınız... Xoşbəxt ola bilərsiniz. Hətta kim bilir, bəlkə yenidən sevə də bilərsiniz.

Lamiə bu axırıncı sözdən diksinən kimi oldu, qızardığını özü də hiss etdi:

[1] İstanbulda Bosfor sahilində qədim bir məhəllə



– Sevmək?!. – Mən heç kəsi sevməmişəm... – deyə kəkələdi.

Vədad gülümsəyərək başını tərpətdi:

– Bunu başqalarına deyə bilərsiniz, Lamiə xanım... Ancaq məni inandıra bilməzsiniz.

O, Məbrurənin qollarından tutub havaya qaldırdı, onun balaca üzündə parlayan gözlərinə deyirmiş kimi:

– Buna baxın, Lamiə xanım, – dedi – Bu cür misilsiz bir gözəl, bir təsadüfdən deyil, ancaq dərin bir məhəbbətdən doğula bilər.. Bu məsələ ilə əlaqədar qeziyyənizə mən əslində bir dəqiqəliyə də inanmamışam. Belə sözlər üçün məni bağışlayın. Çünki bir gənc qadınla belə könül məsələlərindən bu cür məhrəmanə danışmaq o qədər yaxşı hərəkət deyil... Əsas söhbətimizə qayıdaq... Vəziyyətiniz ağırdır, Lamiə xanım, düşündüyünüzdən xeyli çox çətindir.. Təsəvvür edin ki, siz ləkələnmiş halda ərinizdən ayrılmış bir qadınsınız...

Lamiə gülməkdən özünü saxlaya bilmədi.

– Təşəkkür edirəm, Vədad bəy. Mənə təsəlli vermək əvəzinə daha da cəsarətimi qırmağa çalışırsınız, – dedi, özü də qızardı.

O, söhbətin bu cür şəkil almasından razı deyildi. Ancaq əsəbiləşdiyini gizlətməyə müvəffəq ola bilmirdi.

– Elə demək istəmirdim. Bilirsiniz, duşündüyünüz fəlakətdə mənim də təqsirim var...

– Sizin təqsiriniz var? Nə üçün?

– İlk baxışda bəlkə yoxdur. Ancaq əslində vardır. Necə olsa da, ərinizdən ayrılmağınıza səbəb mən olmuşam Buna görə də mənim yerimə kim olsa, əgər namuslu kişidirsə, bu günahını təmizləməlidir .. Sözü niyə uzadım... İstəmədən səbəb olduğum bu fəlakətdən sizi qurtarmaq üçün mənə ərə getməyinizi təklif edirəm

Lamiə kiçik bir fəryad qopardı, əlləri ilə qıpqırmızı olmuş üzünü örtərək:

– Nə danışırsınız, Vədad bəy? Bu olan işdirmi? – dedi

Vədad cəld bir sərtliklə:

– Namusu olan kişi ancaq belə hərəkət edər, – dedi.

– Bu mümkün deyil, Vədad bəy. "Namusu olan kişi ancaq belə hərəkət edər" deyirsiniz. İndi sizdən soruşuram: bəs heç bir günahı olmayan namuslu bir kişinin bu cür böyük fədakarlığını təmiz bir qadın necə qəbul edə bilər? Rica edirəm, daha bəsdir, ayrılaq, Vədad bəy Belə nəcib hərəkətiniz üçün sizə təşəkkür edirəm.

Lamiə bu sözlərdən sonra onunla daha danışmağın doğru olmadığını hiss edir, getməyə hazırlaşırdı. Vədad onu buraxmadı:

– Lamiə xanım, – dedi. – Yəqin ki, bir də sizi belə xəlvət bir yerdə görə bilməyəcəyəm... Bir neçə gündən sonra çıxıb İstanbula gedəcəksiniz... Bu işi mütləq həll etməliyik... Rica edirəm. Axı təklifimi qəbul etməyinizə nə mane olur?

– Mən səbəbini dedim, Vədad bəy. Məndən ötrü belə fədakarlıq eləməyinizi istəmirəm.

Vədad həmişəki laqeyd və zarafatçı təbiətindən umulmayan bir riqqət və əsəbiliklə:

– Lamiə xanım, – dedi. – Əgər bu fədakarlıq mənim üçün bir səadət olacaqsa? Əgər bununla xoşbəxt bir ailə yuvası qurmağı arzu edirəmsə?

– Məndən, əlbəttə, daha yaxşı, daha təmiz cavan bir qız tapa bilərsiniz, Vədad bəy.

– Əgər mən sizi tapa biləcəyim bütün qızların hamısından üstün tuturamsa? Əgər bu fədakarlıq özü mənim üçün bir bəhanədirsə? Əgər mən sizi doğrudan da sevirəmsə?

Lamiə nə deyəcəyini, nə edəcəyini bilmir, başını aşağı salıb titrəyirdi.

Vədad indi xeyli sakit və ciddi bir tövrlə sözünə davam etdi:

– Madam ki, bu qədər danışdım, qoy hamısını deyim. Siz məndə çox böyük təsir oyatmısınız, Lamiə xanım. Dayımın arvadı olduğunuz müddətdə mən bunu öz-özümə ancaq xoş bir təsir kimi izah edirdim... Ancaq indi, belə bir hadisə başımıza gəldikdən sonra daha bunu gizlətmək üçün heç bir səbəb görmürəm... İndidən mənə söz verin... Bu yaxında İstanbula qayıtdığım vaxt evlənərik... Mənim yüngül bir adam kimi görünməyimə baxmayın... Sizi əlimdən gəldiyi qədər xoşbəxt yaşatmağa çalışaram. .

Lamiə dərin fikrə getdi. Sonra ürkək bir təbəssümlə:

– Vədad bəy, mənə qarşı belə bir hissinizin olması bu işin düzəlməsinə daha böyük manəə deyilmi? – dedi. – Mənim çox təhsilim yoxdur... Ancaq başıma gələn fəlakətlər mənə xeyli şey öyrədib. Bəzi şeyləri yaxşı başa düşürəm... Sizə elə bir qadın lazımdır ki, sizi sevsin, Vədad bəy, layiq olduğunuz qədər sevsin.

– Yaxşı... Günün birində sizdən müsbət cavab alacağıma ümid bağlaya bilərəmmi?

Lamiə kədərlə başını tərpədib cavab verdi:



– Bayaq Məbrurəyə baxıb mənə bir söz dediniz... İndi sizdən soruşuram: əgər mən də bir başqasını sevmişəmsə? Əgər qəlbimdə bundan sonra ərim olacaq adama vermək üçün bir şey qalmamışsa?

– Bu o qədər də çox böyük şeydirmi, Lamiə xanım?

Lamiə Vədadın dərin bir hüznlə soruşduğu bu sözə cavab vermədi, sadəcə olaraq başını aşağı əydi

Vədad sözünü eyni tövrlə davam etdirdi:

– Əgər mən də... əvvəlki ərinizin sizdən istədiyindən artıq bir şey istəməyəcəyəmsə? Yaxud qarşılıqlı məhəbbət tələb etmədən sizin əriniz olmaq istəyir, sizi sevirəmsə?

– Mümkün deyil, Vədad bəy... Mən ərimdən şikayət etmirdim. Ancaq elə bilirsiniz, ona ərə getməyimə az peşman olmuşdum?.. Özü də ki, siz cavansınız. Sevilməyə layiqsiniz... Siz elə bir insansınız ki, bir qadın, ya bir qız sizi sevmədən arvadınız olmağa razılıq verərsə, böyük günah işləmiş olar... Görürsünüz ki, nə qədər açıq danışıram. İndi daha mən sizə ancaq "xudahafiz" deyəcəyəm, Vədad bəy.

– Yaxşı, Lamiə xanım. Ancaq İstanbula gəldiyim zaman sizi görməyimə yəqin icazə verəcəksiniz. Niyə gizlədim, hələ sizdən ümidimi kəsmirəm.

– Sizi bir dost kimi yenə görəcəyəm...

– Onda bir-iki həftəyə görüşərik.

– Necə? Sizin üçün bu yaxında İstanbula qayıtmaq ehtimalı var?

– Bu məsələnin üstünə düşmüş olsaydım, İstanbula çoxdan gedərdim. Buna o qədər çalışmamağımın səbəbi yenə də siz idiniz, Lamiə xanım. Buna and içə bilərəm.

Onlar iki dost kimi bir-birlərinin əlini sıxdılar. Vədad Məbrurəni qucağına alaraq dönə-dönə yanaqlarından öpdü. Ayrıldılar.

## ÜÇÜNCÜ HİSSƏ

*1 iyun, Anadolu hasarı*[1]

Pəncərəmin taxtaları örtülü, otağım gecə kimi qaranlıqdı. Bir saat olardı ki, pianonun yanındakı kresloda oturub qalmışdım. Heç bir şey düşünmür, heç nə hiss etmirdim Otağım kimi beynimə və qəlbimə də tutqun bir durğunluq çökmüşdü.

Birdən qapı açıldı. Cavidan bir külək sürəti ilə içəri girdi. Məni bu vəziyyətdə görəndə heyrət və hiddətlə küy qopardı:

– Bu nədir, Kənan? Mən elə bilirdim, sən geyinmisən. Deyəsən, mənimlə əylənirsən

Cavidan hazırlaşmış, hətta çantası ilə çətirini də götürmüşdü. Qapıdan düşən parlaq işıq sütunu içərisində dayanmışdı. Otağın qaranlığı, durğun və yuxugətirici havasında hərəkətləri daha canlı görünür, səsi daha qüvvətlə titrəyirdi. Bir müddət olardı ki, məndə qəribə bir hal əmələ gəlmişdi: bəzən bu cür səssizliyə dərin ehtiyac duyur, varlığımı mütləq bir yoxluq sükutu içərisində gömüb məhv etməkdən zövq aldığım saatlarda heç bir səs eşitmək istəmirdim. Elə bil beynimdə bir yara vardı. Bu yara ən gözəl bir səsdən belə inciyib sızıldayırdı.

Özümü ələ almağa çalışaraq ayağa qalxdım.

– Cavidan, bilirsən ki səni heç vaxt qəsdən, bilə-bilə incitməmişəm İnan, bu qeyri-ixtiyarı baş verir, – dedim:

Cavidan cavab vermədi, yalnız:

– Otaq necə də qaranlıqdır, – deyə şikayətlənərək pəncərəyə tərəf getdi, qüvvətli qollarının sərt hərəkəti ilə onları açmağa başladı.

Başını çevirmədən mənimlə danışırdı:

– Allaha şükür, xəstə ki deyilsən. Sadəcə köhnə tənbəlsən... Ancaq bu qədər. İnsanlardan qaçıb, mağaralarda gizlənən və qırx günlük ibadətlə məşğul olan dərvişlər kimi tənbəl Bildin?.. Ancaq. . Uf, bu taxtalar da nə ağırdır .. Onlar da örtülü qala-qala kiflənib... Sənin kimi. . Əlimi ağrıtdı

[1] İstanbulun Asiya hissəsində, Bosfor sahilində qədim qala hasarları olan yer. İndi bura şəhərin mühüm məhəllələrindən biri sayılır.



– Qoy mən açım...

– Yox, yox, narahat olma... Hə, nə deyirdim?.. Bu səndə köhnə tənbəllikdir. Ancaq etiraf etmək istəmirsən. Ona görə də buna daha şairanə, daha sənətkaranə bir şəkil verməyə çalışırsan. . Bu guya bir dühа xəstəliyidir... Düha jeni[1] demək deyilmi?. Bəli, sən buna bir dahilik xəstəliyi şəkli verirsən. Ancaq dahilik əlamətindən danışmaq üçün gərək əvvəldən dahi olduğunu qəti olaraq isbat edəsən... Elə zənn etmə ki, mən bunları sənin sənətkarlığına şübhə etdiyim üçün deyirəm.. Bilirsən ki, sənin sənətkarlığına hamıdan çox mən inanıram Bu inamı mən hələ itirməmişəm. Kaş ki, bu inam məndə olduğu qədər sənin tənqidçilərində də ola idi... Məsələn "Siyah yıldızlar"ın haqqında o cür kəskin tənqidi məqalə yazmış həmin tənqidçilər... Hamı səni təriflədiyi halda bu adam gör nə demişdi. Eynən yadımdadır. "Siyah yıldızlar" şübhəsiz yüksək bir əsərdir. Lakin onu bu yüksəkliyə dühanın qanadları qaldırmışdırmı? Yoxsa müəllifin bu müvəffəqiyyəti bir həyəcan və ehtirasdan aldığı sürət nəticəsidir. Havaya atılan fişənglər kimi yalnız bircə dəfə parlayıb keçəcəkdir? Bunu Hüseyn Kənanın gələcək əsərləri göstərəcək. Bir çox yarımçıq sənətkarlar vardır ki, ömürlərinin bəzi anlarında fövqəladə adam təsiri bağışlayırlar. Ancaq az keçdikdən sonra bir ad-san qoymadan sönüb gedirlər. "Siyah yıldızlar" şübhəsiz gözəl və yüksək əsərdir. Ancaq elə mütərəddid, elə dağınıq yerləri, elə münasibətsiz parçaları vardır ki, bəzən onun bir dahidən çox xəstə ruhun əsəri olması haqda məni şübhəyə salır.

Kənan, bu məqalə o vaxt mənim qəlbimi çox ağrıtmışdı. Ancaq zaman keçdikcə mən tənqidçiyə, deyəsən, haqq verməyə başlayıram. "Siyah yıldızlar"ı yazdığın vaxtdan üç ilə yaxın keçir. Amma heç bir yeni əsər verməmisən. Deyəsən yeni əsər vermək həvəsin və niyyətin də yoxdur!

Arvadımın bu sözləri mənə açıq pəncərədən içəri dolan Bosfor küləyindən, dənizdən baş qaldırıb sərin və xaralı parıltılarla otağımda əks edən günorta günəşinin şəfəqlərindən daha çox təsir etdi. Gülməyə başladım.

– Sən də etiraf et ki, – dedim, – evləndiyimiz zamandan bəri işləmək üçün nə vaxtım, nə də münasib bir yerim olub.

Cavidan dodaqlarını büzərək:

[1] Jeni – düha (*fran.*)

– Yaxşı bəhanədir, – deyə cavab verdi.

– Özü də elə diplomatık söz tapmısan ki, mən də burada az-çox günahkar oluram. Yəqin deyəcəksən ki, iki ilə yaxın səyahətdə olmuşuq. Səni rahat qoymamışam, daima məşğul eləmişəm... Hətta bəlkə sənə heç ilham da verməmişəm...

Arvadım həyəcanlarını, xəcalət çəkməsini, yaxud gücsüzlüyünü gizlətməyi çox məharətlə bacarır, ən böyük hadisələri həmişə məğrur bır sakitlik, laqeyd bir etinasızlıqla qarşılayır Buna baxmayaraq bu gün onun mənimlə dava etmək meylındə olduğunu hiss edirdim.

– Elə demə, Cavidan, – dedim. – Bilirsən ki, böyük fəlakətlər kımi həddindən artıq səadət də sənətkarı çox vaxt iflasa uğradır.

O daha artıq bir əsəbiliklə sözümü kəsdi:

– Bəs "səadət" deyərkən niyə elə acı-acı gülümsəyirsən? İnsan adətən kınayə ilə dediyinə ınanmaq isteyır.

– Mən gülümsədim, Cavidan? Mən gülümsədimmi? Heyrətlə arvadımın üzünə baxdım. Bu "acı-acı gülümsəmə" bu gün nədənsə çox əsəbi olan Cavidanın fantaziyasının məhsulu idi, yoxsa mən doğrudan da heç fərqinə varmadan, heç nəyə fikir vermədən belə acı-acı gülümsəmişdim? Bunu qəti deyə bilmərəm. Sözü uzatmaq, arvadımla uzun mübahisəyə gırışmək istəmirdim. Çox sadə, sakit bir səslə:

– Məni düz başa düş, xahiş edırəm, – dedim.

– Bilirsən ki, sənət əsəri sakit bir guşəyə çəkilib yaradanda meydana çıxır... Başqalarını bilmirəm, ancaq mənim üçün belədir... Həyatımız çox xoşbəxt, ancaq xeyli gurultulu və səs-küy içində keçmişdır... İndi daha İstanbulda yaşayırıq... Bundan sonra, görərsən, nə qədər ciddi çalışacağam . Hər halda hələlik məhv olmadığıma, ölmədiyimə arxayın ola bilərsən, Cavidan... Mən "Siyah yıldızlar"dan da gözəl əsərlər yaradacağam.

Bu sözləri möhkəm bir qənaətlə demişdim... Dünyada hər şeyə dözə bilərdim, ancaq sənətkarlığıma şübhə edilməsinə yox!..

Cavidan tövrünü dərhal dəyişdirmədi. Lakin:

– Bilmirəm... Baxarıq. Mən də elə arzu edirəm, – deyərkən yumşaldığını, yenidən mənə inanmağa başladığını hiss etdim.

– Yaxşı, Kənan... Tez hazırlaş... Vaxt keçir.

– Bu gün Adaya[1] getmək mütləq lazımdırmı?

[1] Mərmərə dənizində, İstanbulun yaxınlığında olan Böyük adaya işarədir Heybəli ada ilə Böyük ada ən məşhur istirahət yerlərıdir



– Əlbəttə... Söz vermişik.

– Düzdür. Ancaq... Elə əzginəm ki... Bəlkə telefon edib üzrxahlıq eləyəsən... Olmaz?

– Mümkün deyil...

– Özü də doğrusu, mən bu gündən daha işə başlamaq istəyirəm.

– Buna şübhə eləmirəm... Necə ki, bir az əvvəl başlamışdın... Bayaq içəri girəndə səni böyük fəaliyyət içində görmüşdüm... Elə deyilmi?

– Məni elə salırsan... Ancaq haqlı deyilsən. Bayaq bütün fikrim əsərimlə məşğul idi. Hər bir sənət əsərinin bir hazırlıq dövrü olmurmu?

Artıq tamamilə canlanmışdım. Bəzi durğun və yorğun vaxtlarımda mən dünyanın ən iradəsiz, ən yazıq bır adamı oluram. Belə vaxtlarımda balaca bir uşaq da məni çəkib istədiyi yerə apara bilər. Ancaq kiçicık bir həyəcanla özümə gəldiyim, canlandığım vaxt iş dəyişir. Rəftarım, hərəkətlərim, sözlərim tamam başqa ahəng alır. O vaxt mənə böyük bir qüvvət gəldiyini hiss edirəm.

Cavidanı inandırmaqda çox çətınlık çəkmədim, Adaya mənsiz getməyə onu razı saldım. Evləndiyimız gündən bəri ilk dəfədır ki, birbirimizdən ayrı bir gecə keçirəcəyik.

Bu qısa ayrılıq mənə köhnə tənhalıq, subaylıq günlərimi xatırladır. Düzdür, o vaxtı həyatımın bir çox acılıqları, məhrumiyyətləri vardı. Ancaq gözəl anları da az deyildi.

Axşamüstü təkbaşıma gəzməyə çıxdım. Sahil boyu xeyli ırəlilədim Gah rəngi solmuş, pəncərələrin barmaqlıqları tökülmüş köhnə evlərin arası ilə dar küçələrdən keçir, gah dəniz qırağına çıxırdım Günün bu vaxtında bu yerlərdə gəzmək adamda qəribə hisslər doğurur Köhnə qala bəndləri kimi uzanıb gedən uca, xaraba və uçuq hasarların daşları yosun bağlamış, uçuq yerlərində tikanlar bitmişdir... Köhnə evlər, köşklər kölgə və sakitlık içərisində yuxuya getmiş kimidir... Uzun, dolanbac dəhlizlərə bənzəyən bu dar küçələrə günorta vaxtı belə bir qaranlıq çökür. Elə bil ki, adam bir gecə vaxtı, keçmiş zamanlara məxsus, insan yaşamayan bir məmləkətdən keçib gedir. Ürək keçmiş, köhnəlmiş, sönüb getmiş şeylərin kədəri ilə dolub daşır. Sonra birdən heç gözləmədiyiniz bir yerdə qarşınızda bir keçid açılır. Qaranlığa alışmış gözlərinizi qamaşdıracaq qədər işıqlı və parlaq görünən bir sahilə çıxırsınız Burada, qarşıdakı təpələri əlvan şəfəqlərə boyanan İstanbulun uzaqdan görünən şüşələrini almaz yığınları kimi parıldadan axşam günəşinin

son işıqlarından tutmuş ta sakit axan sulara, dənizin üzərilə sürüşürmüş kimi çox alçaqdan uçan qağayılara qədər hər şey canlı və şəndir.

Yol gedə-gedə Bosfor boğazının bu Anadolu sahili ilə həyatımı və ruhumu müqayisə edirdim Bunlar bir-birinə necə də bənzəyirdilər. Mənim keçən günlərim də eyni ilə belədir: gah durğun, məyus, ümidsiz, bir ölüm qaranlığı, gah da ifrat dərəcədə həyəcan, çılğınlıq, sərməstlik və şənlik. Bunların ikisini bir yerdə istəmiş, tapa bilməmişəm, başqa insanlar kimi özüm üçün bir qərarda sakit, mötədil bir səadət təmin edə bilməmişəm.

Günəş batmış, dəniz artıq tamamilə qaranlıqlaşmışdı. Haralara gəlib çıxdığımı heç bilmirdim. Köhnə bir dəniz körpüsünün yanından keçirdim. Daşlarının bəzisi yerindən qopmuş, tullanmadan keçilməsi mümkün olmayan çuxurlar əmələ gəlmişdi.

Birdən suların canlandığını, xoş səslər çıxararaq daşlara çırpıldığını gördüm. Başımı çevirdim. Körpüyə bir gəmi yaxınlaşırdı. Axşam səssizliyi içərisində bir uşaq səsinin "Paşabağça" deyə qışqırdığını eşitdim.

Gəlib çıxdığım yerdə ayaq saxladım. "Paşabağça"... Ömrümdə heç bir söz, heç bir səs məni bu qədər mütəəssir etməmişdi. Paşabağça... Mənim zavallı, fədakar Xınalı yapıncağımın doğulduğu, böyüdüyü yer, qürbət ellərdə süzgün yaşıl gözlərini qapadığı zaman gördüyü, sirlərlə dolu həzin uşaqlıq dünyası...

Bu qərib axşam çağında qəlbimin bir yara kimi sızladığını hiss edirdim. Xınalı yapıncağın yaşadığı ev görəsən hansı idi? Görəsən burada o, hansı daşların üstündə oynamışdı?

Bunu öyrənmək həvəsi məndə quvvətli bir arzuya çevrildi. Mənə elə gəlirdi ki, onun vaxtilə yaşamış olduğu evi tapsam fövqəladə bir şey baş verəcək, qızın əynində qısa ətəkli paltarı, qızılı saçları, gözəl çilli üzü ilə mənə tərəf gəldiyini görəcəyəm... Ah, Xınalı yapıncaq... Bir-birimizi bəlkə bir də heç görməyəcəyik... Ancaq səni dünyada rast gəldiyim ən gözəl, ən təmiz bir şey kimi həmişə xatırlayacağam. Sənətim mənə çox səadət gətirdi, Xınalı yapıncaq. Ancaq heç bir şey sənin könlümdə qoyub getdiyin xatirəyə bənzəmədi...

Qayaların arasında ayaqyalın qoca bir balıqçı gözümə dəydi. Yəqin ki, buranın köhnə sakinlərindən idi. Görəsən Lamiənin atasını soruşsam tanıyarmı? Ağlıma gələn bu münasibətsiz fikrə ürəyimdə özüm də güldüm Get-gedə mən doğrudan da lap uşaq kimi olurdum.



Axşam çoxdan düşmüşdü Xeyli də yorulmuşdum. Sahillə piyada qayıtmaq çox vaxt alacaqdı. Körpüdə bir qayığa mindim Hərdənbir başımı çevirib baxırdım. Paşabağça yavaş-yavaş uzaqlaşır, qaranlığa qarışırdı. Ancaq mən Xınalı yapıncağı xəyalımdan uzaqlaşdıra bilmirdim

Aradan keçən bu üç ilə yaxın müddətdə mən Lamiəni dəfələrlə xatırlamışdım. Lakin heç bir vaxt onu bu qədər ruhuma hakim hiss etməmişdim. İndi isə ən kiçik ifadəsinə, ən gizli cizgilərinə qədər çöhrəsi gözlərimin önündə, səsi qulaqlarımda titrəyirdi. Dodaqlarımda nəfəsini, saçlarının ətrini duyurdum. Bu təsirləri belə, bu şəkildə necə qoruyub saxlaya bilmişdim?

Bəli, mən Xınalı yapıncağı bu üç il ərzində dəfələrlə xatırlamışdım Etiraf edim ki, ona etdiklərimin əzabı ən bəxtəvər, ən xoş saatlarımda belə məni zəhərləyirdi Düzdür, özüm-özümə haqq qazandırmaq üçün çoxlu əsaslarım vardı: "Xınalı yapıncaq sadəlövh bir uşaqdı, deyirdim, belə əziyyətlər bu cür adamlara düşündüyümüz qədər də təsir edə bilməz... Bir az mütəəssir olmuşsa da, hər halda artıq yadından çıxıb getmişdir. Yəqin ki, indi çox xoşbəxt yaşayır..."

Bu qənaətim məni tamamilə sakit eləməsə də, hər halda çox əzab çəkməyə də qoymurdu... Bir də ki, insan hissləri zaman keçdikcə sönüb gedir, əvvəlki qüvvəsində qalmır. Sonra axı həyatın bir çox başqa məşğuliyyətləri də var, özü də mənim kimi dəbdəbəli bir ömür sürən sənətkar üçün. Ancaq bir şey var ki, Lamiənin xoşbəxt olduğuna özümü inandırdığım halda, heç bir vaxt onun haqqında bir şey soruşmağa, öyrənməyə cəsarət edə bilmirdim..

Qayığın bir küncünə qısılıb gözlərimi yummuş, özümü dəniz kimi hər tərəfdən məni əhatə eləyən xatirələrin ixtiyarına vermişdim O yay röyasının ruhumda, əsəblərimdə gözlədiyimdən çox artıq izlər buraxdığını indi başa düşürdüm. Cavidanla keçirdiyim iki il yarımlıq ömrün səadətini inkar etsəm nankorluq olar .. Onunla çox şən və bəxtiyar yaşamışıq. Köçəri quşlar kimi hər mövsümü bir ölkədə keçirmişik. Dostlarımız bəxtiyarlığımıza həsəd aparmışlar. Ancaq harada yaşayırıq yaşayaq, hər yay tam bu vaxt qəlbimdə səbəbsiz bir kədər, həyatdan bezmə hissi oyanırdı. İşləməyə həvəsim gəlmir, yaşamaqdan bezar olurdum. Sevməkdən də zara gəlmişdim. Qəlbimdə nə isə bir şey, nə isə bir yer həsrəti olurdu. Nə istəyirdim, haranı düşünürdüm? Bunu anlamağa, bu hisslərin nədən ibarət olduğunu öyrənməyə də qorxurdum. Bu gizli hicran ruhuma hakim kəsildiyi vaxtlarda Cavidanı da yad, uzaq bir adam

sanırdım. Aralarında yaşamaqdan zövq aldığım şıq, kübar, yaxın dostlarımız da mənə ruhsuz görünür, onların hər sözü, hər bir hərəkəti məni gizli-gizli əsəbiləşdirirdi.

Belə hallarda mənə, bir qoca Şəmi dədəni, bir məzlum "Kərəm"i, bır də... vaxtilə əhəmiyyət vermədiyim Xınalı yapıncağı düşünmək daha xoş gəlirdi. Kübar, əyləncəsi çox olan bir həyata qovuşduqdan sonra köhnə, məhrumiyyətlərlə dolu günləri düşünmək bəlkə də bir ağılsızlıqdı .. Ancaq nə edim ki, bu belə idi.

Bu axşam Lamiə haqqındakı olan xatirələrimdə bir xüsusiyyət də kəşf etmişdim. Yazıq qızın özü kimi xəyalı da adama ən ağır, bədbəxt zamanlarında daha yaxın görünür. Bir dəfə İtaliyada ikən maşınımız qəzaya uğramış, özüm də ciddi zərər çəkmiş və bir neçə gün xəstəxanada yatmalı olmuşdum. Bu zaman xəyalıma gələn yaxın adamlarımın içərisində yalnız onunla danışmış, təkcə onunla məşğul olmuşdum. Sonra anam öləndə də elə... Mən anamın ölüm xəbərini bir axşam "Qrand opera"da "Faust" tamaşasına baxarkən almışdım. Ətrafımdakı işıqların dərhal necə söndüyünü, dünyanın başıma necə fırlandığını unuda bilməyəcəyəm. Yaralı və başını itirmiş bir heyvana dönmüşdüm. Yıxılmamaq üçün divara söykənib teleqramı ovcumun içində əzişdirirdim.

Cavidan bir az kənarda, dostlarımızdan bir neçəsi ilə dayanıb söhbət edirdi. Dodaqlarında həmişə olduğu kımi həşəmətli və bir az da laqeydyanə bir təbəssüm vardı Bu saat ən doğru iş, onu bir bəhanə ilə buradan uzaqlaşdırıb maşınımıza oturaraq otelə qayıtmaq ola bilərdi. Ancaq mən belə etmədim. Ürəyimdə birdən başqa bir qorxu meydana çıxdı. Mənə elə gəlirdi kı, Cavidan kədərimin böyüklüyünü başa düşə bilməyəcək, bir-iki mənasız təsəllıverici söz söylədikdən sonra özü səbirsizlik göstərəcəkdi. Hətta bəlkə ağlayacaqdı da... Lakin bunlar mənim istədiyim, gözlədiyim göz yaşları olmayacaqdı... Bu bəlkə də səbəbsiz və haqsız bir qorxu idi. Ancaq onu heç cür qəlbimdən çıxara bilmədim. Oradan təkbaşıma çıxıb getdim.

Bir otağa girərək, inləyib ağlamaqla yalqız keçirdiyim o gecə, qəribə görünsə də, mənə ancaq Lamiə təskinlik verdi. Elə bilirdim ki, bu gecə onu yarımca saat görmək mümkün olsa, başımı bir neçə dəqiqəliyə onun köksü üstünə qoysam, bütün iztirablarım azalacaq, anamın ölüm xəbərinə mətanətlə dözə biləcəyəm... Mən bu vəziyyətimi sonradan öz-özümə başqa cür izah etdim:



Bəlkə Cavidanı çox mütəəssir etmək istəməmişdim. Yaxud da onu görməyə alışdığım üçün məndə belə bir hiss doğmuşdu.

Cavidan bir az incimişdi. Ertəsi gün ona xəbər vermədən operadan getməyimin səbəbini soruşdu. Ciddi bir aramlıqla ona qara xəbər almağımı danışdım. Tək keçirdiyim bu qəmli matəm gecəsinin üzümdə buraxdığı təsiri o, ancaq indi görə bildi.

Cavidan bu ölüm xəbərının məni nə qədər dərındən sarsıtdığını bəlkə də heç anlamadı. Ancaq yaxşı tərbiyə görmüş, öz borcunu başa düşən bir zövcə kimi hərəkət etdi. Matəmimlə əlaqədar mənə nəvazişlə dolu bir hörmət göstərdi...

Qayıq körpüyə yaxınlaşana qədər bu xəyal aləmindən xilas ola bilmədim. Yorğun olmaqla bərabər yemək də istəmirdim Erkəndən otağıma çəkildim. Evdə bu axşam məhzun bir yalqızlıq vardı.

Cavidanın dayəsi Dilnəvaz nənə mənə qəhvə gətirdi. Otaqdan çıxmaq istərkən gülümsəyərək:

– Deyəsən Cavidanı Böyük adaya göndərməyinizə peşman olmusunuz, – dedi. – Lap tək qalmısınız.

Mən də gülümsədim.

– Bəli, elədir. Tək qalmışam, – dedim.

Qadın:

– Allah bundan artıq ayrılıqlar göstərməsin, – deyə dua edə-edə otaqdan çıxdı.

Arvadımla həmişə bir yerdə olmuşduq. Evləndiyimiz gündən bəri bır gecə də bir-birimizdən ayrı qalmamışdıq. Hər evdə, hər ailədə olduğu kimi ortaya çıxan kıçik narazılıqlar nəzərə alınmazsa, bir-birimizi ciddi surətdə incitməmişdik.

Buna baxmayaraq onu da deyim ki, mən bu yalqızlıq hissini az ya çox dərəcədə daima duymuşam. Cavidanı sevirdim. Sevməmək üçün də heç bir səbəb yox idi. Dost və tanışlarımız bizi xoşbəxt ailənin ən gözəl nümunəsi sayırdılar. Həqiqətən də belə idi. Ancaq qəlbimin elə gizli bir guşəsi vardı ki, arvadım heç zaman oraya girə bilməyəcəkdi. Bu bəlkə də mənım körpəlikdən yalqızlığa alışmış vəhşi bir adam olduğum üçün belə idi? Yaxud bir-birinə tamamilə yad mühitlərdə böyüyüb yetişdiyimiz üçün belə düşünürdüm? Bunu izaha çalışmağa həmişə qorxmuşam. Hətta bu ruhi yalqızlığımı özümə də etiraf etməmişəm. Bu gecə yalqızam. İkı il yarımdan bəri bu gecə ilk dəfədir ki, bir-birından ayrılmışıq. Aramızda heç iki saatlıq məsafə belə yoxdur...

Heç altı saat olmaz ki, ayrılmışıq. Buna baxmayaraq özümü Cavidandan o qədər uzaq hiss edirəm ki... Hətta bir ondan deyil. Bu iki il yarımlıq həyatım isə mənə başqasının, yad bir adamın uzaqdan seyr edilmiş, yaxud bir romanda oxumuş olduğum xəyalı, sərgüzəşti kimi görünür...

Bir ara bu düşüncələri dərinləşdirməkdən, bu anlaşılmaz hisslərə çox qapılmaqdan qorxdum. Əsərimlə məşğul olmaq istədim Ancaq bu bədbəxt əsər də iki il yarımdır ki, zehnimdə bir ölü kimi, soyuq bir daş parçası kimi yatıb qalmaqdadır... Eh, kaş bu axşam Cavidanı heç buraxmaya idim. Vaxtı keçirmək üçün ağlıma bir şey gəldi: çoxdan bəri yad etmədiyim bəzi dostlarıma məktub yazmaq istədim... Ancaq gördüm ki, yazacağım sözlərdə adi, soyuq, rəsmi sözlər, düşündüyüm, duyduğum şeylərin tamamilə əksi olacaq.

Bu iki il yarımı mənasız bir həyat içərisində oyuncağa çevrilməyim bəs deyilmiş kimi, bu gecəni, öz qəlbimlə yalqız qaldığım bu gecəni də belə zay etmək doğru olmazdı... Mənim dərdləşməyə, könlümü bütün çılpaqlığı ilə açıb danışmağa ehtiyacım var... Bu iki il yarım ərzində nə qədər adamla tanış olmuşam. Yüzlərcə dostum var. Lakin bunların içində, məsələn, o biçarə Şəmi dədə qədər məni başa düşə biləcək bir kimsə yoxdur.

"Belə olduğu halda bu məktubu özüm-özümə yazacağam" dedim. Stolumun gözündən bir dəstə kağız çıxartdım. Bu sətirləri qaraladım.

Xeyli vaxt keçmişdir Daha yatmaq lazımdır. Ancaq yatmazdan əvvəl görülməli kiçik bir iş də var: bu mənasız məktubun vərəqlərini bircə-bircə yandırmaq . Bir də belə uşaq-uşaq işlər görməmək üçün öz-özümə söz vermək.

*2 iyun*

Bu gün yuxudan gec oyandım. Cavidanın ancaq axşama yaxın gələcəyi yəqin idi Hava da gözəldi. Günortadan sonra evdən çıxdım. Fikrimdə tutmuşdum ki, sahildə bir saata qədər gəzim, sonra evə qayıdaraq ciddi surətdə işləməyə başlayım.

Təəssüf ki, yenə dəliliyim tutdu. Bələd olmadığım yollarla Çamlıcaya[1] tərəf getməyə başladım. Saysız-hesabsız yoxuşlardan

[1] İstanbulda, Bosforun Anadolu sahilində, keçmişdə şam meşəsi olan, zəngin ailələrin yaşadığı və yaxud yay aylarında dincəldiyi şəhərətrafı yer



keçdim. Saatlarla tarlalarda, bağçalar arasında gəzdim. Belə ki, yorğunluqdan bitab bir halda evə qayıtdığım vaxt artıq hava qaralmışdı. Qərara almışdım ki, Cavidan məzəmmət edərsə, nabələd yollarda azmış olduğumu söyləyərəm. Bağçada Dilnəvaz nənəyə rast gəldim Qadın narahat bir halda:

– Xanım hələ gəlməyib, – dedi. – Sizə bir teleqram var Deyəsən ondandır. Siz gedəndən azca sonra gətirdilər

Teleqramı aldım, Cavidandan idi.

"Ayişə xanım bu gecə də məni buraxmır, sənin də dərhal gəlməyini istəyir. Gözləyirik".

Dilnəvaz nənə tələşla üzümə baxaraq·

– Allah eləməmiş, bir şey yoxdur ki?– deyə soruşdu.

– Xeyr... Bu gecə də onu buraxmırlar, – dedim.

İndi bu gecə vaxtı mənim Böyük adaya getməyim mümkün olmazdı. Odur ki, cavab teleqramı vurdum. Bildirdim ki, gündüz evdə olmadığım üçün teleqramı ancaq indi almışam. Ona görə xahiş etdim ki, gələ bilmədiyim üçün məndən inciməsinlər.

Deməli, bu gecəni də Cavidansız keçirəcəyəm.

Dünən gecə özümə yazdığım məktubun axırıncı sətirlərində bu kağızları cırıb atmaq, artıq uzanıb yatmaq istədiyimi qeyd etmişdim Ancaq onları cıra bilməmişdim. Stolun bir gözünə yığıb bağlamışdım. Yuxum isə gəlmirdi. Qaranlıqda təkbaşıma bağçaya çıxdım. Saatlarca dənizə, qarşı sahilin sönük işıqlarına tamaşa etdim. Qəlbimdə mubhəm, anlaşılmaz bir nisgillik vardır. Yeni həyatımdan ilk dəfə idi ki, özüm-özümə şikayət edirdim.

Nəyim çatmırdı? Şərəf, şöhrət, pul, hətta məhəbbət... "Bəli, məhəbbət.. Madam ki, arvadımı sevirəm. Madam ki, onun çoxlu məziyyətləri olduğunu hamı təsdiq edir..." Bunlar kafi deyildimi?

Bu anlaşılmaz, mübhəm nisgili aydınlaşdırmağa çalışmaqdan qorxurdum. Bəli, özlərində dərmansız bir xəstəlik tapmaqdan qorxan həkimlər kimi, bu haqda düşünməyə cürət etmirdim.

Qəlbimi sakitləşdirmək üçün müxtəlif mühakimələr yürüdürdüm. Öz-özümə: "Köhnə, sərsəri həyatımın bir hissəsi İstanbulda keçmişdir,– deyirdim. – Burada mən çox iztırab çəkmişəm. İndi yenidən İstanbula qayıtmışam. Görünür bu, keçmiş, iztirablı həyatımın xatirələridir, ruhumda gizli-gizli canlanır.. Köhnə dərdlərimin son qalıqları özünü hiss etdirir..."

Anlaşılmaz düşüncələr içərisində keçən saatlar adamı fiziki məşğuliyyətlərdən daha çox yorub üzür Dünən axşam otağıma çəkildikdən sonra yük altında əzilmiş hambal kimi yorğun idim.

Gozlərimi açdığım zaman otaqda zərif bir qanad səsi eşitdim. Pəncərə taxtaları örtülü olduğu üçün içəri işıq düşmürdü. Otaqdakı yarımqaranlıq içində incə bir kölgə çırpınırdı. Dərhal başa düşdüm: Sobanın açıq borusu ilə bir quş balası keçib otağa girmişdi Biçarəni əziyyətdən qurtarmaq üçün pəncərələrdən birini açmaq kifayətdi. Ancaq məndə nadinc uşaqlar kimi bu quşu tutmaq, bir neçə dəqiqə əlimdə oxşamaq həvəsi oyanmışdı Quş çırpınmaqdan yorulub halsız düşmüşdü. Məni çox incitməyəcəkdi. Pəncərə taxtalarının birini azca araladım. Yazıq quşcuğaz özunü buradan düşən işığa tərəf atdı. İşığa çıxmaq ümidindən heç cür ayrılmaq istəmirmiş kimi var qüvvəsi ilə çırpınırdı. Əlimi uzadıb qanadlarından yapışdım. Ancaq başını taxtanın arasına soxmuşdu Çox dartışdırsam öləcəyini, durduğum yerdə əzab çəkməli olacağımı düşündum. Tez pəncərəni açdım. Əlimdə yazıq quşcuğazın bir neçə sarı tukü qaldı.

Bunu görcək yenə də nə üçünsə Xınalı yapıncağı düşünməyə başladım. Görəsən, onu bu günlər niyə belə tez-tez xatırlayırdım?

Ümumiyyətlə, məndə yalnız onu deyil, bütün köhnə şeyləri xatırlamaq istedadı var. Bugünkü gəzintidə də elə olmuşdu. Küçüksudan[1] qayıtdığım vaxt uzaqdan görünən ağaclıqlar arasındakı yolayrıcını Bozyaxa yollarından birinə oxşatmışdım. Birdən mənə elə gəldi ki, bu yolu tutub getsəm, o yerlərə bənzəyən daha bir çox şeylər görəcəyəm. Axşama qədər kimsəsiz yollarda, dik yoxuşlarda gəzməyimə, Çamlıcanın lap arxa tərəflərindəki görmədiyim yerlərədək gedib çıxmağıma səbəb də bu olmuşdu. Cavidanın bu axşam qayıtmaması ürəyimi sıxırdı. Heç olmasa teleqramı bivaxt almasa idim, Böyük adaya gedə bilərdim.

Dünən gecə özumə yazdığım məktubu cırıb atmaq istəməməyimə səbəb vardı: öz-özümlə danışmaq istəmirdim, bu halın qarşısını ala bilməyəcəyimdən, arvadım evə qayıtdıqdan sonra da bunun davam edəcəyindən qorxurdum.

Bu gecəni kaman çalmaqla keçirmək istədim. Yadıma çox köhnə, mənasız şeylər düşdü. Vaxtilə Şəmi dədənin neyindən eşitdiyim və yadımda qalmış havalar, uşaq vaxtı təkyədə oxunan parçalar, sonra Lamiə üçün çaldığım ninni...

[1] İstanbulun Asiya sahilindəki istirahət və yaşayış yerlərindən biri



Ancaq başa düşürdüm ki, bu qüvvətli arzuma qarşı durmaq mənim üçün mümkün olmayacaq. Yazı stolunun qabağına keçdim, dunən gecəki məktubu çıxardım. Bunlar bir gündəliyin ilk səhifələri olacaqdı. Başa düşürəm, bu qorxusuz iş deyil. Çünki ömrümdə bir dəfə də olsun Cavidana deməsaid bir çox şeyləri bu vərəqlərdə yazacağam.

Beləliklə, həyatımıza, daha pisi bu idi ki, ruhumuza bir ayrılıq girəcək. Sonra o duyduğum mübhəm hicranları, o anlaşılmaz şeylər həsrətini təhlil etməyə başlamaqdan özümü saxlaya biləcəkdimmi? Nəhayət, öz-özümlə bu cür açıq dərdləşməyim' məndə bugünkü səadət barəsində şübhələr doğurmayacaqdımı?

Olduğu kimi yadımdadır. Evləndiyimiz gün arvadımın qohumlarından yaşlı bir xanım belə demişdi: altmış yaşım var, indiyə qədər çox şeylər görmüşəm. Ancaq bir-birinə bu qədər yaraşan bir ər-arvada hələ təsadüf etməmişəm. Bu cavanlar bir-birini çox sevəcəklər.

Bundan sonra həmin təranəni yüzlərcə ağızdan eşitdim Hamı bizim bir-birimizi çox sevdiyimizə dərindən inandığını bildırırdi Belə ki, buna mən özüm də inanmağa başladım. Aylarca ozümü dəlicəsınə sevən bir aşiq zənn etdim.

Cavidanın görkəmində heç bir eybi, heç bir qüsuru yoxdu. Çox gözəldi. Həm də möhtəşəm bir gözəlliyə malikdi. Xalq təbirincə desək bir dəfə görən bir də görmək üçün başını çevirir, ona heyrət, mənə həsədlə baxırdı. Sonra zəkalı, nəzakətli, tərbiyəli bır qadındı. Bizi tanıyanlar onu nadir kamal sahibi hesab edirdilər.

İllərcə mən də onun bu məziyyətlərinə heyran oldum. Hətta indi də bir dərəcəyə qədər yenə o fikirdəyəm. Ancaq bu saat daha nə onun bu möhtəşəm gözəlliyinin, nə də bu heyranedici məziyyətlərinin məni tamamilə təmin etmədiyini, ruhumu oxşamadığını öz-özümdən belə gizlətməyə müqtədir deyiləm.

Arvadım gözəldi. Ona baxdıqca heyran olurdum. Ancaq nə edim ki, qəlbim bu gözəllik qarşısında daş kimi hərəkətsiz idi, onda qəşəng bir heykəldən, çox sənətkarlıqla çəkilən gözəl rəsm əsərindən başqa bir şey görə bilmirdim. Məsələn, Leylanın iyirmi ildən bəri qəlbimdə yurd salmış xatirəsi, hətta yazıq Xınalı yapıncağın zərıf çilləri... Mən lap uşaq kimi mənasız şeylər danışmağa başlayıram.

Arvadımın ruhuna gəlincə, o yaxşı bir ürək dostu, çətin ki, ola bilərdi Sənətdən tutmuş siyasətə qədər hər şeydən gözəl və cazibəli bir surətdə

bəhs edır Hər hansı mübahisədə qələbə həmişə onun tərəfində olur. Vüqarlı bir ciddiyyəti, kübar bir nəzakəti var. Xülasə, bir çoxları ona heyrandır. Mən də elə. . Yalnız bu qədər...

Bu kübar qadına mən özümü bir gün də olsa, olduğum kımi göstərməyə cəsarət etməmişəm. Bir gün də olsa onunla səmimi, ürəkdən söhbət edə bilməmişəm. Bəzən heyifsiləndiyim, kədərləndiyim vaxtlar da olub. Ancaq qüvvətli iradə sahibi və yüksək bir adam kimi görünüm deyə bütün bunları ondan gizlətməli olmuşam. Beləliklə, biz iki il yarım bir-birimizlə yorucu bir komediya oynamışıq.

Sonra isə. . Yeni həyatım, əvvəllər həsrətini çəkdiyim bu kübar, bu yüksək, dəbdəbəli həyat ındi mənə necə də yorucu və adi, necə də dözülməz bir şey kımi gorünür. İlk vaxtlar gülünc bır hərarətlə özümü bu aləmin içinə atmışdım, çeynənmiş zarafatlar, soyuq mərasimlər, hiss və fikir saxtakarlığı, riyakarlıq, lovğalıq, xülasə bütün bu iyrənc şeylər içində bir oyuncaq və ya müqəvva kimi yaşamaqdan zövq alırdım. Lakın artıq bu həyatdan da, öz-özümdən də iyrənırəm. Cavidana bunları anlatmaq mümkün deyil. Ona "Mən bundan sonra yalqız, sakit bır çoban həyatı yaşamaq istəyirəm" sözlərini necə deyim?

Bu dəfə biz İstanbula gələndə çox sevinmişdim. Burada sakit, dəbdəbəsiz bir həyat sürə biləcəyimi ümid edirdim. Arvadım istəyirdi ki, biz Şişlidə yaşayaq. Mən yayın istisini bəhanə elədim. Bir də təzə əsərimi yazıb qurtarmaq üçün mənə tam sakitlik lazım olduğunu söylədim. Odur ki, bu yaylaq evində yerləşməli olduq...

Dostlarımız, tanışlarımız bizi rahat qoymurlar. Gah günlərlə onları burada qəbul etməli oluruq, gah da bizim özümüzü dəvət edirlər. Məsələn, üç gün bundan əvvəl bir çox qonağımız vardı. Bir az adət elədiyimizə görə bir az da belə lazım olduğu üçün mən bu zahiri dəbdəbəni hələ saxlayıram, hələ bir növ komediya oynayıram. Ancaq doğrusu, çox usanmışam: yorulmuşam. Yoxsul vaxtlarımda gözü sürməli məhəllə qadınlarına kaman çalmaq dərsi verdiyim günlərin həsrətini çəkməyim gəlir.

Ah, Kənan! Sən istədiyınə nail olduqca xərifləyən bır nankorsan. Dünyaya ancaq şıkayət etmək üçün gəlmisən. Belə də ölüb gedəcəksən. Şikayətlə keçən bu həyatdan dünyada bəlkə bir neçə nəğmən yadigar qalacaq... Ancaq bu qədər...



*10 iyun*

Bu axşam bir neçə qonağımızla bağçada oturmuşduq. Arada söhbət musiqi üstünə gəldi. Dostlardan biri soruşdu:

– Yeni əsəriniz nə vaxt hazır olar, Kənan bəy?

– Güman edirəm ki, bu qış, – deyə cavab verdim.

– Nə yaxşı! Ümid edirəm kı, yenə aləmə gurultu salacaqsınız. Əsər öz xoşunuza gəlirmi?

– Güman edirəm ki, o qədər də pis deyil.

– Bu axşam qonağınız sayılırıq. Bizə hər cür hörmət eləmək borcunuzdur. Əsərınizin çox bəyəndiyiniz yerlərindən bizim üçün bir parça çalarsınızmı?

Bu qoca mütəsərrif idarə işlərindən daha çox, incəsənətdən başı çıxan bir adamdı. Əlindən qurtara bilməyəcəyimi hiss etdim.

– Əmrinizi yerinə yetirə bilmək üçün bir neçə həftəlik möhlət istəyəcəyəm. Əsər hələ çox dağınıqdır... Qorxuram ki, bu vəziyyətdə sizdə oyatdığı ilk təsir yaxşı olmaz... Bu ilk təsır məncə çox mühümdür...

Qonaq gülərək sözümü kəsdi:

– Bu qış tamaşaya qoyulacağını söylədiyiniz əsər müəyyən bir fikır oyadacaq dərəcədə hazır olmalıdır. Xüsusən eşitmək istədiyimiz bir parça...

Mən cavab tapmayıb susurdum. Mütəsərrif bu dəfə üzünü Cavidana tərəf çevirdi:

– Düz deyirəm, elə deyilmi? Yəqın ki, siz də kömək edərsiniz, Kənan bəyin bu yeni əsərinə sız necə baxırsınız? İki ildən bəri yazılmaqda olan əsər güman edirəm ki, yaxşı olar, elə deyilmi, xanım?

Cavidan dodaqucu cavab verdi:

– Düzdür, əfəndim.

– Nə üçünsə çox yavaş dediniz.

Arvadımla bir baxışdıq. Cavidan yarıdalğın, yarıkədərli, hətta bir az da istehzalı bır təbəssümlə:

– Yazıq Kənan, – dedi, – görürsən ki, sirrimizi daha bundan artıq gizlədə bilməyəcəyik.

Sonra qonağa baxdı·

– Kənan həmişə deyirdi ki, əsər çox dağınıqdır. Mən də düzünü deməyə məcburam. Doğrudan da bu yazıq şah əsər elə dağınıqdır, hələ bir nəğməsi də nota köçürülməyib.

Qonaqlar gülüşməyə, təəccüb eləməyə başladılar. Qızardığımı hiss etdim. Buna baxmayaraq cürət və hərarətlə:

– Şübhəsiz, – dedim, – əsil iş görülüb qurtarmışdır, yeni əsər fikrimdə hazırdır. Onu bütün təfsilatı ilə görüb eşidirəm. İndi bircə onu kağıza köçürmək, nota salmaq kimi bir iş qalır ki, bunun üçün də mənə bir-iki ay vaxt lazımdır... Məncə bütün sənət əsərləri belə yaranır.

Qonaqlar içində bayağılığı ilə məşhur heyvərənin birisi:

– İnşallah, – dedi. – Sağlıq olsun, onu da eləyərsiniz. Bu yeni dostaşnanız da sağ-salamat onun tamaşasına gələr.

Cavidanın üzünə baxmağa cəsarət eləmirdim, ancaq hiss edirdim ki, özünü o yola qoymamağına baxmayaraq, içəridən möhkəm əsəbiləşir. Nə qədər acı olsa da, etiraf etməyə məcburam: Cavidan mənim şəxsimdə bir insandan daha çox bir sənətkar görür, özümdən daha çox əsərimlə maraqlanırmış. Aramızdakı o gizli anlaşılmazlığın bir səbəbi də yəqin ki, budur.

Bir az sonra arvadımla yalqız qalmışdım. Cavidan bir qədər susduqdan sonra ağır bir tövrlə:

– Görürsən, – deyə sözə başladı. – Artıq ortalığa çıxmayan əsəri ələ salmağa başlamışlar? Heç yaxşı olmadı.

Etınasızlıqla dodaqlarımı büzdüm və:

– Axmaqlar! – dedim.

– Deyirsən yeni haqsızdırlar?

– Əlbəttə. Onlar elə əvvəllər də mənə inanmırdılar.

– İndi sən elə əvvəlki adam olduğuna əminsən?

– Əlbəttə...

– Mənim zavallı Kənanım... Mən isə sənın əvvəlki vaxtınla indiki halın arasındakı fərqi çox yaxşı görürəm. Səni dörd il bundan qabaq İzmirdə ilk dəfə gördüyüm gecəni xatırlayıram. Mənə elə gəlir ki, o vaxt sən tamamilə başqa bir adamdın.

– Yaxud da sənin gözünə elə görünürdüm və o zaman şübhəsiz məni daha çox sevirdin, eləmi?

– Bu tənən çox yersiz və haqsızdır, Kənan!

– Sonra başqa bir səbəb də var: o vaxt mən öz yerimdə, doğma torpağımda idim. Üzərində doğulduğu, böyüdüyü torpaq isə insana başqa bir canlılıq verir.

– Yoxsa vətən həsrəti çəkırsən, Kənan?

– Bəlkə də... Bilmirəm. Çox güman...



– İstəyirsən bu yay bir-iki aylığa İzmirə gedək. Bozyaxada bəlkə daha yaxşı işləyərsən. Oralar əlbət ki, buradan sakitlikdir

Heyrətlə Cavidanın üzünə baxır, sözlərinə inana bilmirdim İzmir məgər dünyanın o biri başında idi? Bozyaxa röyalardakı əlçatmaz bir diyar idimi? Bir halda ki, dayım da məni hər il oraya dəvət edirdi. Orada bir-ikı ay qalmaqdan daha sadə və təbii nə ola bilərdi? Belə olduğu halda mən bu arzunu, bu ümidi ürəyimdən çıxarıb atmışdım.

Qulaqlarım uğuldayır, qəlbım şiddətlə çırpınırdı. Cavidan diqqətlə üzümə baxaraq gülümsədi:

– Bu səyahət hər halda yaxşı olar. Görürəm, İzmirın təkcə adını eşitmək rəngini o saat dəyişdirdi.

Bır söz demədim. Cavidanı qollarım arasına aldım, sevindirilmiş dəcəl bir uşaq coşqunluğu ilə onun saçlarından, yanaqlarından öpməyə başladım. Arvadım məni ən hərarətli saatlarımızda belə həmişə ağırbaşlı, bır az da vüqarlı görməyə alışmışdı. İndi bir uşaq kimi sevinməyimə gülür:

– Bu qədər sevinəcəyini bilsəydim, – deyirdi, – çoxdan bu təklifi edərdim.

Kefim kök olanda çox söz danışmıram.

– Görərsən, – dedim, – orada necə yaxşı işləyəcəyəm Əslində ən yaxşı əsərlərimi Bozyaxada yaratmamışammı? Mənim bir az bülbüllərə bənzərim var. Onlar da doğma torpaqlarından ayrıldıqları vaxt susurlar, gözəl nəğmələri eşidilməz olur. Sonra mənə elə gəlir kı, səni orada daha başqa cür sevəcəyəm. Bir az əvvəl mənim dəyişmiş olduğumu deyırdin. Orada olduğumuz zaman isə məni əvvəlkındən daha cavan, daha qüvvətli, daha canlı görəcəksən...

Bu gecə qonaqlarımıza saatlarca davam edən bir "musiqi ziyafəti" verdim. İki ilə yaxın bir zamandan bəri bu qədər gözəl, bu qədər təsirli kaman çaldığımı xatırlamıram. Hava ilıq, dəniz sakitdi Ay da xeyli qalxmışdı. Hətta ətraf yerlərdən kamanımın səsini dınləmək üçün qayıqlarla evimizin qabağına qədər gələnlər də vardı.

İndi bütün ev yatmışdır... Yalnız mənim yuxum gəlmir Cavidanı narahat etməmək üçün yavaşca otaqdan çıxdım, buraya gələrək dəftərimə bu sətirləri yazmağa başladım.

Uşaq kimi sevinirəm. Demək, bir neçə gündən sonra Bozyaxada olacağam. Yenə ılıq üzüm qoxusu duyulan bağlar içində gəzəcəyəm, yabanı güllər, bənövşələrlə dolu dar cığırlardan Ərəb dərəsinə

enəcəyəm. Yenə aylı gecələrdə Qırx çamlara gedəcəyəm. Yenə Şəmi dədəni, məzlum "Kərəm"i, qoca "Quzğun"u görəcəyəm. Yenə quyu başında bəyaz deyiləcək qədər açıq-sarı saçları ilə, azca çilli gözəl üzü, süzgün yaşıl gözləri ilə Xınalı yapıncağımı...

Görəsən Xınalı yapıncaq oradadırmı? Bəlkə nişanlısı ilə evlənib başqa yerə getmişdir. Mən bunun belə olmasını heç cür güman etmək istəmirəm. Bozyaxanı Xınalı yapıncaqsız necə təsəvvür etmək olar? Deməli, Lamiəni yenə görəcəyəm... Ah, bu nə yaxşı olacaq... Görəsən məni gördüyü zaman nə edəcək? Yəqin ki, indi məni yadından çıxarıb. Hər halda qollarım arasında keçirdiyi saatları yenə xatırlayacaq. Bu keçmiş əhvalatdan artıq danışmayacağıq. Belə ki, mənim artıq arvadım var, yəni bir dərəcəyə qədər sevdiyim var... Onun da şübhəsiz elə... O, bir yay mövsümü üçün ötən bir röya idi, gəldi, keçdi... Xınalı yapıncaqla göz-gözə gəlirkən bunu xatırlayacağıq... Ah, bu süzgün yaşıl gözlərin baxışından aldığım zövq... Mən bu zövqü artıq indidən hiss edirəm.

Hər yay harada oluramsa olum, həmin bu mövsümdə, bu ayda, lap bu vaxt üstümə ağır bir bulud kimi anlaşılmaz bir yorğunluq çökür, qəlbimdəki bu sönüklük, süstlük görəsən, o yerlərin gizli vətən həsrətindən doğmurmu?

*15 iyun*

Sabah yola düşürük. Bu gün dayımdan bir məktub almışam. Bizim üçün "Mərasim binası"nı hazırlatdığını yazır, deyir ki, bir az qabaq xəbər versə idiniz, oranı daha yaxşı səhmana salar, əlavə bir-iki otaq da tikdirərdim.

Yazıq kişi .

Deməli, bir-iki günə Bozyaxanı, Ərəb dərəsini, Qırx çamları, Şəmi dədəni, "Kərəm"i, xülasə bütün sevdiyim şeyləri görəcəyəm... Təkcə bir nəfərdən başqa: anam, yazıq anacığım... Anamın qəlbimdə və həyatımda bu dərəcədə böyük bir yer tutduğunu indiyə qədər anlamamışdım. Onun öldüyünü, Seyidiköy qəbiristanlığında çox ehtimal ki, daşsız, əlamətsiz bir qəbirdə çürüyüb torpağa döndüyünü bilirdim. Lakin dərk etdiyim bu həqiqətə könlüm heç cür inanmaq istəmirdi. Mənə elə gəlirdi ki, anam arıq çiyinlərində yun şalı, yorğun, xəstə çöhrəsinə bir gənc qız məlahəti verən məsum mavi gözləri, bir teli belə ağarmamış



gur qumral saçları ilə yenə çardaqların altında yavaş-yavaş gəzinir, axşamüstü bağ qapısının qabağında həmişəki yerində dayanıb məni gözləyir...

Yazıq qadın mənim ucbatımdan ömründə bir gün belə ürəkdən gülmədi. Onu pərəstişlə sevirdim. Bunu inkar edə bilmərəm Pisürəkli bir uşaq da deyildim. Bununla belə onu kədərləndirməkdən qəribə bir zövq alırdım. Küskün və tənha gəncliyimin bütün iztirabları üçün nədənsə anamı günahkar hesab edirdim. Çox məğrurdum. Qəlbimin yaralarını hamıdan gizlədirdim. Ancaq anama özümü olduğumdan daha bədbəxt göstərmək xoşuma gəlirdi. Onun mənim üçün gizli-gizli ağlamaqdan qızaran, yuxusuz qalmaqdan xumarlanan gözlərini görməkdən çılğın bir ləzzət alırdım.

Bəli, çox məğrurdum. Lakin dərdini, kədərini üzündə sakit təbəssümlə çəkməyi bacaran, halından şikayətlənməyən qüvvətli adamlardan da deyildim. Məğrurdum. Lakin mənliyim acizlikdən, yazıqlıq və dözümsüzlükdən ibarətdi...

Başqalarının mənə acıması izzəti-nəfsimə toxunurdu. Ancaq balaca bir uşaq kimi sevilməyə, əzizlənməyə, nazlanmağa möhtac zəif bir təbiətim vardı. Onun üçün də ancaq anama nazlanırdım Məsələn, başım azca ağrısa, özümü ağır xəstə kimi göstərirdim. O da mənə inanır, evin içində təlaşla ora-bura cumub çırpınmağa başlayır, səhərə qədər gözlərinə yuxu getmirdi. Belə xoş bir mərhəmət və şəfqət içində yuxuya getməyin isə mənim üçün özgə bir ləzzəti vardı. Başa düşürdüm ki, bu zalımanə bir şıltaqlıqdır. Lakin o xasiyyət ki, məndə vardı, sevilməyə, başa düşülməyə, əzizlənməyə o ehtiyacı ki, mən duyurdum, bu şıltağımı tərgidə bilmirdim. Bəlkə də yazıq anam məni hamıdan çox sevdiyi üçün mən belə edirdim.

Bozyaxada xatirələrimin çoxu ilə üz-üzə gələcəyəm... Bilmirəm başqaları necədir, mən keçmiş xatirələri ancaq onların aid olduqları yerlərdə tam şəkildə fikrimdə canlandıra bilirəm. Bu zaman mənzərələrin unudulmuş parçaları, şeylərin tanış rayihələri, yaddan çıxmış çöhrələri, keçmiş əhvalatları başqa bir qüvvətlə yenidən canlandırır, qəlbi daha dərindən mütəəssir edir.

Anamı görməyəcəyəm. Lakin onun gəzdiyi yerlərdə gəzəcəyəm, əlini vurduğu yerlərə alnımı, dodaqlarımı qoyacağam, oturduğu yerlərdə oturacağam. Ondan ən çox Xınalı yapıncağa söhbət açacağam... Nə üçün? Bilmirəm. Ancaq ürəyim belə istəyir.

Anamla Lamiə bir-birləri ilə yaxın olmamışdılar, hətta heç tanış da deyildilər. Buna baxmayaraq nədənsə onları bir ana-qız kimi bir-birinə yaxın zənn edirəm.

Anamın ölüm xəbərini aldığım gün bütün gecəni ancaq Xınalı yapıncağı xatırlamış, o yanımda olarsa, daha yaxşı təsəlli tapacağımı hiss etməmişdimmi?

Görəsən Xınalı yapıncağı ilk dəfə harada görəcəyəm? İstərdim ki, Bozyaxaya gələcəyimdən xəbər tutmamış olsun. Ancaq bu, mümkün deyil... Məsələn, birdən küçədə, yaxud bağın dalındakı dar cığırda qarşılaşırıq... Hələ bundan da yaxşısı: quyu başında "Kərəm" yenə ağır-ağır dolanır. Səmihə ilə Fikrət iki ağac arasında asılmış nənnidə günorta yuxusuna getmişlər. Xınalı yapıncaq üzümlərin soyuq saxlandığı mərmər hovuzun yanındadır. Biləklərini suya salmışdır. Yaşıl gözləri yenə dalğındır. Dodaqlarında həmişəki o qəşəng təbəssümü; sarı saçları da alnına tökülmüşdür. Budaqların arasında xəfif bir səs eşidərək başını çevirir. Birdən məni görür. Xınalı yapıncağın süzgün yaşıl gözləri daha bir dəfə gözlərimlə qarşılaşır. Ah nə gözəl, nə qüvvətli duyğu...

Kənan, əzizim, yenə uşaq olmağa, yuxu görməyə başladın... Xınalı yapıncağı yenə görəcəksən... Başqa cür ola da bilməz. Lakin münasibətiniz yenə əvvəlki kimi olacaqmı? Lamiə bəlkə ərə getmişdir. Getməyibsə də, sən artıq evli bir adamsan... Arvadın, sevdiyin var O yay röyası artıq əbədi olaraq sönüb getmişdir... Qoy elə olsun. Xınalı yapıncaqla köhnə bir dost kimi danışmağın da bir özgə ləzzəti var. Ancaq o macəra ilə əlaqədar aramızda heç bir söz olmayacaq Yalnız bir-birimizə baxarkən bunu xatırlayacağıq. Xınalı yapıncağın gözlərində bu sevda xatirəsini görməyim mənə bütün bir eşqdən daha xoş gələcək... Bir neçə il sonra yenə bir-birimizə təsadüf edəcəyik. Həyat bəzən necə də gözəl olur...

Sabah yola düşürük, artıq ikicə gün qaldı. Ancaq bu mənə bir il qədər uzun görünür. Elə bil bu iki gün heç vaxt başa çatmayacaq...

*22 iyun*

Üç gündür ki, İzmirdəyik. Bağa isə ancaq bu axşam hava qaralandan sonra gələ bildik. Dünyada bu məcburi təntənəli görüşlərdən, mərasimlərdən çox zəhləm gedən şey yoxdur. Tərs kimi, hara gedirəm bunlardan yaxa qurtara bilmirəm... Bəli, üç gündür, İzmirdəyik... Ancaq asudəliyə bir neçə saat bundan əvvəl çıxa bilmişəm.



Dayım yazıq xəstədir. Keçən il onu iflic vurub, ayağının biri işləmir, güclə danışa bilir. Dağ boyda kişi bir ilin içində şam kimi əriyib Buna baxmayaraq əldən düşən ancaq bədənidir. Ruhən isə əvvəlki kimi hələ də qızğın şöhrət düşkünüdür... Bu halı ilə artıq bələdiyyə rəisi olmağa ümidi qalmamışdır... Ancaq indi də başqa xasiyyətləri meydana çıxmışdır. Uşaqları atalarından şikayət edirdilər: dayım Karantin məhəlləsindəki evinin qapılarını təkyə qapısı kimi açıb. Girən, çıxan, dağıdan və aparanların sayı məlum deyil. Ətrafına bir sürü tüfeyli toplanıb, dövlətinin olan-qalanını da onlar nuşcanlıqla yeyirlər. Bunların çoxu köhnə bələdiyyə məmurlarıdır. İşləri-peşələri də təzə bələdiyyə rəisinin əleyhinə cürbəcür dedi-qodular düzəltməkdir Gecə-gündüz daima yeni idarə heyətinə böhtanlar atır, cürbəcür iftiralarla təzə bələdiyyə rəisini pisləyirdilər... Təbiidir ki, hər kəlməbaşı "hanı o əvvəlki günlər" deyə dayımı tərifləyirlər.

Yazıq kişinin bütün təsəllisi indi ancaq bundan ibarətdır.

Bizim gəlməyimiz onu çox sevindirdi. Ancaq İzmirə çatdığım gün elə bir şey eşitdim ki, xəcalətimdən lap yerə girdim: kişi qəzetlərdə mənim gələcəyimi elan etdirmiş, sonra bu kifayət deyilmiş kimi bir qəzetdə də öz şəkli ilə mənim şəklimi verdirmişdi... Ah, ya rəbbim, nə böyük bir biabırçılıq...

Biz birbaşa Bozyaxaya getmək istəyirdik. Dayım buna razı olmadı. Karantindəki evində təmtəraqlı bir görüş təşkil etmiş, xeyli adam çağırmışdı. O, bu vasitə ilə özündən bir dəfə də yenə bəhs etdirmək istəyirdi. Bununla birlikdə "qızı şahzadə Cavidan xanıma" öz evinin dəbdəbəsini də göstərmək istəyirdi. Nə isə iki gün-iki gecə ardı-arası kəsilmədən görüşümüzə gələnləri qəbul etməli olduq. Dayımın istəyi başqa idi:

– Sən İzmirdə qal, nə qədər xərc lazımdır çəkim. Qəzet çıxaraq, elanlar, reklamlar verək. Dostumuz, tanışımız az deyil Səni bələdiyyə rəisi seçdirək, – deyə təkid edir, hacıları, xocaları[1] və başqalarını mənə bu barədə yalvartdırırdı.

Qəhqəhə çəkib gülməyə başladım:

– Çalğıçıdan bələdiyyə rəisi olarmı, paşa dayı?

Yazıq kişi yaman pərt oldu Başqa cavab tapa bilmədiyi üçün:

– Bəs toyuq oğrusunun oğlundan bələdiyyə rəisi olarmı? – dedi – İndiki rəisin atası, Allah haqqı, uşaq vaxtından yadımdadır, toyuq oğur-

[1] Ruhani, molla. Bəzən müəllimləri də belə adlandırırlar

lamaqla dolanırdı. Bir də, sən, Allah eləməmiş, çalğıçı niyə olursan? Sən operaçısan

– Operaçı? Mən?

– Əlbət ki, sən opera yazırsan. Çalğıçı zurnaçıya deyərlər.

Yazıq dayımı bu son ümidindən daşındırmaq üçün çox əlləşdim. Son ümidi deyirəm . Çünki mən bələdiyyə rəisi olsa idim, o hər gün oraya gələcək, çoxlu təcrübəsindən istifadə eləməyə məni məcbur edəcək, mənə isə ancaq bir möhür basmaq işi qalacaqdı. Xülasə, özü tam mənası ilə bələdiyyə rəisliyi edəcəkdi.

Qərara almışdıq ki, buraya səhər tezdən gələk. Bu dəfə də qarşımıza Münir bəy çıxdı Mənimlə Cavidanı öz köşkündə mütləq iki-üç gün qonaq saxlamaq istəyirdi. Bir neçə gündən sonra onun bu arzusunu yerinə yetirəcəyimizi vəd edərək onun da əlindən bir təhər qurtardıq. Lakin bizi həmin gün mütləq axşam yeməyinə saxlamaq istədiyini bildirdi və bir neçə saat əvvəl özü bizi bağa qədər gətirdi...

Münir bəyin köşkündən gec çıxdıq. Azca aydınlıq vardı. Kiçik bir təpənin üstündən keçdiyimiz yolun ətrafını bürüyən çiçəklər, kollar arasından bağımızı gördüyüm zaman gözlərimin yaşla dolduğunu hiss etdim. Bu vaxt duyduğum həyəcanı heç vaxt unuda bilməyəcəyəm.

Cavidanla Münir bəy qabaqda danışa-danışa gedirdilər. Geri qalmaq üçün bəhanələr axtarır, özümü unutdurmağa çalışır, dönüb məni danışdırmalarını istəmirdim. Bu saat ən xoşbəxt bir hadisənin, hətta ən sevimli bir səsin belə məni daldığım xəyaldan ayırmasına razı deyildim.

Budur, Ərəb dərəsinə enən yollar, tənha sərvin altında Şəmi dədənin köhnə türbələri xatırladan ağ evi Budur, Qırx çamların zərif aydınlığı, mavi göy üzündə əks olunan kölgəsi...

Gəlib küçəyə çıxdığımız vaxt Cavidan üzünü mənə tərəf çevirdi.

– İlk dəfə bir-birimizi gördüyümüz yer deyilmi, Kənan?

Bir söz demədim, dalğın bir təbəssümlə başımı endirdim. Cavidan bu dəfə Şəmi dədənin evini göstərdi:

– Burada bir divanə dilənçi vardı, elə deyilmi?

Şəmi dədə, divanə dilənçi!.. Bir qıtlıq ilində heç kəsin əlindən çörək alıb yeməmək üçün ölməyə razı olan zəngin ruhlu Şəmi dədə... Xəyal və məhəbbətinin bir zərrəsini belə dünyanın heç bir sərvətinə dəyişməyən qoca sənətkar .. Divanə bir dilənçi Sənin bu sözünü cavabsız qoyuram, Cavidan. Çünki nə desəm, bu sözdə acığımı ifadə edə bilməyəcəyəm.



Bağın hasarı üstündə yekə bir it hurməyə başladı Bağban onu qovanda öz-özümə:

– Vay, yəqin "Quzğun" ölüb, – dedim, ürəyim birdən sızıldadı.

Bağ qapısı ilə köşkün arasındakı ağaclığı keçərkən beş-altı dəfə durdum. Buralarda yayın ılıq və təzə həyatı bütün qüvvəti ilə duyulurdu. Yolun hər iki tərəfi sıx yarpaqlı budaqlarla tutulmuşdu. Ağacların arasından quş civiltiləri, qanad səsləri eşidilir, qaranlıqda görünməyən yabanı güllərin, xanımotunun ağır qoxusu başımı gicəlləndirirdi... Budur, böyük köşkün qabağındakı çardaq. . Bir səhərçağı anamın, qabağında durub məni gözlədiyi pəncərə... Zərif vücudunu bağrıma basdığım, səhərin şəfəqləri içində daha da solğun görünən mavi gözlərini öpduyum, ilk müvəffəqiyyətlərimdən məst olan başımı köksünə qoyub ümidlərimi, arzularımı söylədiyim yer – daş pilləkən...

Bir az da irəliləyirəm... Qaranlığın içində diqqətimi daha bir ağaclıq cəlb edir. Buradan keçəndə Cavidandan aralanıram. Bir türbəni ziyarət edirmiş kimi, orada azca dururam... İyirmi il əvvəl Leyladan ayrıldığım, ilk eşqimin ilk busəsini rədd etdiyim yer... Neçə il sonra burada bir gecə başqa bir qızı, aciz bir quş balasıtək qollarım arasına düşən bir qız uşağını da burada bağrıma basmışdım .. Yazıq Xınalı yapıncaq necə də titrəyirdi... Onu buz kimi soyumuş biləklərindən tutaraq köksümə çəkdiyim, dodaqlarımı geniş alnına, titrəyən ipək saçlarına.

– Kənan niyə orada dayanmısan?

Yüngülcə silkinirəm. Halımdan xəbərsiz Cavidan bir az qabaqda dayanıb gözləyir.

– Heç... Elə-belə, – deyirəm.

Arvadım bu mənasız sözə gülür. O vaxt elə bil mənə cəsarət gəlir, ondan böyük bir şey xahiş edirmişəm kimi·

– Cavidan, bircə buraya, yanıma gəlsənə, – deyirəm.

Heyrətlə mənə baxır, amma sözümə qulaq asıb yanıma gəlir. Onu biləklərindən tuturam, yavaş-yavaş özümə tərəf çəkirəm Dodaqlarımı alnına qoyuram. Bədənimdən soyuq bir rəşə keçir Bu busə dodaqlarımda buz kimi donur, yarımçıq qalır ..

Yenə getməyə başlayırıq. Ayın dumanlar arasından sızırmış kimi görünən zəif ziyası altında üzüm tənəkləri yenə göz işlədikcə uzanıb gedir. Bunların arasında bir kölgənin yavaş-yavaş qımıldandığını görürəm. Barmağımla bu kölgəni bağbana göstərərək soruşuram·

– "Kərəm" deyilmi o?

Qoca başını əyərək cavab verir:

– Bəli, bəy... "Kərəm"dir.

Cavidan mənim barəmdə nə düşünür düşünsün, bu arzuma qarşı dura bilməyəcəyəm. Meynələrin arasından sürətlə keçib "Kərəm"in yanına gedirəm. Heyvancığaz əvvəl hürkür, ancaq sonra dayanır, dalğın qızılı gözləri ilə üzümə baxır.

– Sən də məni tanıdınmı, "Kərəm"? Səni burada görməsə idim, insan dostlarımdan bir çoxunu itirmiş kimi olardım.

"Kərəm" sözlərimi başa düşürmüş kimi xoş bir nəzərlə üzümə baxmaqda davam edirdi... Ətrafıma baxıram. Heç kəsin məni görmədiyinə əmin olduqdan sonra əyilərək onun üzündən öpürəm.

Cavidan da mənim kimi yorğun idi. Tez yatmaq istəyirdi. Məndən əvvəl bura gəlib çıxmış kamanımı qutusundan çıxarmağa başladım.

– Sən soyunanacan mən sənin üçün bir şey çalım.

– Yaxşı. Ancaq sən də yorğunsan... Özü də bu saat, gələn kimi nə vacib düşüb? Qəribə görünməzmi?

– Yox . Yox... Bircə fikir...

– Ancaq bu gecə sənin ağlına çox qəribə fikirlər gəlir.

– Nə ziyanı var... Təzə evləndiyimiz vaxt sənə bir mahnı çalırdım. Onu istəyirsənmi?

Pəncərələri açmışdım. Cavidan içəri otaqda paltarını dəyişdirərkən mən çalmağa başladım. Kaman mənim ən köhnə yoldaşımdır. Sevincimi, kədərimi həmişə onun dili ilə söyləmişəm. Könlümün ən məhrəm sirlərini yalnız o bilir... Kamanımın üstünə bu gecə ilk dəfə olaraq gözyaşı gilələri tökülürdü. Güman edirəm ki, bu yorğunluğun təsirindəndir. Yoxsa indiyəcən buna bənzəməyən nə qədər dərdli günlər görmüşəm... Təkcə elə, anamın matəmi... Heç şey başa düşmürəm.

Mən bu gecə kamanı Xınalı yapıncaq üçün çalırdım. Çalmağa başladığım vaxt görəsən o yatırdımı? Elə isə kim bilir, hansı hisslərlə yuxudan oyanmışdır? Mənə elə gəlir ki, Xınalı yapıncağımı indi pəncərədə görürəm. O lampanı söndürmüş, sarı saçları ay işığında ipək kələfi kimi parıldayır. Xınalı yapıncaq indi mütləq həzin bir dalğınlıq içindədir. Mahnısını dinlərkən mütləq o da mənim kimi ağlayır... Lamiə ilə bərabər ağladığımıza heç şübhə ola bilməz.

Gəldiyim gün bir xoş təsadüf oldu. Bazarda Şükrü bəyə rast gəldim... Fikrət də yanında idi... Uşaq indi beş, ya altı yaşındadır. Şükrü bəy oğlanlarından biri ilə söhbətə məşğulkən mən burada Fikrəti danışdırmağa başladım. Əlindəki kağıza bükülü şeyi göstərərək:



– Atan sənə oyuncaq alıb? – deyə soruşdum.

Uşaq mənim bir çox suallarımdan sonra öyrənmək fikrində olduğum şeyi birdən deməsinmi?

– Oyuncaq deyil, Lamiə ablama corab almışıq.

Fikrəti qucağıma alıb ağzından, yanaqlarından öpməmək üçün özümü zorla saxladım.

– Lamiə ablan üçün corabları atan alır? Onun əri niyə almır?

Uşaq sərbəst bir tövrlə:

– Lamiə ablamın əri yoxdur ki, – dedi.

Ürəyim məni aldatmamışdı. Xınalı yapıncaq burada idi. Həm də hələ ərə getməmişdi. İndi Lamiənin məni burada qəfildən görməsini istəyirdim. Onun birdən-birə özünü itirəcəyini görmək mənim üçün xoş bir şey olardı. Təəssüf ki, buna imkan yox idi.

İzmirə gəldiyimi bilməyən qalmamışdı. Şükrü bəy məni görəndə elə ilk sözü bu oldu.

– Əfəndim, gözlərimiz yolda qalmışdır. Bir həftədir ki, sizi gözləyirik.

Gəlməyimizdən xeyli vaxt keçmişdi. Mən gözlərimdə yaş damlaları olduğu halda yenə həmin mahnını çalırdım. Yanımda bir nəfəs hiss etdim. Titrəyərək başımı çevirdim Cavidan paltarını dəyişdikdən sonra yavaşca yanıma gəlmişdi.

– Kənan bu gecə bütün şairliyin cuşa gəlib. Bu adi, mənasız ninniyə əsil sənət əsəri ruhu verirsən.

Həm gözlərimdəki yaş damlalarını gizlətmək, həm də arvadımın üzünə baxmamaq üçün başımı yavaşca yan tərəfə çevirdim, üzümü kamanın üstünə əyərək çalmağıma davam etmək istədim

Ancaq bilmirəm nədənsə bir az əvvəlki cazibə keçib getmişdi. Bayaqdan bəri o cür gözəl səslər çıxaran kamanım indi birdən-birə qaba bir taxta parçasına dönmüşdü. Onu əsəbi bir hərəkətlə pianonun üstünə qoydum. Cavidanın üzünə baxmaqdan hələ də çəkinərək:

– Yaxşı, yataq, – dedim.

Arvadımın yorğunluqdan gözləri yumulurdu. Mən soyunanacan yatağın bir tərəfində yuxuya getdi.

Ayaqlarımın ucunda yeriyərək yataq otağından çıxdım, üç il bundan əvvəl "Siyah yıldızlar"ı bəstələdiyim otaqda bu sətirləri yazmağa başladım...

Hərdən qələmi yerə qoyur, Bozyaxa yaylarının ən gözəl musiqisi olan cırcıramaların səsinə qulaq asıram, qaranlığın içindən lampamın ətrafına köhnə tanışlar kimi uçub gəlməyə başlayan pərvanələri, uzun, yaşılqanadlı gecə cücülərini görürəm... Buradakı həyatın necə də doyulmaz bir ləzzəti vardır.

Sabah Xınalı yapıncağı görəcəyəm

* * *

Xınalı yapıncağı görə bilmədim. Çox qəribədır. Necə ola bilər. Lamiə məni görməyə gəlməsin?

Bu yandan da bir dəqiqə tək ola bilmirəm ki... Ah, bu insafsız qonaqlar... Məni burada da rahat qoymurlar... Səhərdən axşamacan azı on dəstə qonağımız gəlib. Üstəlik "Kənan bəyi görməyə gələ bilməmişik. İncimesin. Sabah, inşallah gələrik", – deyə xəbər göndərənlər də var.

Yarım saat vaxt tapıb Şəmi dədəni görməyə gedə bilmədim. Eşitdiyimə görə o yazığın da başına bir fəlakət gəlib. Arvadı keçən il cavan bir dəvəçiyə qoşulub qaçıb Qoca dostum şikayət eləmirmiş. Ancaq güman edirəm ki, bu hadisə hər halda onu çox məyus etmişdir. Sabah tezdən gərək onun yanına gedəm.

Axşamçağı Şükrü bəy bizə gəlmişdi Fikrətlə Səmihəni də gətirmişdi. Bir neçə dəfə az qala Lamiəni soruşacaqdım. Bu çox təbii bir şey olardı. Şükrü bəyin heç bir şey hiss etməmiş olduğuna əminəm. Macəramıza dair kiçicik bir şey hiss etmiş olsa da, mənimlə başqa cür rəftar edərdi.

Bəli, Lamiənin nə elədiyini, bu vaxtacan nə üçün gəlın gətmədiyini xəbər almağım çox təbii bir şey olardı. Lakin soruşmağa heç cür cəsarət eləmədim.

Fikrətlə Səmihənin danışığına fikir verirdim. Uşaqlar tez-tez Lamiənin adını çəkirdilər. "Paltarını çirkləndirmisən, Lamiə ablanın sənə acığı tutacaq... Lamiə abla mənə yelləncək asacaq..." Bir neçə dəfə qonaqları otaqda qoyub bağçaya çıxdım. Bağın dal qapısına qədər getdim. Bir az o tərəflərdə gezişdim. Lamiə uzaqdan da olsa, görünməli deyildimi?



*23 iyun*

Bu gün səhər yuxudan gec oyanmışdım. Yatağımın içində tənbəl-tənbəl uzanıb papiros çəkərkən Cavidan içəri girdi. Əlində bir kağız vardı.

Bu kağızı indicə Münir bəy göndərib. Bu gün cıdır var. Bizi oraya dəvət eləyir. Yazır ki, iki saatdan sonra dalımızca gələcək.

Ürəyim birdən sıxıldı.

– Bu təklif heç də xoşuma gəlmədi. – dedim. – Axı biz buraya dincəlməyə gəlmişik. Avropada bu yarışlar lap zəhləmizi tökmüşdü.

– Elədir. Ancaq... Bu bir başqa şeydir. İzmir yarışları məncə maraqlı olar.

– Yox canım... Bu, Avropadakı yarışların adi karikaturasından başqa bir şey deyil.

– Axı deyirdin yaxşıdır. Hər halda bugünkü fürsəti əldən qaçırmayaq.

– Boşla, Cavidan. Bir elə diqqətəlayiq şey olsa idi, mən səni aparmaq istəməzdimmi? Özün görürsən kı, qonaqların əlindən göz aça bilmirik... İndi səninlə rahat oturaq evimizdə. Axşamüstü gəzməyə çıxarıq Sən heç bu tərəfləri gəzməmisən. İstəyirsən Qırx çamlara gedərik. Hətta istəsən səni Ərəb dərəsinə də apararam.

Cavidan yavaşca çiyinlərini çəkdi.

– Ərəb dərəsi! Nə şairanə addır. Eşidən də deyər yəqin bir cənnət ziyarəti təklif edirsən

Arvadımın hərdən belə, hörmət gözləmədən, acı və istehzalı danışmağı var. Buna adət etdiyimə baxmayaraq söz məni götürdü. Ancaq yenə də acıqlı cavab vermədim. Sadəcə olaraq ağır bır tövrlə:

– Təbiət, – dedim, – hərəni bir dillə danışdırır. Mən buralarda böyüdüyüm üçün bu yerlərə başqa gözlə baxıram.

Sonra bu söhbəti kəsmək üçün tələsik əlavə etdim:

– Hər halda Münir bəyə bir üzrxahlıq edərık, elə deyilmi, Cavidan?

– Mümkün deyil. Çünki mən cavab göndərmişəm Sənin bu arzumu rədd edəcəyini güman eləmirdim.

– Şübhəsiz. Yenə də fikrinə belə bir şey gətirmə. Madam ki, ürəyin istəyir, gedərik.

– Çox gözəl... Ancaq sən belə, məktəbə getmək istəməyən uşaq kimi mısmırığını sallasan, bu cür getmək mənə ləzzət verməz

Söhbətimiz bir istiqamət alırdı Bir az biclık işlətmək, arvadımın zəif damarını tutmaq lazımdı. Gülməyə başladım. Nəvazişlə:

– Niyə belə deyirsən, Cavidan? – dedim. – Biz buraya nə üçün gəlmişik? Mənim yaxşı işləyə bilməyim üçün, elə deyilmi? Mən müəyyən dərəcədə bır guşənişin həyatı keçirməsəm, özümü bir sıra dünyəvi arzulardan, fikir-xəyaldan uzaq saxlamasam, sənətin tələb etdiyi sakitliyi necə tapa bilərəm? İstəyirsən cıdıra-filana, hara deyirsən yenə gedək, səninlə gözəl-gözəl yerlərə seyrə çıxaq, əyləncə yerlərini gəzək... İkı ay sonra yenə əliboş İstanbula qayıdaq... Mən qəti olaraq işləməyə başlamaq istəyirdim.

Cavidan uçün bu elə bır səbəb idi kı, axar suları da duruldardı. O saat yumşaldı.

– Çox gözəl, – dedi. – Elə olsun. Onda heç olmasa Münir bəyə xəbər göndərək. Ancaq o bizdən ötrü narahat olacaq

– Yox, Cavidan. Bu yaxşı olmaz. Sən Münir bəylə gedərsən. Mən qalaram. Buradakı cıdırı sən heç görməmisən. Güman edırəm ki, sənın üçün çox maraqlı olar.

İki saat sonra Cavidanı Münir bəyin faytonuna mindirdiyim zaman azad nəfəs aldım. Məktəbdən qaçmış dəcəl bir uşaq kimi sevinirdim.

Günortaçağı, həm də çox istı idi. Bağın içındə gəzməyə başladım. Bir neçə dəfə dal tərəfdəkı dar cığıra çıxdım. Şükrü bəyin bağında heç kəs görünmurdu Sıx ağac topaları arasından güclə görünən evin pəncərə taxtaları örtülü idi.

– Lamiə bu gun mütləq gələcək... Ancaq hələ tezdır. Uşaqları gəzməyə çıxarmaq üçün havanın sərinləşməsini gözləyir, – deyə özümə təsəlli verırdim.

Şəmi dədəni ayaqüstü görə bilmışdım. Əməlli-başlı danışmağa vaxt tapmamışdıq. Bir-ikı saat vaxt keçirmək üçün onun yanına getmək qərarına gəldim. Küçəyə çıxıb qoca dostumun bağına tərəf yollandım.

Ancaq tək sərv ağacının yanındakı kiçik daş evi uzaqdan görəndə ürəyimdə bir tərəddüd baş qaldırdı. Bu gün özümü çox xoşbəxt hiss edirdim, kefim kökdü. Gülmək, sevilmək, uşaq kimi dəcəllik etmək istəyirdim. Dostum isə dərdli idi. Onun matəminə şərık olmaq, özüm gülüb-əylənmək istədiyim halda ona həzin şeylər danışmaq lazım gələcəkdi. Öz-özümə: "Nə olur olsun" dedim. Qoy bu gün kefimi



pozmayım. Qoca dostuma təsəlli vermək üçün bir aləm vaxtım var. Mən günəşin bugünkü qədər gözəl və parlaq işıq saçdığını həyatımda çox az görmüşəm.

Çəpərin üstündən boş bir bağa keçdim. Oradan da Ərəb dərəsinə enən cığıra çıxdım.

Çox uzaqlara getmək fikrim yox idi Ancaq yenə yavaş-yavaş köhnə xatirələrə dalmışdım, onlar isə məni qüvvətli bir sel kimi ta "Zeybək bulağı"na qədər çəkib aparmışdı

Bir neçə dəqiqə orada oturmaq, yosunlu qayaların görünməz yerlərindən damcılayan, mağaranın qaranlıq dərınliyində gizli hıçqırıqlara bənzər əks-sədalar verən suları dınləmək, qaya parçalarının kənarlarından sallanan "qaya üzümləri"nin əmələ gətirdiyi qırmızı səyvanlara tamaşa etmək istəyirdim. Lakin vaxtı nəzərə ala bilməyib, orada uzun müddət qaldım. Belə ki, geri qayıdarkən günəş İlıca təpələrinin dalına çəkilirdi. Bundan artıq yubanmayım deyə, sürətimi artırmışdım. Bağa çatdığım vaxt yorğunluqdan nəfəsim kəsilirdi, tamam tər içində idim.

Tələsik quyu başına getdim. Bir ağaclığın yanından keçərkən qulağıma uşaq qəhqəhəsi gəldi. Bu, deyəsən Fikrətin səsi idi.

– Lamiə abla, topu mənə at.

Yorğun dizlərim əsməyə, ürəyım daha artıq sürətlə döyünməyə başladı. Ağacların arasında gözümə bir çəhrayı paltar sataşdı.

Ah, Xınalı yapıncaq... Səni bu qədər dərin həsrətlə görmək istədiyimi bilirdinmi?

Lamiə eynən keçən gecə xəyalımda canlandırdığım kımi daş hovuzun kənarında oturmuşdu. Üzü o tərəfə idi. Fikrət məni görcək:

– Lamiə abla, bax gör kim gəlir, – dedi.

Belə bir həyəcan keçirəcəyimi bu vaxtacan təsəvvür edə bilməmişdim. Elə bil canım bu saat çıxacaqdı. Qız laqeyd bır halda başını çevirdi. Üzünü görüncə yerimdə donub qaldım·

Lamiə adlanan qız Xınalı yapıncaq deyildi...

Bir az sonra əhvalatı öyrənmişdim. Xınalı yapıncaq İzmirdən ikı il yarım bundan əvvəl gedibmiş. Şükrü bəy Fikrətlə Səmıhəyə baxmaq üçün rumelli bir mühacirin qızını övladlığa göturür. Qızın adı Ləman imiş. Xınalı yapıncağı heç cür unuda bilməyən, gündə bir neçə dəfə onu xatırlayıb ağlayan Fikrət Ləmana "Lamiə abla" deyirmiş. Sonra... elə evdə də hamı onu belə çağırmağa başlayıbmış...

İki həftə bundan qabaq buraya gəldiyimiz vaxt Bozyaxa çox sakitlikdi. Bağ sahiblərinin çoxu hələ köçüb gəlməmişdi. İndi isə artıq ətrafda boş ev qalmamışdı.

Bu il Bozyaxada həyat hər zamankından daha coşqun və neşəlidir. Bağlarda, bağçalarda rəngarəng qadın geyimləri gözə çarpır, axşamçağı yollar çox qələbəlik bir gəzinti yerini xatırladır. Gecələr Qırx çamlarda ay işığında məclislər qurulur, hər axşam bir yerdə yığışan cavanlar səhərə qədər çalıb-çağırırlar.

Xülasə, Bozyaxa bu il bayram içindədir... Hamı əylənir, hətta bu türksayağı yaşayışı xeyli adi, buradakı insanları çox ibtidai, bu sadə əyləncələri isə səfilanə hesab edən Cavidan üçün də pis keçmir.

Cavidan dünən mənə·

– Bu cür yaxşı dincələcəyimi heç ümid etmirdim, – dedi. – Doğrusu bir az sənə xoş olsun deyə, buraya gəlməyə razı olmuşdum... Ancaq indi buralar həqiqətən xoşuma gəlməyə başlayır.

Cavidanı tez-tez qonşuluqdakı bağlara qonaq çağırırlar, hərdənbir İzmirə də gedir. Hətta keçən həftə Qarşıyaxada atasının köhnə dostlarından birisinin evində iki gecə qonaq qalmışdı.

Bəli, Bozyaxada hamı əylənir, dincəlir... Təkcə mən sıxılıram, ölürəm . İstanbuldan ayrılmağıma gündə min dəfə peşman oluram. Başqalarının neşəsi əzabımı artırmaqdan başqa bir şeyə yaramır. Bozyaxa gözümdə bütün rəngini, bütün rayihəsini, bütün gözəlliyini itirmişdir. Günlər çox uzun görünür, bitib tükənmək bilmir. Bu, mənə heç bir yeni şey verə bilməyəcək rəngsiz günlərin can sıxıntısını, yorğunluğunu lap səhər açılandan duymağa başlayıram. Gündüzlərin günəşi kimi aylı gecələrin aydınlığı da mənə sönük, cansız və ürəküzücü görünür. Nə gecəni, nə gündüzü, nə Ərəb dərəsini, nə Qırx çamları, xülasə, heç bir şeyi sevmirəm, sevə bilmirəm...

Özümü aldatmaq, ovutmaq üçün çox çalışdım. Ancaq nahaq yerə... Mən Xınalı yapıncağı sevirəm... Necə? Nə üçün? Bilmirəm. Təkcə onu bilirəm ki, bu məhəbbət qanıma, qəlbimə işləmişdir... Nə qədər sağam, ürəyimdən çıxmayacaq...

Mən bu sevgini əvvəllər dərin bir mərhəmət zənn etmişdim. Lamiənin burada olmadığını öyrəndiyim günün səhəri idi. Ürəyimdə



izah edilməsi mümkün olmayan bir kədərlə bağda gezişirdim. Dözə bilmədim, Şükrü bəyin bağına keçdim.

O, məni evin qabağındakı çardağına apardı. Oradan-buradan danışmağa başladıq. Həyəcanımı gizlətmək üçün bütün qüvvəmi sərf edir, Lamiəni soruşmaq istəyirdim. Unudulmuş bir çöhrəni xəyalında canlandırmaq istəyənlər kimi gözlərimi qıydım.

– Əvvəllər sizin uşaqlarla bərabər gəzən cavan, sarışın bir xanımı görərdim. İndi deyəsən burada yoxdur...

Şükrü bəydən Lamiəyə dair bəzi şeylər öyrənə biləcəyimi ümid edirdim. O isə gözlədiyimdən çox səmimiyyət göstərdi, yazıq Xınalı yapıncağın başına gətirdiklərini kədərli bir sadəlövhlüklə mənə danışdı. Onun danışdığı bu sərgüzəştin elə yerləri vardı ki, uşaq kimi ağlamamaq üçün özümü güclə saxlayırdım.

Şükrü bəydən ayrıldığım zaman dünya gözümdə qaralmışdı, elə bil ürəyimdə nə isə bir şey həmişəlik qırılmışdı.

O vəziyyətə düşmüş cavan bir qız üçün bütün bunlar çox təbii şeylərdi. Mən necə olmuşdu ki, bunları ağlıma gətirə bilməmiş, üç ilə yaxın bir zaman ərzində Bozyaxada hər şeyin qoyub getdiyim şəkildə qaldığını zənn etmişdim?

Əvvəllər elə güman edirdim ki, Lamiəyə başına gələn fəlakətlər üçün yazığım gəlir, onu hər yerdə ancaq buna görə axtarıram... Xınalı yapıncağı görmək üçün çəkdiyim dözülməz həsrət ona bəslədiyim mərhəmətin sayəsində doğur. Amma sonra düşünə-düşünə hər şeyi özüm-özümə izah etdim. Həqiqəti nə üçün gizlədim? Elə xudkam bir təbiətim vardı ki, xoşlamadığım bir şeylə maraqlanmağı, ona acımağı bacarmazdım. Xınalı yapıncağı bu qədər dərindən sevməsə idim, onun sərgüzəşti mənə belə təsir etməzdi. Özümü təmizə çıxarmaq üçün zehnimdə min cür bəhanələr uydurur, məntiq axtarırdım. Lamiəni o cür vicdansızcasına atıb getdiyim zaman da belə olmamışdımı?

Lamiəni sevirəm. İlk vaxtlar bu həzin qənaətim qarşısında məğlub olmamaq üçün çox çalışdım, çox səy etdim Musiqi həyatımın bir çox çətin və kədərli vaxtlarında mənə təsəlli vermişdir Yenə ondan şəfa umdum. Bütün varlığımla fikrimi yeni əsərimə vermək istədim. Qızğın bir fəaliyyətə, işləməyə başladım.

Otağımdakı lampanın işığını sönük göstərə biləcək qədər aylı bir gecə idi. Dirsəklərimi pianoya dayamış, başımı ovuclarımın içinə almışdım. Pəncərələrdən gələn ılıq, bağ ətri ilə dolu meh nədənsə nəfəsimi

tutur, vücuduma qəribə bir əzginlik gətirirdi. Pəncərənin qabağında dayanmış Cavidan mənə tərəf döndü:

– Niyə belə susursan, Kənan? Nə gözləyirsən?

Kədərli bir təbəssümlə arvadıma baxdım:

– İlham gözləyirəm, Cavidan. Bura, pianonun yanına gəl!

Cavidan dərin heyrətlə gülümsəyərək yanıma gəldi.

– Pianonun bu tərəfinə keç, Cavidan. Əllərini buraya qoy. Sonra çənəni, yanağının bir hissəsini də əlinin üstünə qoy.

Cavidan gülə-gülə dediklərimi yerinə yetirirdi.

– Mənə zehnindəki rəsm əsərini təqlid etdirmək istəyən rəssam kimi, pozalar verirsən, Kənan.

Ona cavab vermədim. Əlimlə arvadımın yanağını oxşayaraq başını bir az yana çevirdim. Bu vəziyyətdə ayın işığı üzünə daha yaxşı düşür, qumral saçlarını da açıq-sarı göstərirdi.

– Bu vəziyyətdə məni dinləyərsən, yaxşımı?

– Bu gülünc və cansıxıcı vəziyyətdir. Ancaq madam ki, elə istəyirsən... İşləyəcəksən?

– Güman edirəm.

Cavidanla bir-birimizə baxıb gülümsəyirdik. Bir neçə gündən bəri üzərində işlədiyim bir parçanı yazıb qurtarmaq istəyirdim, lakin istədiyim mümkün olmadı. Kiçik bir tərəddüddən sonra köhnə mahnılarımdan birini, Lamiənin çox dəfə otağıma gəldiyi gecələr başını pianoya dayayaraq dinlədiyi parçanı çalmağa başladım. Onu ikinci dəfə təkrar çalmaq istədiyim zaman bayırda pəncərənin yanında bir it hürdü. Yuxuda danışırammış kimi dalğın-dalğın:

– "Quzğun" gəldi, Xınalı yapıncaq! – dedim.

Cavidan heyrətlə üzümə baxırdı. Mən də başımı qaldıraraq şaşqın-şaşqın ona baxdım. Arvadım heç bir məna verə bilmədiyi bu sözlərə gülürdü. Halbuki, dörd yay əvvəl Lamiə burada ağlamışdı. Əsəbi bir ümidsizliklə pianonun qapağını örtdüm.

– Gedək, Cavidan, – dedim. – Bir az səninlə gəzək. Bu daha yaxşı olar.

Mən Lamiəni sevirəm.

Bəzi gizli xəstəliklər var. İnsan onların harada və necə başlandığını müəyyən edə bilmir. Yaralar elə incə və zərif olur ki, bədəni mübhəm, xoş həyəcanlara bənzəyən zəhərlənmələri də təzəcə başla-



yan sərxoşluq kimi ilk vaxtlar ləzzət və nəşə verir; ağrılar o qədər küt olur ki, yerini müəyyən edə bilmirsən. Sızıldayan bədənin elə bil sənə zaman-zaman şikayətlər edir. Səni için-için yeyib bitirən xəstəliyin əlaməti belədir.

Mənim Lamiəyə olan eşqim də buna bənzər bir xəstəlikdir... Artıq həqiqəti özümdən gizlətməyə lüzum görmürəm.

İsti günorta vaxtlarında bəzi yerlərindən günəşin şüaları süzülən ağaclardan birinin kölgəsində arxası üstə uzanıram, xəyalıma daha qaranlıq bir gecə gətirmək üçün yumulu gözlərimi əllərimlə örtür, dərin-dərin düşünməyə başlayıram.

Daha şübhəm qalmamışdır. Mən Lamiəni həmişə sevmişəm. O, kiçik, sadə, biçarə bir qız uşağı idi Məni isə həyatımın məhrumiyyətlər və ümidsizlik içərisində keçən illərindən sonra gördüyüm şöhrət və səadət məst etmişdi Öz kefi ilə iş görən şıltaq, lakin təcrübəsiz bir adam olmuşdum.

O zaman məhəbbət və səadət haqqında təzə fikirlərim vardı... Yenicə daxil olduğum kübar, lakin saxta mühitin özündən bədgüman fikirləri... O vaxt mənim üçün eşq elə bir şeydi ki, o, mütləq zarafat, müvəffəqiyyət, şöhrət, sərvət və etinasızlıqla bərabər gedirdi. Yüksəlmiş bir insanın sadə və zavallı Xınalı yapıncağa könül verməsi, həyatını onunla bağlaması mümkünmü idi? Həyat tərzimlə, fikirlərimlə, sözlərimlə başqa bir mühitin adamı olduğumu iddia etsəm də, vaxtılə gedib-gəldiyim təkyənin və Şəmi dədənin təsiri altında yazıq və hər şeydən çəkinən bir adam olaraq qalmışdım Hələ on altı yaşında ikən böyük bir adam kimi Leylamın ilk busəsini rədd edən, ruhunun məğrur kədərini illərcə bu torpaqlardan sürükləyən bir adam, bu bağların övladı idim.

Əllərimi gözlərimin üstündən götürüb "Kərəm"in ağır-ağır dolanmasına tamaşa edirəm Sonra gözlərim yenə yumulur, dolun iniltisini, daş hovuza tökülən suların saf səsini dinləyərək yenə düşünməyə başlayıram. Çox güman ki, bu məhəbbətin başqa səbəbləri də var. Mən həmişə uzaq yerlərin həsrətini çəkən, əldə edilməsi mümkün olmayan səadətlər arzusu ilə yaşayan, xəstə sayılacaq dərəcədə bir xəyalpərvərəm.

Görəsən, indi Xınalı yapıncağı ümidsiz bir surətdə itirdiyim üçünmü bu qədər sevirəm?

Onu bəlkə bir daha heç görməyəcəyəm... Bəlkə bir də süzgün, yaşıl gözlərinin mənə baxıb gülümsəmədiyini görmədən, geniş alnına

tökülən incə, qıvrım saçlarına bir də əlimi vurmadan öləcəyəm. Ah, yazıq canım!

Uzandığım yerdən ağır-ağır qalxır, hovuza tərəf getməyə başlayıram. "Kərəm"lə qarşılaşırıq. Heyvan birdən dayanır, böyük sarı gözlərində məni anlayır və halıma acıyırmış kimi görünən dərin bir nəzərlə üzümə baxır.

"Kərəm" bizim gözəl sevdamızın yeganə yadigarı kimi qalmışdır. Gələn il burada bəlkə heç onu da görə bilməyəcəyəm. Dirsəklərimi hovuzun mərmərinə dayayıram, əllərimi zərif-zərif köpüklənən suya salıram

Xınalı yapıncağı ilk dəfə burada qollarımın arasına almışdım. Havanın tutulmağa başladığı o payız gününü xatırlayıram. Lamiə ayrılıq günlərinin yaxınlaşdığını düşündukcə kədərlənir, gözəl gözlərinə ümidsiz bir məlal dolurdu. O, ağlamağa hazırlaşırkən mən gülür, çilli yanaqlarına astaca çırtma vurur, zarafat edirdim. "Bu məhəbbət deyil, Xınalı yapıncaq, deyirdim. Bu bir könül oyuncağıdır, bir az incə desək, dodaqlarımızın əyləncəsidir".

O vaxt mənim üçün bəlkə də belə idi. Lakin bir zarafat, bir yalan, bir əyləncə kimi başlanan bu sevda gizli bir zəhər kimi dodaqlarımdan qəlbimə axmışdı.

*8 iyul, Bozyaxa*

Şəmi dədə bu günə qədər mənə faciəsindən danışmamışdı. Təbiidir ki, mən də heç nə soruşmurdum Qoca dostumun dərdini təzələmək istəmirdim.

Bu axşam Ərəb dərəsinə enən yamaclardan birində oturmuşduq. İkimiz də düşüncəyə dalmışdıq. Şəmi dədə birdən:

– Başıma gələni eşitmisənmi, oğlum? – deyə soruşdu.

– Bəli... Çox təəssüf etdim.

Bu cavabı verərkən onun üzünə baxmaqdan çəkinirdim.

– Səndəmi təəssüf edirsən? Onda bu işə təəssüf eləməyən bir mən özüm qalıram.

Qoca dostum gülürdü, özü də fikri və qəlbi sakit insanlar kimi, başına gələn əhvalatdan razı adamlar kimi gülürdü.

Gözlərimi heyrətlə üzünə dikdim: bu Şəmi dədə nə məğrur adamdır, gör hisslərini necə də cilovlaya bilir!



Baxışımdan nə düşündüyümü anlamışdı, sözünə davam etdi:

– Mən bu işi tutmağıma əslində peşman idim, oğlum. Başqalarına desəm, məni divanə hesab edərlər... Sən bəlkə başa düşərsən. Bir xəyali yari-vəfadarım vardı ki, bütün ömrümdə bir gün də olsa məni tək qoymamışdı.

Gecələri kimsəsiz, evimdə sanki səssiz-səmirsiz gəzişır, çöllərdə tək gəzdiyim zaman yanımca gedir, ney çaldığım, Hafizi ya Fuzulini oxuduğum vaxt qarşımda boynunu burub durur, rəngini aydın təsəvvür etmədiyim gözləri yaşla dolurdu. Evimə yad bir qadının gəlməsi bu xəyali sevgilimi məndən incik salmışdı. "Onu son nəfəsimdə bir də görmədən öləcəyəm", – deyə heyifsilənirdim

Yad qadın bir gün məni atıb getdi. İlk günlər qəribsəmədim, desəm yalan olar... Lakın yarımın yenə mənimlə barışacağını göstərən əlamətlər var... Qaranlıq və səssiz gecələrdə evin ətrafında gezişdiyini, ney çaldığım, Füzulini oxuduğum zaman yenə yavaş-yavaş ağladığını eşidirəm.

Ürəyimdə anlaşılmaz bir qorxu ilə qoca dostumun üzünə baxdım. O yenə halından razı, sakit uşaq təbəssümü ilə gulümsəyirdi. Sonra o, başqa şeylərdən danışmağa başladı:

– Mən düşünüb-düşünüb qəzavü-qədər məsələsində bu nəticəyə gəlmişəm ki, oğlum, həyatda baş verən fəlakətlər üçün xaliqi təqsirləndirən, günahı dünyanın quruluşunda görən ağılsızlar var. Halbuki, xaliq hərəyə bir cür xasiyyət, istedad verır, hər fərd üçün ayrıca bir yol qoyur. Hər kəs öz yolu ilə getsə, hamı xoşbəxt olar, oğlum. Gözlərinin qabağına belə bir dünya gətir: müxtəlif yollarla irəliləyən, bir-birilərinə heç toxunmayan, bir-birini incitməyən, hətta görməyən yolçulardan ibarət uzun bir həyat karvanı... Günah çox vaxt özümüzdə olur... Alnımıza yazılmış doğru yoldan çıxırıq... Bütün fəlakətlər də buradan doğur... Sübutmu istəyirsən? Göy üzünə bax... Ulduzlara bax... Bunlarda gördüyün bu gözəl nizamı hansı başqa səbəbə bağlaya bilərsən?.. Əgər bunlar da insanlar kimi xaliqin qoyduğu yoldan çıxmağa başlayarlarsa, kainatda baş verə biləcək qiyaməti təsəvvür elə: göy üzü dağılır... Kəhkəşanlar başımız üzərindən axıb gedir. Mövsümlər pozulur

Şəmi dədə yavaş-yavaş qaralmağa başlayan axşam səmasındakı tək-tək ulduzları titrəyən barmağı ilə göstərərək sözünə davam edir, qarışıq, sirli və dumanlı şeylər danışırdı. Ayrıldığımız zaman hava tamamilə qaralmışdı. Ağır addımlarla evə qayıdarkən düşünməyə başladım.

Bu qoca, guşenişin adamın dağınıq ve dumanlı sözlerinde yeqin ki, bir parça heqiqet de var. Ruhumun bütün sakitliyini, qerarını elimden alan, bu sevdiyim yerlerı mene hezın bir suretde solmuş gösteren sevgi, belke daha derin, daha ümumi bir derdin bır parçasıdır. Men bu yerlerde böyümüş, daim tekliyi seven, mehzun ruhlu bir uşaq idim. Ömrümün kölgeli ve mehrumiyyetler içerısinde keçeceyi qezavüqederin hökmü idi. Heç bir şeyden razı qalmayan bir tebietim vardı. Ruhum yalnız burada heç olmazsa bir az sakitlık tapa bilerdi, bu ise menim üçün bir dereceye qeder seadet sayılardı.

Başqa bir heyatın, başqa bir mühitın eşqıne düşdüm. Bir neçe il özümü başqa bir adam sandım, sevdiyimi, xoşbext olduğumu güman etdim Tebiet ise öz işini gördü.

O mestane gecelerin sonu gelib çatdı. O alemın bütün qendilleri gözümde söndü.

Ehtimal ki, gizli ateşler kimi için-için yandıqdan sonra bu gün yenıden şölelenen eşqim, hemın derın ve ümumi derdın bir şeklidir.

İriyarpaqlı budaqları hasarın üstünden aşıb tozlu yola doğru sallanmış böyük encır ağacının altına gelib çıxmışdım. Xınalı yapıncaq meni bır gün burada gözlemişdi O gün Lamie İzmirden gelmiş, mene Nemet xanımın salamını getırmişdi. Onunla ilk uzun söhbetimiz burada olmuşdu. Qız herdenbır menden utanır, bu budaqlardan birini çekerek üzüne tuturdu. Men bu qızcığazla xoşbext ola bilerdim. Heyif!

*12 iyul, Bozyaxa*

Dünenden berı heyatımızda bir az rengarenglık emele gelmişdır. İstanbuldan gelmiş bir qonağımız var. Dünen axşam yemeyinden sonra qezet oxuyurdum Cavidan elinde bir mektub içeri girdi.

– Bize İzmirden mektub gelib. İndice aldım. Kimden olduğunu tesevvürüne getıre bilmezsen. Namiq Behcet beyden. İki gün evvel bır iş üçün oraya gelmişdır. Yazır kı, sabah bize gelecek.

Qezeti kenara qoydum:

– Ne yaxşı oldu, – dedim. – Bir-iki gün burada qonaq saxlarıq Bozyaxanı Namiq beye göstermek lazımdır.

Cavidanda ne ise bir tereddüd hiss etdim.

– Nece olar? Bizi narahat etmezmi?

– Narahat niye edir? Namiq meger yad adamdır?



– Düzdür, ancaq burada bir az başqa cür yaşayırıq.

– Ne ehemiyyeti varmış? Senin üçün de bir az yaxşı olar. Yoxsa axır vaxtlar seni xeyli narahat görürem. Demeyim artıqdır, şubhesiz özün de görürsen. Seni çox zaman tek qoyuram. Her halda Namiqin bu gelişi pis olmaz.

Qezeti yeniden elime almışdım. Cavidanın sözlerime çox inanmadığını, herdenbir gözucu mene baxdığını hiss edirdim.

Bu Namiq Behcet bey arvadımın uzaq qohumlarındandı. Foto heveskarı kimi meşhur idi. Bunun sayesinde Avropada kımyanı mükemmel öyrenmiş, melumatlı ve deyerli adamlar cergesine çıxmışdı

Avropada herdenbir görüşürdük. Bu defe İstanbulda o, bıze daha tez-tez gelib-getmeye başlamışdı.

Bu adam menden evvel Cavidanla evlenmek istemış, lakın müveffeq olmamışdı. Qayınatam razı olmamışdımı, yoxsa Cavidan özü onu redd etmişdimi – bunları yaxşı bilmirem. Her halda orası mene melumdur kı, bu Namiq Behcet beyde Cavidana qarşı evvelden bır meyil var.

Son vaxtlarda onun derdi tezelenmeye başlamışdı. Bir az sefehteher bir adam olduğu üçün bunu tez başa düşmüşem Bir de kı, bunu başa düşmeye ne var!

Ancaq bununla elaqedar Namiq Behcet beyden şübhelenmek hem özüme inanmamaq, hem de arvadıma qarşı hörmetsizlik olardı Odur ki, özümü heç o yola qoymur, hetta Cavidanla herdenbir "senin keçmiş sevgilin" deye zarafat da edirdim.

Bir gün yene aramızda ondan söz düşdü. Gülerek:

– Evlenmeyiniz pis olmazdı, – dedim. – Kim bilir günde neçe veziyyetde şeklini çekerdi.

Cavidan berk esebileşdi:

– Xahiş edirem, Kenan, bu letifeni bir de tekrar eleme.

Men gülerek soruşdum:

– Niye? Ne zereri var ki?

Ağıllı Cavidan bu sualdakı menanı anlamamış kimi izah etdi:

– Meni fotoqraf modeli olaraq tesevvür etmek, gülünc bir mövqeye salmaq deyilmi?

O günden sonra bu zarafatı bır de tekrar etmedim.

Namiq Behcet mektubundan bir gün sonra Bozyaxaya geldi Bu nagahani İzmir seferinin sebebleri haqqında mene uzun-uzadı izahat verdi, sonra laqeyd bir tövrle elave etdi:

– Dedim İzmirə gəlməyinə gəlmişəm, sizi də bır görüm.

Bu sözlərdən sonra heç şübhəm qalmamışdı, Namiq bura Cavidana görə gəlmişdi. Gülərək:

– Cavidanın əvəzinə, Namiq bəy, sizə mən etiraz edəcəyəm. Siz gərək onu görmək işini, bütün başqa işlərinizdən vacib hesab edəydiniz.

Namiq özünü itirdi, qızarıb-bozarmağa başladı. Kəsik-kəsık gülərək:

– Şübhəsiz... Şübhəsiz... Əlbəttə... Onu demək istəyirdim ki... – deyə kəkələdi.

Mən hakimanə və bir az istehzalı bir tövrlə:

– Bunu düzəltmək üçün bir yol var, – dedim. – Gərək bizdə bir həftə qonaq qalasınız.

Namıq üzümə baxa-baxa qalmışdı, bu səadətə heç cür inana bilmirdi:

– Mümkün deyil. O qədər işim var kı...

Mən siçanla oynayan pişık kimi söhbəti birdən dəyişdim.

– Çox təəssüf edirəm, ancaq nə etmək olar... Madam ki, bu qədər işıniz var...

Bu sözlərim Namiq bəyi lap narahat etdi. Onun tükləri biz-biz oldu. Şaşqınlığını gizlətməyə çalışaraq:

– Yox, – dedi. – Çox elə vacib işlər deyil. Bir də bu yerlər o qədər gözəldir ki .. Bir neçə gün bu təbiət içərisində yaşamaq...

– Onda bir həftə... Başqa cürə ola bilməz.

Qonağımız təzədən işləri korlaya biləcək bir söz danışacağından qorxaraq, tez və tələşla razılığını bildirdi.

Cavidan qonağı buradakı görməli yerlərə gəzməyə aparırdı. Namiq bəy aparatı ilə yığın-yığın şəkillər çəkirdi. Mən onlara çox az hallarda qoşulurdum. O səfeh bəlkə elə bilir ki, mən Cavidanı qısqanıram? Heç özümü o dərəcəyə qədər alçaldarammı?

Doğrusunu demək lazım gələrsə, mən bu Namiq Behcət bəyə minnətdaram. Cavidanla lap tək-tənha qalmışdım. Köhnə dərdlərimi, acı xəyallarımı arvadımdan gizlətməkdə çətinlik çəkirdim. Bir çardağın kölgəsində arxası üstə uzanıb, saatlarca bu vəziyyətdə uyuşub qalmaq indi daha çox arzuladığım, ən çox ehtiyac duyduğum bır şeydi. Halbuki, arvadımla mənim üçün cansıxıcı olacaq bir məhəbbət komediyası oynamağa məcburdum. Allah Namiq Behcətdən razı olsun... Bircə yaxşılıqla bu darıxdırıcı Bozyaxadan canımı qurtarsa idim, bir daha adını dilimə gətirməzdim.



*22 iyul*

Qonağımız getdi. Yenə Cavidanla baş-başa qaldıq. Builki yay qurtarana oxşamır. Hələ payıza qədər bır aləm vaxt var. Deyəsən, dözə bilməyəcəyəm.

*24 iyul*

Çox şükür, canım qurtarır... İki gündən sonra gedirik. Bu gün axşamüstü Münirbəygildən gəlirdık. Cavidan dalğın bir nəzərlə uzaqlara baxırdı. Aramızdakı sükutun çox uzandığını görüb:

– Görürsən, buralar nə gözəldir? – dedim.

Arvadım heç tövrünü pozmadan, ağızucu.

– Bəli, – dedi. – Ancaq hamısı elə eyni şeydir.

– Sən deyəsən darıxmağa başlamısan, Cavidan?

– ...

– Qanın qaradır.

– Bunu başa düşə bildiyin üçün təşəkkür edirəm.

Bu, açıq olduğu qədər də haqlı bir şikayətdi Yazığa həqiqətən heç əhəmiyyət vermirdim. Utanmış və kədərli bir halda:

– Mənım xeyli vaxtdır əsəblərim yaman pozulub, Cavidan, – dedım. – Şübhəsiz ki, bu müvəqqəti bir haldır. Az sonra keçib gedəcək. Yenə əvvəlki kimi canlanacaq, şən bir adam olacağam. Bilirəm, sənə münasibətimdə qüsurlarım olur. Nə edim? Xəstəyəm. İndi kı, darıxmağa başlamısan, bir-ıkı günə çıxaq gedək İstanbula, heç bundan asan şey yoxdur.

Cavidan heyrətlə üzümə baxırdı. Mən sözümə davam etdim:

– Düzünü bilmək istəyirsən, mən də artıq buralardan bezməyə başlamışam. Gecəsi, gündüzü, ayı, günəşi hamısı bir-birının eynidir İstəsən bir-iki günə İstanbula qayıda bilərik.

Cavidan bu təklifdən razı görünürdü. Ancaq bunu üzə vurmamağa çalışaraq:

– Çox gözəl. Bəs əsərin? – deyə soruşdu

– Bir neçə gündür əməlli-başlı işləyirəm. Əsərdən xeyli hissə yazmışam. Ancaq sən özün də etiraf edərsən ki, çox elə həvəslə işləyə bilmirəm. Hər halda yazılan hissələr məndən gözləniləcək səviyyədə

deyildir Görünür, xəstəlik zamanı yaranan sənət əsəri bir şey olmur, bir qədər də gözləməli olacağıq.

Arvadım bu izahatla kifayətləndi, daha bir söz deməd. Evə çatanda ikimizin də kefi durulmuşdu. Bir-iki günə bu cəhənnəmdən xilas ola biləcəyəm.

*26 iyul*

Qərara almışıq ki, sabah yox, o biri gün yola düşək. Burada bizi nə qədər sevən varmış. Hamı təəssüf edirdi. Təkcə dayımı başa salanacan qabıqdan çıxdım. Bu axşam qonşularımızdan biri məni bağına qonaq çağırmışdı. Axırıncı dəvət olduğu üçün rədd etmədim. Yaxşı ki, getmişdim. Tanışlarımdan bir çoxunu orada gördüm. Bundan istifadə edib onlarla da vidalaşdım. Lamiənin əmisi Şükrü bəy də orada idi. Kişi bir ara yanıma gəldi:

– İstanbula qayıtmaq istədiyinizi bir az bundan əvvəl evdə eşitdim. Çox təəssüf elədim, kefim yaman pozuldu.

Mən azca laqeyd bir təbəssümlə təşəkkür etdim. Şükrü bəy sözünə davam etdi:

– Bu yaxında bizim də qonaqlarımız gəlir. Bu gün Lamiədən məktub almışam. Yazır ki, bu yaxında əri ilə bərabər İzmirə gələcək, üç-dörd gün qonaq qalmaq istəyir. Əmidostu sevindiyindən az qala dəli oldu. Yazıq qızı doğrudan da öz balam kimi sevirdim.

Şükrü bəy bu sözləri mənə çardağın lap qaranlıq bir yerində söyləmiş olmasa idi, meyit kimi saraldığımı görəcək, yəqin ki, hər şeyi başa düşəcək idi. Nəfəsim tutulur, qulaqlarım uğuldayırdı. Uşaq kimi atılıb-düşmək, sevincimdən ağlamaq istəyirdim. Ah, mən Xınalı yapıncağı nə qədər sevirəmmiş!..

Şükrü bəy ciblərini axtarmağa başladı.

– Məktubu görəsən hara qoydum? – dedi. – Qızı ilə bir yerdə çəkdirdiyi şəklini də göndərib, istəyirəm sizə göstərim. Lamiə nə qədər dəyişmiş, əməlli-başlı bir xanım olmuşdur.

Ürəyim şiddətlə çırpınırdı, az qala parçalanacaqdı. Bu dəqiqə Lamiənin şəklini görmək mənim üçün onun özünü görmək kimi bir şeydi. Əh, Şükrü bəy ciblərini nə ürəksıxıcı bir ağırlıqla axtarırdı. Oturduğum yerdə əsəbiləşib özümdən çıxır, ürəyimin içini yeyirdim.

Məktub tapılmadı ki, tapılmadı. Şükrü bəy:



– Bu ciblərimdə yoxdur, – dedi. – Görünür, yay paltomun cibində qalıb.

Sonra da başqa şeylərdən danışmağa başladı. Lamiəni bir neçə gündən sonra görmək ümidi olmasa idi, xəyalımın bu cür qırılmasına dözə bilməzdim.

Bura çuxur bir yerdi. Bir tərəfindən qalın bir hasar, o biri tərəfindən isə bağ sahibinin görkəmsiz taxta evi ilə əhatə olunmuşdu. Çardaq adamın nəfəsini boğacaq qədər alçaq, budaqların birindən asılmış fənər isə ölü gözü kimi sönükdü. Həsirlərin üstündə oturmuş qonaqlar ikrah hissi doğuracaq qədər adi, ruhsuz adamlardı. Bir az əvvəl elə soyuq, lazımsız şeylər danışırdılar ki... Bu maraqsız söhbətləri danışa-danışa hələ bir kobud-kobud gülürdülər də.

Halbuki indi. . Həmin xoş xəbəri eşitdiyim bu xaraba bağı ömrümdə unutmayacağam. Burada gördüyüm simaları ömrümün axırına qədər xatırlayacağam Gecəni səs-küyləri ilə dolduran cırcıramalardan daha canlı bir məxluq olmuşdum. Aramsız danışırdım, özü də elə gözəl, sevimli, ümidverici şeylər danışırdım ki, qonaqlar lap mat qalmışdılar... Bir az bundan əvvəl çardağın qaranlıq bir küncündə kədərli və sakit oturmuş adama birdən-birə nə olduğunu heç cürə başa düşə bilmirdilər. Gecəyarısı məclis dağılanda Şükrü bəyi bağının qapısına qədər ötürdüm. O içəri girdikdən sonra alçaq hasarın üstündən qaranlıq bağa uzun-uzadı tamaşa etdim. Demək, bu ağacların arasında Xınalı yapıncağı yenə də görəcəkdim.

Bağımızın arxasındakı cığırda gəzişirdim, heç cür içəri girmək istəmirdim. Bu çılğın sevincimi haraya sığışdıracaqdım? Gecə aydınlıq deyildi, ancaq göy üzü öz gözəlliyi ilə bir pəri aləmini xatırladırdı. Arada bir Cavidanın məndən nigaran qalacağını fikirləşdim. Bu gecə arvadımı da sevirdim, həm də lap titrəyən, sızlayan bir məhəbbətlə. Buna baxmayaraq, evə girmək meylim yox idi. Əllərimi cibimə saldım, köhnə mahnılarımdan birini fitlə çalaraq yoxuşu enməyə başladım. Qəlbim daşqın bir məhəbbət və şəfqətdən sıxılır, həyəcandan gözlərim yaşarırdı. Qırx çamların ətəyindəki sel çuxurlarına qədər gedib çıxmışdım. Xınalı yapıncağın dörd il bundan əvvəl Nemət xanımla məni təhlükədən xilas etmək üçün qolunu cızıb qanatdığı su qırağına getdim Yolumu oradan şəhidlər məzarlığınacan uzatdım. Bir gecə Lamiəni buraya gətirdiyimi xatırladım. Lamiə bu qaranlıq və xaraba məzarlığın kənarında əsrarəngiz bir qorxudan hıçqırıqlarla ağlamağa başlamışdı.

Onu görünməz bır təhlükədən qoruyurmuşam kimi qollarım arasına alıb sıxır, gözlərindən, dodaqlarından öpürdüm. Hələ indi də onun hıçqırıqları qulağımda, gözlərinin yaşı ilə islanmış busələrin acı ləzzəti dodaqlarımdadır.

Qorxmuş bir aciz məxluqu qollarım arasına alıb ovundurmaq nə qədər xoşdur. Belə bir biçarə, müdafiəsiz məxluqu min qorxu, min təhlükə içərisinə atıb getmişdim. Kım bilir, sonra Lamiə neçə dəfə o gecəki kimi ağlamışdır. Görəsən qəlbim onu nə üçün uzun müddət xatırlamamış, susmuşdu? Nə üçün mən məhəbbətimi, səadətimi belə üzüüstə atıb getmişdim?

Buradan geri dönürkən yolumu dəyişdim, qaranlıqda min əziyyətlə yoxuşu qalxıb Qırx çamların yanına çıxdım. Hələ uşaq vaxtlarımda mən bu yerləri hər cür havada, mın cür işıq içində görmüşdüm. Lakin onu bu son illərdə həmişə o yağışlı ayrılıq gecəsindəki mənzərəsi ilə gözümün qabağına gətirirdim. Yağış şam ağaclarının uca təpələrində həzin səslər çıxarırdı, yerə tökülən saralmış tikanlar isə ətrafı dəniz kimi bürümüşdü.

Qəlbim, gecə vaxtı, ay işığında belə bu yerlərə tək gəlməyimə davam gətırmirdi.

Demək, bir neçə gün sonra yenə Lamiəni bu yerlərdə görmək, ay işığında daha da açıq görünən sarı saçlarını... Yenə deyəsən həddindən artıq xəyala dalıram... Bilirəm, bu ümidim əbədi olaraq məndən üz döndərmişdir. Qoy olsun. Mən buna razıyam. Ancaq onu bircə dəfə görə bilim..

*29 iyul, Bozyaxa*

Bayramı gözləyən uşaqlara dönmüşəm. Özümə yer tapa bilmırəm. Səhərdən axşamacan ətrafımı nəşə ilə, şənliklə doldururam. O şad xəbəri aldığım gecənin səhəri bir yalan uydurub, Cavidandan İstanbula getməyimizi bir az təxirə salmağı rica etmişəm. İndi isə bu köçmək məsələsini tamamilə bir kənara qoymuşuq. İndi arvadımla lap təzə evləndiyimiz günlərdəki kimi yaşayırıq.

Bu gün Cavidana saatlarla kaman çaldım, bütün xoşladığı, istədiyi parçaları onun üçün təkrar etdim. Kamanı kənara qoyduqdan sonra isə əllərini əllərim içərisinə aldım, ovuclarını astaca yanaqlarıma, alnıma sürtüb, xırda busələrlə barmaqlarını öpdüm. Bu hərəkətlər yaşlı-başlı bir adamın öz məhəbbətini ifadə etməsindən daha çox, əzizlənən bir



uşağın rıqqət və məhəbbətinə, bir pişik balasının yaltaqlanmasına oxşayırdı.

Cavidanın gözlərində xoşbəxt, halından razı bir adamın təbəssümü vardı.

– Görürsən, yenə lap təzə evləndiyimiz aylardakı kimi yaşamağa başlamışıq, Cavidan, – deyə zarafat da etdim

O diqqətlə üzümə baxaraq:

– Xeyr, – dedi, – sən məni heç o zaman da bu qədər hərarətlə sevməmişdin. Qəribə bir şey də deyimmi, Kənan? Mən sənin gözlərinin heç bir zaman bu cür parladığını görməmişəm... Təəccüb edirəm.

Mən müzəffər bır qəhqəhə ilə güldüm:

– Sənə deməadimmi bu müvəqqəti bir xəstəlikdir, keçib gedəcək, yenə əvvəlki kimi canlanacaq, şən bir adam olacağam? Görürsən ki, artıq tamamilə yaxşı olmuşam.. Səni əvvəlkindən də çox sevirəm. Buna başqa bir sübut da göstərə bilərəm: kamanımın səsini, bu səsdəki titrəyişləri... Heç bir şey mənim ruhumu, şövq və səhhətimi kamanım qədər yaxşı ifadə edə bilmır... Avropada tələbəliyim zamanı bir cavan həkimlə tanış olmuşdum. Hələ o qədər məşhur olmamışdı, ancaq istedadlı adamdı. O vaxt tez-tez əsəbi və narahat hallarım olurdu Hərdənbir ona müraciət etməyə məcbur olurdum. Həkım nəbzimi, hərarətimi yoxlamaq əvəzinə kamanımı əlimə verır, "bir şey çal, Kənan" deyirdi. Diqqətlə üzümə baxaraq məni dinləyir, sonra qərarını bildirirdi: "Yorğunsan, Kənan... Əsəblərin yenə narahatdır. Yatmamısan, havasız, hərəkətsiz oturub fikir eləmisən", yaxud "Bu səfərki xəstəliyin uydurma bır şeydir... Səndə heç nə yoxdur... Boş qorxudan və fikirdəndir..."

Şübhəsiz dostumun sözlərində bir az zarafat da olurdu Lakin kamanımın titrəyişləri ilə qəlbimin, əsəblərimin vəziyyəti arasında gördüyü münasibət tamamilə əsassız da deyildi... Belə gedərsə, əsərim də gözlədiyimdən gözəl olacaq.

Dünən Şükrübəygilə qonaq getmişdim. Xeyli söhbət etdık. Heç bir söhbətə bu qədər vaxt sərf etdiyim, bu dərəcədə üzülüb yorulduğum olmayıb. Şükrü bəyin söhbətinə qulaq asırammış kimi görünmək, lazım gələn cavabları verməklə bərabər bütün qüvvət və səyimi ona Lamiəni, Lamiənin şəklini xatırlatmağa sərf edirdim. O, hərdənbir ayağa qalxdıqca, ətrafda bir şey axtardıqca ürəyim ağzıma gəlirdi. Lakin bütün zəhmətim, bütün çəkdiyim əzablar hədər getdi. İki saat boş yerə yorulduqdan sonra məyus bir halda evə qayıtdım.

Vaxtilə Xınalı yapıncağın kiçik bır şəklini, eşqə düşmüş məktəbli cavanların etdiklən kimi, bir tutam saçını görəsən, niyə alıb saxlamamışdım?!

Vaxt çox gecdir Cavidan içəridə çoxdan yatmışdır. Gecə isti və qaranlıqdır, cırcıramalar aramsız cırıldayır. Bağda uçuşan ateş cücüləri yağışı xatırladır. Lamiə bir neçə gün də gecikse, gəlməyi aylı gecələrə düşəcək. Görəsən, onu əvvəllər olduğu kimi yenə də tez-tez görə bilə-cəyəmmi? Güman etmirəm. Ancaq nə ziyanı var? Heç olmazsa, bir dəfə baxışacağıq ki... Gözlərımiz bir-biri ilə bircə dəfə olsun rastlaşacaq ki...

*4 avqust, Bozyaxa*

Yamacın ətəyində bir çoban tütək çalırdı. Qırx çamlara gedən yolun tinində iki qadın kölgəsi göründü. Yaxınlaşdıqları vaxt səslərindən tanıdım: dayımın kiçik gəlini Məsudə ilə Cavidan idi. Bir az sonra qarşımdakı divarın yanına gəlib durdular. Çoban da tütək çalmağına ara vermişdi. Nə danışdıqlarını aydın eşidirdim. Cavidan uzaqlara baxıb deyirdi:

– Lap nigaranam, niyə gəlmədi görəsən?

Məsudə cavab verdi:

– Bəlkə İzmirdə qalacaq?

– İndiyəcən İzmirdə qala bilməz. Özü də bayaq onu o biri bağdakı qonşu ilə danışan görüblər.

– Qırx çamlarda onu gözlədiyimizi bilir, elə deyilmi?

-- Əlbəttə. Dayə onu gözləmək üçün bağda qaldı, gələn kimi deyəcək ki, buraya gəlsin. Ağlıma başqa şeylər gəlir. Deyirəm birdən xəstələnib-eləyər.

– Allah eləməsin.

– Elə olsa indi gərək xəbər göndərə idi. İstəyirəm, bir bağacan gedib baxım.

Arvadımın ay işığında qarşımdakı divara düşən kölgəsi çox əsəbi görünürdü. Məsudə ondan xahiş eləməyə başladı:

– Siz zəhmət çəkməyin, qoy bir adam göndərək, yaxud lap özüm gedim.

Cavidan bir qərara gələ bilmir, hələ də yola baxırdı. Nəhayət, geri qayıtmağa razı oldu:



– Kənanın bəzən belə qəribə işləri var. Bir şey deyil, ancaq dayısı narahat olacaq, süfrə başında gözləyirlər axı...

Ətrafda quru yarpaqların astaca xışıldadığı eşidildi. Bu mənə bir ilan sürünməsi kimi gəldi. Qeyri-ixtiyarı olaraq yerimdə qımıldandım.

Geri qayıtmağa başlayan Cavidanla Məsudə bunu eşitmişdilər. Olduğum yerə tərəf baxırdılar. Birdən-birə ürəyimə bir qorxu düşdü, birdən məni bu tikanların içindəki kiçik, qurumuş sel çuxurunda tırtap uzanmış görsələr? Nə üçün belə etdiyimi soruşsalar heç bir cavab tapa bilməyəcəkdim. Təhlükənin uzaqlaşmasına kömək edəcəkmiş kimi gözlərimi yumdum, ölütək hərəkətsiz qaldım.

Çoban yenidən çalmağa başlamışdı. Xeyli sonra dirsəklərımi özümə dayaq edərək yerimdən qalxdım. Bomboş yol ay işığında parlayaraq uzanıb gedir, irəlidə bağların kölgələrinə qarışıb gözdən itirdi.

Bir saata yaxın olardı ki, mən bu quru sel çuxurunda uzanıb qalmışdım. Sümüklərim ağrıyırdı, ayaqlarım yatmışdı. Toz, tikan içində olan paltarımı çırpdım. Sonra nə edəcəyimi düşünməyə başladım. Cavidan məndən nigarandı, dayım süfrə başında qonaqları ilə bərabər məni gözləyirdi. Hər halda oraya getmək lazımdı.

Ağır-ağır Qırx çamlara tərəf yollandım. Çox gözəl, aylı gecə idi. Dayım adəti üzrə bu yay da Qırx çamlarda qonşularına bir qonaqlıq verəcək idi. Bağda bir həftə idi kı, buna hazırlıq görülürdü. Bu aylı gecə əyləncəsi məni balaca uşaqlardan çox sevindırırdi. Mən Xınalı yapıncağı belə bir qonaqlıq gecəsində sevməyə başlamışdım Qəlbimdə bir hiss mənə Lamiənin bu aylı gecə əyləncəsinə gəlib çıxacağını söyləyirdi. Bu gecə ayın çıxmaması necə qeyrı-mümkün idisə, Lamiənin gəlib çıxmayacağı da mənə elə qeyri-mümkün görünürdü.

Bu gün səhər tezdən İzmirə getmişdim. Bır çox vacib işim vardı. Lamiənin gəlmədiyini bilirdim. Ancaq işlərimlə məşğul olarkən, tanışlarımla görüşüb danışarkən ürəyimdə gizli bir sevinc duyur, "bağa qayıtdığım zaman onun mütləq gəlmiş olduğunu görəcəyəm" deyə fikirləşirdim. Bu xəyalımın boşa çıxmasından qorxur kimi, qəsdən xeyli yubandım. Bozyaxaya qayıtdığım vaxt günəş batırdı. Katiboğlu küçəsində bir neçə dəfə əl ağacımla faytonçuya toxunaraq.

– Yavaş sür, tələsmə, – dedim.

Bozyaxa yolundan dəniz görünən bir yerdə faytonu saxlatdırdım Günəş batmış, körfəzin axırında zəif qızartı qalmışdı. Külək yoxdu, ətrafımdakı ağaclıqlara axşamın sakit kədəri çökürdü Heç bir səbəb

olmadan ümidim də sönmüşdü. Artıq ətrafıma baxmırdım. Yorğun vücudumu faytonun bir küncünə yıxmışdım.

Bağın bayır qapısının qabağında dayəni gördüm. Qırx çamlarda məni gözlədiklərini, vaxt itirmədən dərhal oraya getməyi tapşırdıqlarını xəbər verdi Qoca qadının qəlbimdən keçənləri başa düşəcəyindən qorxaraq yavaş bir səslə soruşdum:

– Qonşulara qonaq gəlib eləməyib ki?

– Xeyr, heç kim gəlməyib.

Bağa girmədən yan tərəfdən yola döndüm. Şükrü bəyin qapısının qabağından keçərkən qeyri-ixtiyari olaraq içəri baxdım. Lamiənin əmisi arvadı əlində səbət üzüm dərirdi. Ənisə xanım məni görüncə baş yaylığını düzəltdi. Şükrü bəy:

– Qırx çamlaramı, Kənan bəy? Uğur olsun. Biz də bir azdan gələcəyik, – deyə səsləndi.

Başımla nə isə bir işarə edib sürətlə oradan uzaqlaşdım. Ancaq getdikcə addımlarımı yavaşıdır, fürsət var ikən Lamiə barədə bir şey soruşmamağıma peşman olurdum. Xeyli getmişdim. Birdən ağlıma bir bəhanə gəldi. Həyəcan və sürətlə geri döndüm. Şükrü bəy hələ də meynələrin arasında gəzirdi. Bu dəfə mən onu səslədim:

– Bəy əfəndi, bura bir zəhmət çəkə bilərsinizmi?

O, əlində bir səbət qapıya gəldi:

– Bir-iki gündür İzmirə getmirsiniz – dedim. – İstanbul qəzetləri gəlib. Maraqlı xəbərlər var. Verim oxuyun.

Yay paltosunun cibinə doldurduğum bir yığın qəzeti Şükrü bəyə uzatdım. Mən onun siyasət dedi-qoduları ilə maraqlandığını bilirdim. Qəzetləri məmnuniyyətlə aldı:

– Təşəkkür edirəm, Kənan bəy. Maraqlı əhvalatlar var, dediniz. Ancaq qəzetlərin bağını açmadan bu xəbərləri necə oxuduğunuza heyrət edirəm.

Tutulan kimi oldumsa da tez cavab verdim:

– Mən onları başqa qəzetlərdən oxumuşam.

– Mən də sizə bir salxım üzüm verim, Kənan bəy, yeyə-yeyə gedərsiniz. Düzdür şəhərdə belə şey eləmək olmaz, ancaq bağ yerində mümkündür.

Qonşumun uzatdığı salxımı alarkən birdən-birə yadıma düşmüş kimi soruşdum:

– Qonaqlarınızdan nə xəbər var? Nə vaxt gəlirlər?



Şükrü bəy cavab verdi:

– Lamiənimi deyirsiniz? Deyəsən fikirləri dəyişib Dünən axşam məktub almışam... Bay, üzümünüz düşdü

Şaşqın bir halda yerə əyilib torpağın üstünə dağılmış üzüm gilələrini yığmağa çalışırdım. Şükrü bəy güldü:

– Nə edirsiniz, Kənan bəy? Alın başqasını verim, – deyə bir başqa salxım uzatdı.

Bağların arasındakı dar, kölgəli yollardan çapar kimi keçdim. Qırx çamlara gedən yola çatdığım zaman qarşımdakı dağlarda ay doğurdu Ömrümdə bu qədər həzin və ümidsizliklə dolu bir aydınlıq görməmişdim. Öz-özümə "mənə bu dünyanı zindan etdin, Lamiə" sözlərini təkrar edirdim. Bu, təzəcə sevməyə başlamış safdil qız uşaqlarına yaraşan məlum cümlə mənə yanıq bir şikayət mərsiyəsi kimi təsir edirdi.

Ayağımı basdığım yerlərə baxmadan sərxoş kimi yeriyirdim. Qırx çamlara yaxınlaşdığım vaxt addımlarım ağırlaşdı. Üstümə ağır bir bulud çökmüş kimi idi. Qollarım düşür, dizlərim bədənimin ağırlığına davam gətirmirdi.

Bir bağın qabağında köhnə tanışlarımdan qoca bir jandarm leytenantına rast gəldim. Bir-iki dəqiqə məni söhbətə tutdu Bu lüzumsuz boş sözləri anlamaq, onlara cavab vermək elə yorucu olur ki...

Bu təsadüf mənim qabağa getmək üçün olan-qalan cəsarətimi də qırdı. Çünki orada bir çox şən, laqeyd adamlara rast gələcək idim Məni öz dərdimlə baş-başa qalmağa qoymayacaq idilər. Qulaq asmaq, danışmaq, gülmək lazım gələcəkdi. Halbuki, mən indi ancaq ölmək istəyirdim. Ömrümdə ilk dəfə idi ki, ölmək barəsində düşünürdüm Üç il bundan əvvəl belə gözəl aylı bir gecədə Xınalı yapıncağı qollarım arasına aldığım yerə gəlib çıxmışdım. Oradakı baxımsız və tamamilə uçmuş, ay işığının kölgələrimizi əks etdiyi divar, bir daş yığınına çevrilmişdi.

Yolun o biri tərəfindəki qurumuş sel çuxurunun qırağında oturdum Fikrimdə, o gecədən sonra ayın neçə dəfə bədirlənmiş vaxtı olub keçdiyini hesabladım. Qəlbim şərhedilməz bir dərdlə alovlanırdı. "O vaxtdan bəri ayın düz otuz yeddi aydınlığı gəlib keçib Azdırmı? Böyük müddətdir" deyə öz-özümə şikayətlənirdim Gözlərim yumulur, haralardasa uzaq üfüqlərin dərinliyində ayın bu otuz yeddi aydınlığı bir karvan kimi uzanıb gedir, getdikcə də daha sönük və solğun görünürdü Bəzən ağappaq qarların üstünə, bəzən yarpaqlarını tökmüş ağaclara, bəzən də gözəl mənzərələrə səpilmiş ay işıqları...

O gecədən sonra otuz yeddi aydınlıq keçmişdi. Halbuki, mən onu ay işığında islanmış kimi görünən sarı saçları, zərif çilli gözəl üzü ilə, göz yaşlarından pərdəli, süzgün yaşıl gözlərinin bütün məhəbbəti ilə hələ də bağda görürəm. Yenə başını köksümə dayamış, "mənə yazığın gəlmirmi, Kənan bəy!" – deyə için-için ağlayır. Artıq arxayın ola bilərsən, Xınalı yapıncaq. Mən əslində özümü yazıq etmişəm.

Kənarında oturduğum çuxura kol-kos tökülmüş, yarpaq dolmuşdur. Düz çuxurun içində tirtap uzandım.

Yamacın qarşısında bir çoban tütəyini çalırdı.

Bilmirəm hansı bədbin şairinsə kitabında oxumuşdum:

"Ölüm acı bir dərmandır – unutmaq və artıq əzab çəkməmək üçün istəməyərək, üzümüzü büruşdürərək, iyrənərək, gözlərimizi yumaraq bir həmlədə içdiyimiz bir dərman". Bəzi məyus saatlarımda bu şairə haqq vermişdim. Ancaq insanın ölümü öz razılığı ilə qəbul etməsini isə heç cür ağlıma sığışdıra bilmirəm. Bu cür yarpaqlarla dolu çuxurda uzandığım vaxt isə fikrimi dəyişdim: indi məncə ölüm əzab çəkməkdən qurtarmaq üçün sadəcə bir vasitə deyildi; qara torpağın içində sönüb getməkdə, məhv olmaqda ayrıca bir zövq, bir ləzzət də vardı.

Hərdənbir uzandığım yerdən qalxmaq, üstümdəki quru yarpaqlarla birlikdə bu qaranlıq, qorxunc düşüncələri də silkələyib atmaq, ümidsizliyə müqavimət göstərmək istəyirdim. Lakin bu ölüm haqqındakı xəyalın acı cazibəsindən özümü qurtara bilmirdim.

Cavidanın Məsudə ilə lap yanıma qədər gəlməsi mənə bir az qüvvət verdi. Qırx çamlara tərəf getməyə başladım. Ancaq ağacların altındakı fənər və məşəl işıqlarını, bu işıqlar arasında dolaşan müxtəlif insan kölgələrini gördüyüm, danışıqları eşitdiyim vaxt qəlbimə yenidən bir cəsarətsizlik çökdü. Nə olursa olsun getməyəcəkdim. Sonra məni çağırmaq üçün bağa adam göndərəcəklərini düşünüb yan tərəfdəki yola döndüm...

Arxa tərəfdəki yoldan içəri keçdiyim vaxt bir it hürdü. Balaca bir qız:

– Bəy əfəndi gəldi, – deyə bağıraraq köşkə tərəf qaçdı.

Pəncərələrdə çoxlu işıq, bağda xeyli həyəcan və səs-küy vardı. O saat başa düşdüm ki, belə əsrarəngiz surətdə yoxa çıxmağım hamını narahat etmiş və məni axtarmaq üçün adamlar göndərmişdilər. Buradakılara hesabat verməK məcburiyyətindən xilas olmaq üçün birbaş köşkə gəldim və qapını da bağladım.



Cavidan çox narahat olmuşdu. İçəri girdiyim zaman bu narahatlıq hiddətə çevrildi. Buna baxmayaraq əsəbiləşdiyini göstərməməyə, saxta və sayqısızcasına laqeyd görünməyə çalışırdı. Şübhəsiz ki, bir söz deyəcəyimi, üzrxahlıq edəcəyimi gözləyirdi. Kaş ki, belə edə biləydim. Ancaq anlaşılmaz bir inadkarlıqla susdum. Cavidan özünü saxlaya bilmədi. Üzümə baxmaqdan çəkinərək

– Yəqin ki, indi İzmirdən gəlirsiniz, – dedi.

Sadəcə:

– Xeyr, – deyə cavab verdim

– Dayınıza qarşı çox alicənab bir hərəkət elədiniz.

– ...

– Özümü demirəm. Çünki anlaşılmaz xasiyyətlərinizə artıq alışmağa başlamışam.

– ...

– Heç bir şey danışmağı lazım bilmirsiniz?

– Xeyr...

Bu "xeyr" kəlməsi dodaqlarımdan olduqca quru, sönük və ürəkincidən bir ahənglə çıxmışdı. Pis iş gördüyümü hiss edir, ancaq özümü ələ ala bilmirdim. Qəlbimdə kinə bənzər səbəbsiz, boğuq bir hiddət doğurdu...

Cavidanın üzü sapsarı olmuşdu. Buna baxmayaraq hələ də laqeyd sakitliyini saxlamağa çalışır, dodaqlarını çeyneyirdi.

– Bu rəftarınızı başa düşmək üçün ya səhhətinizdə fövqəladə bir pozğunluq olduğunu, ya da böyük bir fəlakətə uğradığınızı düşünmək lazım gəlir.

– ...

– Cavab vermirsiniz...

Pianonun üstündəki kiçik güldanlardan biri ilə oynayırdım. Birdən onu yerə salıb sındırdım. Bu təsadüfənmi oldu? Bilmirəm. Ancaq təsadüfən yerə düşən güldan belə kəskin səslə parçalanmazdı.

Güman edirəm ki, qəsdən, yaxud təsadüfən adam öldürən bir şəxs də bu qədər dəhşətə düşməzdi. Cavidan qəribə bir lərzə ilə sarsıldı. Ancaq yenə də özünü ələ aldı. O, vəhşi bir qürur və etinasızlıqla başdan-ayağa məni süzdükdən sonra içəri otağa keçib qapını örtdü.

Durduğum yerdə daşa dönmüşdüm. Yazıqlığımı, miskinliyimi, düşkünlüyümü indiki qədər heç vaxt hiss etməmişdim. Öz həyatım ilə

bərabər başqa bir adamın da həyatını qırırdım. Nə pis, nə anlaşılmaz bir varlıqdım. Məni sevənlərə ancaq əziyyətim dəyirdi.

Bir dəqiqə bundan əvvəl qəlbimdə bir qürur, hətta bir sərtlik vardı. İndi isə təəssüfdən, peşmançılıqdan əzab çəkirdim. Həyatımı, ruhumu bütün qüsurları, bütün böhranları ilə Cavidana açıb danışmaq istədim. Bir neçə dəfə qapısına yaxınlaşdım. Lampanın işığı gözlərimə düşdü. Onu söndürdüm. İndi də pəncərədən ay işığı düşməyə başlamışdı. Ah, bu ay işığına mən nə qədər nifrət edirdim.

Pərdələri saldım. Qollarımı pianonun kənarına dayadım. Sinifdə yuxulayan bir uşaq kimi başımı qollarımın üstünə qoydum... Saatlarla bu vəziyyətdə qaldım.

Daha Bozyaxada qala bilməyəcəyəm. Sabah səhər Cavidanla danışacağam. Xəstələndiyimi ona deyəcəyəm. Tez buradan İstanbula qayıtmağımız üçün yalvaracağam. Yoxsa bu torpaqların qoxusu da məni öldürəcək.

*7 oktyabr, Nişantaşı*[1]

Bu gün arvadımın yaxın qohumlarından olan bir qız üçün nişan məclisində olduq. Nişan göndərən adam tanınmış bir diplomatdı. Ancaq yapışıqsız, ruhsuz bir adamdı. Görkəmi kimi, qəlbən də çox yorğun adama oxşayırdı Bunu onun üzündəki cizgilərin dərinliyindən, rənginin yorğunluğundan, baxışlarındakı məğmun sönüklükdən aşkar görmək olurdu Qız isə əksinə, çox təravətli və xəyalpərvər görünürdü Məclisdə ikisi də özlərini xoşbəxt göstərirdilər. Təbriklərə, arzulara hərarətlə cavab verirdilər. Axşamüstü evə qayıtmaq istədiyimiz zaman qızın anası etiraz elədi:

– Nə olar, bu gecə bizdə qalın. İnsan həmişə şad günündə əziz, yaxın adamlarını yanında görmək istəyir.

Cavidan uzrxahlıq elədi, bir çox bəhanələr gətirdi, evə tez qayıtmalı olduğumuza onları inandırmağa çalışdı.

Cavidanın qohumlarından olan başqa bir yaşlı qadın da bizi müdafiə etdi.

– Üz vurmayın, – dedi. – Siz əziz adamlarınızı yanınızda görmək istəyirsiniz. Onlar da ancaq bir-birilərini görmək istəyirlər. Bilirsiniz

[1] İstanbulda zəngin və adlı-sanlı ailələrin yaşadığı məhəllə



ki, bir-birini çox sevən adamlar üçün evlərindəki yalqızlıqdan yaxşı şey ola bilməz.

Əvvəlki qadın da mehribanlıqla gülərək etiraz etdi:

– Onları saxlamağımın əsil səbəbini deyimmi? Təzə nişanlanan bir qıza bir-birini çox sevən ər-arvadı nümunə göstərməkdən yaxşı dərs ola bilməz. İstəyirdim ki, Suzan da öz səadətinə inansın, bunlar kimi olsun.

Qadının səsində, gözlərində çox çətin seçilən bir təlaş duyulurdu. Mənim gizli iztirab və kədər əlamətlərini sezməkdə məharətli olan gözlərim kimi onun ana qəlbi də Suzanın xoşbəxt olmayacağını hiss etmişdi.

Qız bu ərə getməyindən razı deyildi. Məclisdə ona baxanlara Suzan sevincindən, fərəhindən uçur kimi görünürdü. Bir az sonra ona baxan adamların nəzərini başqa səmtə, başqa tərəfə çevrilmiş görəndə, səadət deyilən şeyə inanmayan bədbəxt bir adamın uzaqdan-uzağa ona baxmağı diqqətini cəlb edir, bu vaxt o da saxta sevinc maskasını üzündən atırdı. Bayaqdan bəri onun evin içində dalğın-dalğın gəzindiyinə diqqət etmişdim.

Anası bizimlə xudahafizləşmək bəhanəsi ilə onu yanımıza çağırdı, bir neçə sözlə bizim səadətimizi bir daha təsvir etdi:

– Görürsən, Suzan, qoca xalalarına qulaq asmırlar, ömürdən bir gecələrini də elə-belə itirmək istəmirlər, – deyə sözünü bitirdi

Bu sadə əhvalat nədənsə mənə çox toxundu Bu gecə dəftərimə həmin sətirləri yazmağa məcbur oldum. Bu saf, yazıq qadın qızı ilə kürəkəninin bizə oxşamasını bütün varlığı ilə arzu edirdi. Gecələrimizi ləkəsiz bir səadət içində baş-başa keçirdiyimizi güman edirdi. Cavidanla mənim iki aydan bəri bir-birimizdən incidiyimizi bilmirdi Xəyalən bizi təqib etməsini göstərdim. Gülə-gülə, danışa-danışa mindiyimiz maşının qapısı örtülər-örtülməz təbəssümlərimizin, cümlələrimizin necə yarımçıq kəsildiyini, arvadımın bir küncdə, mənim də o biri küncdə necə büzüşdüyümüzü, sonra evdə bir kəlmə də danışmadan hərə öz otağımıza necə çəkildiyimizi gərək görə idi. Bir həftə, on gün, bəlkə daha da sonra bu qadın bizi gördüyü zaman arvadımla mənim bir-birimizə dediyimiz sözlərin çox səmimi olduğuna yenə inanacaq, onların bundan əvvəlki dəfə maşının qapısında yarımçıq qalmış cümlədən sonra aramızda baş vermiş ilk söhbət olduğunu başa düşməyəcək idi.

Cavidanla necə kədərli bir komediya oynayırıq! Arvadım çox əzab çəkir... Lakin məğrur olduğu üçün bunu büruzə vermir. Ətrafımızdakılara zahirən yaxşı görünməyə çalışırıq. İncikliyimizin müəyyən bir səbəbi olsa barışmaq çox asandır... Ona söz verərəm ki, bir də qəlbinə dəyəsi iş görməyim... Yavaş-yavaş münasibətimiz düzələr. Ancaq çox pis, əsəbi, cırtqoz bir adam olmuşam. Arvadımın inciməyə haqqı var... Özüm-özümdən razı deyiləmsə, o məndən necə razı olsun!.. Bəli, bu gün barışmaq mümkündür. Ancaq bilmirəm, sabah yenə onu incidəcəyəm ya yox. İndi ki, elədir, ona bilə-bilə təzədən niyə əziyyət verim.

*25 fevral, Nişantaşı*

Evimizə yaxınlaşdığım vaxt haradansa uzaqda bir saat gecə yarısını vurdu. Hava çox pis idi. Külək getdikcə güclənir, yağışla bərabər sulu qar yağmağa başlayırdı. Küçə bomboşdu. Fənərlər orada-burada toplanmış su gölməçələrinə sönük bir işıq salırdı Hərdən yanımdan keçən avtomobillər üst-başıma, üzümə palçıq sıçradıb ötürdü. Yaxamdan boynuma sızan sulu qar kimi, buna da fikir vermir, yağış və palçıq içində bu uzun yolu piyada getməkdən qəribə bir ləzzət duyurdum. Çirkli gölməçələrdə batıb-çıxan bir ördək zövqü...

Küçəmizə dönəndə bir küçüyü tapdaladım. Heyvancığaz acı-acı zıngildəməyə başladı. Ürəyimdə bir mərhəmət oyandı.

– Gedək səni evdə qonaq eləyim, əvəzi çıxsın, – deyə iti qucağıma götürdüm.

Dilnəvaz nənə məni bu sir-sifətdə görəndə özünü itirdi.

– Qonağım var, nənə. İşığı yandır. Mətbəxə keçəcəyik. Bu, çağırılmamış qonaqdır, nə versən yeyəcək, eyib eləməz, – deyə-deyə ucadan gülürdüm.

Qoca qadın mütərəddid və məyus bir halda şamdanı əlinə aldı, qorxa-qorxa:

– Bəy əfəndi, – dedi. – Bir az yavaş gülün, salonda qonaqlarımız var.

Çiyinlərimi çəkdim, yenə də yüksək səslə:

– Hələlik bu qərib qonaq hamısından vacibdir, – dedim.

Elə bu vaxt pilləkənin başında asta bir səs eşitdim. Başımı çevirdim, arvadımla göz-gözə gəldik. Cavidan ağır hakim ədası ilə yavaş-yavaş pilləkəndən enir, heyrət qarışıq bir etinasızlıqla üzümə baxırdı.

– Nə olub, Kənan bəy?



Külək və yağış altında keçdiyim uzun yol sərxoşluğumu xeyli azaltmışdı. Arvadımın təsirli, hakim baxışları isə məni tamam ayıltdı.

– Heç, küçədə balaca bir it gördüm, yazığım gəldi...

Cavidan məni başdan-ayağa süzərək acı bir istehza ilə dedi.

– Yumşaq ürəyiniz və insani hissləriniz üçün sizi təbrik edirəm.

Cavidan mənə xeyli vaxtdan bəri tez-tez "siz" deyə rəsmi bir tövrlə müraciət edirdi. O sözünə davam etdi:

– Ancaq arzu edərdim bu rəğbət və mərhəmətdən əvvəlcə özünüz faydalanaydınız. Öz halınıza bir fikir verin, Kənan bəy. Məncə bu görkəminizlə siz o biçarədən daha acınacaqlı bir haldasınız. İti, yaxşısı budur, Dilnəvaz nənəyə verin, özünüz də birbaş otağınıza çıxın Bu saat deyərəm sizə təmiz paltar gətirərlər.

Arvadımın əzici nəzərləri altında utanmış və məğlub bir vəziyyətdə yuxarı çıxırdım. Gözüm güzgüyə sataşdı. Nə sərsəri, nə acınacaqlı görkəmim vardı! Bu vaxt öz-özümdən utanmağım, başımı aşağı əyməyim lazım gəlirdi. Buna baxmayaraq bu qəribə və düşkün vəziyyət mənə, əksinə, qəribə bir cürət verdi və hiddətləndim.

Bir az əvvəl keçib getmiş kimi görünən sərxoşluğum yenidən başımı dumanlandırır, gözlərimə qaranlıq çökürdü. Elə bu vaxt salondan bir səs, Namiq Behcətin səsi gəldi.

– Cavidan xanım, sizi gözləyirik.

Bu səs məni tamam hövsələdən çıxartdı.

– Vay, qonaqlarımız arasında Namiq Behcət bəy qardaşımız da varmış, nə yaxşı, – deyə salona tərəf yönəldim.

Cavidan tez qabağımı kəsdi, boğuq bir səslə:

– Nə edirsiniz, Kənan bəy, – dedi. – Bir özünüzə gəlin.

Nə elədiyimi özüm yaxşı bilirdim. Lakin əsəbi bir hiddətlə gözlərimi geniş açaraq cavab verdim:

– Heç... Heç bir şey... Qonaqlarımıza "xoş gəldin" deyəcəyəm.

– Allah xatirinə, bir özünüzə gəlin. Sizi bu vəziyyətdə görsələr, biabır olarıq.

– Buna baxmayaraq mən qonaqlarımızı mütləq görmək istəyirəm, xüsusən Namiq Behcət bəyi.

– Kənan bəy, sizdən xahiş edirəm...

Gözlərimi Cavidanın üzünə dikdiyim vaxt qəribə bir şey gördüm: arvadımın gözlərində iki iri yaş damcısı vardı. Onu tanıdığım vaxtdan bəri ilk dəfə idi ki, ağladığını görürdüm. Bu iki gilə gözyaşı mənə bir

möcüzə kimi təsir etdi. Əsəbi inadımı birdən-birə qırdı. Məğlub halda başımı əydim:

– Bağışla, Cavidan. Mən çox səfil adamam.

Bir daha üzünə baxmağa cəsarətim olmadı, otağıma tərəf yönəldim.

Bir az əvvəl dəhlizdən gələn asta ayaq səsi qapının qabağında dayandı. Dilnəvaz nənə bir neçə dəfə:

– Bəy əfəndi... Bəy əfəndi, – deyə səsləndi.

Cavab vermədim

Qadın yuxuya getdiyimi düşünərək yavaş-yavaş uzaqlaşdı. Cavidan da yəqin elə fikirləşir və yəqin ki, otağında ağlayırdı.

Cavidanda inadkar bır qürur vardı. Təəssürlərini və həyəcanlarını gizlətməyi bacarmağı özü üçün bır məziyyət hesab edırdi. Lakin bununla belə, axı o da bir qadın idi Əlbəttə, o da əzab çəkirdi, tək qaldığı vaxt o da başqaları kimi göz yaşlarından təsəlli umurdu. Ancaq bir az əvvəl gözlərində o ıki böyük yaş damcısını görənə kimi onun ağlaya biləcəyıni ağlıma gətirməmişdim. Görünür, məni xeyli vaxtdan bəri arvadımı incitməyə sövq edən də bu gizli, anlaşılmaz inadıma qarşı onun ruhən çox quvvətli olduğunu güman etməyim olmuşdur.

Bu ikı damcı gözyaşı məni təkcə bugecəki sərxoşluqdan ayıltmadı, mənə elə gəlir ki, daha uzun, daha ağır bir yuxudan oyandım. Neçə ay olardı ki, sövq-təbiiyə, qəlbimın anlaşılmaz istəklərınə, ruhumun qaranlıq, əsrarəngız təsirlərınə tabe bir halda davranırdım. Sərxoş kimi düşünmədən yaşayır, ürəyimdən nə keçirsə, onu edirdim... İndi budur, bir az əvvəlki əhvalat məni bu uzun və ağır yuxudan oyatdı. Həzin və acı həqiqəti bütün çılpaqlığı və ağırlığı ilə görə bildiyim nadir ayıq çağlarımdır... Başıma nə iş gəlir, nə edirəm, xüsusən bu gedişlə haraya gedirəm? Həqiqəti gizlətməyə ehtiyac yoxdur... Evim, otağım dağılır... Düzdur, kəskin dəyişiklik hələ baş verməmişdir... Ailəmizdə zahirən hələ hər şey sakit və gözəldir... Ancaq təməli çürümüş, bütün gizli istinadgahlar yıxılmışdır. Bu bina uçub-dağılmaq üçün hadisələrin qüvvətli bir təkanına bənddir...

Barəmdə yazan tənqidçilərdən biri haqqımda necə də gözəl bir təşbeh işlətmişdir. mən guşənişin, məhrumiyyətlərlə dolu və qaranlıq həyatım ilə ulduzlarla müsabiqəyə çıxan, havaya atılmış fişəngdən başqa bir şey deyiləmmiş. Qaranlıqlar içində birdən-birə yüksəlmiş, əlvan parıltılarım bir zaman ulduzlar kimi yüksək və gözəl görünmüş.



Lakin çox keçmədən, səfil bir aqibətlə öz keçmiş qaranlıq torpağıma düşmüşəmmiş...

Yeni həyatım bir zaman mənə füzun kimi gözəl göründü Cavidanla bir-birımizi sevdiyimizi güman etdik. O mənim şəxsimdə bir sənətkarı bəyənirdi. Mən isə onun şəxsində cah-calallı, eyni zamanda da zərif, gözəl bir qadına heyrandım Ancaq ruhumuz daim bir-birinə yabançı qalmışdı. Mənim zövqüm, həyəcanım, kədərım, neşəm onunkundan başqa idi... Bir-birimizi çox sevdiyimizi, bir-birimizi başa düşdüyümüzü söyləyirdilər. Əslində isə biz biri digərinin xatirinə onun istədiyi kimi görünməyə məcbur olan iki qonağa bənzəyirdik Bu necə də yorucu bir haldı! Nə qədər davam edə bilərdi? Bu həyata heç olmazsa boş və bütöv bir qəlblə başlamış olsa idim.. O da olmadı.. Məndə əvvəlki həyatımdan qalma gizli bir məhəbbətin gündən-günə artıb daimi xəstəlik halı alan təsiri qalmışdı.

Bu dəfə İzmirdə olduğumuz vaxt artıq komediya oynamaqdan yorulmuşduq. Mən artıq vəziyyətimi başa duşürdüm. Aramızdakı həyat və ruh ayrılığını gizlətməyə daha qüdrətimiz çatmırdı. Heç bir şeydən mənasız ixtilaflar, narazılıqlar ortaya çıxırdı Aylarla bir-birımizlə küsülü qaldıq, yalnız adam yanında bir-bırimizin üzünə baxdıq. Nahaq yerə bir-birini incitməkdənsə bu daha yaxşı deyildimi? Özü də bu inciklik məndən ötrü son bir yoxlama olacaqdı .. "Ayrılıq böyük məhəbbətləri daha da qüvvətləndirir... Natamam olanları isə öldürüb məhv edir. Bizim bir-birımızdən küsməyimiz könüllü bir ayrılıq olacaqdı. Hər şey ümidsiz bir surətdə sönmüş, ölüb getmiş deyilsə, bizi yenidən bir-birimizə qovuşduracaq" deyə düşünürdüm Ancaq belə olmadı. Mən həyatımın bu tənhalıqları içində Lamiəni daha şiddətlə xatırlamağa, haqqında daha çox düşünməyə başladım... Bəzi dəlilərın beyninə girərək dilindən düşməyən "fikirlər" kimi Lamiə də mənim yadımdan çıxmır, gözümdən getmirdi.

Artıq hər şeydən əsəbiləşən, tez özündən çıxan, narahat bir adam olmağa başlamışdım. Heç bir səbəb olmadan Cavidana qarşı gizli bir kin bəsləyirdim.

O vaxt arvadımla nə üçün barışmaq istədiyimi indi başa düşürəm .. Ona gizli əzab vermək zövqündən özümü çəkindirə bilməmişdim.

Bir az sonra bu sərtliyim, asiliyim də keçib-getməyə başladı. Bunların yerini quru, soyuq, ədalətsiz istehzalar tutdu. Başqalarını incitməkdə, utandırmaqda küçədəki dəlilərlə əylənən qaba bir hambal zövqü duymağa başlamışdım.

Artıq zahirən yaxşı görkəmimi saxlamağa, özümü düz-əməlli adam kimi göstərməyə çalışmırdım. Yenə yavaş-yavaş avaraçılığa, pozğunluğa qurşanmağa başlamışdım. Bir gün tanıyıb bilmədiyim adamlarla dəlicəsinə qumar oynayır, başqa bir gün ən adi qadınların dalısınca düşür, bəzən barlara, çalğılı meyxanalara gedirdim. Düşkünləşir... Hər gün daha çox pozulurdum.

Təkcə bugecəki hərəkətlərim nə qədər düşkünləşdiyimi göstərmək üçün bəs deyildimi? Belə namünasib yerlərdə tanış olduğum dörd-beş səfehlə barlardan birində idik... Durmadan içir, gülür, zarafat edirdik...

Bir ara çalğı susmuşdu. Birdən ağlımdan dəlicəsinə bir şey keçdi: səndələyə-səndələyə yerimdən qalxdım, çalğıçılardan birinin kamanını alıb çalmağa başladım. Sərxoşlar bir-birinə qarışdı. "Bravo!" səsləri, əl şappıltıları stəkan və boşqab səsinə qarışır, yarıçılpaq qadınlar bağırışaraq ətrafımı bürüyürdülər.

Çaldığım parçalardan birinin ən gözəl bir yerində kamanı sahibinə verdim.

– Kəsmə... yenə... yenə... – deyə bağırışırdılar. Qapıdan çıxarkən onları eşitmirdim. Qulaqlarımda dayımın dediyi, uşaqlıq vaxtlarımdan, ilk gənclik çağlarımdan bəri unutmadığım sözlər cingildəyirdi:

"Çalğıçı. Axır ki, çalğıçı oldun!".

Deməli, bir çox xəyallardan, ümidlərdən bihudə çırpınmalardan sonra onun dediyi adam olmuşdum. Mən ki, könlüm olmadıqda, istədiyim adamların xatiri üçün də kaman çalmaz, arzularını rədd edərdim. Görünür, dayımın dediyi düz çıxırdı. Axırda səfil bir çalğıçı olacağam, yaxud da atam kimi mən də...

Bayaq soyunarkən peşman olmuş halda özümə söz verir, sözümə əməl edəcəyimə and içirdim. Cavidanla təzədən barışmaq fikrinə düşməyin mənası yoxdur. Bu, bir hadisə ilə əlaqədar bir ixtilaf deyildi ki...

Mənimlə Cavidanı bir-birimizə bağlayan hisslər, münasibətlər ölmüş adamların bədən üzvləri kimi çürüyür, ayrılır, dağılır...

*25 aprel, Nişantaşı*

Bu gün günortadan sonra bağda gəzirdim. Qapının qabağında bir maşın dayandı. Öz-özümə:

– Vay, – dedim, – Bu gün arvadımın qonaq qəbul eləyən günüdür. Bu saat qonaqlar gəlib töküləcək. Bir bölük boşboğaza gərək baş əyək, onlarla çənə döyək.



Qapını açmağa gedən xidmətçiyə.

– Məni soruşan olsa, – söylədim, – deyərsən küçəyə gedib.

Bağın dal tərəfinə yollandım. Burada bağbanın köhnə, boş evinin yanında bir qəməriyyə vardı. Onun ətrafını xanıməli və sarmaşıq basmış, üstünə də böyük tut ağacı sıx yarpaqlı budaqlarını uzatmışdı. Özözümə: "Bura heç otaqdan seçilmir, – dedim. – Qonaqlar gedənəcən burada qalaram".

Keçib qəməriyyədəki sınıq taxtın üzərində uzandım. Başımın üstündəki yarpaqların içində sərçələr atılıb-düşür, yağışın islatmış olduğu yarpaqlardan üzümə, əllərimin üstünə hərdənbir su damcıları düşürdü.

Bu vəziyyətdə iki saatdan çox uzanıb qalmışdım. Birdən qulağıma gurultulu bir kişi qəhqəhəsi gəldi. Tez yerimdən sıçradım:

– Vay, – dedim. – Qonaqlar bağa çıxmışlar. Bu tərəfə gəlsələr, iş pis olacaq.

Sarmaşıqların arasından səs gələn tərəfə baxdım. Səs-küy salan Namiq Behcət bəydi. Tanımadığım bir qadınla onun yeddi-səkkiz yaşlı qızının şəklini çəkmək üçün bağa çıxmışdı. Cavidan da onların yanında idi:

– Namiq, o tərəfdə gün var, olmaz. Burada çəkək, – deyir, olduğum yeri göstərirdi. Öz-özümə hiddətlə:

– Ah, nə pis oldu, – dedim. – Harada tərs bir iş var, gərək onun ağlına gəlsin.

Bir az da yaxına gəlsələr mütləq məni görəcəkdilər. Səs salmamağa çalışaraq sarmaşıqları araladım, yaxındakı köhnə evə girdim.

Bir az sonra səsləri kəsilmişdi. Artıq çölə çıxmağa hazırlaşırdım. Ancaq bu dəfə Namiq Behcətin səsi daha yaxından eşidildi.

– Bu qəməriyyə nə gözəldir, Cavidan xanım, – deyirdi. – Əsil bahar evidir. Bir neçə dəqiqə burada oturmağıma icazə versəniz mənə böyük yaxşılıq etmiş olarsınız.

Arvadım:

– Necə istəyirsiniz, Namiq bəy, – dedi.

Yarpaqlar xışıldamağa başladı, Cavidanla qonağının qəməriyyəyə girdiyini gördüm. Namiq sınıq taxtı göstərərək:

– Burada bir az oturmayaqmı? – dedi.

Arvadım cavab verdi:

– Yağışdan oturmalı halı qalıb ki... Özü də bura çox rütubətlidir.

– Rütubətli olsa da, şairanə bir yerdir. Bağın bu hissəsi baxımsız qalmışdır. Fikirləşməyin ki, bunu, sizi tənqid etmək üçün deyirəm.

Əksinə, bu daha gözəldir. Əslində çox təbii görkəmi olan balaca bir qoruqdur.

Namiq uzun olduğu qədər də çox axmaq şairanə təsvirlərə keçmişdi. Oturduğum yerdə əsnəyir, deyinirdim:

– Nə pis oldu, yatmasam yaxşıdır.

Artıq onlara qulaq asmırdım. Mətbəxin uçuq bacasında yuva qurmağa çalışan qaranquşlara tamaşa edirdim. Arada Cavidanın səsi nəzərdiqqətimi cəlb etdi. Bu səsdə kədərli bir şikayət ahəngi vardı. Qeyri-ixtiyarı olaraq dinləməyə başladım.

– Həyatımın belə olacağını güman etməmişdim. Hərçənd sizə gizli dərdlərimizdən danışmaq düzgün deyil. Ancaq artıq halımızı başqaları da hiss etməyə başlamışdır Siz isə üstəlik bır də qohumumsunuz... Kənan bəyin sənəti məni aldatmışdır. "Bu cür böyük bir sənətkarın çox böyük bir qəlbi, son dərəcə başqa bir insanlığı olacaq" deyirdim. Mən bu ümidlə həyatımı...

Cavidan getdikcə artan bir hərarətlə sözlərinə davam edir, həyatımızın bütün gizli qüsurlarını bu səfeh Namiq Behcətə danışırdı.

Bu mənə əvvəla bir az ağır gəldi. Öz-özümə düşünməyə başladım·

"Mənim tanıdığım Cavidan çox məğrur bir qadındı. Necə olur ki, bunları danışır? Özü də bu Namıq Behcət kimi səfeh bir adama! Demək ki, onu səfeh adam hesab etmir. Həyatının bu cür məhrəm sirlərini belə açıq bır şəkildə söyləyə bilmək üçün müsahibın gərək qiymət verdiyin adam olsun. Yoxsa Cavidan, bu Namiq Behcəti..."

Düşündüklərımin bu nöqtəsində birdən durdum. Arvadımı bu cür məhrəmliyə sövq edən səbəbi mütləq tapmaq istəyir, onun hər halını, səsinin hər ahəngini diqqətlə izləməyə cəhd edirdim.

Onlar getdikdən sonra yenə qəməriyyəyə keçdim, başımı əllərimin içinə alaraq uzun-uzadı düşündüm və nəhayət, qəti qərara gəldim.

Arvadımın yataq otağında zəif işıqlı bir gecə lampası yanırdı. Cavidan yatmağa hazırlaşır, güzgünün qabağında hörüklərıni açırdı. Məni otağın qapısında görürkən xəfif bir heyrətlə fəryad qopardı.

Əllərimi qapıya dayadım, ağır-ağır başımı tərpədərək:

– Bu nə qərıbə haldır, Cavidan, – dedim. – Məni yataq otağının, daha doğrusu otağımızın qapısında görəndə elə bil yad bır adamı, bir gecə oğrusunu gördün. Qeyri-ixtiyari bir hərəkətlə boynunu, saçlarını gizlətmək istədin, halbuki, mənim bu otağa gəlməyim çox təbii bir şeydir. Bu, qəribə, həm də çox kədərli bır hal deyilmi, Cavidan?

Arvadım özünü ələ almışdı Çöhrəsindəki həmişəki vüqar və sakitlık yavaş-yavaş yerinə gəlirdi, diqqətlə üzümə, halıma baxaraq nə istədiyimi anlamağa çalışırdı.

Gəldiyim qərar mənə bir mələk sakitliyi vermişdi. Ürəyimdə təlaşdan, tərəddüddən əsər-əlamət yoxdu. Təkcə danışığımda bir az ağırlıq, səsimdə güclə nəzərə çarpan titrək bir kədər hiss edirdim.

– Bir az içəri keçə bilərəmmi, Cavidan? – deyə soruşdum O sualıma cavab vermədi, azca qaşlarını çataraq·

– Nə istədiyinizi başa düşə bilmırəm, Kənan bəy, – dedi.

Qapının yanındakı stulda oturdum.

– Sənın səadətini, Cavidan, – dedim. – And içırəm ki, indi bundan başqa bir şey düşünmürəm: qırdığım həyatını yenidən bərpa etmək. Sənə etdiyim pisliklərə həmişəlik son qoymaq.

Səsim elə təbii bir kədərlə titrəyırdi ki, Cavidan səmimıyyətimə şübhə edə bilmədi. Ancaq bu qənaət onu əsəbiləşdirməyə başlamışdı, bir az əvvəlki saxta sakitliyıni saxlaya bilmirdi.

– Məni heç olmasa bu qədər başa düşdüyünüz uçün təşəkkür edirəm. Lakin icazənizlə mən də sizə bır şey deyım. bəzi şeylər elə pis qırılır ki, onları sonradan heç cür düzəldib bərpa etmək mümkun olmur...

Yavaşca əlimi qaldıraraq Cavidanın sözünü kəsdim, acı bir təbəssümlə dedim·

– İcazə ver, Cavidan, qurtarım Mən də bilırəm kı, bu fəlakətə sözlə, and içməklə, təminat verməklə, yalvarışlarla ·son qoymaq mümkün deyil. O qədər də uşaq deyiləm. Bu gecə sənə qəti bır dərman təklif etmək istəyəcəm, Cavidan.

Arvadım gözlərini geniş açaraq üzümə baxırdı. Nə deyəcəyimi başa düşmədiyi halda tıtrəməyə başlamışdı.

– Bu gün sən qəmərıyyədə Namiq Behcət bəylə danışanda sizın yaxınlığınızda idim. Oradakı evin bir küncündə durmuşdum. Söhbətinizin bir qismini eşitmişəm.

Bu sözlərim Cavidana bir qamçı zərbəsi kimi təsir etdi. Cəld başını qaldırdı, məğrur və etinasız bir baxışla:

– Bu sizin tərəfinizdən nə gözəl, nə nəcib bır hərəkətdir, Kənan bəy! – dedi. – Və bu əsilzadə hərəkətinizlə siz, hansı həqiqəti kəşf etdiniz?

Mən yenə əvvəlki məhzun və sakit halımla sözümə davam etdim:

– Sənə etdiyim pisliyin əvəzini verməyin çarəsini kəşf etdim, Cavidan... Bir şeydən çox qorxurdum: heç bir şeydən asılı olmayaraq məni sevməyindən... Yaxşı ki, belə deyil, yoxsa səni bədbəxt etdiyimi düşünərdim. Halbuki, indi daha arxayınam, Cavidan. Arxayınam ki, sən bir başqası ilə xoşbəxt ola biləcəksən. Yenidən özünə bir yuva qura biləcəksən... Gəncsən, gözəlsən, bir çox məziyyətlərin var... Niyə mənim kimi ruhən şikəst, sönmüş, pis, zavallı bir adamla həyatını çürüdəsən... Mən ölüb qurtarmış bir adamam, Cavidan... Sənətim, kamanım bəlkə də sənə mənim haqqımda xəyal bəsləməyə əsas verirdi... Varlığım isə əslində ancaq gözəl bir səsdən ibarətdi... İndi artıq o da susmuşdur... Ruhən sağalmaz dərəcədə xəstəyəm, Cavidan... Bu xəstəlik məndə aydan-aya, gündən-günə daha da artır... Bəlkə bu ayrılıq mənim üçün də yaxşı oldu... Artıq nə demək istədiyimi başa düşürsən, elə deyilmi? Heç olmazsa sənə nicat verdiyimə inanmağım məndən ötrü son bir təsəlli olacaqdır.

Cavidan alçaq bir stulda oturmuş, başını əllərinin içinə almışdı. Üzü heç görünmürdü. Gecə lampasının zəif işığı dağınıq qumral saçlarında titrəyirdi. Yavaş-yavaş yanına getdim. Bir uşağa söz başa salırmış kimi, şirin, oxşayıcı bir səslə:

– Razısan, elə deyilmi, Cavidan? – dedim.

Saçlarını oxşamaq, əllərini öpərək yalvarmaq istəyirdim. Çiyinlərinin titrədiyini gördüm. Zəif bir hıçqırıqla:

– Yaxşı, Kənan... Necə istəyirsən elə olsun, – dedi.

Artıq bir söz deməyə cəsarət etmədim. Qaranlıq dəhlizə çıxdığım vaxt bir dəqiqə divara söykənib durdum. İndicə son nəfəsini vermiş bir xəstənin yanından çıxmış kimi idim.

*20 iyul*

Bu gün tuneldə[1] doktor Vədada rast gəldim. Dostum məni görüncə heyrətlə üzümə baxdı:

– Bu nə qəribə təsadüfdür, Kənan, – dedi. – Mən eşitmişdim ki, sən İzmirə getmisən. Demək, hələ buradasan.

– Bu yaxında gedəcəyəm. Ancaq hər halda İzmirə yox, başqa bir yerə, – deyə cavab verdim.

[1] İstanbulun Avropa hissəsində yeraltı yol



– Haraya?

– Hələ bilmirəm.

Vədad üzümə baxdı. Nə isə demək istəyirdi, ancaq nədənsə fikrini dəyişdi. Həmişəki laqeyd, zarafatcıl tövrü ilə:

– Hər halda sərin bir yer seçməyini məsləhət görürəm, – dedi.

– Bu il yay cəhənnəm kimidir. Mənim keçənlərdə ilin elə bu vaxtı Rumıniyaya yolum düşmüşdü. Necə də gözəl yerlərdir! Təsəvvür edə bilməzsən. Sərinlikdə, bax, bizim bu tunel onun yanında heç bir şeydir.

Mən güldüm:

– Bu nə gözəl təşbeh oldu, Vədad.

O, tunelin sərin, rütubətli havasını ciyərlərinə çəkərək cavab verdi:

– Məndən soruşsan, deyərəm bu isti yay günlərində, İstanbulda tuneldən yaxşı yaylaq yoxdur. Mənimlə olsa yayda buranı fəqir-füqarə üçün sərinlik yerinə çevirərəm. Vallah, bura heç yerə bənzəməz. Bu sərin, qaranlıq havanın içində o baş-bu başa gəzişmək, bilirsən nə yaxşı olar... Bu gün çox yorulmuşam, Kənan. İstidə işləmək yaman çətin olur. Özü də bu gün işim lap çoxdu. Yarım saat bundan əvvəl xəstəxanadan çıxmışam. İndi ambulatoriyaya gedirəm. Sən hara gedirsən?

Əlimlə mübhəm bir işarə elədim:

– Heç. Elə-belə gəzməyə. Bir az hava almağa.

Tuneldən çıxıb qələbəliyə qarışmışdıq. Vədad qolumdan tutdu. O, əlini küçənin, qaranlıqdan yenicə çıxmış gözlərimizdə titrəyən gur aydınlığına doğru uzadaraq:

– Gəzmək üçün nə gözəl yer tapmısan, Kənan... – dedi. – Sənə bir şey təklif edim. Gəl gedək, mən də bu gün şeytanın qıçını sındırmaq istəyirəm. Keçən gün Bomontidə yenicə salınmış bir bağ görmüşəm. Təzə açıldığı üçün hələ heç çox adam da olmur. Ancaq elə bil cənnətin bir guşəsidir. Elə gözəl, elə sərindir ki. Gedək ora, bir az pivə içər və dincələrik. Nə deyirsən?

– Yaxşı. Ancaq bir az əvvəl xəstələrinin çox olduğunu deyirdin.

– Əşi, görünür bəhanə axtarırsan! Allaha çox şükür olsun ki, xəstələrimin içində ölüm halında olanı yoxdur. Razısanmı, Kənan? Özün də deyirsən ki, bu yaxında harasa gedirsən. Həm dincələr, həm də səninlə vidalaşmış olarıq.

Arvadımdan ayrıldıqdan sonra çox yumşaqxasiyyətli və üzüyola olmuşdum. Uşaq kimi hara aparsa idilər, gedirdim.

– Yaxşı, gedək, – dedim.

– Ancaq iki dəqiqəlik bir işim var. Bərabər ambulatoriyaya gedək. Bir yerdən xəbər gözləyirəm, onu öyrənim. Sən məni qapıda gözlərsən, yuxarı çıxmağımla duşməyim bir olacaq

– Çox gözəl. Mən sənə tabe, Vədad .

Dörd-beş dəqiqə yol getməmiş ambulatoriyaya çatdıq. Dostum:

– Sən darıxma, bu saat gəlirəm, – deyə pilləkənləri çıxdı.

Qapıdan girib, dar, yarıqaranlıq dəhlizdə gezişir, bir foto atelyesinin şəkillərinə tamaşa edərək, Vədadı gözləyirdim. Bir neçə dəqiqə keçməmiş dostum pilləkənin başında məni səslədi:

– Kənan, bır yuxarı çıx. Məni yarım saat gözləməli olacaqsan. Necə deyərlər, növbədənkənar bir iş çıxıb.

– Səni narahat eləməyim, – deyə cavab verdim. – Nə eybi var, bir başqa vaxt gedərık. Onda qoy mən gedim.

Vədad pilləkənin yarısına qədər düşmüşdü. Təkid etdi:

– Yox, yox. Lazım deyil. Yarımca saat gözləmə otağında otursan, işimi qurtaracağam, bəlkə bir az da tez.

Əlacsız qalıb yuxarı çıxdım. Vədad məni gözləmə otağına apardı. Dəniz tərəfdən yaxşı külək gələn pəncərələri açdı, mənim üçün qəhvə gətirmələrini tapşırdı, papiros qoydu, qabağıma da xeyli şəkilli jurnal tökdü.

– Balaca bir uşaq var, boğazını müalicə edırəm. İkı gündən bir evlərınə gedırdim Bu gün anası buraya gətirıb Bir azdan gedəcəklər.

Vədad məni tək qoyub yan qapıdan qəbul otağına keçdi. Jurnalları masanın üstünə qoydum. Əllərimi pəncərəyə söykəyib dalğın-dalğın dənizə tamaşa eləməyə başladım...

Nə qədər vaxt keçdiyini bilmirdim, ancaq Vədadın işi uzanırdı. Bu durğun və yorğun yay mənzərəsinin qarşısında quruyub qalmışdım.

Birdən otaqdan zəif bir gurultu eşitdim. Masanın üstündən şəkılli jurnalların bir neçəsi yerə tökuldü. Başımı çevirdim. Üç-dörd yaşlarında balaca bir uşaq gördüm. Qəbul otağının aralı qalmış qapısından buraya keçmiş, masa örtüsünü dartaraq jurnalları yerə tökmüşdü. Hərəkətindən özü də qorxmuşdu. Yanakı mənə baxaraq qaçmağa hazırlaşırdı.

Qorxutmamağa çalışaraq yanına getdim. Zərif, çılpaq biləklərindən tutdum·

– Eybi yoxdur, qızım, – dedim. – Sənə şəkil verimmi?



Uşaq sarı qıvrım başını aşağı salmış, üzünü gizlədir, səsini çıxarmırdı. Qollarından tutub qucağıma götürmək istədim. Məqsədimi başa düşüb yerə çömbəldi və bir əli ilə masanın ayağından yapışdı. Bu vaxt mən də yerdə yanında oturdum, yavaşca çənəsindən tutaraq başını yuxarı qaldırdım. Bu incə, zərif çöhrəli, tünd mavigözlü, arıq ürkək bir uşaqdı. Hələ də səsini çıxarmır, ürkək-ürkək üzümə baxırdı.

Onu təkrar qucağıma almaq istədiyim zaman daha dartınmadı. Pəncərənın yanındakı divanda oturduq. Jurnallardakı şəkilləri ona göstərməyə başladım. Mənə çox tez alışdı, ancaq ağzını açmırdı ki, açmırdı. Öz-özümə: "Vədadın dediyi balaca xəstə yeqin budur, – deyə fikırləşir, üzünə baxdıqca səbəbini də bilmədən kədərləndiyimi hiss edirdim".

Onun üzü, gözləri məndə anlaşılmaz, köhnə və unudulmuş bır xatirə təsiri oyadırdı. Bu dalğınlıqdan məni Vədadın qüvvətli səsi ayıltdı Dostum birdən qapını açaraq:

– Məbrurə, – deyə səsləndi.

Bizi baş-başa vermiş görüncə:

– Bu şeytan buradadırmı? Nə tez dost oldunuz? – dedi

Vədad məmnun bır təbəssümlə bızə tərəf gəlirdi. Birdən otağın ortasında durdu. Çox əhəmiyyətli bır şey xatırlamış kımi əlini əlınə vuraraq:

– Mən nə huşsuz olmuşam. İndi səni görəndə yadıma düşdü... Bura bax, sız bir-birinizi tanımırsınız? – dedi.

Şaşqın-şaşqın ayağa qalxdım:

– Kim?.. Kimi?.. Nə deyirsən, Vədad? – deyə soruşdum.

Dostum cavab vermədi. Tez qəbul otağına tərəf dönərək qapını açdı:

– Qonağım köhnə tanışınızdır, Lamiə xanım .. Bəstəkar Hüseyn Kənan... Görüşmək istəmirsiniz?

İndi mənə daha dərin və qaranlıq görünən qapı çərçivəsi içərisində qara çarşablı, zərif görkəmli bir qadın kölgəsini seçdim Bu qaranlıqlar içində hər şeydən əvvəl onun alnına tökülmüş açıq sarı saçları ilə yaşıl gözlərinin rəngi gözümə çarpdı. Uşağı, bu bir saniyə ərzində birdənbırə öz övladım olduğunu dərk elədiyim bu balaca qızcığazı qucağımdan buraxmır, nə bir addım atmağa, nə də bir kəlmə danışmağa özümdə taqət hiss edə bilmırdim.

Mənə elə gəlirdi ki, bu şaşqınlığım uzun sürmədi. Vədadın səsi məndə qüvvətli bir müdafiə sövq-təbiisi oyandırdı. Özümü necə ələ aldığımı, pərişanlığımı sezdirmədən ona baxmağa, ilk kəlmələri o

qədər sakitliklə deməyə necə müvəffəq olduğumu hələ də dərk edə bilmirəm.

– Kütahiyədə hərdənbir səndən danışırdıq, Kenan. Lamiə xanım İzmir bağlarında bir zaman qonşu olduğunuzu, orada dəfələrlə sənin kaman çalmağına qulaq asdığını, hətta bir-iki dəfə bir-birinizlə danışdığınızı nəql edirdi... Bayaqdan bəri sən burada oturmusan, biz də içəridə danışırıq, bir-birinizi tanıdığınız yadıma düşməyib...

Vədad aramsız olaraq danışır, budaqdan-budağa atılan quşlar kimi bir söhbətdən o birinə keçirdi. Mən Məbrurəni dizlərimin üstünə alıb, otağın küncündə, bir az qaranlıq yerdə qoyulmuş divanda əyləşmişdim. Lamiə isə qapının yanında bir stulda oturmuşdu. Yavaş-yavaş işığa alışan xəstə gözlər kimi qorxa-qorxa ona baxmağa başlayırdım. Xınalı yapıncaq zərif çilli üzündəki təbəssümü ilə, titrək baxışlı süzgün yaşıl gözləri ilə, geniş alnına tökülmüş ipək saçlarının qıvrımları ilə qarşımda idi. Halbuki, onu gördüyümə hələ də inana bilmir, özümü röyada sanırdım

Göz-gözə baxmağa cəsarət etməyərək bir-birimizə adi, mənasız, bir-iki ümumi söz dedik. Divardan asılmış saat beşi vurdu. Lamiə elə bunu gözləyirmiş kimi tez yerindən qalxdı:

– Gəminin vaxtıdır[1], əfəndim. İcazə verin gedim.

Vədadla dərman və resept haqqında xeyli danışdılar. Dostum uşağın iki həftəyəcən tamamilə sağalacağına onu inandırdı. Mən hələ də Məbrurəni qucağımda saxlayaraq bir tərəfdə oturmuş, ehtiyatsız bir hərəkət, bir söz və ya bir baxışla dərdimi aşkar edəcəyimdən qorxurdum.

Lamiə uşağı götürmək üçün mənə tərəf bir addım atdı. Vədad zarafatından qalmadı:

– Şeytan nə tez isinişdi. Bax, Kenan, səni qabaqcadan xəbərdar edirəm, Məbrurə mənim nişanlımdır. Özünü gözlə. Onu yoldan çıxarmaq fikrinə düşmə, yoxsa dalaşarıq.

Qızcığazın saçlarından öpmək üçün çəkinə-çəkinə əyildimsə də, cəsarət eləmədim. Yalnız əlimlə saçlarını oxşadım. Lamiə üzümə baxmadan.

[1] Bosfor körfəzinin iki sahilində və Mərmərə dənizinin şimal sahilində yerləşən İstanbulun, o zaman Asiya və Avropa səmtlərini birləşdirən körpü olmadığı üçün şəhərin müxtəlif hissələri bir-birilə gəmi və bərə ilə əlaqə saxlayırdı Gəmi hərəkəti eyni zamanda, dar sahil boyunca uzanan məhəllələr arasında, şəhər nəqliyyatının mühüm bir hissəsini təşkil edirdi



– Xudahafiz, bəy əfəndi, – dedi. – Sizinlə bir də görüşməyimə şad oldum.

Nəinki cavab verməyə, heç qısaca olsa təşəkkür etməyə də taqətim yox idi. Yaxşı ki, Vədad sözə qarışdı. Lamiəni yola sala-sala ona bildirdi.

– Bir-iki günə Bəylər bəyinə, bibimgilə gələcəyəm, gələn kimi xəbər verərəm. Məbrurəyə orada bir də baxaram. Həm də ki, bibim, Lamiə, səndən incimişdir. Qonşu olduğunuz halda bu vaxtacan bir dəfə də olsun onun görüşünə getməmisiniz...

Vədadın Lamiəni yola salıb gəlməyi xeyli çəkdi. Qayıtdığı zaman məmnun bir görkəmi vardı. Üzündə mehriban bir təbəssüm, yenə Lamiədən danışmağa başladı:

– Bilirsən, necə sakit, mələk kimi, nazlı, məzlum bir qadındır Sonra bu sadə görkəminin altında ruhunun elə gözəl incəlikləri var ki, insanı heyran edir. Nə deyirlər desinlər, dünyada iztirab və ələm qədər yaxşı tərbiyəçi yoxdur. Bu yazıq qızın başından keçənləri bilirsənmi?

Laqeyd görünməyə çalışaraq pəncərədən bayıra baxıb.

– Xeyr, – dedim. – Onu çox az tanıyıram... O vaxt balaca idi.

– Bir xəta üzündən zavallı böyük bir faciəyə uğramış, bu balaca uşaqla bərabər onu Kütahiyəyə atmışlar. Orada mənim qohumlarımdan birinə ərə getmişdi. Sonra heç yerdən iş çıxdı. Nahaq bir məsələ üstündə ayrıldılar... İndi burada, Bəylər bəyidə təkbaşına yaşayır..

Eyni laqeyd halda:

– Ailənizlə görüşürmü? – deyə soruşdum.

– Anam, əlbət ki, görüşmür. Ancaq bibim... Əslində bibimlə anamın arası əvvəldən yoxdur. Bibim Lamiə xanımla görüşmədə bir pis şey görmür Lamiə özü də çox ehtiyatlı qadındır. Görüşməkdən, gedib-gəlməkdən çəkinir... Gedək, Kenan. Burada xeyli vaxt itirdik.

Lamiəni görməyə heç ümidim qalmamışdı. Mənə elə gəlirdi ki, o, başqa bir dünyada yaşayır. Ona bir gün gözləmədiyim bir yerdə rast gələcəyimi heç ağlıma gətirməzdim. Öz-özümə: "Mümkün deyil, deyirdim, mən bu dəqiqənin həyəcanına dözə bilmərəm..."

Bu gün Xınalı yapıncaqla göz-gözə gəldim. Birdən qucağımda öz körpəm oturduğunu dərk etdiyim vaxt iztirablı bir şaşqınlıqdan başqa bir şey duymadım. Sonra Lamiə ilə qarşı-qarşıya oturduğumuz dəqiqələrdə sirrimin açılacağı qorxusu qəlbimi məngənə kimi sıxmışdı. Ancaq bir az sonra Vədadla bərabər o sərin və sakit kazino bağçasında ikən könlümdə dərin bir nəşə oyanmağa başladı Bu nəşə sərxoşluq

kimi dəqiqədən dəqiqəyə artır, aylardan bəri itirmiş olduğum yaşamaq zövqünü mənə yenidən bütün qüvvəti ilə hiss etdirirdi.

Söz arasında Vədaddan Lamiə haqqında xeyli şey öyrənə bildim. Ayrıldığımız zaman dostum nə vaxt yola çıxacağımı soruşdu. Gülərək cavab verdim:

– Gedəcəyim yer hələ özümə məlum deyil... Elə bir fikrim var... Ancaq nə vaxt?.. Onu hələ deyə bilmərəm.

Gecdir Ancaq yatmaq istəmirəm. Bu cür xoşbəxt bir gecəni yuxuda keçirmək günah deyilmi? Lamiəni təzədən tapmışam... O keçmiş "yay məhəbbəti" dediyim eşqin Xınalı yapıncağın ürəyindən çıxmadığına əminəm.. Onu yenə görəcəyəm... Yəqin ki, bir neçə ay sonra, hətta bəlkə də bir az tez... Ah, bu nə gözəl olacaq... Həyatdan nahaq yerə ümidimi kəsmişəmmiş .

*17 avqust*

İsti bir yay günüdür. Günorta günəşinin gözqamaşdırıcı işığı altında bağlar göz işlədikcə uzanıb gedir... Qarşıdakı qayalar ərimiş metallar kimi parıl-parıl yanır Su çöküntüləri üzərində dumanlar qalxır... Evlərin pəncərə taxtaları örtülüdür.

Artıq həmişəlik mənim olmuş Xınalı yapıncağımla bərabər yenə quyu başındayam. Məhəbbətimizin ən köhnə şahidi olan "Kərəm" yenə ağır-ağır quyunun başına dolanır. Məbrurə dörd il əvvəl Fikrətlə Səmihənin uzandığı nənnidə yatmışdır, hələ də yumulu saxladığı balaca əlində əzilmiş bir üzüm salxımı var.. Özü də bir bağ məhsulu olduğu üçündürmü, ya nədənsə, qızım üzümü çox sevir. Quş balaları kimi üzümdən başqa heç bir şey yemir ..

Biləkləri və üzü, boynu, qıvırcıq saçları həmişə üzüm şirəsinə bulaşmış olur. Qızımı öpdüyüm zaman dodaqlarım yanağına yapışır, busələri həmişə üzüm qoxusu, üzüm dadı verir...

Məbrurə bir az əvvəl vəfalı "Kərəm"in belində quyunun başına dolanırdı. İndi artıq yorğun düşmüşdür. Sərin şırıltılarla mərmər hovuza tökülən sular ətrafa sərinlik yayır. Lamiə yanımdadır, başını çiynimə söykəmiş, qollarını boynuma dolamışdır.

Dodaqlarında, yarıyumulu yaşıl gözlərində bir xəyal gülümsəyir. Yarpaqların kölgəsi zərif çilli yanaqlarında oynayır...

Əlimi yavaşca hovuza tərəf uzadıram. Suların içindən bir salxım üzüm götürürəm... İslaq barmaqlarımdan onun üzünə bir neçə damcı



su düşür. Xınalı yapıncaq səksənmiş bir uşaq kimi titrəyib oyanır, gülümsəyərək gözlərimin içinə baxır...

Salxımı dodaqlarına uzadaraq:

– Evlənər-evlənməz nə üçün mütləq İzmirə, Bozyaxaya gəldiyimizi indi başa düşürsənmi, Xınalı yapıncaq? – deyirəm. – Başqa bir yerdə bu yay sevdasını bu qədər dərindən duymağımız mümkün deyil.

Lamiə məni o qədər yaxşı anlayır ki, cavab verməyi də lazım bilmir, sadəcə olaraq dərin nəzərlərlə üzümə baxır. Mən isə könlümdən keçən şeyləri arvadıma danışmaqda davam edirəm:

– Keçən il də burada idim, Xınalı yapıncaq... Sən keçən yay bu yerlərin halını görməli idin. Hər bir payız küləyi sənin yoxluğun qədər buraları soldura bilməz. Mənim üçün quru bir çöllə Bozyaxa arasında heç bir fərq yox idi... Sən burada olmayanda günəş belə səhərlər yorğun doğur, ayın üzü meyit üzü kimi solğun olurdu. Nə bağların bir ətri, nə ağacların təravəti qalmışdı... Gündüzləri günün yandırıcı şüaları altında tozlu yollarda dolaşır, tikanlar, quru otlarla dolu çuxurlarda uzanır, axşam düşəndə vücudum əzgin, əl-üzüm, pal-paltarım tozun, torpağın içində evə qayıdırdım... Ayrıldığımız o yağışlı gecəni xatırlayırsanmı, Xınalı yapıncaq? Bağınızın yanında bir-birimizdən ayrılmışıq .. Sən çəpərdən atılmış, səssiz ağlayaraq ahəstə-ahəstə uzaqlaşmışdın. . Bağçanızın qaranlığı içində qızılı saçlarının zəif bir aydınlıq kimi, yavaş-yavaş necə söndüyünü görürdüm... Səni görməsə idim, Xınalı yapıncaq, ya da ki...

* * *

Bütün varlığımla batıb qaldığım bu xəyal aləmindən məni bir fayton gurultusu ayıltdı. Diksinərək ayağa qalxdım. Yola tərəf getməyə başladı. Faytonun içində Lamiənin qara çarşabını gördüyüm vaxt ürəyim birdən susan kimi oldu. Bayaqdan bəri məni coşqun xəyallar aləminə aparmış gözəl ümidlərim səbəbsiz məni tərk edirdi.

Lamiənin rəngi sapsarı idi. Faytonçuya pul vermək üçün çantasını açarkən əlləri titrəyirdi.

Onu görəcəyim zaman demək üçün hazırlanmış nə qədər sözüm vardı! Ancaq özümdə nəinki bir söz deməyə, heç faytondan düşməsinə kömək etməyə də taqət hiss etmədim. Bir az əvvəl dayanıb onu gözlədiyim ağacın altına tərəf getməyə başladıq.

İlk sözü o dedi Çantasının zəncirini oynadır, başını yana çevirərək uzaqlara, Mərmərəyə, onun qoynundakı adalara tərəf baxırdı.

– Əvvəlki iki məktubunuza cavab vermədiyim üçün məni, əlbəttə, bağışlayacaqsınız, əfəndim... Bizim bundan sonra görüşməyimiz heç də doğru olmazdı. Üçüncü məktubunuzdan çox əzab çəkdiyinizi başa düşdüm Bir də ki, mənə çox vacib söz demək... istədiyinizi yazmısınız... Bunun üçün xahişinizə əməl eləyib bura gəldim.

Lamiə yenə də həmin əvvəlki sadədil Xınalı yapıncaq, Bozyaxa bağlarındakı məzlum, nazlı və mehriban qız uşağı idi. Lakin buna baxmayaraq elə anlaşılmaz, şərhedilməz bir halı vardı ki, bütün cəsarətimi qırır, ona demək üçün bir kəlmə söz tapa bilmirdim.

Halbuki bir az əvvəl vücudunun bütün ağırlığını çiyinlərimdə, nəfəsini dodaqlarımda hiss etdiyim xəyali Lamiəyə nələr demirdim. Könlüm necə də coşub daşırdı. İndi onun sözlərində ümidimi qıracaq bir şeymi vardı? Yox, elə deyil . Özü də iki məktubuma cavab vermədiyi halda, üçüncü məktubumu alıb arzuma əməl etmiş, mənimlə görüşməyə gəlmişdi, bu yaxşı əlamət deyilmi?

Bəli, görkəmində mənim ümidlərimi qıra biləcək heç bir əlamət yox idi. Bütün bunları öz-özümə düşünürdüm. Lakin nə edəsən ki, məntiq başqa, hiss başqa şeydir. . Uğrayacağım məğlubiyyətin kədəri indidən ürəyimə dolmuş kimi, kəsik-kəsik danışmağa başladım. Bütün dərdlərimi, əzablarımı açıb danışdım. Ancaq səsimə, sözlərimə istədiyim hərarəti heç cür verə bilmirdim Vücudumdakı soyuq ürpərmə azalmır, kəlmələr dodaqlarımda donur, sözlərim adi bir yalana bənzəyirdi. Onun gözlərində nahaq yerə bir az xəyal, bir azca riqqət və mərhəmət görmək istəyirdim. Lamiə cavab vermir, hələ də uzaqlara baxaraq mənə sakit bir halda qulaq asırdı. Ürəyimdəki o keçib getmək bilməyən, kəlmələrimi dodaqlarımda donduran rəşənin səbəbini yavaş-yavaş anlamağa başlayırdım: Lamiə məni başa düşmürdü... Ruhlarımız artıq bir-birinə yad idi. Onun üzündə bir balaca acıq və kin görsə idim, sevinəcəkdim... Çünki bu onun ötüb keçən günlərimizi xatırladığına, o yay sevdasının qəlbində hələ də yaşadığına dəlalət edərdi.

Bir dəfə İzmirdə edama məhkum bir caninin son məhkəməsində iştirak etmişdim. Məhkəmə heyəti hökm çıxarmağa gedəndə müttəhimə fikir verdim. Bu, yaşamaqdan ümidini heç də kəsməmiş cavan bir adam idi. Hakimlər bir cənazəni müşayiət edirmiş kimi ağır-ağır, məşum bir görkəmlə qayıdıb gəldi. Salonda nəfəs belə eşidilmirdi. Gənc müttəhimə baxdım, o, hələ də ümidlə ayağa qalxdı. Ancaq hakimin danışmağa hazırlanan dodaqlarına baxınca birdən-birə ümidi qırıldı. Bu gənc adam edam ediləcəyinə ancaq indi inanmışdı ..



Son sözümü demişdim, yalvarır kimi uzanan əllərim titrəyirdi. Aramızda qısa bir sükut hökm sürdü. Lamiə cavab vermək istədiyi vaxt gözlərimi yumdum, gülümsəməyə çalışaraq:

– Lazım deyil, – dedim.

Vücuduma müztərib bir yorğunluq hakim kəsilmişdi. Lamiə getmək üçün ayağa qalxırdı... Son bir ümidlə.

– Lamiə xanım, – dedim. – Qəlbinizdə məhəbbətimizdən kiçik bir izdəmi qalmayıb?

Xınalı yapıncaq dodaqlarının ucunda acı bir təbəssümlə üzümə baxdı:

– Biz bir-birimizi sevmirdik ki, Kənan bəy, – dedi. – O bir keçici yay röyası, başqa sözlə desək, bu, yüngül könül əyləncəsindən başqa bir şey deyildi. Onun qəlblə nə əlaqəsi ola bilərdi?

Cavab verə bilməyib, başımı zəlil bir halda salladım. Lamiə küçənin başında onu gözləyən faytona tərəf getməyə başladı. Başını çevirib baxdı. "Xudahafiz" dediyini eşitdim.

Ümid ölmür. Düşünüb-düşünüb özümə bir təsəlli tapdım . "Yəqin ki, onun qəlbində hər şey tamamilə ölüb getməmişdir", – deyirdim. Axır cavabında məhəbbətimiz haqqında "bu, yüngül könül əyləncəsindən başqa bir şey deyildi" sözlərini deyərkən dodaqlarında necə də kədərli bir təbəssüm vardı. Yəqin ki, ürəyində məndən incikdir. Görünür vaxtilə onu o cür atıb getməyim, çəkdiyi müsibətlər yadından çıxmayıb, Lamiəni bu cür söylədən onlardır.

Elə isə, demək hər şey tamamilə ölməmişdir... Bəlkə də bir gun... Kim bilir... Bəli, ümid ölmür.

*12 noyabr*

Axşam qaranlığı içində bir ağaca söykənib dayanmışdım. Körpüdən ayrılan axırıncı gəmidən düşmüş sərnişinlər arasında Vədadı gördüyüm zaman tez-tez getməyə başladım. Yanımdan sürətlə keçərkən qolumdan tutdu:

– Xeyir ola, Kənan, hara yüyürürsən?

Onu indicə görürəmmiş kimi süni bir heyrətlə:

– Sənsən, Vədad? – dedim. – Gəmiyə. Sən allah, məni saxlama.

Dostum gülməyə başladı.

– Nahaq yerə özünü yorma, axırıncı gəmi getdi.

Bu dəfə süni bir təəssüflə əllərimi bir-birinə vurdum:

– Nə danışırsan! Vay! . Vay! Evə qayıqla getməli olacağam. Özüm də xeyli vaxt var ki, dənizdən qorxmağa başlamışam. Buna baxmayaraq gərək gedəm. Çarəm nədir?

– Burada nə işin vardı ki?

– Bir tanışımın atası ölüb, onlara hüzrə gəlmişdim.

– Tanışın harada olur?

– Bu tərəfdə. Küçələrinin adını bilmirəm. Xeyli uzaqdır. Qayıq tapa bilərəm, elə deyilmi?

– Mütləq gərək gedəsən? Vacib işin var?

– Yox. İşim yoxdur. Ancaq getmək də lazımdır. Gecəni küçədə keçirə bilmərəm ki... Buralarda otel-filan da yoxdur. Hüzr yerinə qayıtmaq da olmaz. Qayıqla getməkdən başqa ayrı çarəm yoxdur.

– Var, əzizim. Mənim qonağım olarsan. Səninlə gözəl bir gecə keçirərik... Ayın da aydınlığıdır...

– Necə? Məgər sən burada olursan?

– Öz evim deyil, ancaq elə bir şeydir. Bir neçə gündür burada Bəylər bəyidəyəm

– Eləmi?

– Mən gərək ki, sənə demişdim...

– Haçan?

– O gün ambulatoriyada. Hətta bibimin köşkünü sənə şairanə bir surətdə təsvir də etmişdim.

Yenə süni bir heyrətlə:

– Yadımda deyil, – dedim

Lap əvvəldən elə Vədadla ayda-ildə bir görüşürdük. Dostluğumuz da xeyli rəsmi idi. Son vaxtlar münasibətimizi səmimiləşdirmək üçün bütün səyimlə çalışır, bir-birimizi hər gün görə bilmək üçün müxtəlif bəhanələr düşünürdüm.

Dostum sözünə davam etdi:

– Bu təsadüf çox yaxşı oldu, Kənan. İstəsən səninlə bir az da ay işığında gəzərik.

Sevincimi gizlətmək, bir coşqunluq əlaməti göstərməmək üçün dodaqlarımı dişləyirdim:

– Nə bilim. Amma... Qorxuram sizi narahat edəm.

Bu komediyanı oynaya bilmək üçün nə qədər çalışıb-çapalamalı olmuşdum. Dünən axşam da Vədadı eyni yerdə gözləmişdim. O gəlib



çıxmamış, gecə qayıqla evə qayıtmağa məcbur olmuşdum Vədadın bibisi yastı təpənin başında yerləşən böyük bağdakı köşkdə yaşayırdı. Dəmir barmaqlıqlı qapıdan girdiyimiz vaxt dostum ağ rəngli kiçik bir evi göstərdi.

– Lamiə xanım burada yaşayır.

Laqeyd görünməyə çalışaraq.

– Eləmi? Çox gözəl, – dedim. İçəri girdik..

Vədadın bibisi yaşlı bir qadın idi. Məni çox yaxşı qəbul etdi.

Yeməkdən sonra dostum məni ay işığında gəzməyə aparmaq istədi. Yorğunluğumu bəhanə gətirərək bundan boyun qaçırtdım. Bağda bibisi ilə oturmaq istədiyimi bildirdim.

Söhbəti elə yerə gətirdim ki, ev sahibəsi musiqidən danışmağa başladı:

– Ah, Kənan bəy, sizin çox gözəl kaman çaldığınızı söyləyirlər.

Vədad məyus bir halda başını əydi:

– Daha doğrusu elə idi, bibi. Ancaq çox təəssüf ki, indi atıb Daha çalmır.

– Nə üçün?

– Kənanı başa düşmək çox çətindir. Sonra başqa səbəblər də var.

Qadın bu səbəblərin nədən ibarət olduğunu soruşmadı. Sadəcə mütəəssir bir halda başını tərpətdi. Görünür, bəzi naməlum narazılıqlar ucundan bu yaxınlarda arvadımla ayrıldığımızı Vədad ona danışıbmış.

Mən, əksinə, şən bir səslə:

– Bu gecə arzunuzu yerinə yetirməyi çox istəyirdim, xanım əfəndi, – dedim. – Xüsusən belə bir aylı gecədə kaman çalmaq mənim özümə də ləzzət verir... Burada bir kaman olsa idi...

Vədad tez yerindən sıçradı:

– Yaşa, Kənan. Sən istəyəndən sonra mən özüm bu saat kaman qayıraram. Qonşumuz Nüsrət paşagildə gərək bir kaman olsun. Elədirmi, bibi?

Yarım saat sonra pəncərələri ay işığına tərəf açılmış bir salonda kaman çalmağa başladım. Əvvəl qəlbimdə və barmaqlarımda tərəddüdə, qorxuya bənzər bir ağırlıq vardı. Gözlərimi azca yumdum, qarşıdakı kiçik ağ evi gözümün qabağına gətirdim. Məbrurə sarı, qıvrım başını anasının dizi üstünə qoyaraq yatmışdır. . Lamiə, böyük bir lampanın sarı saçlarına düşən işığı altında o bitib tükənmək bilməyən əl işləri ilə məşğuldur. Bayırdakı aylı gecənin dərinliklərindən axıb gələn bu kaman səsini o dəqiqə tanıyır... Qızının başını yavaşca balışın üstünə qoyur...

Açıq pəncərəyə tərəf gəlir... Açıb deməyə, neçə gün əvvəl dilimin anlatmağa müvəffəq ola bilmədiyi böyük məhəbbəti indi kamanın dili ilə söyləmək lazımdır... Musiqi yavaş-yavaş ümidsiz bir fəryada çevrilməyə başlayır... Üzümü qaranlığa tərəf çevirirəm, Lamiənin bir gecə başını pianoma dayayaraq ağlaya-ağlaya dinlədiyi parçanı çalıram... Əminəm ki, bu dəqiqə o, yenə mənimlə bərabər ağlayır... Artıq bir-birimizi tapmışıq, elə deyilmi, Xınalı yapıncaq? Səni bir də gördüyüm zaman daha mənə yad kimi baxmayacaqsan, bu böyük sevdamıza bir də "dodaqlarımızın, könlümüzün yüngül bir əyləncəsi" deməyə cəsarət etməyəcəksən, elə deyilmi?

Son ümidim də söndü. Hər şey qurtardı getdi.

O gecənin sabahı ona bir uzun məktub yazmışdım. Elə bilirdim ki, Lamiə mənə mütləq yaxşı cavab verəcək. Günlər keçir, amma cavab gəlib çıxmırdı. Buna baxmayaraq bu son ümidi qəlbimdən heç cür çıxara bilmirdim.

Bir gün bir bəhanə ilə Vədadın yanına getdim. Dostum qəbul otağında bir xəstə ilə məşğuldu. Səkkiz-on dəqiqə sonra yanıma gəldı. Həm kədərli, həm də məmnun bir halı vardı.

– Bilirsən, Kənan, – dedi. – Bəzən insan öz sənətinə düşmən olur, belə ki, işləmək bir işgəncə halını alır.

– Bəli, – dedim, – xüsusən, ınsanın bir dərdi olarsa...

Vədad başını yırğalayıb etiraz etdi:

– Xeyr. Dərdli adam üçün işə başını qarışdırmaq özü bir dərmandır. Ancaq həyatda elə nadir səadət və sevinc saatları olur ki, görürsən özün xoşbəxtsən, bu səadətini daha yaxşı bildirmək üçün ətrafındakı insanları da xoşbəxt görmək istəyirsən... Halbuki, çarəsiz bir dərdlə qarşılaşırsan. Məsələn, bayaq buradan, qəbul otağından çıxan o cavan oğlan kimi ölməyə məhkum bir xəstə səndən şəfa istəməyə gəlir... Həkimlik, doğrudan da çox pis sənətdir...

Diqqətlə üzünə baxdım:

– Səndə təzə bir xəbər var, Vədad, – dedim, – yoxsa aşiq olmusan?

Bunu elə-belə, söhbətimiz davam etsın deyə söyləmişdim. Dostum qızaran kimi oldu. Heyrətlə və lüzumundan çox əsəbi bir qəhqəhə ilə güldü:

– Dedin də... Bir dediyin sözə bax.

Mən fikrimdən dərhal əl çəkmək istəmirdim:

– Gəncliyin qanunudur. Niyə də olmasın? – dedikdən sonra sözü dəyişdirdim, başqa şeylərdən danışmağa başladım. Vədad məni dınləmir, əsəbi addımlarla otağın içində var-gəl edirdi Nəhayət, gəlib qabağımda durdu:

– Sənə bir şey deyəcəyəm, Kənan. Mən bir dəlilik edirəm... Evlənirəm.

Oynaq, şən, zarafatçı və cəsur Vədad günahkar bır məktəbli uşağa oxşayırdı. Çəkingən bir səmimiyyətlə izah etməyə başladı, bir kəlməsini də unuda bilməyəcəyim bu sözləri söylədi:

– Bu haqda danışmağıma daha o qədər ehtiyac yoxdur. Çünki iş artıq qətiləşmişdir. Bilirsənmi kiminlə evlənirəm? Tanıyırsan . İzmirdən tanıdığın qadınla, Lamiə xanımla.. Bilirəm, bu izdivac evdə xeyli dedi-qoduya səbəb olacaq. . Çünki əvvəlki ərı yaxın qohumumdur... Ancaq belə etmək lazımdır... Burada bır vicdan məsələsi də var... Lamiə xanımın ərindən ayrılmağına mən səbəb olmuşdum . Münasibətsiz bir dedi-qoduya məruz qalmışdıq. And içə bilərəm ki, aramızda heç bir şey olmamışdı. O yerlərin dedi-qodusunu bilirsən... Buna baxmayaraq desəm ki, qəlbimdə də ona qarşı dərın bir şey yox idi, bu yalan olar, Kənan... Qəlbimdə ona qarşı hər cür pis ehtırasdan uzaq bır şəfqət vardı.. İstəsən buna məhəbbət də deyə bilərık... Ancaq gizli, açılmamış bir məhəbbət. Ərindən ayrılandan sonra Kutahiyədə ona evlənmək təklif etmişdim... Yəni, borcumu yerınə yetirmişdim . Ancaq razı olmamışdı İstanbula gələndən sonra da o yenə fikrindən dönmək istəmədi... Bunu heç bir şeylə izah edə bilmirdim Məni bəyənmədiyıni demək, hətta əksinə... Daha gizlətməyi lazım bilmirəm. . Əksinə, onda bəzi gizlədilməsi mümkün olmayan sevgi əlamətləri də görürdüm .. Ancaq bütun bunlara baxmayaraq mənim təklifimi rədd edir, arvadım olmağa razılıq vermirdi. Səbəb olaraq da həmişə bu sözlən deyirdi "Bilirsiniz kı, mənim köhnə bir sərgüzəştim var. . Bu əslində mənim üçün uzun bir xəstəlık halını almışdır... Düzdür, bu gün onunla əlaqədar heç bir dərd çəkmirəm... Elə bilirəm ki, bu tamamilə keçib gedib .. Ancaq birdən belə deyildirsə, Vədad bəy?.. Birdən bu xəstəlik keçməmişsə, bir gün birdən-birə təzədən baş qaldırarsa, onda necə olsun? Sizin bir çox məziyyətləriniz var... Bunlara baxmayaraq həyatınızı biçarə bır qadına həsr etmək kimi bir comərdlikdən əl çəkmək istəmirsiniz. Bunların əvəzində o qadın sizə təmiz bir qəlb verə bilməzsə, sizi layiq olduğunuz qədər sevə bilməzsə, heyif deyilmisiniz? Bu xəstəliyin tamamilə keçdiyinə, sizi sevdiyimə əmin olmadıqca təklifinizi qəbul edə bilməyəcəyəm". Görürsən ki, Kənan... Bu qadın necə təmiz bir məxluqdur... Bibimgildə qaldığın gecənin səhən idi. . Evdən çıxdığımız vaxt

bir xəstəyə baş çəkmək bəhanəsi ilə səndən ayrıldım. Sən körpüyə getdin. Mən isə yandakı dar küçədən o tərəfdəki meydançaya döndüm. Lamiə xanımın bu zaman mənim məsləhətimlə uşağına günəş vannası qəbul etdirdiyini bilirdim. Yenə orada idi. Söhbət eləməyə başladıq. Səndən danışdım.

– Kamanı kimin çaldığını yəqin bilmisiniz.

– Bəli... Tanımamaq mümkündürmü?

Mən sözümə davam etdim:

– Səhərə qədər bu kamanın səsi qulağımdan getməmişdir. Mən musiqiyə qarşı çox həssas deyiləm. Lakin nə vəziyyətdə olduğumu bilirsiniz. Bunun üçün də çalğı mənə çox təsir etdi. Lamiə xanım, yenə də "hə" cavabı verməyəcəksinizmi?

Yenə də hər dəfəki kimi üzümə tərəddüdlə baxacağını, məyus bir halda "xəstəliyimin baş qaldırmayacağından əmin deyiləm" deyəcəyini gözləyirdim. Ancaq bu dəfə Lamiə belə etmədi, başını aşağı əyərək susdu

Bu halı mənə qəribə bir cəsarət verdi. İlk dəfə olaraq əlini tutdum. Bu həm də çox qeyri-ixtiyari olmuşdu... Elə bilirdim ki, diksinəcək, inciyəcək. Lakin Lamiə əlini geri çəkmədi, məzlum bir görkəmlə ovcumun içində saxladı Yaşla dolu gözlərini üzümə dikdi. Bu gözlər, bu baxış hər zamankına bənzəmirdi: "Vədad bəy, dedi, məni hələ də sevirsinizsə artıq sizə cavab verə bilərəm... Xəstəliyim keçmişdir. İndi buna əminəm. Əgər keçməsə idi, bu gün mütləq baş qaldırmış olardı. Köhnə sərgüzəştdən qəlbimdə heç bir iz qalmamışdır..."

Aylı bir yay gecəsində kaman səsindən doğan bu gənc qız məhəbbəti beş ildən sonra eyni səslər içində də sönüb getmişdi.

*2 dekabr*

Səhər havanı baharda olduğu kimi təmiz və ılıq görüncə sevindim. İstanbuldakı bu son günü boş keçirməyəcək, qızımı bir dəfə də görə biləcəkdim. Onlar indi hisar[1] ilə Bəbək[2] arasındakı bir yalıda[3] yaşayırlar. Hava açıq və xoş olanda orta yaşlı bir qadın Məbrurəni Bəbək bağına gətirir.

[1] Hisar – İstanbulun Avropa səmtindəki Rumeli hisarı adlı hissəsinə işarədir.
[2] İstanbulun Bosfor körfəzi sahilində yaylaq evləri olan qəsəbə tipli hissələri
[3] Dəniz sahilində yaylaq evi



İlin bu vaxtında bağda çox adam olmur. Ağ döşlüklü dayələrin gəzməyə gətirdikləri balaca uşaqlarla quru yarpaqlar arasında düşmüş yemək qırıntılarını dənləmək üçün enən quşlardan başqa orada kimsə olmur.

Məbrurəni bu uşaqlar arasında təsadüfən gördüyüm gündən bəri tez-tez həmin bağa gəlirəm. Tənha guşələrdən birində oturub onun yolunu gözləyirəm. İkindiyə yaxın qızım dayəsinin qabağında, içində kuklaları olan qırmızı rəngli balaca arabasını sürə-sürə bağçaya gəlir. .

Məbrurə ürkək təbiətli bir uşaqdır... Bir-birini qovan, ağaclara dırmaşan, dalaşıb gurultu qoparan uşaqlara qarışmağa cəsarət eləmir... Onlara uzaqdan baxmaqla ləzzət alır.

Dayəsinin başı bəzən o biri xidmətçilərlə söhbətə qarışır. Məbrurə oturduğum yerə yaxınlaşır... Heç danışmadığımız halda aramızda bir dostluq əmələ gəlmişdir. Əli çatmadığına görə tuta bilmədiyi bir budaq parçasını qırıb arabasına qoyduğum, cumbulu dəmir vedrəsinə qum doldurduğum zaman qorxa-qorxa mənə baxıb gülür, mən yavaşca onun saçlarını sığallayıram.

Qızım məni bu gün uşaq kimi ağlatdı. Dayəsi yenə xidmətçilərin yanında idi. Məbrurə məndən aralı qumun üstündə oturmuş, bu gün arabası əvəzində gətirdiyi kiçicik beşiyin içində olan kuklalarını yelləyirdi. Yavaşca yanına getdim. Başı o qədər qarışmışdı ki, məni görmədi. Məbrurə bir balaca ana kimi körpələrini yatırdır, incə səsi ilə onlara mənim Bozyaxada kamanda çaldığım o köhnə ninnini, anasının sevdiyi həmin mahnını oxuyurdu.

Deməli, qızım yetim olaraq doğulduğu zamandan bəri onu hər gecə bu ninni ilə yatırmışlar.

Bu gün bağçada qeyri-adi bir vəziyyət gördüm. Uşaqlarla dayələr bağın ortasında toplaşmışdılar, hərarətlə nə barədəsə danışırdılar. On iki yaşlarında bir qızın məni göstərdiyini gördüm. Hamı mənə tərəf çevrildi. Məni tez-tez orada görməyə alışmış, laübalı tövrlü şişman bir xidmətçi qadın gülə-gülə yanıma gəldi.

– Bağışlayın, bəy əfəndi, bir xahişimiz var, – deyərək sözə başladı. – Əylənmək üçün dayələrlə bağdakı böyük uşaqlar bir gözəllik müsabiqəsi təşkil etmişlər. Müsabiqəyə girəcək körpələri bağda tapdığımız son çiçəklərlə bəzəmişlər. Ancaq bu balacaların hansının daha gözəl olduğunu müəyyən edə bilmirlər, aralarında az qala dalaşma düşəcək.

Xülasə, məlum oldu ki, məni müsabiqənin münsifi təyin etmək istəyir, bunu çox xahiş edirdilər.

Gülərək təklifi qəbul etdim. Körpələri bir-bir qarşımdan keçirməyə başladılar. Bunlar dörd-beş yaşında bir-birindən gözəl balalardı. Hər birinin qollarından yapışıb havaya qaldırır, sonra yerə qoyurdum.

Məbrurənin növbəsi yaxınlaşdığını hiss etdiyim zaman dərin, xəstə bir həyəcan keçirməyə başladım. Mənə elə gəlirdi ki, qızımın üzünü üzümə yaxınlaşdıranda özümü saxlaya bilməyəcək, sirrimi aşkara çıxaracaq bir hərəkət edəcəyəm. Bır-birinin eyni olan tünd-mavi gözlərimiz hər şeyi açıb söyləyəcək. Bu mənə birdən-birə "Siyah yıldızlar" operasını, sevgilisini tanıtmamaq üçün gözlərinə öz əli ilə mil çəkən bədbəxt şahzadəni xatırlatdı...

Kirpiklərimə toplanan yaşı boğmaq üçün gözlərimi yumdum. Qızıma son dəfə baxa bilmədim...

Sabah İzmirə yola düşürəm. Orada heç dayanmadan Seyidiköyə, bacımın yanına gedəcəyəm. Təkliyə dözə bilmırəm... Son ümidim bacım Əfifəyədir... Həyatımız illərdən bəri ayrı keçmişdır... Ancaq nə ziyanı var. Keçmişimdən mənə bircə o yadigar qalmışdır... Qar tufanı içində əziyyətli bir gecə səfərindən sonra gəlib isti ocağına qovuşan bir insana bənzəyəcəyəm... Bacım mənə keçmişdən, Tilkilikdəki yoxsul komamızdan, anamdan danışarkən gözlərimi yumacağam... Özümü yenidən o günlərin havası içində görəcəyəm... Uşaqlıq günlərimin məhzun və vüqarlı dincliyi yenidən qəlbimə süzüləcək... Bundan sonra keçən illərimin puç olmuş ümidləri, xəstə həyəcanları, çılğın ehtirasları ürəyimdən silinib gedəcək... Zaman hissindən başqa heç bir şey duymayacağam, heç bir şeyi sevməyəcəyəm... Bır ölü kimi əməlsiz və ehtirassız, lakin vüqarlı və xoşbəxt olacağam... Mən bu ruhi sakitliyi indi ancaq bacımın köməyi ilə əldə edə biləcəyəm.

Dünən axşamdan Seyidiköydəyəm... Buraya gəlib çatdığım zaman hava qaralmışdı. Əməlli-başlı soyuq bir qış yağışı tökürdü.

Məni miskin görünüşlü bir malikanəyə gətirdilər. Yenicə yandırılmış lampanın qaranlığı dağıtmadığı bir otağa gəldik. Çalbığlı, iri cüssəli bir adam kefimi soruşdu. Çəkingən uşaqlar könülsüz əlimi öpdülər. Bir söz deməyə özümdə qüvvət və cəsarət tapmayıb başlarını tumarladım. Otaqda bu cüssəli adamla mənə yaxınlaşmaqdan çəkinən uşaqlar arasında özümü lap tək hiss edirdim. Bir az əvvəl isə durmadan tökən yağışın altında çöllərdə özümü heç bu cür yalqız hiss etməmişdim.

Bir-birimizə deməyə söz tapmırdıq. Yeznəm beş yaşında olan ən böyük qızından:



– Anan harada qaldı? – deyə soruşdu.

Qız utancaq bir saflıqla:

– Təzə paltarını geyinir, – deyə cavab verdi.

Acı-acı gülümsədim. Bacım məni görmək üçün təzə paltar geyinməyi lazım bilmişdi... Yəqin bu vaxtsız qonaqdan ürəyində narazıdır da...

Qapı açıldı. İçəri, uşaqları kimi ürkək, şişman bir ev xanımı girdi. Utancaq halda yanıma gəldi. Yavaşca:

– Xoş gəlmisən, ağabəy, – dedi. – Qoy səni bir öpüm.

Buz kimi soyuduğunu hiss etdiyim dodaqlarımla alnından öpdüm Hərəmiz bir tərəfə çəkilib oturduq. Otaqda həyəcanlı bır sükut hökm sürürdü. Günlərdən bəri səbirsizliklə düşündüyüm şeyləri söyləməyə lüzum qalmamışdı. Bu şişman, laqeyd, yad kənd arvadının bacımla nə əlaqəsi vardı! Onda hətta anamın mavi gözlərini də artıq görə bilmırdim. Danışdığım vaxt Əfifə məni dinləyir kimi görünürdü. Ancaq fikri tamamilə başqa şeylərlə məşğuldu. Uşaqlarının namünasib hərəkətlərindən canı sıxılır, qaşı, gözü ilə onları hədələyirdi.

Sonra ərinin kiçik cırığı olan corablarına şəbədə edəcəyimdən qorxdu, çustlarını geyməsi üçün ona işarə etdi. Nəhayət, gözü oturduğum döşəkdə yaddan çıxıb qalmış bir çıraq iynəsinə sataşdı. Mənə papirosu verirmiş kimi bir hərəkət edərək onu götürdü, yavaşca döşəyin altına soxdu. Süfrə başında oturduğumuz vaxt:

– Bizə eyib tutmazsan, ağabəy, – dedi. – Nə edək kəndli adamlarıq.

Yeməkdən sonra məni yatmaq üçün təmiz bir otağa apardılar. Ayrılanda bacım:

– Çox qalacaqsınız, ağabəy? – deyə soruşdu. Lakin birdən-bırə gözəl bir şey sındırmış kımi pərt oldu, utandı:

– Sən allah, ürəyinə başqa şey gəlməsin. Vallah, onun üçün demirəm. Gözümüz üstə yerin var, – deyə üzrxahlıq elədi.

– Xeyr. Elə yol keçirdim, dedim sizə də bir deyım. Bir-iki gun qalacağam. Anamızın qəbrini də ziyarət etmək istəyirdim. Ona görə...

"Anamız!" Bu kəlməni söylərkən ürəyim quş kimi çırpınırdı. Mənə elə gəlirdi ki, bu kəlmə bir möcüzə təsiri yaradacaq, bir də Əfifə ilə bir otaqda yatdığımız günlərin xatirəsini oyandıracaq... Xeyr... Əfifə qaşlarını çatdı.

– Heç üstünü tikdirə də bilməmışik, – dedi...

Cavab verməyə söz tapmadım. Bacım:

– Gecən xeyrə qalsın, – deyərək otaqdan çıxdı.

Səhər anamın qəbrini axtarıb tapdım. Mənə xaraba, dağılmış qəbiristanın bir küncündə daşsız bir qəbir göstərdilər. Saatlarla orada oturub qaldım. Həbsxanada atamın ud çaldığı gündən anamdan ayrıldığım günə qədər keçən zamanı dönə-dönə xatırladım. Oradan ayrıldığım vaxt dərdli bir təbəssümlə:

– Haqlıyammış, ana, – dedim. – Hələ uşaq ikən "Mən puç olmuş bir həyatam"deyib sızlayanda sən inanmırdın. "Sən hələ gözəl günlər görəcəksən, Kənan" deyərdin... Gözəl günlərimi sən də görürsənmi, ana? Mənim, indi bu qəbiristan küncündəki sakit, vüqarlı səadətinə qibtə etdiyim əziz anam...

* * *

Altı ay sonra İzmir qəzetlərindən birində belə bir yazı dərc edilmişdi:

"Dünən kədərli bir xəbər eşitdik: Sabiq bələdiyyə rəisi Saib paşanın bacısı oğlu Hüseyn Kənan bəy intihar etmişdir. Əsəb pozğunluğundan əziyyət çəkən Kənan bəy bir neçə aydan bəri dayısının Bozyaxadakı bağında yaşayırdı. Ziyalı, vətənpərvər bir gəncdi. Musiqi istedadı vardı.

Aramızdan vaxtsız getdi".



## MÜNDƏRİCAT

*Ön söz* .......................................... 4

Dodaqdan qəlbə .......................................... 9

**RƏŞAD NURİ GÜNTƏKİN**

**DODAQDAN QƏLBƏ**

"ŞƏRQ-QƏRB"

BAKI-2006

Buraxılışa məsul. *Əziz Güləliyev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Aslan Almasov*

Korrektorlar. *Cəmilə Məcidova*
*Elnaz Xəlilqızı*

Yığılmağa verilmişdir 02.06.2006. Çapa imzalanmışdır 21.06.2006.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 17,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifarış 75

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.

